DƏRYA QILIC

# POVEST VƏ HEKAYƏLƏR

"Elm və təhsil"
Bakı - 2022

*Redaktor*:
**Rəna Qurbanlı (Qılıcova)**

**Dərya Qılıc. Povest və hekayələr.**
**Bakı, "Elm və təhsil", 2022, 264 səh.**

4702000000
N-98-2022 qrifli nəşr

© **Dərya Qılıc**, 2022

## ÖN SÖZ

Povest və hekayələri ilə Qılıcova Nailə Bahadur qızı (Dərya Qılıc) oxucuları ilə onuncu dəfə görüşə gəlib. Müəllif ətrafda cərayan edən hadisələri, xalqımızın qarşılaşdığı ağrı- acını, kədəri, qələbə sevincini ,hər birimizi üzən şəhidlərin keçdiyi döyüş yolunu, rəşadətli ordumuzun göstərdikləri qəhrəmanlıq səlnamələrini məharətlə qısa bir mətində yerləşdirərək oxucusuna çatdırır. Kiçik bir hekayə oxucunu hadisədən ətraflı şəkildə xəbərdar edir. Dərin məhəbbətlə qələmə alınmış hekayaların sətirləri həyacanla dolu olduğu qədər, oxucunu təsir altına düşürüb,öz orbitinə sala bilir. Nailə xanımın yanaşdığı bütün mövzular ibratəmiz, təbiyəvi əhəmiyyət daşıyır. Vətənpərvər ruhda yazdığı hekayələrdə vətənə, torpağa, el-obaya, xaldqa bağlılığın önəmliliyindən bəhs etdiyi kimi, ailə- məişət mövzularında milli - mənəvi dəyərləri, ataya , anaya olan məhəbbət və qayğını, təməlli bir ailənin müqəddəsliyini,əsl dostluğu, təmiz, saf məhəbəti qələmə almışdır. Müəllif bəzi hekayələrdə düzlüyün ,saflığın, müqəddəs məhəbbətin ,ata ,anaya göstərilən qayğının vacibliyini göstərərkən ehmalca mistiq inamlardan istifadə edib, əqidəsini daha inandırıcı etməyə cəhd etmişdi. Bütün povest və hekayələr şirin,axıcıl, oxunaqlı dildə yazılıb.

Müəllifin uşaqları nəzərə alıb yazdığı hekayələri də öz növbəsində körpələri cəlb edə biləcək bir mövzuda

qələmə alınıb, tərbiyyəvi əhəmiyyət daşıyır. Nailə xanım qələminin sehri ilə körpələri yalandan, oğurluqdan, qəddarlıqdan uzaqlaşdırmağa çalışaraq, bu saf varlıqların beləcə də boya -başa çatıb vətənə layiqli bir övlad kimi yetişməyini istəmişdir. Müəllifə yeni -yeni yaradıcılıq uğurları arzulayıram. Ümidvaram ki, onun povest və hekayələri də "Qəmli səadət", " Cəhənnəmə gedən yol", " Dağlardan ələn səda", " Bir qapılı iki məhəllə", " İtkin arzular", " Cinayət və məhəbbət"," Daşa dönmüş ürək", " Tale yolları," " Kəhrəba bıçaq" kitabları kimi oxucu rəğbəti qazanıb seviləcək.

***Mətanət Saraçlı (Həsənova)***
*Filologiya üzrə fəlsəfə doktoru. Azərbaycan Yazıçılar birliyinin üzvü. BDU – nin Filologiya fakültəsinin Azərbaycan Ədəbiyyatı Tarixi kafedrasının dosenti.*

# Povest



# QONŞU QIZ
## ( Povest)

Sənubər birdən- birə deyilmiş çatdıq sözündən diksindi. Ürəyinin döyüntüsü artdı. Ona elə gəldi ki, dibi görünməyən dərin bir quyunun kənarına catmaqdadır, bir addım atsa, əbədi bu quyuya düşüb məhv olacaq. Bu bir- iki addımı atsınmı? Yoxsa geriyə dönsünmü? Əgər qarşıda uçurum vardırsa, arxada çirkab var idi, əsl çirkab. Sənubər gözünü acıb bu çirkabda böyümüşdü. O,özünə də, ata, anasına da, kifir,yöndəmsiz bacılarına da nifrət edirdi. Hələ körpəlikdən ata- anasının qışqırıb-bağırmağına qulağı alışmışdı. Ümumiyyətlə atasının ayıq vaxtı yadına gəlmirdi. Həmişə kefli olur, dava- dalaş salır, ən pis söyüşləri adi söz kimi yağdırırdı. Lap elə ayıq olsa da, ifadəsi çoxdan itmiş gözləri ilə ətrafındakıları süzüb, nə isə donquldayardı. Kişi anasının ünvanına elə sözlər yağdırardı ki, Sənubər həftələrlə anasının üzünə baxa bilmirdi. Bəlkə də o sözlərin heç biri düz deyildi, hər halda qızın ürəyini bulandırırdı.

Evdə yan –yana düzülmüş dörd bacıdan birinə elçi gəlib, qapılarını döyən olmamışdı. Qohum - qonşuda gündə bir toy olurdu. Qızlar pərvazlanıb bir –bir uçurdu. Elçilik, nişan, xına yaxdı, toy nə bilim min bir büsat olurdu. Haradan xoş avaz gəlsə də, Sənubərgilin evindən dava - dalaş, söyüş səsləri eşidilirdi. Evdə elə qab-qazan

,vedrə yox idi ki, davada əzik- üzük kökə düşməsin. Kim idi onlara elçi gələn? Belə bir ailədən kim qız istəyərdi?

Sənubər beş bacının kiçiyi idi. Böyük bacıları çoxdan otuz yaşını haqlamışdı. Evdəki abu hava bir yana qızların dördü də elə kifir idi ki, onlara baxanda Sənubərin zəhləsi gedirdi, qalmışdı başqası. Deyilənə görə Sənubər qəşəng idi, amma bunu o, özü görmürdü,çünki güzgüyə baxanda nimdaş paltarlı, kədərli gözü olan birini görürdü. Ona elə gəlirdi ki, kədərli gözdə gözəllik ola bilməz. Gözəlik xoşbəxt sifətdə, sevinən gözdə olar. Ona görə də güzgüyə baxmağı sevmirdi. Bir də ki, vaxtı harada idi? Səhər tezdən, saat beşdən anasının qışqırtısına oyanar, tələm- tələsik özünü qaz piltəsinin qabağına çatdırardı. Anasının axşamdan yuğurub qoyduğu xəmiri kündələyib, pirojki bişirirdi. Sənubər səhərdən axşama kimi qaz piltəsinin qabağında dayanmağa razı idi, nəinki, yolda dayanıb pirojki satmağa. Pis baxışlardan, söz atanlardan canını zorla qurtarıb özünü evə salardı.

Artıq iki- üç ay olardı ki, qarayanız bir oğlanın onun ətrafında fırlanmağı Sənubərin gözündən yayınmırdı. Hər gələndə pirojki almasa da bir kənarda dayanıb, siqaret çəkərdi. Gözünü Sənubərdən çəkmir, elə hey qıza tərəf boylanırdı. Sənubər əvvəl ona əhəmiyyət verməsə də, sonralar onu görməyəndə narahat olmağa başladı. Gələn kimi gözü ilə oğlanı axtarar, haradasa ətrafda olduğunu görəndə içinə rahatlıq çökərdi. Bir həftə bundan əvvəl oğlan Sənubərə yaxınlaşıb, ondan xoşu gəldiyini və fikri ciddi olduğunu, onunla evlənmək istədiyini

söyləmişdi. Sənubər bu sözlərin ətrafında fikrləşməyə maçal tapmamış, bir də peyda olub, əgər o, da razıdırsa, şənbə günü axşam onu Maşeşin budkasının yanında gözləyəcəyini demişdi. Belə hörmətsiz ailə qurmaq təklifinə Sənubərin əvvəl çox acığı tutmuşdu. Belə də ailə qurmaq olar?- deyə düşünmüşdü. Bir- birinin adını da bilmirdilər. Sonra istədi bunu kiməsə danışsın, amma ağlı bir şey kəsmədiyi üçün, bu sirri özü ilə gəzdirdi, gəzdirdi və elə özü ilə şənbə günü Maşeşin budkasının yanına gətirib gəldi. Oğlan orada dayanıb siqaret çəkirdi. Hər halından bəlli idi ki, Sənubərin mütləq gələcəyinə inanır. Qızı görəndə əlindəki siqareti yerə atıb gedək, -dedi. Sənubər oğlanın yanına düşüb maşınsız, filansız piyada yola düşdü. Özünün əmrə müntəzir halına acığı tutsa da addımlayırdı. Elə bil harasa getmir sadəcə yuxuda irəliyə doğru hərəkət edirdi. Yol boyu bir kəlmə olsun danışmadılar. İndi birdən deyilmiş catdıq sözündən diksindi. Elə bil yuxudan ayıldı, hara catdıq? Bu oğlan kimdir? Adını bilmədiyim bu adamın məni sevdiyinə niyə inanmalıyam? Beynində fikirlər bir –birinə qarışdı. Durmadan özü – özünə suallar yağdırırdı. Bəlkə bu oğlan məni küçə qızı sanıb, aldadıb gətirib? Bəlkə heç valideynləri mənimlə ailə qurmağına razı deyil? Bəlkə məni görən kimi qovaçaqlar? Suallar artdıqca əl- ayağı keyləşib, buza dönürdü. Bir- iki addım da atıb özünü uçuruma atsınmı? Yoxsa elə buradanca fırlanıb evinəmi qayıtsın? Evləri gözünün önünə gələndə ürəyi bulandı. Oğlan qarşısında dayandığı kiçik taxta qapılı mənzilin qapısını bir əli ilə itələyib

açdı, o biri əli ilə qızın qoluna zərifcə toxunub keç,-dedi. Səcubər bilmədi içəri özü keçib, yoxsa itələyib salıblar, axır ki, gözünü açanda ensiz dar dəhlizdə oğlanla üzbəüz qaldığını gördü. Oğlan içəri boylandı. Mətbəxdən dadlı yemək ətri və su şırıltısı səsi gəlirdi. Kimsə şapşaplarını sürüyə-sürəyə dəhlizə tərəf gəlirdi. Sənubər əvvəlcə evdə kiminsə olduğuna görə sevindi, sonra gələn adam hər kimdirsə onu qovacağından qorxub, dəhlizdəki asılqanın arxasına keçməyə çalışdı. Gözlərini yumdu, qulağında küt uğultu əmələ gəldi. Bu müddət çox uzun göründü. Ona elə gəlirdi ki, bir saatdır gözünü yumub qaranlıqda dayanıb. Qulağına qadın səsi gəldi. Kimsə biləyindən tutub içəri çəkirdi və nə isə xoş sözlər deyirdi. Gözlərini açıb, qarşısında ağ saclı, xəstə hal, nurani bir qadının maraqla ona baxdığını gördü. Sənubər sifətindən nur yağan bir qadını görüb özünə gəldi. Qadın Sənubəri öpüb, xoş gəlmisən, ay qızım,-dedi.

Arif Sənubəri gecə növbəsindən gələndə görmüşdü. Anası xəstə olduğu üçün, işdən icazə alıb evə qayıdırdı. Gecəni səhərəcən yatmamışdı. Anasına təcili- yardım çağırıb, səhərəcən onun yanında oturmuşdu. Dünən günorta yediyi yemək idi. Acından ölürdü. Lap yaxınlıqda kiçik kətilin üzərinə pirojki qoyub satan qızı görəndə, nədənsə ürəyi silkələndi. Yağışlı, palçıqlı payız axşamında bu qız ona qəribə təsir bağışladı. Elə bil ətraf yarım qaranlıq, toran idi, amma nimdaş paltarlı bir qızın sifəti işıq saçırdı. Bayaqdan üşüyən Arifin qəlbinə haradansa ılıq, isti bir duyğu dolub, bədəninə yayılırdı. O, qıza ya-

xınlaşıb, pirojki aldı. Arif qızın üzünə nə qədər baxsa da qız başını qaldırıb onun üzünə baxmadı. Həmin gündən yolunu bu küçədən saldı. Qız orada çox nadir halda olurdu. Əksəriyyət vaxt pirojkiləri hündür boylu, kök bir qadın satırdı. Zaman keçdikcə,bu qadının Sənubərin anası olduğunu öyrəndi. Sənubəri gördüyü gündən bir ilə yaxın bir vaxt keçirdi. Bu müddət ərzində Sənubərin və ailəsinin haqqında çox məlumat toplamışdı. Bu ailədə ürək acan heç nə yox idi. Evləri elə pirojki satdıqları küçədə, beşmərtəbəli binanın birinci mərtəbəsində yerləşirdi. Atası hər axşam evinə sərxoş gəlir, yol boyu kimlərisə söyürdü. Evə çatar-çatmaz, evdən qışqırıq,söyüş səsləri, yerə çırpılan qab- qaçağın çingiltisi ətrafa yayılırdı. Bütün bunları bilə -bilə fikrindən dönə bilmirdi. Hər dəfə Sənubərgilin evinin ətrafına gələndə elə bir hadisə ilə üzləşirdi ki, iki- üç gün özünə gələ bilmirdi. Axırıncı dəfə Sənubərin anasının küçədə bir qadınla davasını görüb, mən belə bir qadını anama göstərib, bu qadının qızı ilə ailə qurmaq istəyirəm deyə bilmərəm,-deyə düşündü. Ariflə, Sənubər eyni məhəllədə yaşayırdı. Burada demək olar ki, hamı bir- birini tanıyırdı. Pirojki satan Səfanı da , sərxoş olub küçələrdə yatan Əzizi də hamı tanıyırdı. Belə bir ailədən olan bir qızı dəlicəsinə sevdiyini anasına necə deyəcəyi haqda günlərlə düşünürdü. Bəzən bu fikirdən vaz keçmək istəyirdi. Lakin keçə bilmirdi ki, bilmirdi.

Arif atasının üzünü görməmişdi. Gözəl onu təkcə böyüdüb ərsəyə gətirmişdi. O, artıq institutda oxuyur,

gecə növbəsində işləyirdi. Gözəl bacardıqca Arifə atasızlığını hiss etdirməmişdi. O,istəyirdi ki, oğlu atasını görməsə də ,onun necə bir insan olduğunu bilsin. Odur ki, gecələr nağıl əvəzinə Vaqifdən, onun saflığından, dürüstlüyündən, kişiliyindən, düz sözlü,düz ilqarlı, olduğundan danışır və bütün insani keyfiyyətlərdən damla – damla oğlunun qanına, canına hopdurmağa çalışırdı. Arif bu nağılları dəfələrlə eşitdiyi üçün, atasının xəyalını gözünün önündə canlandırır,özündən atası ilə birlikdə olmuş kimi xəyallar uydururdu. Xəyallara elə inanırdı ki, sonralar bu uydurduqlarını, xəyal kimi deyil, olmuş hadisə kimi xatırlayırdı.

İndi atasını da yadına salır, belə bir ailənin qızı ilə ailə qurmağıma razı olmazdı deyə,- düşünürdü. Lakin nə düşünür, düşünsün fikrindən dönə bilmirdi, və bir axşam anasına Sənubərlə ailə qurmaq istədiyini bildirdi. Sənubər və ailəsi haqqında nə bilirsə danışdı. Həvəslə oğlunun evlənəcəyi günü gözləyən Gözəlin nitqi qurudu, sevinclə təəccüb bir- birinə qarışdı. Gözündən axmağa hazır olan göz yaşı donub gözündə qaldı. Xeyli nə deyəcəyini bilmədi. Gözəl oğluna ona verdiyi tərbiyyəyə görə güvənirdi. Onun özünə yaxşı bir həyat yoldaşı seçəcəyinə inanırdı. O, Səfanı, onun ailəsini yaxşı tanıyırdı. Arif belə bir ailənin qızı ilə evlənməyə necə qərar vermişdi? Gözəl qulağına inanmadı. Neçə yəni evlənmək istəyirəm ?—dedi Sən nə danışdığını başa düşürsənmi?

Arif anasının sualına sualla cavab verdi. Ana, sən qüvvəli olarsan, yoxsa mən?

Mən özümlə bacara bilmədim. Sən mənə verəcəyin bütün sualları mən özümə verdim. Mənə verəcəyin bütün nəsihətləri özümə etdim,lakin heç nəyə nail ola bilmədim. Bu fikirdən daşına bilmədim.

Gözəl bu iyirmi iki ildə bir dəfə olsun oğluna səsini qaldırmamışdı, nə də ki, Arif ona cavab qaytarmamışdı. İndi də ikisi də susdu. Elə bil heç kim danışmağa cürət etmirdi. Uzun sürən sükutdan sonra Gözəl mən o qapıya gedən deyiləm, heç kimə də oraya get deyə bilmərəm - deyib ayağa durdu. Bir qədər susub sözünə davam etdi. Demək, bu illər ərzində sənə necə bir kişinin övladı olduğunu başa sala bilməmişəm. Mən o, qızı sənə almaqla Vaqifin ruhuna hörmətsizlik etmiş olaram deyib, öz otağına keçdi. Aradan bir aya yaxın bir vaxt keçdi. Gözəl Arifin bir də o mövzuya qayıtmadığını görüb sakitləşdi. Oğlunun fikrindən dönmüş olduğunu fikirləşdi. Lakin onun ürəyinə çökmüş bu rahatlığın ömrü uzun çəkmədi. Bir həftə bundan əvvəl Sənubərə evlənmə təklifi etdiyini söyləyəndə, qadının boğazı qurumuşdu. Gah inanmışdı, gah da oğlunun onu sınadığını düşünmüşdü. Ona heç nə deməyib, ürəyindəki sonuncu arzunu da, evlənmə xəbərini eşidəndə gözlərində donan yaş kimi dondurub, nə olacağını gözlədi. Arif nəhayət dediyini etdi. Sənubəri götürüb evə gətirdi. Gözəl dəhlizdə onları görəndə heç nə deyə bilmədi. Nədənsə asılqanın arxasına gizlənməyə calışan ürkək qıza yazığı gəldi. Onun əlindən tutub otağa keçirib, oturmaq üçün yer təklif edib, mətbəxə keçdi. Arif yan otağa keçib, orada nə isə axtarır, anasını səsləyirdi.

Sənubər otaqda tək qalıb, ətrafa nəzər saldı. Çox da böyük olmayan otaqda divan, kreslodan başqa, divar boyu kitab rəfi asılmışdı. Rəflərin hər birinin üzərinə masanın üzərinə salınmış örtüklə dəst olan üçbucaq örtüklər salınmasa bura otaqdan çox kitabxanaya bənzəyərdi. Otaqda hər yerə salınmış ağ,üstü yaşıl çiçəkli örtüklər otağa qəribə qədimlik verir, bir rahatlıq yaradırdı. Sənubər bu irili - xırdalı eyni çeşiddə toxunmuş örtüklərin ev sahibəsinin əl işləri olduğunu düşünürdü.

Arif əlində kağız içəri girəndə bir anlıq həyacanlanıb, narahat oldu. O, əlindəki kağızı Sənubərə uzadıb ,al valideynlərinə yaz, ailə qurduğunu bildir,-dedi. Qoy narahat olmasınlar. Sabah gedib evlənmək üçün ərizə yazarıq. Bir azdan Gözəlin acdığı süfrənin ətrafına yığılıb yemək yedilər. Süfrə ətrafında heç kim danışmadı. Sənubər hələ ömründə belə dadlı yemək yeməmişdi. Gözəl süfrəni yığmaq üçün ayağa duranda Sənubərin ona kömək etməyinə mane olmadı. Qız bir az rahatlanmışdı. Arifin verdiyi qələmi götürüb, anasına kağız yazdı. Oğlan qonşudan uşaq tapıb, məktubu Səfaya göndərdi. Heç aradan bir saat keçməmiş, Səfa onların qapısını dabanından çıxardırdı. Gözəl çölə çıxıb Səfanı içəri dəvət etmək istəsə də mümkün olmadı. Səfanın səsi bütün məhəlləni başına götürmüşdü. Elə bil var qüvvəsi ilə çalışırdı ki, hər kəs eşitsin, Səfanın qızını Gözəlin oğlu qaçırdıb. Gözəli hamı tanıyırdı. O, uşaq həkimi idi. Bu məhəllədə elə adam yox idi ki, həkim kimi onun uşağına yardım etməsin. Ən çox da imkansızlara öz dərmanları ilə yadım edirdi. Onun

dəfələrlə yardım etdiyi adamlardan biri də Səfa idi. Səfa uşaqları körpə olanda, özünü Gözəlin üstünə salardı. O, isə Səfaya dərman yazmazdı, dərman alardı, çünki bilirdi dərmanı almayacaq. İndi elə bil qadın onu tanımırdı. Gözəl dayanıb ona baxır,nə vaxt susacağını gözləyirdi. Əslində o,qızının Gözəlin oğluna qoşulub qaçdığını biləndə sevindi, burada göstərdiyi isə səhnə idi. Yenidən qışqırmağa başlayanda Gözəl içəri keçib qapını örtdü. Əvəzində çölə Sənubər çıxıb, anasından getməsini tələb etdi. Səfa gedəndən sonra evə sükut yox, hüzn çökdü. Gözəl Sənubəri görəndə ürəyi yumşalmışdı. Qızın yaraşıqlı sifəti, mütənasib bədəni, uca boyu, sakit görünüşü ürəyinə yatmışdı. Öz- özlüyündə qız götürüb qaçmaq dədə- babadan qalma adətimiz olduğunu, düşünüb, Arifə toy etmək arzusunu həyata keçirmək qərarına gəlməyi ilə, bu fikirdən birdəfəlik daşınmasının arası bir dəqiqə çəkmədi. Səfanın bu hallarını görəndə bu arzunun üstündən birdəfəlik xətt çəkdi. Beləcə Arif Sənubərlə sakitcə kəbin kəsdirib, toysuz, mərasimsiz evləndi. Ailəlik həyatlarına necə sönük başladılarsa beləcə də davam etdilər. Bu evliliyin Arifə xoşbəxtlik gətirib, gətirmədiyini özü də bilmirdi. Günlərlə xəyalından çıxmayan bu qızla heç bir ortaq nöqtəsi yox idi. Sənubərdən ilk günlər Gözəl narazı deyildi. O, çox təmizkar, səliqəli idi. Yaxşı yemək bişirmək bacarmırdı, sonralar onu da öyrəndi. Zaman keçdikcə, evin hər işini öz əlinə aldı. Lakin məsələ iş- gücdə deyildi. Sənubər bu evə özü ilə buz kimi bir soyuqluq gətirmişdi. Gözələ elə gəlirdi ki, bu soyuqluq evin divarlarına

çöküb. Qızın süst, kədərli, halını gördükcə Arif buna səbəb axtarırdı. O, da anası da Sənubərlə yaxşı davranır, hörmətlə yanaşır, nə ilə isə onun könlünü şad etmək istəsələr də heç nə alınmırdı.

Arifin işləri günü -gündən yaxşılaşırdı. İşlədiyi zavodda özünə çox hörmət qazanmışdı. İnstitutu bitirən kimi zavodda mühəndis vəzifəsinə təyin oldu. Gözəl həyatının mənası olan yeganə övladının hər addımına qiymət verir, hər uğuruna sevinirdi. Arif bu hala vərdiş etmişdi. Sənubərin ona qarşı belə ehtinasızlığına məyus olub qanı qaralırdı. İşdən böyük həvəslə gəlir, qazandığı uğurdan , verdiyi layihənin zavoda gətirdiyi mənfəətdən danışırdı. Sənubərin ona qulaq asmayıb yan otağa keçdiyini görüb, təəccüb edirdi. Get- gedə istər yaxşı olsun, istər də pis ümumiyyətlə işdən danışmaq həvəsi öldü. O, daima Sənubərin üzündəki narazılıq ifadəsi haqqında düşünürdü. Görəsən bu qız nə istəyir? Nədən narazıdır?. Nəhayət Gözəllə məsləhətləşib, Sənubərin darıxdığı üçün belə olduğuna qərar verdi. O, yaxşı başa düşürdü ki,Sənubər öz ailələri ilə Arifgilin ailəsinin yaşam tərzinin dağ ilə aran qədər fərqi olduğunu bildiyi üçün onları bir araya gətirmək haqqında düşünmür. Elə həmin gün naharda hər ikisi Sənubərə nə üçün ailənə baş çəkməyə getmirsən ?- dedilər. Ertəsi gün Sənubər yeməyi hazırlayıb atası evinə getdi. O gündən etibarən Sənubər vaxtaşırı atası evinə gedirdi və nisbətən özünə gəlmişdi. Onların ailələri arasındakı, fərq varlı, kasıb fərqi deyildi. Arifgil də kasıb ailə idilər. Gözəl insanlara pula görə fərq qoymağı sev-

məzdi. Bu ailələr çox fərqli ailələr idi. Bu gün Sənubər yenə atası evinə getmişdi. Ora çatar- çatmaz elə bir qalmaqalla rastlaşdı ki, məcbur olub Arifi çağırmalı oldu. O, içəri girəndə evlərində bir dəstə milis var idi. Ağız deyəni qulaq eşitmirdi. Üzbəüz evdə yaşayan Reyhan milislə gəlib, bacısı Dürdanənin onun evindən qızıl oğurladığını iddia edirdi. Dürdanə Reyhanın evinə tez –tez gedib- gəlirmiş. Yaxın rəfiqə olmasalar da aralarında bir ünsiyyət var imiş. Bu səhər də Dürdanə Reyhangilə telefonla danışmağa keçibmiş, Çəmi on beş,iyirmi dəqiqədən sonra, danışıb geri qayıdır. Bır azdan Reyhan haray qışqırıqla içəri girib, Dürdanədən qızıllarını tələb edir. Sən götürmüsən,- deyir. Səndən başqa bizim evə gələn olmayıb. Dürdanə boynuna almır, üstəlik Reyhanın üstünə hücum çəkir az qalır ki, qadını döysün. Reyhan da evdən çıxıb, milislə geri dönür. O, Dürdanə içəri girənəcən qızıl qutusunun güzgünün qarşısında olduğunu söyləyirdi. Arif elə vaxt gəlib çıxdı ki,Dürdanə ilə Reyhan yenidən saç yolmasına başlamışdı. Arif otağa keçib Səfanı çağırdı .Bir xeyli deyişmədən sonra əlində qızıl qutusu geri döndü. ,Qutunu Reyhana verib qadını sakitləşdirdi. Sonra Reyhandan xahiş etdi ki, şikayətini geri götürsün. Reyhan qızıllarını alıb, qurban olun bu oğlana deyib, şikayətini geri götürdü. Arif onlardan çıxıb işə qayıtmaq istəyəndə, qapının ağzına yığılan adamları görüb utandı. Onların yanından keçəndə qulağının dibinəcən qıpqırmızı qızarmışdı. Düşünüdü ki, deyəsən mən Sənubəri çirkabdan qurtarmaq əvəzinə özüm də ora düşəcəm. Xəbər Gözələ

çatanda xəcalət çəkdi. Qadına elə gəldi oğurluğu Dürdanə deyil, özü edib. Məhəllədə bu söz- söhbət yaddan çıxmayana qədər evdən çölə çıxmayacağına söz verdi. Axşam evə qanı qara gələn Arifi görəndə, xəcalət çəkdiyini söylədi. O, isə anasının sözünü ağzında qoyub, kasıbdır də,ay ana, -dedi. Ata,ana, bacı,qardaş bazarda satılmır ki, Sənubər gedib yaxşısını alsın. Nə etsin? Oğlunun cavabına Gözəl mat qaldı. Kasıb olanda adam qonşuya oğurluğa gedir?- deyib otağına keçdi.

Bu hadisə Ariflə Sənubərin arasındakı soyuqluğu daha da artırdı. Sənubər gözə görünməməyə çalışsa da üzündəki soyuq ifadənin yerini sərt bir ifadə tutdu. Evlərində yaranan uzun müddətli qanı qaraçılığı, aradan yeni xəbər götürdü. Sənubərin hamilə olduğunu eşidən Gözəllə Arifin sevincinin həddi- hüdudu yox idi. Qadın elə sevindi ki, hər şey yadından çıxdı. O, yaxşı bir süfrə açıb, bu şad xəbəri bayram etmək istəyirdi. Arif də anası ilə razılaşdı. Ailə qurandan bir dəfə olsun süfrə açıb şadlıq etməmişdi. Bu fikir Sənubərin xoşuna gələçəyini düşünüb, ona bütün ailə üzvlərini dəvət et,-dedi. Ana ,bala həvəslə qonaqlığa hazırlaşdı. Arif dükana,bazara qaçır, əlinə keçəni alıb gətirirdi. Gözəl işin çoxunu özü görür, Sənubəri ağır iş görməyə qoymurdu.

Qonaqlar vaxtında gəldilər. Onların zahiri görünüşlərini görən Gözəl qanını qaraltmamağa çalışdı. Oğlunun belə şad günündə kefsizləşmək istəmirdi.

Yaxşı ki, Sənubər bacılarına bənzəmirdi. Gözəl onları uşaq vaxtı gördüyü idi. Gələnlərin içərisində tək tanı-

dığı adam, Səfa idi. Sifətlərini bayram yumurtası kimi boyamış, qəribə geyim tərzləri,davranışları olan bu insanlar Gözələ çox yad olsalar da, bacardıqca onlara hörmətlə yanaşırdı. Yeməkdən sonra çay süfrəsinə özü bişirdyi şirniyyatları düzdü. Sonra çox böyük həvəslə Sənubərin ana olacağını söylədi. Dürdanənin qəribə tərzdə ağzını büzməyi Gözəlin gözündən yayınmadı. O, bu hərəkəti özünə qarşı nəzakətsizlik kimi qəbul etsə də, özünü o yerə qoymadı. Sənubərin böyük bacısı masanın baş tərəfində oturub, saqqız çeynəyirdi. O, ağzındakı saqqızı gövşəyə- gövşəyə dodaqaltı mızıldanırdı. Gözəl ağzında saqqız olan qıza tərəfə baxa bilmirdi. Bu yaşda bir qızın ağzında saqqız olmağına təəccüb edirdi. Nə isə bir sözlə onun sözünə yeganə əhəmiyyət verən adam Səfa oldu. Gözələ göz aydınlığı verib,təbrik etdi. Qonaqlar gedənə yaxın Arif də gəldi , baldızları və qaynanası ilə salamlaşıb, bir az onlarla oturub otağına keçdi.

Bu neçə ildə Vaqifin ölümündən sonra,Gözəlin evində keçirilən ilk qonaqlıq başa çatdı. Qonaqlar gedəndən sonra Sənubərlə birləşib qabları yudu.

Gözəl guya yatmağa keçdi, amma səhərə qədər yata bilmədi. O,Vaqiflə institutda oxuyanda tanış olmuşdu. Qarlı, soyuq bir qış günündə. Əgər buna tanışlıq demək olardısa. Qar yağmışdı, hər tərəf buz bağlamışdı. İnstitutun həyətində ayağı sürüşüb yıxılan Gözəlin köməyinə Vaqif gəlmişdi. O. əvvəl qıza kömək edib, yerdən qaldırmış, sonrada çantasından tökülüb ətrafa dağılan kitab - dəftərini, qələmini yığıb ona vermişdi. Gözəl ona təşək-

kür edib, sonra da tanış olmuşdu. Bu qəribə tanışlığın sonu sevgi ilə bitmişdi. Onlar bir – birini sevib nişanlandı. Hər ikisi tibb institutunu əla qiymətlərlə bitirib, elə həmin ili də ailə qurdular. Təyinatları Azərbaycanın dilbər güşələrindən biri olan Şuşa səhərinə verilmişdi. Onlar hər ikisi kənddə böyüyüb boya başa çatmışdı. Vaqif Gədəbəy rayonunun dağ kəndlərinin birində dünyaya göz açmışdı. Gözəl Ağdamın kəndində dünyaya gəlib, orada böyüyüb boya başa çatmışdı. Onların hər ikisinin uşaqlığı təbiət qoynunda keçmişdi. Diş göynədən sərin bulaqları, göy meşələri, güllü çiçəkli yaşıl ormanları olan Gədəbəy rayonunda böyüyən Vaqif bir insan kimi sadə, saf, səmimi bir insan idi. Ümumiyyətlə Gədəbəyin əhalisi içdikləri saf sudanmı, aldıqları təmiz havadanmı, hansı səbəbdənsə hamısı saf, təmiz, yalan –palandan uzaq vüqarlı, mənlikli insanlardı. Burada evlərin qapısı qıfıl tanımır, çünki, insanların bir- birinə inamı, etibarı, güvəni var. Saz-söz vurğunu olan bu insanlarda kökə bağlılıq, adət-ənənəyə hörmət, insanlığın dəyəri yaşayır. O dəyərlər ki, onlar əbədi yaşardı. Məktəb üzü görməyən, demək olar ki, ömründə bir dəfə olsun ayağı bu kənddən kənara dəyməyən nənələr dastanlar bilir, bayatılar söyləyir. Onların uşaqlarına söylədikləri nağıllar oğlanları igidliyə, mərdliyə, mübarizliyə, cəsarətə, qızları sədaqətə, ləyaqətə , ismətə səsləyir. Gözəl Vaqifin ölümündən sonra hər il Arifi götürüb, bir az Gədəbəydə nənəsinin yanında , bir az da Ağdamda öz ata - anasının yanında qalırdı. Yeganə övladını bu saf insanların əhatəsində böyüdüb, ruhunun

onların mənəviyyəti ilə qidalanmasını istəyirdi. Özü də şəhərə qayıdanda mənən zəngnləşdiyini hiss edirdi. Vaqiflə Gözəlin təyinatının Şuşa şəhərinə verilməsi hər ikisinin ürəyindən olmuşdu. Çox böyük həvəslə işə başlayıb hər ikisi az müddət ərzində hörmət qazanıb, sevilmişdi. Vaqif ürək həkimi idi. Ürəkləri təkcə müalicə etmirdi,həm də ürəklərə yol tapa bilirdi. Gözəl isə uşaq həkimi idi. Onlar xoşbəxt idi. Vaqif rəhmətə gedən gün, Gözəl ona ana olacağını söyləmişdi. O, atalıq sevincini cəmi yarım gün yaşamışdı. Həmin gün bir nəfər həkim dostu ilə qonşu kəndə toya gedəndə, maşınları aşırımdan düşüb, dərənin dibinə yuvarlanmışdı. Maşının qapısı açılıb,Vaqif yamaca düşüb qalmışdı. Vaqifin son görünüşü uzun illər Gözəlin gözünün önündən çəkilmədi. Vaqifsiz Gözəl Şuşada yaşaya bilmədi. Bakıya qayıtdı. Amma onsuz Bakıya da sığmırdı. Dünyası tarımar olmuşdu. Günlərlə yataqdan çıxmır, heç kimlə ünsiyyət qurmurdu. Ona təsəlli vermək istəyənə qulaq asa bilmirdi , çünki heç bir təsəlli həyat yoldaşını geri qaytarmırdı. Nəhayət Arifin dünyaya gəlişi Gözəli yenidən həyata bağladı,özünü zorla ələ alıb, işə girdi. Zaman keçdikcə, oğlu böyüdükcə Gözəl həyata Arifin gözü ilə baxdı. O, sevinəndə sevindi, kədərlənəndə kədərləndi. Həm də Arif anasının dərd yoldaşı, sirr ortağı oldu. Həmişə fikirləri üst- üstə düşər, eyni şeyi bəyənər, eyni musiqini dinləyirdilər. Birinin nədənsə xoşu gəlməzsə, digəri onunla razılaşardı. Təkcə bu Sənubər məsələsində fikirləri haçalandı. Gözəl oğlunun xoşbəxt olmağını istəyirdi. Təəssüf ki,o, yanılmamışdı.

Arif Sənubəri çəkib çirkabdan çıxarmaq əvəzinə, Sənubər Arifi bataqlığa sürükləyirdi. Gözəl Sənubərin ailəsi ilə bu ünsiyyətdən sonra, onlarla bir daha bacardıqca görüşməməyi qərara aldı və belə də etdi. Sənubərgildən hər kim gəlsə, cəmi beş -on dəqiqə salamlaşıb, hal -əhval tutub, otağına keçərdi . Get- gedə yazıq qadın tək Sənubərlə deyil, Arifin özü ilə də söhbət etməyi azaltdı. Arif tez-tez onun xətrinə dəyirdi. Bir neçə gün bundan əvvəl Gözəlin xətrinə elə dəymişdi ki, o gündən özünə gələ bilmirdi. Yeni oxuduğu, fransız yazıçısı Ki De Mopassanın hekayəsindən bəhs etmək istəyirdi ki, oğlu himcimlə əlini dodağının üstünə qoyub susmağı işarə etdi. Gözəl bir şey başa düşməsə də susdu. Düşdüyü bu vəziyyətə görə özünə yazığı gəldi. Bir az oturub otağına keçdi. Bir azdan Arif onun otağına otağına gəlib, ay ana bilirsən ki, Sənubər hamilədir onu hirsləndirmək nəyə lazımdır?-dedi. Təəccübdən gözləri böyüyən Gözəl nə edib hirsləndirmişəm, ay bala? – dedi. Hər an özünü oxumuş, çox bilikli, ziyalı kimi təqdim etməklə onu təhqir etmiş olursan. Səndən xahiş edirəm,ana onu alçaltmağa çalışma. Arif sonra anasını qucaqlayıb, başını sinəsinə sıxıb, xeyli bu vəziyyətdə qaldı. O gündən Gözəl demək olar ki, heç kimlə danışmadı. Öz otağına çəkildi. Onun susub otağına çəkilməyi ilə məsələ bitmədi. Sən demə Arif də öz işindəki müvəffəqiyyətdən danışa bilməzmiş, hətta aldığı mükafatların hansı işin nəticəsi olduğunu demək çox böyük qəbahət sayılırmış. Sənubərin belə tələbləri artdıqca, Arifin acığı tutmaq əvəzinə Sənubərə yazığı gəlirdi. Hər gü-

nahı onun böyüdüyü mühitdə görürdü. Arifin qızı dünyaya gəldi. İlk günlər bu kiçicik fidan hər kəsin həyatına şəkər qatmışdı. İndi bu evdə hər şey Təhminəyə görə, ona olan xidmətə görə nizamlanırdı. Təhminəni hər üçü ürəkdən sevsə də, onun dünyaya gəlişindən azacıq sonra Gözələ aydın oldu ki, nəvəsini sinəsinə basıb böyütmək, laylalar çalıb, nağıllar söyləyib istədiyi kimi böyütmək ona nəsib olmayacaq. Çünki Sənubər onu bacardıqca Təhminədən uzaq tutmağa çalışırdı. Uşaq xalalarının əhatəsində onların dünyasında böyüyürdü. O dünyada ki, orada nəinki Gözələ, Arifin özünə də yer yox idi. Ana ilə oğulun növbəti mübahisəsi Təhminəyə çalınan laylaya görə oldu. Sənubərin rus dilində, qol qanadı sınmış, mənası, məzmunu itmiş bir şəkildə layla çaldığını eşidən Gözəl hirslənib demişdi: Ay qızım, sən rus dilində danışmağı bilmirsən, laylanı öz ana dilində çalsan ki, uşağın da layladan bir kəlmə söz anlasın. Ertəsi gün Arif az qala anası ilə dalaşmaq həddinə gəldi. Ay ana, dedi: - Niyə icazə vermirsən ki, Sənubər uşağını istədiyi kimi əzizləsin? Rus dilini bilməmək qəbahətdirmi? Bəlkə elə o, da dili öyrənmək istəyir?

Gözəl Arifin onun iradına belə yanaşmasına mat qaldı. Daha doğrusu özünü doğrudan günahkar saydı. Sözün əsl mənasında peşman oldu.

Beləliklə Təhminə Gözəlin gözündən tam kənarda böyüdü. Uşaq bağcasına getməyə başladı. Lakin ,onu oradan xalaları götürüb, öz evlərinə deyil nənəsigilə aparırdı. Qızın günün çox hissəsini nənəsigildə keçirirdi.

Təhminə o evin abu –havası ilə böyüyürdü. Qəribə bu idi ki, Arif uşağının səhvini görmür, uşaqdakı pis vərdişlərin birinə irad tutub, tənbeh etmirdi. Gözəl ağzını açıb nə isə deyib, öyrətmək istəsə, Sənubər tez gəlib uşağın qolundan tutub aparar, dodağının altında : naftalin qoxusu gələn fikirlərlə uşağın baş- beynini yormaq lazım deyil,- deyərdi. Hər belə söz- söhbətdən sonra Arif Gözəli elə qınayırdı ki, sanki, bu evdə ağzının sözünü bilməyən, özünü aparmağı bacarmayan bir adam varsa o, da Gözəl idi.

Bir necə il beləcə ötdü. Arifin ikinci qızı dünyaya gəldi. Artıq evində doğulan körpə qadına sevinc gətirmirdi. Bu evdə Gözəli bir ana kimi narahat edən bir şey var idi, o da Arifə olan hörmətsizlik idi. Bu hörmətsizlik Gözəlin ürəyinə dağ basırdı. Arifin Sənubərə olan məhəbbəti, daha doğrusu yazığı gəlmək hissi, onun bütün fikirlərini məhv etmişdi. Özünü Sənubərin yolunda çiddi -çəhdlə fəda etdikcə, özünə olan hörmət arxa plana keçmişdi. Arifin bu evdə bir işi var idi, o da pul qazanıb gətirmək. O, işində daima yüksəlir, pul mükafatları alırdı. Artıq böyük bir zavodun rəisi idi. Gözəl bu günləri Arifin körpəliyindən bəri arzulamışdı, xəyal etmişdi, gözləmişdi. Oğlunun uğurundan danışa bilmirdi, artıq heç sevinmirdi də. Təhminə balaca olanda Gözəl ona yaxınlaşıb,qucağına götürüb əzizləyirdi, amma Əminəyə yaxın gəlmədi. Uşaq az qala nənəsini tanımırdı. Onsuz da qızları evdə az –az görmək olardı. Sənubər onları səhər açılanda aparıb atası evinə qoyur, sonra da Arifin rəhbərlik tərəfindən ayrılmış maşınına minib, dükan- bazarı gəzir-

di. Axşam qayıdan da Sənubər onları gah qaytarır, gah da elə orada qoyub gəlirdi. Arifin evində boy atıb, böyüyən qızlar Gözəlin ürəyini parçalayırdı. Parçaladı da. Onu bir gün kresloda əlində kitab ölmüş olduğunu gördülər. Yazıq qadın cəhənnəmdən cənnətə köçmüşdü. O, Arifin ailə qurmasını, uşaqlarını, xoşbəxt olmasını görüb ölmək istəyirdi. Təəssüf ki, oğlunun ailəsini, uşaqlarını gördü və narahat öldü. Yeganə övladını heç bir insani keyfiyyəti olmayan bir insanla qoyub getdi. Gözəlin ölümündən az sonra Arifə yeni, beş otaqlı mənzil verdilər. Sənubər köhnə evdən təzə evə bir çöp də aparmadı. Hər şeyi bütün avadanlıqları, təzə alıb, yığdı. Gözəlin əl işlərini yığıb zibilliyə atdı. Halbuki, Gözəl onları toxuyanda Arifin qızlarına toxuyuram demişdi. Çox incə, zərif, qiymətli əl işləri idi.

Təzə mənzildə yeni adamlar peyda olmağa başladı. Bunların arasında Arifin tanıdığı bir nəfər yox idi. Sənubər rəfiqəmdir deyib üstündən keçirdi. Məclislər qurulur, rəfiqələr saatlarla oturub, deyib gülürdülər. Arif hər axşam işdən evə qayıdanda mənzilindən gələn qəhqəhə səsindən, hay – küydən xəcalət çəkirdi. Bu nə məclislərdi? Bu nə hay -küydür? Bu qadınların ailəsi, evi yoxdurmu?- deyib sual verəndə,Sənubərin bircə cavabı var idi. Eh Arif, get-gedə anana oxşayırsan, lap onu kimi danışırsan, –deyirdi. Zaman keçdikcə Arif anasının haqlı olduğunu düşünürdü. Gözəlin hər bir iradını xatırlayır, ürəyində anasından üzr istəyirdi. Hər şeyə anasının gözü ilə baxırdı. Anasının günahı nə idi ki, Sənubər öz evlərində gör-

mədiyi mədəniyyəti, davranışı, səliqə -sahmanı, elimə verilən qiyməti burada görmək istəmirdi. Nəinki görmək istəmirdi, qəbul etmirdi. Nəyə görə Sənubərdə bu keyfiyyətlərin heç biri yoxdur deyə, Arif anasına insani keyfiyyətini, mədəniyyətini, savadını göstərməyi qadağan etmişdi. Axı onların çoxu anasının daxilindən gəlirdi, çoxunu isə illərlə qazanmışdı. Anası yaraşıqlı qadın idi. Arif balaca olanda onunla ailə qurmaq istəyənlər çox oldu. O, bunları eşidirdi. Anasının cavabını bilirdi. Onun yeganə cavabı var idi. Mən Arifi böyüdəcəm! Oğlunu buna görəmi böyütdü? O, kimdəsə olmayan mədəniyyətə görə anasını otağında dustaq etmişdi. Bunları düşündükcə,ürəyi parçalanırdı. Özünü bağışlamırdı. Ariflə Sənubərin hər gün sözü çəp gəlirdi. Ağzında saqqız, qulağında qulaqcıq, bir dəfə olsun əlinə kitab almayan bu qızların niyə dərs oxumadığını soruşanda elə bil Sənubəri elektrik cərəyanı vururdu. Hamı oxumağı bacarmalıdır? -deyirdi. İnstituta da kömək edib qəbul etdirərsən. Yetim deyillər ki, onu özümüzə dərd edək. Arif oxuya bilmirlərsə müəllim tutaq, onlara kömək etsin,- deyirdi. Amma bu sözlərin heç biri Sənubərin vecinə də deyildi. Artıq özünü evində yad sanırdı. Burada ona nə mənən, nə də ruhən yaxın kimsə yox idi. Evinə gələn qonaqlar da yəni Sənubərin rəfiqələrinin görkəminə görəndə təəccüb edirdi. Çünki bu görkəmdə qadın ilə Arif bütün həyatı boyu iki - üç dəfə qarşılaşmışdı. Görəsən Sənubər bunları haradan tapıb bir araya toplamışdı,- deyə düşünürdü. Ən pisi də o idi ki, Təhminə ilə Əminə onlara oxşamağa çalışırdılar.

Geyimləri, yerişləri, gülüşləri o qadınları təkrarlayırdı. Onun bütün cəhdləri boşa çıxırdı, artıq ox yaydan çıxmışdı. Özünü belə çarəsiz, əlacsız görəndə ürəyi sıxılırdı.

Bir axşam Arif işdən evə qayıtmadı. Onun iclasda qan təzyiqi qalxıb, burnunda damar partlamışdı. O, əlində bir qalaq kağız tribunaya qalxmaq istəyərkən, damar partlayıb qan sinəsinə, əlindəki kağızların üzərinə tökülmüşdü. Tez təcili yardım çağırıb, xəstəxanaya apardılar. Sənubər bu işdən gec xəbər tutdu. Çünki rəfiqəsinin ad günündə idi. Evə gec qayıtdı. Arifin evdə olmadığını biləndə harasa zəng etmək istədi, artıq gec olduğunu görüb, xəbər tuta bilmədi yıxılıb yatdı.

Ertəsi gün Arif işdən çıxıb evə gələndə onunla maraqlanan olmadı. Sənubər kiminlə isə telefonla danışırdı. Qızlar həmişəki kimi qulaqlarında qulaqcıq öz otaqlarına uzanıb, mahnı dinləyirdilər. Arif otağına keçib uzandı. Sənubər dəstəyi yerinə asar – asmaz, elə haray qışqırıq saldı ki, səs- küyə qızlar öz otağından çıxıb gəldilər. Sənubər qızların yanında, Arifə guya hansısa qadının yanında qaldığı üçün evə gəlmədiyini söyləyir,ağzına gələni danışırdı. Əvvəlcə uşaqların yanında onu belə alçaq sözlərlə həqarət etdiyinə görə acığı tutub qıpqırmızı qızardı. Sonra birdən qışqıra- qışqıra danışan Sənubərə baxanda nifrət etdi. Ona elə gəldi ki, onunla ağız – ağıza verib dalaşmağı özünə rəva bilmir. Elə ona görə xəstəxanada olduğunu, burnu qanadığını, heç nəyi söyləmədi.

Rədd ol, -deyib qapını onun üzünə çırpdı. Hirsindən bütün bədəni əsirdi. Qayıdıb yerində uzandı. Gecəni

səhərə qədər yata bilmədi. Elə bil Sənubəri birinci dəfə idi ki, görürdü. Bu onun iç üzü idi. Bu neçə ildə içində saxladığı sərvəti idi, açıb tökmüşdü, daxili bu idi.

Bundan sonra Arifin qan təzyiqi tez –tez qalxır, damarı partlayırdı. Hər dəfə qanı kəsə bilmir, nəhayət təcili yardım çağırmalı olurdular. Səhəri gün işə gələndə heç bir işini işləyə bilmirdi, çünki başını aşağı əyə bilmirdi. Tez -tez damar partlayır, qan layihələrin üzərinə tökülürdü. Get- gedə burnundan qan açılmağı az imiş kimi, yemək yeyəndən sonra, qarnında da ağrılar yaranırdı. Ağzına yemək alan kimi sancı nəfəsini kəsirdi. Bacardıqca az yeməyə çalışırdı. Nəhayət gedib yoxlanmalı oldu. Xəstəxanaya gedib, müayinədən keçdi, təhlil verdi. Və nəhayət məlum oldu ki, bağırsağında şiş var imiş, müalicə yazdılar, pəhriz buyurdular. Sağalacağı haqqında ümidverici bir söz demədilər. Arifin ağrıları günü- gündən artırdı. Müalicəni qəbul etsə də arıqlayır,gözləri çuxura düşürdü. İşə gedir, lakin tez də qayıdırdı. Sonda həftələrlə işə gedə bilmədiyi üçün işdən azad etdilər. Axır vaxtlar yemək yeyə bilmirdi. Ona nə isə pəhriz yeməkləri bişirib yedizdirmək lazım idi. Tez –tez tərləyir, tənginəfəs olurdu, tərli paltarlarını dəyişmək lazım idi. Bunların heç birini edən yox idi. Sənubər qızlarını götürüb, səhər çıxıb, axşam gəlirdi. Günlərlə ac, susuz qalırdı. Sənubər evə gələndə, ondan yemək gözləyən ərinə cavabı bu olurdu : Arif, yemək nəyinə lazımdır, bilirsən ki, yeyən kimi qusursan. Bir neçə vaxtdan sonra Sənubər evə gəlməməyə başladı, demək olar ki, günlərlə evinin qapısını açmır-

dı. Gələndə də elə gəlirdi ki, Arif onun gəldiyini duyması̇n. Gəlib yan otağa keçir,paltarlarını yığıb gedirdi. Axırıncı dəfə Sənubər gələndə özünü zorla ələ alıb, Təhminə ilə Əminəni soruşdu. Sənubər üzünə iyrənirmiş kimi bir ifadə verib, anamgildədilər, İyrənirlər səndən,nə edim? Uşaqların xəstəliyə tutulmasını istəyirsən ?-dedi.

Bu söz ona sillə kimi dəydi. İndiyə qədər ona qarşı olan heç bir hörmətsizlik onu belə alcaltmamışdı. Sənubər ağzını açıb yenə nə isə demək istəyirdi ki, Arif əli ilə qapını göstərib, çıx rədd ol, bir də bu qapıdan içəri girmə,- dedi. Sənubər gedəndən sonra Arifdə yaranmış nifrət hissinin ona çox böyük xeyri oldu. Belə ki, nə yemək istəyirdi, nə içmək, nə də ki, dərman. Ürəyi buza dönmüşdü, sadəcə ölmək istəyirdi. Deyəsən belə ölmək daha asan idi. Kimi,kimsəsi yox idi, onu bu dünyaya heç kim, heç nə bağlamırdı. Bir də ki, gözü qapıdan yığılmışdı. Daha kiminsə qapıdan girəçəyini gözləmirdi. Sənubər axırıncı dəfə gedəndən bəri qapı açıq qalmışdı, onu tez-tez huş aparırdı. Yuxuda anasını görürdü. Anası əlində kasa ona su uzadıb, iç- deyirdi, oğlum. Kasadakı suyu içirdi, içirdi ,amma kasa boşalmırdı, elə hey dolub daşırdı, içinə bir sərinlik çökürdü. Gözünü zorla acıb anasını cağırır, sonra gözünü açıb ətrafa nəzər salır heç kimi görməyib, yenidən mürgüləyirdi. Günün hansı vaxtı olduğunu bilmirdi. Pəncərədən çölə baxdı. Ya səhər yeni açılmışdı,ya da axşamın toranı idi, anlaya bilmədi. Təkcə onu anladı ki, başı həmişəkindən daha çox ağrıyır. Özünü toplayıb ayağa durmaq istədi, qapının acıldığını hiss

edib yerinə uzandı. Gələnin Sənubir olduğunu zənn edib gözünü yumdu. Gələn hər kim idisə, düz onun otağına gəldi. Qonşu, ay qonşu- deyə çağırdı. O,gələnin Sənubər olmadığını anladı, lakin kim olduğunu da başa düşmədi. Gözünü zorla açıb, qarşısında dumanın içində əlində kasa bir nəfərin dayandığını gördü. Bu adamı tanımırdı, ona görə elə bildi ki, yenə yuxu görür. Lakin qızın səsi aydın eşidilirdi ,qonşu ,qalxın bu şorbanı için,- deyirdi. O, kasanı kətilin üzərinə qoyub getdi. Arif zorla durub oturdu. Onun iştahası yox idi, həm də ki, yemək yeyən kimi qarnına sancı düşdüyünə görə yemək istəmirdi. Nə düşündüsə, kasanı götürüb şorbanı zorla içdi. Qarnında bir narahatlıq hiss etsə də sancılanmadı. Əksinə bir azdan gözünə işıq gəldi. Əməlli özünə gəlmişdi. Ona elə gəlirdi ki, xəyal görüb nə qədər fikirləşirdi bu qızın kim olduğunu yadına sala bilmirdi. Onu yenidən yuxu apardı. Ayılan da bir təhər üzbəüz mənzildə tək yaşayan qızı xatırladı.

Fəridə babasının ölümündən sonra o mənzildə tək yaşayırdı. Babası yataq xəstəsi idi. Fəridə onun son dəqiqəsinə qədər yatağının yanından ayrılmamışdı. Babası onun dünyadakı yeganə adamı idi. -

--Bu gecəni Arifin iniltisindən yata bilməmişdi, evin içində tək tənha qalmış qonşuya yardım etmək istəsə də, utanırdı. Qonşunun ailəsi haqqında cürbəcür söz- söhbətlər gəzirdi, amma artıq neçə gün idi ki, qonşunun evdə tək olduğunu bilir, iniltisindən səhərə qədər yata bilmirdi. Bu gecə də yata bilmədi, səhər oyanan kimi qonşuya yardım edəcəyini qət etdi. Və belə də etdi şorba bişirib, ya-

taqda köməksiz qalan xəstəyə apardı. Fəridə elə bil Çin səddini aşmışdı. Neçə gün idi ki, tərəddüd edirdi, lakin inilti ürəyini parçalayırdı. Nəhayət qapını açdı və qonşuya yemək verdi. Həmin gün axşama qədər rahat oldu. Gecə inilti yenidən təkrarlandı. Ertəsi gün nənəsindən eşitdiyi türkə çarələrdən çıxardıb dəmlədi. Yenə şorba bişirdi. Şorbanı kasaya töküb, çiçəklərdən dəmlədiyi çayı da yanına qoyub qonşuya keçdi. Qonşu ölü kimi uzanıb səssiz- səmirsiz yatırdı. Fəridə əvvəl alçaqdan sonra da ucadan, qonşu, qonşu- deyə çağırdı. Arif gözünü açıb Fəridəyə baxıb,zarıya –zarıya dünənki yeməyə görə təşəkkür etdi. Fəridə yeni gətirdiyi şorbanı, çiçək çayını, onun yanına qoyub dedi:

-Sizin xəstəliyiniz nədir?

Arif cavab verməyib, əlini yellədi. Fəridə dünənki kasanı götürüb getdi. O gündən Fəridə hər gündə bir dəfə, hətta bəzən iki dəfə Arifgilə keçdi. Bacardıqca yumşaq püre, şorba ya da südlü bir şec bişirib gətirirdi. Sonra Fəridə Arifin bağırsağında şiş olduğunu öyrəndi. İndi hər kəsdən bağırsaq şişinə aid,türkəçarələr soruşur, belə xəstələrə hansı yeməkləri yemək olar, hansı yeməkləri yemək olmaz və sairə belə məlumatları toplayırdı. Və bu topladığı bilğilərdən bacardığını hazırlayıb Arifə gətirirdi. Fəridənin Arifə çox yazığı gəlirdi. Kimdənsə eşitmişdi ki, bağırsaq xəstəsinə ən çox qara gavalı xeyr edir. Hər nə bişirsə hər gün kiçik bir qazancada gavalı qaynadır püre şəklinə salır, yeməklə bərabər bir kasa da gavalı püresi gətirirdi. Fəridə bəzən özünü qınayırdı, odla su arşında

qalmışdı. Bilmirdi bu tək tənha evin altında qalan yazıq, xəstə, çarəsiz adama yardım etsinmi, yoxsa çəkilib evində otursunmu. Amma heç vaxt yardım etmək fikrindən əl çəkə bilmədi, bacardığı yardımı etdi. Günlər, həftələr ötürdü bir az vaxt ötəndən sonra Fəridəyə elə gəlirdi ki, Arif yaxşılaşır, sağalır. İlk günlər hamama gedəndə özü ilə bir stulu sürüyə - sürüyə aparır az qala yarım saata gedib qayıdırdı. Indi isə divardan tutsa da stulsuz gedirdi. Bir səhər ora keçəndə Arifin səsinin hamamdan gəldiyini eşitdi, deyəsən öyüyürdü. Fəridə otağı yeni görürmüş kimi ətrafa göz gəzdirdi. Hər tərəf toz içində idi, otağın çox ağır havası var idi. Otağın demək olar ki, hər yerində, çarpayının altında, divanın üstündə boş su butulkaları, Arifə nə vaxtsa vurulan iynələrin şüələri qalaq- qalaq tökülüb qalmışdı. Yatağa isə baxmaq mümkün deyildi. O, tələsik şkafın ağzını açıb, yataq dəsti tapdı. Yorğan döşəyin üzünü dəyişdi. Ortalığı yığıb səliqəyə saldı, hər tərəfə tökülüb qalmış dərman kağızlarını, şüşələrini, butulkaları boş bir torbaya yığdı. Pəncərəni açmışdı, otağa xoş bahar havası dolmuşdu. Arif yavaş – yavaş da olsa heç yerdən tutmadan hamamdan çıxıb otağa gəldi, çarpayının yanında dayanıb oturdu. Birinci dəfə Fəridə ondan neçə olduğunu soruşdu. Bura gəlib getdiyi müddətdə Fəridə bir dəfə olsun Arifə şəxsən müraciət edib bir söz soruşmamışdı, dediyi sözü ortalığa deyər, bir məsləhət verəndə də sanki yataqdakı xəstəyə deyil, sözünü boşluğa deyib tez də çəkilib gedərdi. Arif yaxşıyam,-dedi . Sonra bir az ara verib söz gəlişi demirəm

doğrudan da yaxşıyam, amma sizə neçə təşəkkür edəcəyimi bilmirəm, deyib dönə - dönə minnətdarlıq etdi. Ağrılarım azalıb, özümdə bir daxili qüvvə hiss edirəm. Fəridə heç nə demədən, hamama keçib yaş dəsmal gətirdi. Otağın tozunu alıb döşəməni sildi. Sonra keçib o biri otaqları da silib pəncərələri açdı. Mətbəxdə çoxdan yığılıb qalmış qabları, qazanları yuyub, soyuducuda nə varsa demək olar ki,hər şeyi atdı. Qaz piltəsinin üstünü və su çanağına sürtüb yudu. Bütün işləri görəndən sonra Fəridə pəncərələri örtüb getdi. Təmizlənmiş otaq, təmiz yataq və otağa dolmuş xoş hava Arifə xoş gəldi. Üzünə dəyən bahar nəfəsi onu canlandırmışdı. Fəridəyə qarşı hədsiz minnətdarlıq hissi duyurdu,Sənubəri düşünürdü. Əgər ölməsəm, azacıq özümə gəlsəm ilk işim onu boşamaq olacaq, - deyə düşündü. Heç olmasa boşanmaq üçün allahın ona qüvvət verməsini arzulayırdı. Sənubəri xatırladıqca ürəyi sıxılırdı. Onun haqqında düşünməməyə çalışaraq üzünü yana çevirdi. Lakin unuda bilmirdi. Yeni evlənəndə, Sənubər ona mən çirkabdan çıxmışam demişdi. Arif ona hörmətlə yanaşmışdı. Bu çirkabı unutdurmağa çalışmışdı, əlindən tutub onunla qoşa addımlamaq istəmişdi. Bacıları o çirkabı zaman keçdikcə bataqlığa çevirmişdi . Bu bataqlıq Sənubəri özünə çəkirdi. Təəssüf ki, bataqlığa tək qayıtmamışdı gedəndə özü ilə Arifin qızlarını da aparmışdı. Qızları düşünəndə elə bir hiss yaşayırdı ki, o hiss onu parcalayıb, məhv edirdi.

Fəridə həmişəki qaydada hər gün gəlir, Arifə bacardığı yardımı göstərirdi. Bu səhər Arif ondan qızıl saatını

satmasını xahiş etdi. Qız saatı əlinə alıb, satmayın,-dedi. Arif məndən sonra kimə lazımdır? –dedi. Fəridə saatı götürüb getdi. Ertəsi gün əlində bir qalaq pul gətirib gəlsə də ,Arif götürmədi. Mən çölə çıxa bilmirəm, xahiş edirəm nə lazımdır özün al, –dedi. Yavaş –yavaş eyvana çıxmağa başlamışdı, amma çoxdan təmiz havaya çıxmadığı üçün başı gicəllənirdi. Hər eyvana çıxıb-qayıdanda nədənsə yaşamaq eşqi oyanırdı. Eyvandan çölə baxır, oyanan təbiəti, çiçəklənən ağacları, civildəşən quşları, havalar qızmağa başladığı üçün al-əlvan geyinməyə başlayan insanları gördükcə canlanır, dircəlirdi. Beləliklə göz qabağında yaxşılaşırdı.

Bir gün Fəridə içəri girəndə onu, üzü qırxılmış görüb təəccüb etdi. Maşallah yaxşısınız,- dedi. Arif hə çox sağ ol yaxşıyam, – dedi. Daha bir həftə də ötdü. Son günlər qalxıb həkimə getmək qərarına gəldi. Həkim Arifi müayinə edib, aparatdan keçirdi. Tam sağaldığını, şişin çəkildiyini söylədi. Öz müalicəsini tərifləyir, iyirmi illik təcrübəsində belə möcüzə ilə qarşılaşmadığını söyləyirdi. Sonra qələm götürüb yeni dərmanlar yazdı və bir aydan sonra yenidən yoxlanmağa gəlməsini tövsiyə etdi. Dərman yazılmış kağızı götürüb xəstəxanadan çıxdı, kağızı ovçunun içində əzib yerə atdı. Sonra dodağının altında mənim öz həkimim var deyə mızıldandı.

Arif Fəridənin həyat hekayəsini dinləyib dəhşətə gəlmişdi. Fəridə gedəndən sonra qız gözünün önündən çəkilmirdi, onun acı taleyinin təsiri altında qalmışdı. Arif ondan niyə tək yaşadığını soruşanda, nədəsə Fəridə sus-

muşdu. Amma bir dəfə gələndə əsl valideynlərini tanımadığını söyləmişdi. Sonra bunları danışmışdı: -

-Mən yeddi yaşınadək xoşbəxt uşaqlıq keçirmişəm Hər şeyi yaxşı xatırlayıram. Evimiz Qubanın mərkəzində bazarın yanında yerləşirdi. İki mərtəbəli yaraşıqlı bina idi. Atam bazarın içindəki ərzaq dükanında işləyirdi. Anam evdar qadın idi. Mən əziz, sevimli yeganə uşaq idim. Atam hər il mənim ad günümü təntənəli şəkildə qeyd edirdi. Bu yeddi il mənim ən xoşbəxt illərim idi. Təbii ki, axırıncı illəri xatırlayıram. Atamın qəfil xəstələnib ölməyi hər şeyə son qoydu. Onun ölümünün şokundan çıxmamış, bir səhər elə bir dəhşətli xəbər eşitdim ki, dünyam dağıldı. Anamla yuxudan oyanıb, səhər yeməyini yemək istəyirdik ki, nənəmin qapını döydüyünü, döydüyünü yox daha doğrusu dabanından çıxartdığını eşidib,anam qapını açdı. Anam qapını açar -açmaz nənəm gözünü yumub ağzını acdı:

- Yetimini götür rədd ol oğlumun evindən. Sənin yetiminin ayağının sayası mənim oğluma düşmədi. Axı sənin yetimin mənim oğlumun nəyidir? Heç nəyi! Çıxın mənim oğlumun yurdundan.

Anam ağlayır, gedəcəm ,uşaq eşidir deyib, yalvarırdı. Anam tez –tez uşaq eşidir sözünü təkrar etdikcə, nənəm cəhənnəmə eşitsin, sənin yetiminin dərdinimi cəkəçəm?- deməsi məni dəhşətə gətirirdi. Mən hər şeyi başa düşdüm, belə çıxırdı ki, mən İslamın qızı deyiləm. Bu xəbər mənə atamın ölümündən çox ağır xəbər oldu. Ertəsi gün anamla əlimizdə iki böyük çanta Bakıya, anamın va-

lideynlərinin yanına gedirdik. Anam yol boyu ağlayırdı. Mənə nənəmin yalan danışdığını, oğlu öldüyünə görə, başını itirdiyini söyləyirdi. Anam qırıq- qırıq sözlər deyir, üzümə baxmadan danışırdı. Nənəmlə, babam bizi gözləyirmiş kimi qarşıladı. Nənəm də anama qoşulub ağlayırdı. Bir həftədən sonra Bakıda məktəbə getdim. Zorla özümə gəlmişdim, demək olar ki, məndə süstlük yaranmışdı. Heç özümə gəlməmiş yeni zərbələr aldım. Sən demə Allah adama ağır tale yazanda, dözüm də verirmiş. Bir müddətdən sonra anam yenidən ailə qurdu. Anamın ailə qurduğu adam məni istəmədiyini deyib. Nənəmgildə qalmalı oldum. Anamdan küsmüşdüm, ürəyim yenidən yaralanmışdı. Günlərlə ağladım. Hər səhər yuxudan oyananda ağlamaqdan su olan yastığımı qurumağa qoyurdum. Hər gün anamın geri dönüb məni də aparacağını gözləyirdim. Dərsdən qayıdan kimi qapının ağzında anamın ayaqqabılarını gəzirdim. Lakin günlər ötürdü, anamdan heç bir xəbər çıxmırdı. Bir səhər evimizdə qopan hay- küyə oyandım. Dayım babamla nəyin üstündəsə mübahisə edirdi. Nənəmin də səsi gəlirdi, hiss edirdim ki, ağlayır. Mübahisə get- gedə qızışıb, davaya çevrilirdi. Birdən- birə dayım bağırmağa başladı:

Başa düşə bilmirəm Şəfiqə yetimxanadan uşaq götürüb, niyə iki qocanın üstünə atıb ərə gedir? Günü sabah yetimi qaytarın yetimxanaya. Sizin özünüzə baxan lazımdır. Axırıncı dəfə deyirəm ya mən , ya da Fəridə. Araya uzun bir sükut çökdü. Mən dəhşətə gəlmişdim. Bu sükut mənə bir ilə qədər uzun göründü. Artıq mənə hər şey ay-

dın idi. Heç Şəfiqə də anam deyilmiş. İlahi mən kiməm? Kimin kimiyəm? –deyə donub buza dönmüşdüm. Bir şeyə təəccüb edirdim ki, gözümün yaşı qurumuşdu. Ağlamağım gəlmirdi. Heç babamın cavabı da məni maraqlandırmırdı. Birdən babamın çox qətiyyətli səsi gəldi:

- Fəridə burada qalacaq. Heç yerə getməyəçək. O uşağı mən götürmüşəm, Şəfiqə üçün götürsəm də ,özümə güvənib götürmüşəm. Bu barədə başqa söz eşitmək istəmirəm,- dedi.

- Dayım qapını çırpıb getdi. Babamla, nənəm dayımdan ötəri darıxsalar da, ölsələr də sözündən dönmədilər ,məni yetimxanaya qaytarmadılar. Anamın oğlu olub. Heç görmürəm. Əri mənimlə görüşməyə icazə vermir. Əvvəl nənəm, sonra da babam rəhmətə getdi. Hər ikisinə göz bəbəyim kimi baxdım. Babam bu mənzili mənə bağışladı, elə ona görə də dayım onları dindirmədi. Yazıqlar mənə görə doğma övladları ilə küsülü öldülər. Babam uzun müddət yataq xəstəsi oldu. Ölənə qədər gözü yolda qaldı. Siz xəstə olanda mənə babamı xatırladırdınız. Mən onsuz çox darıxırdım.

Arif çox təsirləndi. Bəs öz valideynlərin haqqında məlumatın yoxdur? - deyib sual verdi. Fəridə qəmli – qəmli başını buladı. Hər ikisi susdu, Fəridə qalxıb evinə keçdi. Arif bu qəmli hekayənin təsiri altında yuxuya getdi. Fəridə nədənsə sakitləşdi. Hələ ömründə, bir dəfə olsun heç kiminlə bu barədə söhbət etməmişdi. Həqiqətən özünü yüngül hiss edirdi. Elə bil birdən- birə çiynindən

ağır bir yükü atmışdı. Ertəsi gün Fəridə gələndə, Arif üzünü qırxıb, paltarını dəyişib evdən çıxırdı. Hər nə qədər yaxşı olduğunu söyləsə də,  hələ çox zəif idi. Demək olar ki, zorla yeriyirdi. Pencəyi əyninə çox böyük idi, çiyinləri boş qalmışdı. Amma çox inamla addımlayıb qapıdan çıxdı. O, işləmək istəyirdi, ona görə də əvvəlcə öz işlədiyi zavoda getdi. Orada Arifi çox xoş qarşıladılar. Az qala bütün kollektiv onun gəlişini eşidib, görüşə gəlmişdi. Hərarətlə qarşılanacağını gözləmirdi, çox sevindi. Belə sevildiyi heç ağlına da gəlmirdi. Onu dərhal işə götürüb,avans verdilər. Evə qayıdanda, yolüstü məhkəməyə gedib, boşanma haqqında ərizə yazdı və çox rahatlandı. İndi Sənubərdən birdəfəlik ayrılacağı günü gözləyirdi. Yatağına uzanıb, bu günki günün sevincini yaşayırdı. Sevincini bölməyə kimsəsi yox idi. Bu dünyada anasından başqa kimsə onun üçün sevinmədiyini xatırlayıb, məyus oldu. Nə qədər bu vəziyyətdə qaldığını xatırlamırdı. Fəridənin səsinə oyandı. Qızı görəndə özündən asılı olmayaraq, işə qəbul olduğunu dedi. Fəridə çox sevindiyini deyib, dabanı üstə fırlanıb geri qayıdıb əlində saat geri döndü. Saatı uzadıb dedi:

-Mən sizin bu saata ehtiyacınız olacağına inanırdım, ona görə də satmadım. Saatı görəndə ürəyindən qəribə gizilti keçdi. Anasını xatırladı, Instituta qəbul olanda əlində saat gəlib Arifə demişdi:" Bu mənim üçün ən əziz yadigar idi. İstəyirəm ki, sənə də əziz olsun." Saat Arif üçün çox əziz idi. Təkcə atasının deyil, həm də anasının yadigarı idi. Saatı satmağa verəndə iki ən əziz adamının

xatirəsini satmış olurdu. Lakin başqa əlaçı yox idi. Bir də ki, bir daha bu saatı qoluna taxacağına ümidi yox idi. Saatı əlinə aldı, lakin bu yaxşılığı qiymətləndirə biləcək söz tapa bilmədiyi üçün saatı əlinə götürüb susdu. Fəridə saatı verib qayıtdı. Ertəsi gün Arif işə gedəndə Fəridənin qapısını döyüb, açarlarının bir dəstini Fəridəyə uzatdı, amma birdən -birə özü də bilmədi  açarları ona nəyə görə verdiyini desin. Fəridə qapını açıb açarları götürüb, heç nə demədi. O gündən Arif bir daha Fəridəni görmədi. Qəribədir qız açarları götürsə də, bir daha bu mənzilə keçmədi. Arif işini çox sevirdi, sevərək də işə başladı. O, günbəgün yaxşılaşırdı. Demək olardı ki, tam özünə gəlmişdi. Yeni –yeni layihələr üzərində işləyir,yeni ixtiralar edirdi. Onun layihələri də ,ixtiraları da böyük uğurlar qazanır, hər dəfə də yüksək mükafata layiq görülürdü. Onun ixtirası sayəsində bir neçə dəzgahın iş prinsipi bir dəzgahda çəmlənmişdi. Bu dəzgah çox böyük bir işçi qüvvəsini də əvəz edirdi. Arif rəhbərlik tərəfindən qiymətləndirildi. O,gah pul mükafatı ilə, gah da medallarla təltif olunurdu. İlin sonunda onu zavodun həmkarlar ittifaqı tərəfindən sanatoriyaya göndərdilər. İstirahətə getmək ona xoş gəldi. Yaxşı müalicə olundu, yaxşıca dincəldi və işə çox gümrah qayıtdı. İstirahət, müalicə, dincəlmək hər nə qədər xoş olsa da evə dönmək üçün çox darıxırdı. Evinə gəlib, hər yeri səliqəli tapdı. Axırıncı dəfə Fəridəni mükafat alanda görmüşdü, aldığı pulu qəpiyinəcən aparıb ona vermişdi. Pulu stolun üstünə qoyub demişdi: “Mükafat sənə düşür”. Ondan sonra Fəridəni gör-

mürdü, amma hər yerdə onun əlinin istisi duyulurdu. Ertəsi gün məhkəmənin axırıncı qərarını götürmək üçün məhkəməyə getdi. Üçüncü dəfə xəbərdarlıq etsələr də Sənubər, məhkəməyə gəlmədi. Beləcə məhkəmə onların boşanmasına qərara verdi. Bilmirdi sevinsin, yoxsa kədərlənsin. Sənubəri sevib ailə qurmuşdu, amma indi dönüb arxaya baxanda  həftələrlə, aylarla küsülü qalmaqlarından başqa heç nə görmədi.

Arifi yenidən zavoda müdir təyin etdilər. Və elə o gündən onun rəhbərlik etdiyi zavod bir neçə dəfə zərbəçi oldu. Keçici bayraq qazandı. O,çox təşkilatçı adam idi. Onun keçirdiyi bayram və idman tədbirləri hər biri çox maraqlı və təntənəli olurdu. Zavodun uğrunda sərf etdiyi əməyin bəhrəsini görürdü, müvəffəqiyyət qazanırdı. Payızda pambıq yığımının qızğın cağında, birdən birə Arifi, mərkəzi komitəyə çağırıb Goranboy rayon partiya komitəsinin birinci katibi təyin etdilər. Arif evə gəlib, getməyə hazırlaşırdı. Yenicə içəri girib, çantasını ortaya qoyub içinə bir iki paltar atmışdı ki, qapının arxasından gələn səs - küyü eşidib, qapını açdı. Üzbəüz qapını açıb arasında sakitcə dayanan Fəridəni, və onun qarşısında Sənubəri görüb təəccüb etdi. Səsə geri dönüb baxan Sənubəri az qala zorla tanıdı. O, elə gözəl görünürdü ki, küçədə qarşısına çıxsa onu tanımazdı. Sənubər qışa ətək, ağ kofta, ağ ayaqqabı geyinib, ağ çanta götürmüşdü. Çantanın və ayaqqabının üstündəki dəmirlər dəst idi. Səliqə ilə daranmış sarı saçları kürəyinə tökülmüşdü. Qız Arifi görəndə səsini daha da qaldırdı. Bu dəfə hədəfi Fəridə deyil, Arif idi.

Deмək məni evdən bu ləçərə görə qovdun? Evə gəlməyəndə də bu ifritə ilə birlikdə idin? -deyib daha da bağırmağa başladı. Arif ona baxanda ürəyi bulandı, başı hərləndi. Hirsindən bədəni əsirdi. Sənubərin Fəridənin ünvanına yağdırdığı sözlərə görə xəcalətindən yerə girdi. Arif bəlkə də ömründə belə səs cıxartmamışdı Elə qışqırdı ki, bəlkə də bütün binanın sakinləri eşitdi:" Rədd ol buradan, rədd ol". Sənubərin nə isə demək istədiyini görüb yenidən, sənə deyirəm, rədd ol gözüm səni görməsin,-dedi. Fəridə qapını örtüb içəri keçdi. Sənubər pilləkənləri nə isə deyinə -deyinə düşürdü. Arif artıq onu eşitmirdi, qapını örtüb içəri keçmişdi, əsim -əsim əsirdi. Sənubərin onun ünvanına yağdırdığı ittihamları düşündükcə dəhşətə gəlirdi. Üzərinə atılan bu çirkaba batdığını zənn edib, özündən iyrənirdi. Hələ gənc yaşlarında film izləyəndə, belə bir obrazla rastlaşanda, görəsən belə insan varmı ? deyə təəccüb edirdi. Sən demə həyatda doğrudan da belə insanlar var imiş – deyə düşündü. Gecənin bir vaxtına qədər özünə gəlib,əşyalarını toplaya bilmədi, nə vaxt yuxuya getdiyini xatırlamırdı, səhər yuxudan ayılanda dünənki hadisəni yadına salıb xəcalət çəkdi. Nəhayət yerindən durub təyin olduğu rayona yola düşdü. Fəridənin qapışın döyüb nə isə demək, üzr istəmək istədi. Onun qapısının ağzında ayaq saxlayıb durdu. Əlini uzadıb qapını döyə bilmədi. Dəfələrlə əlini irəli uzadıb ,geri çəkdi. Amma qapını döyüb, heç nə deyə bilmədi. Yeni iş yeri, təmiz hava, xoş əhval ruhiyyə Arifə xoş gəlirdi. Səhər yuxudan oyanandan gecə yarısınadək çöllər-

də olurdu. Kabinetdə çox az vaxt keçirirdi. Günbəgün gümrahlaşırdı. İş onun canının cövhəri idi, zəhmətkeş idi. Bütün uğurlarını da zəhməti ilə qazanmışdı. Uğurlarına sevinirdi. Nə qədər başı işə qarışsa da onu böyük qüvvə şəhərə çəkirdi. O qüvvədə hərarət var idi, qayğı var idi, sədaqət var idi. Günlər, həftələr ötdükcə Arif bu qüvvənin Fəridə olduğunu anlayırdı. Və get -gedə Fəridəyə olan hissləri dərinləşir, qəlbini dərinliyinə kök atırdı. Bu hisslər məhəbbət idimi, məhəbbət deyildimi? Hər nə idisə bütün hisslərdən əziz idi, hətta müqəddəs idi. Bir axşam Bakıya qayıdıb birbaşa Fəridənin evinə gəldi. Qapını döyüb nə deyəçəyini düşünürdü. Qız qapını açıb Arifi görəndə elə təəccüblə baxdı ki, elə bil onu ömründə birinci dəfə görürdü. Onun gəlmək olarmı? sualını eşidib sanki yuxudan ayıldı. Bir kənara çəkilib, yol verdi. Arif qonaq otağına keçib, qızın ona oturmaq üçün göstərdiyi yerdə oturdu. Fəridə mətbəxə keçdi. O, ətrafa göz gəzdirib, onun çox kasıb yaşadığını anladı. Otaqda nə var idisə hamısı köhnə idi. Döşəmənin, tavanın rəngi qopuq –qopuq olmuşdu. Pəncərədən asılan pərdə təmiz də olsa çox nimdaş idi. Döşəməyə salınmış xalçanın üzünün tükü gedib, astarının sapları görünürdü. Arif bu kasıb qızın nə böyük ürək sahibi olduğunu düşündü. Mətbəxə sarı səslənib çay içməyəçəyini söylədi. Fəridə içəri girib ayaq üstündə dayandı. Arif başını qaldırıb ona baxdı. Onun zil qara gözləri, sıx qara kirpikləri var idi. O,Arifin nə isə sözlü adama oxşadığını hiss edib həyəcandan, gözünü tez–tez qırpırdı. Arif əvvəlcə bir iki mənasız sual verdi.

Fəridə hiss edirdi ki, o,cavablara qulaq asmır. Qız kürəyinə tökülmüş zil qara saçlarını toplayıb başına yığdı, yanaqlarına qızartı çökdü. Arif birdən ayağa qalxıb bir başa mətləbə keçdi:

-Fəridə, biz birimizi yaxşı tanıyırıq. İnsanlar bir- birini tanıyır , sonra həyatda elə şeylə qarşılaşır ki, bir- birlərini tanımadığını anlayırlar. Lakin biz elə bir vəziyyətdə qarşılaşdıq ki, bu həyatın ən ağır üzü idi. Məni ölümün pəncəsindən aldın, yenidən həyata qaytardın, ömrümün qalan hissəsini səninlə yaşamaq istəyirəm. Mənə elə gəlir ki, sənin qayğın olmasa mənə yaşamaq çox çətin olar. Mənimlə evlənərsənmi? Araya sükut çökdü. Arif Fəridənin qıpqırmızı qızarmış sifətinə baxıb təkrar etdi:

Mənimlə evlənərsənmi?

Fəridə daha da qızardı. O, heç vaxt belə bir şey ağlına gətirmirdi. Yaxşı bilirdi ki, Arif Sənubəri bağışlamayacaq ,əvvəl axır kiminlə isə ailə quracaq. Amma ona evlənmə təklifi edəçəyini gözləmirdi. Arifə yardım edəndə, yuxusuna da girməzdi ki, gecələr səhərəcən inildəyən, yataqdan qalxa bilməyən, günlərlə yemək yeməyən bu adam ayağa qalxacaq, yenidən həyata atılacaq. Hətta evlənəçək. Nəhayət fikirdən ayılıb səsi titrəyə- titrəyə dedi:

-Mənə elə gəlir ki, sizdə mənə qarşı sadəcə minnətdarlıq hissi var və bu hiss o qədər güclüdür ki, həmin hissə ən yüksək qiyməti verib mənə evlənmə təklifi edirsiniz. Narahat olmayın mənim əvəzimə kim olsaydı sizə kömək əlini uzadardı. Siz mənə yetərincə təşəkkür etmişiniz. Qız sözünü bitirib birinci dəfə Arifin gözünün içinə baxdı. Arif Fəidəyə lap yaxın gəlib əllərindən tutdu.

Sakit dayandı bir qədərdən sonra, Fəridə, mən sənsiz darıxıram,- dedi. Rayonda sənin xəyalınla yaşayıram. Mənə yox desən , bir daha ailə qurmayacam. Mənə elə gəlir ki, dünyada ən qorxulu şey yalqızlıqdır, deyib Fəridənin əlini buraxdı. Daha qızın cavabını gözləmədən öz mənzilinə keçmək üçün mənzilinin açarını istədi. Açarı əlinə alıb, dəhlizdə yenidən ayaq saxladı. Xeyli dayanıb çəkilib getdi. Mənzilin qapısını açıb içəri girdi. Hər yerdən təmizlik yağırdı elə bil mənzildən kimsə indicə çıxmışdı. Keçib divanın üstünə uzandı. Heç yarım saat keçməmiş, Fəridə əlində yemək içəri girib, mətbəxə keçdi. Əlindəki yeməyi qaz piltəsinin üstünə qoyub qonaq otağına keçdi. Arif onu görəndə qalxıb oturub, kresloda yer göstərdi. Fəridə nədənsə kresloda oturmayıb, oturmaq üçün stul götürdü,uzun çəkən sükutdan sonra dilləndi:

Arif, ailə qurmaq üçün məsləhət almağa kimsəm yoxdur. Anama demək istəyirəm, amma mənim ona zəng etməyə ixtiyarım yoxdur. Gözləyirəm o, zəng etsin. O,da aylarla zəng etmir ,deyib gözündən yaşı laysan kimi axıtdı. Arif yerindən qalxıb Fəridəyə yaxın gəldi. Əlini ehmalca uzadıb qızın başını tumarladı və dedi: Fəridə, xahiş edirəm yox, -demə. Arif özü də həyəcanlanıb, qayıdıb divanda oturdu. Yenidən araya uzun bir sükut çökdü. Qız sakitcə ayağa durub, vidalaşmadan çıxıb getdi.

Arif səhərə qədər yata bilmədi. Səhərə yaxın gözünə yuxu getmək istəyirdi , yadına düşdü ki, işə qayıtmalıdır. Odur ki, qalxıb çay içməmiş rayona getdi. Günlər həftələr ötürdü. Fəridəyə zəng etməyə ürək etmirdi. Günlərlə o barədə düşünür, ayrı yol tapa bilmirdi. Xəstə olduğu

müddətdə, Fəridəyə elə bağlanmışdı ki, bu bağların qırılması, onun həyata olan bağlarının qırılması idi. Fəridənin yox cavabını düşünəndə dünyası qaralırdı. Zəng edib bəd cavab almaqdansa, ümidlə yaşamaq daha yaxşıdır, deyə düşünürdü. Axır günlər başı çox qarışıq idi. Sovxozlardan gələn xəbərlər ürək acan deyildi. Pambıq sahələrinə sovka deyilən xəstəlik düşmüşdü. Bakıdan mütəxəssis çağırmışdı. Əgər vaxtında xəstəliyin qarşısı alınmasa, məhsuldarlıq aşağı enəcəkdi. Hətta deyilənə görə vəziyyət elə idi ki, sahələrin məhv olmaq ehtimalı var. Arifin başını qaşımağa vaxtı yox idi. Səhər tezdən durur, gecə yarıyacan geri qayıtmırdı. Mütəxəssislərlə sahələri gəzir, hər yeri öz gözü ilə görməsə sakitləşə bilmirdi. Gələn dərmanların sovxozlara paylanmasına, sahələri dərmanlamaq üçün ayrılan texnikaya özü şəxsən nəzarət edirdi. Bu gün də həmişəki kimi evdən səhər çıxdığı idi. Heç günorta nahara da gəlməmişdi. Ucqar sahələrin birindən gəlirdi. Bir az sakitləşmişdi, Işləri xeyli nizama sala bilmişdi. Kabinetə gəlib qalan sahələr haqqında olan məlumatlara nəzər salmaq istəyirdi ki, katibə içəri girib, bir qadının bayaqdan Arif müəllimi gözlədiyini söylədi. Bədənindən bir cərəyan keçdi. O, nədənsə bu qadının Sənubər olduğunu düşündü. Ayağa durub hirsli-hirsli gəlsin, – dedi Keçib yerində oturmağa macal tapmamış, içəri girən Fəridəni görüb, donub yerində qaldı. Fəridə salamsız, filansız gülümsünüb,- Arif mənə ən yaxın olan insanın məsləhətini dinləyib, qərara aldım ki, sənin təklifini

qəbul edim,- dedi. Yəni sənin məsləhətini dinləyib, əməl etdim. Hər ikisi gülümsəyib, əl verib görüşdülər.

Arifin qurduğu ailə gözlədiyindən də qat -qat xoşbəxt idi. İllər ötürdü. Fəridə onun dayağı, sirdaşı, dərd ortağı olaraq qalır, həyatın enişli- yoxuşlu yollarında onunla birlikdə addımlayırdı. İki övladı dünyaya gəlmişdi. Fəridə Arifə elə bir dünya qurmuşdu ki, dünyada anasının arzularını görürdü. O dünyada etibar var idi, qayğı var idi, ləyaqət var idi. Amma bir şey onu yandırırdı, bunların heç birini anası görmədi. Bütün arzuları ürəyində qaldı.

Zəhmətlə bilik birləşib, zirvəyə yol açar deyirlər. Arif günbəgün zirvələrə qalxırdı. Hansı rayona getsə o rayon, qabaqcıl olur, keçici bayraq alırdı. Bu sevinci onunla yaşamağa Arifin Fəridəsi var idi. Lakin o, elə hey arxaya baxır, bataqlıq görürdü, o bataqlıqda Arifin bir cüt balası batırdı.

# Hekayələr



## RAFİQİN SƏFƏRİ

Elə ailədə böyümüşdüm ki, gözümü açandan bəri bütün ölkələri gəzmişdim. Lakin hara getsək qayıdanda babamla, nənəm bir söz işlədərdi. "Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşıdır. " Qəribədir, onlar bütün ölkələrin adət ənənələrini, yaxşısını- pisini bilir, amma nə olur olsun sonda vətənimizi tərifləyib, ən yaxşı qiyməti öz ölkəmizə verirdilər. Dünyanın ən hündür şəlaləsini, sıx meşəsini, uca dağını, sərin bulağını, coşqun çayını təsvir edib, axırda ən gözəl şəlalənin, meşənin, dağın, çayın Azərbaycanda olduğunu söyləyirdilər. Mən valideynlərimin, babamla, nənəmin savadına, dünya görüşünə,məntiqinə bələd olmasam, onların bu sözlərinə təəccüb etməzdim. Axı niyə hər yeri tanıya- tanıya, bilə -bilə belə danışırdılar, bilmərəm? Mən demirəm ki, Azərbaycanın gözəl təbiəti, cənnəti xatırladan mənzərəsi, dənizi, gölü, çayı yoxdur,amma bütün dünyada daha da gözəl yerləri var.

Beləcə böyüyüb universiteti qurtardım. Heç vaxt bu mövzuya qayıtmağı **sevmirdim. Çünki onları fikrindən döndərmək mümkün deyildi. Bütün ölkələri,** az qala şəhər-şəhər, küçə- küçə tanıyan babamla ,nənəm yenə Azərbaycanın bütün dünyanın ən gözəl guşəsi olduğunu söyləyirdilər.

Yaxın günlərdə Avropa ölkələrinə səfərim var idi. Artıq babam həyatda deyildi. Nənəm məni böyük həvəs-

lə səfərə hazırlayırdı, arada bir bax, Rafiq, -deyirdi, rəhmətlik baban bilirsən də nə düşünürdü.

Mən babamın adını daşıyırdım. Bununla qürur duyurdum. Hər addım atanda babamın bu hərəkətimi bəyənəcəyinə əmin olmaq istəyirdim. Lakin bununla yanaşı məni hər kəs öz müstəqil fikri olan biri kimi tanıyırdı. İndi də nənəmi qucaqlayıb dedim :

O fikirlər babamın fikri idi. Görək bu Rafiq hansı düşüncələrlə geriyə dönəcək ? Nənəmin gözləri dolub, uzaqlara baxdı. Mən nənəmi yaxşı tanıyırdım. O, nə olur olsun, müstəqil fikirlərə üstünlük verirdi. Bəzən mən səhv olsam da, mütləq mənim fikirlərimə hörmətlə yanaşırdı. Nənəmi öpüb qapıdan çıxdım. İlk səfərim Berlinə idi. Orada bir neçə gün qalıb Amsterdama getməli idim. Bu səfəri bir başa etmək mümkün olmadığı üçün Burusseldən keçməli oldum. Şəhərə çatanda günorta idi. Bir az şəhərin maraqlı yerlərini gəzdim. Ən məşhur yerlərdə şəkil çəkdirdim. Biletim gecə saat dörddə idi. Ona görə otelə getmək fikrindən vaz keçib gəzmək qərarına gəldim. Hər yerə nənəmin, babamın da gözü ilə baxırdım. Bu ağıllı, dünya görmüş insanların fikrini anlamaq istəyirdim. Axşam tərəfi bərk yoruldum və acdım. Kafelərin birində oturub yemək yeyib, su içmək istəyirdim. Susuzluqdan ciyərim yanırdı, hava qaralan kimi şəhərdə adam seyrəlməyə başladı. Mən hansı tərəfə gedəcəyimi düşünənə qədər kafelər,barlar, bir sözlə hər yer bağlandı. Demək olar ki, şəhərə ölü sükut çökdü. Avropanın ortasında qarşılaşdığım bu mənzərəyə təəccüb etdim. Düzdür

özləri buna haqq qazandırıb, yatıb dincəlməli olduqlarını söyləyirdilər. Sabah tezdən şəhərdə qaynar həyat çağlayaçaqdı. Hər halda indiki vəziyyətə görə ürəyim sıxıldı. Ən vacibi isə ac və susuz idim. Gecə klublarına getmək istəmirdim. Çünki oralar çox səs-küylü olurdu. Yorğun olduğum üçün sakit bir yer gəzirdim. Nəhayət bir taksi sürücüsü tapıb, məni bu hədsiz zəif işıqlı, səssiz yerdən gur işıqlı, həyat qaynayan bir yerə aparmağı xahiş etdim. Sürücü gülümsəyib: İstədiyiniz yer çox da uzaqda deyil, - dedi. Bu körpünü keçib sağa dönən kimi orada olacağıq. Sakitləşib oturdum, çəmi on beş dəqiqədən sonra sürücü çatdığımızı bildirdi. O, məni düşürəndə yenə də qəribə bir tərzdə gülümsündü. Küçə ilə gedir sürücünün gülümsəməyinin səbəbini axtarırdım. Eyni zamanda küçədəki böyük vitirinlərə təəccüb edirdim. Düzdür, bura işıqlı və səs küylü idi. Amma buradakı işıqlarda da bir qəribəlik var idi. Yəni əsasən qırmızı və yaşıl olan neon lampaları çox tünd rəngdə idi. Bu bir yana,mən küçə ilə irəliləyir və yolun kənarındakı sanki akvariumda oturmuş yarıçılpaq qadınları görüb təəccüb edirdim. Gözümü yayındırıb irəliləməyə çalışsam da qarşıda da həmin mənzərə ilə rastlaşırdım. Tez-tez oturuş vəziyyətini dəyişən bu qadınlar qəribə hərəkətlərlə məni içəriyə səsləyirdilər. Bir az da irəlidə şüşədən olan qapıların biri açıldı və məni içəriyə dəvət etdilər. Mən etiraz edib daha sürətlə yeriməyə başladım və qəflətən daha çox təəccüb etdiyim bir yazıya rast gəldim. Böyük işıqlı hərflərlə: "Hacı Məhəmmədin dönəri" yazılmışdı. Aman Allah, bu yazı

məni özünə böyük bir cazibə qüvvəsi ilə çəkdi. Çatana qədər hələ uzaqdan iri hərflərlə yazılmış yeməklərin siyahısını oxuyurdum. Müxtəlif çeşidli yeməklərin adı yazılmışdı. Ora çox tez çatdım. Çünki aclıq nəfəsimi kəsirdi, susuzluqdan dil- dodağım qurumuşdu. Görkəmindən əcnəbiyə oxşamayan alçaq boylu, daz başlı, kök kişidən ingilis dilində yemək istədim. O, başını bulayıb fransızca danışmağımı tələb etdi. Mən bu dili bilmədiyim üçün italyanca müraciət etdim. O, yenə də başa düşmədiyini anladıb fransızca danış,dedi. Kişini başa sala bilmədiyim üçün narahat oldum. Onu mütləq başa salıb, ət yemədiyimi söyləməli idim. O, isə bircə kəlmə söz bilirdi. "Fransız dilində danışın. " Aman Allah, mən acından ölürdüm. Əllərimi kənara açıb:" Ay Allah,mən bunu hansı dildə başa salım?"- dedim. Gombulun sanki gözlərində işıq yandı. O, daxılın dalından çıxıb üstümə cumdu. " Əlbəttə öz dilimizdə",- dedi. Bir an onun nə dediyini anlamadığım üçün bir də sual verdim. Ingiliscə :" Nə deyirsiniz?"- dedim. Böyük çılğınlıqla:" Azərbaycan dilində,öz dilimizdə danış, qardaş ",- dedi. Azərbaycan dilində eşitdiyim bu sözlər mənə ləzzət etdi. Öz dilimizdə yemək sifariş etdim. Hər ikimiz sevinirdik. Məhəmməd əldən-ayaqdan gedib əlinə gələni süfrəyə düzürdü. Mən yediyim müddətdə başımdan aşağı suallar yağdırırdı, hansı rayondan olduğumu və Bakının Papanin adlandırılan məhəlləni soruşdu. Mənim cavablarımdan həzz alırdı. Sanki gözümə baxıb orada məhəllənin adamlarını görürdü. Kimi isə tanıyanda kişinin sevincinin həddi hüdudu

olmurdu. Sonra kök bədənini cəldliklə hərləyib yerindən qalxdı. Kimlərə isə zəng edib çağırdı. Yaxşı bir qonağım var,- dedi. Aradan on dəqiqə keçməmiş içəriyə, yaşca məndən böyük olan, qırx - qırx beş yaş aralarında olan dörd nəfər gəldi. Onlar mənimlə elə görüşdülər ki, az qala onları tanıdığımı düşünürdüm. Oturan kimi suallara başladılar. İçərilərində ən uca boylusu olan göy göz kişi heç kimə aman vermirdi. Bütün məhəllələri, küçələri, az qala dalanları soruşurdu. Sovetskinin sökülməyə başladığını eşidəndə kişinin elə bil başına bir qaynar qazan su tökdülər. O, durmadan təkrara edirdi :" Niyə sökürlər axı?" Mən bu sualın üstündən ötüb,Bakının gözəlləşdiyindən danışdım. Onlar isə köhnə məhəllələri Kubinkanı, Papanini, Sovetskini, Basini xəbər alırdılar. Ağzıma elə maraqla baxırdılar ki, mən bacarınça təsvir etdiyim hər yeri gözümün önünə dəqiq gətirməyə çalışırdım. Onlar yeni yerlər haqqında heç nə eşitmək istəməyib, ayaqları dəyən yerləri xatırlamaq istəyirdilər. Xatırladıqca kövrəlirdilər. Adi, kiçik bir dalanı elə xatırlayırdılar ki, guya bir ağac və ya bir qəzet köşkü yaddan çıxsa dünya dağılacaqdı. Nəhayət, xatırlama mərasimini bitirib məni şəhəri gəzməyə apardılar. Əslində onlar mənə şəhəri göstərməyə cəhd etsələr də əsl məqsədləri yaddan çıxıb qalan, onları maraqlandıran suallara cavab almaq idi. Təyyarənin uçmaq vaxtına lap az qalanda məni qaytarıb yenidən Hacı Məhəmmədin dönərxanasına gətirdilər. Çünki çantamı orada qoymuşdum. Səmimi görüşüb ayrıldıq. Getməyə hazırlaşıb Məhəmməddən ona olan borcumu xəbər

aldım. O, əlini lopa bığlarında gəzdirib, sonra əlini fırladıb otağı göstərdi : Sən bayaqdan oturduğun bu məkan Azərbaycanın bir parçasıdır,- dedi. Özün bilirsən ki, bizdə qonaq pul ödəmir. Pulu Aydın ödəyib. Aydın onların hansı olduğunu anlaşdıramağa çalışaraq qapıdan çıxdım. Bir neçə gün də Amsterdamda qaldım. Bütün gəzməli yerləri gəzdim. Gözəlliklərdən həzz aldım, indi isə təyyarədən aşağı baxırdım. Topa -topa buludların arasından babamın xəyalını gözümün önündə canlandırmağa çalışırdım. Öz- özümə dönə - dönə sən düz deyirsən, baba, - deyib təkrar edirdim. Bu səyahətimin ən gözəl yeri, Məhəmməd demiş, Azərbaycanın bir parçası olan o məkan idi ki, orada istilik, məhəbbət, qayğı və hörmət var idi. Evə çatan kimi nənəmə ilk sözüm bu oldu: -- Nənə, sən düz deyirsən Azərbaycan duyanın hər yerindən gözəldir.

-

## İNTİHAR

Ceyhun bu il universiteti qurtarırdı. Orta məktəbi kimi, ali məktəbi də əla qiymətlərlə başa vururdu. Amma ürəyində heç bir hiss yox idi. Kədərlənməsə də, sevinə də bilmirdi. Heç rayona getməyə də həvəsi yox idi. Halbuki uşaqlar böyük həvəslə Nahidin toyuna getməyə hazırlaşırdı. Onlar universitetə qəbul olan ili Nahidgildə olmuşdular. Uzun müddət orada keçirdikləri xoş günləri unuda bilmirdilər. Həvəsi olmasa da uşaqlardan ayrılmaq istəmirdi. Çünki bilirdi ki, getməsə təkcə Nahid deyil,uşaq-

ların hamısı inciyəcəkdi. Uşaqlar Ceyhunun zarafatlarını çox sevirdi. Universitetin uzun enli dəhlizində dayanıb pəncərədən çölə baxırdı. Həyətdə uşaqlar qaynaşırdı. Ceyhun havaların qızdığını indicə anladı. Çünki hamı nazik paltarda idi. O,isə qış boyu neçə geyinirdisə elə həmin şalvar,köynək və gödəkcə idi. Nə qışda havanın soyuq olduğunu hiss etməmişdi, nə də ki, indi havanın qızdığından xəbəri yox idi. Bir an ona elə gəldi ki, çöldə altmış dərəcə istilik olsa yenə də bu gödəkcə ilə gəzərdi. Bütün hisslərinin öldüyünə təəccüb etmirdi. Bir vaxtlar başını dərslər və imtahanlar qatırdı. Hal hazırda ona elə gəlirdi ki, universitetin pəncərəsindən bir başa boşluğa atılıb havadan asılı qalacaq. Nədənsə boşluq da onu özünə çəkirdi. Havada uçmaq istəyirdi. Oğlanı fikirdən Süsənin səsi ayırdı. Qızın nəşəsi yerində idi. İçəridən gülə- gülə çıxıb, yenə də gülürdü. Ceyhun çevrilib ona baxdı. Qızın nəyə güldüyünü anlamaq istəyirdi, Lakin onun danışdığı sözlər başına çatmırdı. Ona elə gəlirdi ki, söz qızın ağzından çıxır və ona çatmaq əvəzinə havada uçur. Ceyhun Süsəni sevirdi. Ona görə bu dünyada bu qız kimi gözəl, incə, ağıllı, şirin qız yox idi. Birdən- birə ürəyindən bir hiss keçdi. Elə indi bu saat Süsənə sual vermək istədi. Demək istəyirdi mən səni sevirəm, sən də məni sevərsənmi? Qızın gözünün içinə baxırdı. Nə dediyini isə başa düşmürdü. Hətta onu da bilmirdi ki, artıq sual veribmi? Qızın üzünə baxıb cürbəcür cavablar uydururdu. Birdənbirə Süsənin səsindən diksinib sanki yuxudan ayıldı. Qız onun qolundan tutub silkələyirdi:" Eşitmirsən? Səhərdən

danışıram cavab vermirsən? Elə bil ayaq üstə yatırsan. Nə olub?" Özünü ələ alıb gülümsədi. Qız sualını təkrar etdi:

- Toya gedəcəksən?

Qətiyyətlə:Hə, - deyib oradan uzaqlaşdı.

İki gündən sonra kirayələdikləri kiçik avtobusla rayona toya gedirdilər. Ceyhunun əlacı olsaydı həmin bu maşınla, bu uşaqlarla hara desən gedərdi. Maşından heç düşməzdi, toplumdan ayrılanda dərd onu didib parçalayırdı. Burada isə ayrı aləm var idi. Uşaqlar danışıb gülürdülər. Onu söhbətə cəlb edə bilməsələr də heç olmasa onları dinləyirdi. Ortalıq get-gedə qızışırdı. Uşaqlar gülməkdən qəşş edirdilər. Ən çox da Şahinin qızlardan birinin şalını belinə bağlayıb qadın rəqqasələr kimi oynamağı ləzzət edirdi. Bir azdan musiqini dəyişib hamı oynamağa başladı. Ceyhundan başqa bir – iki nəfər də oynamırdı. Ceyhun nəinki oynamırdı, artıq çoxdan burada deyildi. Bütün varlığı ilə evlərinə dönmüşdü. Anasının ağlamağı gözünün önündən çəkilmirdi. Çəkilmirdi deyəndə axır vaxtlar bunu hər gün görürdü, lakin bu axırıncı dava onu yandırırdı. Ceyhun ailələrinin xoşbəxt olduğu illəri xatırlayırdı. Onların da sakit və xoş günləri var idi. Atası səhər işə gedir, axşam evə dönəndə anası onun gəlişini məhəbbətlə gözləyirdi. Birlikdə yeyib- içib şənlənirdilər. İştirahət və bayram günlərində gəzməyə gedirdilər. Demək olar ki, ata - anası ayda iki- üç dəfə toya və ya başqa şənliyə gedirdilər. Birlikdə bazar -dükanı gəzib evə, ailəyə nə lazımdırsa alırdılar. Qırılıb tökülən

yerləri təmir etdiridilər. Evdə köhnələn hər şeyi təzələyirdilər. İki -üç il bundan əvvəl hər şey dəyişməyə başladı. İlk günlər atası evə gec gəlməyə başladı. Get- gedə bayram günlərində gəzməyi azaltmağa başladılar. Sonra isə bir dəfəlik ləğv etdilər. Çünki o günlərdə atası evdə olmurdu. Hər dəfə yeni bir işi çıxdığı üçün hara isə getməli olduğunu söyləyirdi. Bütün bayramları onsuz keçirməli olurdular. Əslində bayram günləri onlar üçün matəmə çevrilirdi. Sonralar toylara heç vaxt anası ilə getmədi, bəhanə gətirib tək çağırıldığını deyirdi. Evdə hər şey qırılıb, dağılıb köhnəlməyə başladı. Heç nəyə baxan yox idi. Ata-anası bütün günü dalaşırdı. Davalar dözülməz hal almışdı. Uşaqların dərsinə, yeməyinə, geyiminə fikir verən yox idi. Günlər bir- birindən pis gəlirdi. Atası günbəgün yadlaşırdı. Heç nə vecinə deyildi. Nə qızların ağlamağı, nə Ceyhunun hədsiz dərəcədə kefsiz olmağı onu narahat etmirdi. Bir həftə bundan əvvəlki hadisə oğlanı dəhşətə gətirmişdi. Səhər yuxudan ata - anasının növbəti davasına oyanmışdı. O, hər gün ümidlə ata - anasının əvvəlki günlərə qayıtmağını gözlədiyi halda atası var səsi ilə bağırıb : Mən bir dəfəlik boşanıram,- deyirdi. Ceyhun universiteti qurtarır, daha yekə kişidir. Atasının sözü qədər anasının sözü onu yandırırdı. O, deyirdi: ” Nəyimə lazımdır Ceyhunun universiteti qurtarmağı”.

Avtobus Nahidgilin qapısının önündə dayanmışdı. Uşaqlar yenə də nəyə isə gülürdülər. Bir an Ceyhuna elə gəldi ki, uşaqlar onun düşündüklərini eşidib ona gülürlər. Hamı düşmüşdü, bir tək Ceyhun arxa oturacaqda

oturub fikrə getmişdi. Nahid gəlməsə hələ də oturduğu yerdən qalxmaq istəmirdi.

Bu gün Nahidgildə "Ciyər axşamı" idi. Rayonlarda belə bir adət var idi. Toydan bir gün əvvəl, ən yaxın adamlar yeyib içib oynayırdı. Bu mərasimin adı "Ciyər axşam"ı idi. Lakin bu əsl toy idi. Həyətdəki böyük çardağın altı adamla dolu idi. Ceyhun çox təəccüb edirdi. Burada bir toyun adamı var idi. Amma eyni zamanda bir sərbəstlik var idi. Məclis ancaq yaxın adamlardan ibarət olduğu üçün əsl kef məclisini xatırladırdı. Aman Allah, Ceyhunu Nahidgilin ailəsi mat qoymuşdu. Onun ata, anası qollarını bir- birinə keçirib uşaqlarının əhatəsində oynayırdılar. Hər ikisi Nahidi bağrına basıb öpürdü. Xalalar, bibilər əyinlərində xələt, əllərində kəfgir qaçıb rəqs edənlərə qoşulurdu. Ceyhun evlərində dava -dalaş başlayan gündən bəri evlərində bir qohum görməmişdi. Nə ata tərəf, nə də anasıgildən bir kimsə qapılarını açmırdı. Halbuki uşaqlığı əmilərinin, dayılarının, xala və bibilərinin məhəbbətinin əhatəsində keçmişdi.O, Nahidin yerində özünü, onu quçaqlayanların yerində öz bibilərini,xalalarını görürdü.

Bayaqdan oynayıb yorulmuş uşaqlar oturmağa gələndə Ceyhunu danlayıb, nə olub, niyə yasa batmısan?- dedilər. Söz oğlana güllə kimi dəydi. Gələn dəfə uşaqlara qoşulub ayağa durdu. Nahidi çox istəyirdi. Ona xoşbəxtlik arzulayırdı. Amma oynaya bilmirdi, ürəyindən daş asılmışdı, daşı sürüyə bilmirdi. Hara baxırdısa gözüyaşlı anasını görürdü. Səsi qulağına gəlirdi. Axı niyə mənim

atam bizimlə maraqlanmır, bizim taleyimiz onu narahat etmir, deyə düşünürdü. Nahidin atası da onun atası kimi yol idarəsinin rəisi idi. Evləri, məhlələri cənnəti xatırladırdı. Hara baxırdısa gözünü oxşayırdı. Onların evləri isə xarabalığa bənzəyirdi. Atası gözünün ucu ilə evə baxmırdı. Olan qalan köhnə əşyaları da vurub qırmışdı. Kül qabı atmaqdan divarlar, mebellər deşik- deşik olmuşdu.

Bu təntənəli mərasim gecə yarısı sona yetdi. Uşaqları qohumlar evlərinə apardı. Ceyhunu Nahidin anası heç yerə getməyə qoymadı. İkinci mərtəbədə lap başdakı otaqda ona yer açdı. " Bu uşaq kefsiz görünür, narahatam", - dedi. Gecəni Ceyhun daş kimi yatdı. Səhər onu yuxudan çardağın altından səsləri gələn uşaqlar oyatdı. Qalxıb pəncərədən baxıb niyə güldüklərini düşünürdü. Ona elə gəlirdi ki gülməli heç nə yoxdur. Axır vaxtlar nə vaxt gülməyini xatırlamırdı. Hərdən içindən gəlməsə də kiminsə xətrinə gülümsəyirdi. Tələsik geyinib aşağı düşdü. Masaya yaxın otursa da bir fincan çayı zorla içdi.

Günortadan azca keçən kimi gəlin gətirməyə hazırlaşdıqlarını görəndə Ceyhun təəccüb etdi. lakin qız evində anladı ki, burada bir adət də var ki, bəyə və onun dostlarına süfrə açırlar. Yenidən yeyib içmək mərasimi başladı. Masanın üstündəki nazı- nemətlərə baxıb, heç nə yeyə bilmirdi. Sadəcə özünü yeyirmiş kimi göstərirdi. Yenə də gülənlərə təəccüb edib, onların xətrinə gülümsəyirdi.

Toy çox gözəl keçdi. Axşamkından fərqli olaraq indi hamı bəzəkli idi. Hətta Ceyhun axşam gördükləri

adamların çoxunu tanımadı. O məclis ona ləzzət etsə də, bu günki təntənəyə də heyran qalırdı. Məclisdə bir sanbal var idi. Rəqs edənlər, yallı gedənlər məclisi tez qızışdırdılar. Bəylə gəlin oynayırdı. Uşaqlar onları dövrəyə almışdı. Ceyhun gəlinə baxırdı. Gözəl qızdır, xoşbəxt olsunlar, deyə düşünürdü. Sonra Nahidi qucaqlayıb qulağına xoşbəxt ol, - dedi. Bir dəfə qol qaldırıb o, da oynadı. Ürəyi sıxılırdı,çölə çıxmaq istəyirdi. Nahidə bir də yaxınlaşıb qulağına : Süsənə deyərsən ki, Ceyhun səni sevirdi ,- deyib qapıdan çıxdı. Bir taksiyə oturub maşını Kür çayının kənarına sürdürdü. Taksinin pulunu verib söyüd ağacının dibində oturdu. Ayin işığında söyüdün budaqlarının suya düşən kölgəsi oynaşırdı. Azacıq əsən meh budaqları sağa, sola yellədirdi. Ceyhun suya baxırdı. Orada Süsənlə onun toyu idi. Onlar ortada oynayırdı, atası - anası, qohumları onları əhatə etmişdilər. Atası qolunu anasının qoluna keçirib bacıları ilə oynayırdı. Külək artdıqca söyüdün budaqları daha bərk yellənirdi. Və o zaman Ceyhuna elə gəlirdi ki, qonaqlar daha sürətlə oynayır. O, gözünü sudan ayırmaq istəmirdi. Çünki dərhal o mehriban ailədən ayrılır, əsl həqiqət gözünün önündə canlanırdı ki, orada nə ailə var idi, nə də mehribanlıq. Halbuki, bir vaxtlar o ailə var idi, onun isti ocağı, dolu bucağı, tükənməz sevgisi var idi. O ocağı sarı qız dağıtdı. Bir vaxtlar atasının maşınında gördüyü boyalı qız. Ceyhun gözünü sudan çəkdi. Reallıqla üz-üzə qaldı. Səhər evlərinə dönməli idi. Bir neçə gündən sonra məhkəmə olmalı idi. Ceyhun anasının halını düşünəndə dəhşətə gəl-

di. Sevil ailəsinin dağılmağını təsvir etmirdi. Qohumlarla, rəfiqələri ilə danışanda yalan sözdür deyirdi. Zahid məndən heç vaxt ayrılmaz, uşaqlarını atıb getməz. Zahid isə artıq ayrılmaq üçün məhkəməyə müraciət etmişdi. Özü də getməyə hazırlaşırdı. Bunu kim bilməsə də Ceyhun bilirdi. O, yavaş- yavaş əşyalarını aparırdı. Hətta qarajdan maşın hissələrini daşıyıb aparmışdı. Sevil buna inanmasa da Zahid onu və uşaqları atıb gedirdi.

Ceyhun yenidən suya baxdı. Orada yenə toy idi. Sürətlə axan Kür çayının üzərində, ay işığında oynaşan kölgələrdə yenə ata ,anasını, qohumları görürdü. Onlar yallı gedirdi. O, suya diqqətlə baxıb atası ilə anasının arasına girmək istəyən sarı qızı gördü. Qız onlara çatırdı,atasının əlini anasının əlindən qoparmağa çalışırdı. Ceyhun var səsi ilə, yox deyib suya atıldı. Ertəsi gün onun cəsədini çox da uzaqda olmayan bir cəngəllikdən tapdılar. Uşaqlar səhərə gəldikləri avtobusla, o, isə atasının tutduğu maşınla qayıtdı. Onun cəsədini maşına mindirəndə Nahid hamıdan çox ağlayan Süsənə yaxınlaşıb :" Ceyhun səni sevirdi",- dedi.

-

## OĞRU

Hər il yayda rayondakı evimizə gedirdik. Lakin iş elə gətirdi ki, iki il dalbadal gedə bilmədik. Belə ki, tətili başqa ölkələrdə keçirməli olduq. Dünya cənnətə dönsə yenə öz rayonumuzdan, evimizdən ötəri darıxmışdıq. Ona görə bu il havalar qızan kimi yığışıb rayondakı evimizə getdik. Axşam tərəfi çatıb, məhləyə girəndə təəccüb etdik. Gəlmədiyimiz bu iki il ərzində hər tərəfi ot basmışdı. Ağaclar o qədər böyümüşdü ki, məhlə meşəni xatırladırdı. Aslan qonşudan bir fəhlə tapıb gətirdi. Heç olmasa evin qarşısındakı otları yodurub təmizlətdi. Qanqallar az qala adam boyu qədər qalxıb çiçəkləmişdi. Pilləkənləri bir təhər yuxarı qalxıb qapıları açdıq. Otaqların çox böyük olduğunu sanki indi görürdüm. Şəhərdəki evdən sonra bura qəsri xatırladırdı. Pəncərələrin qabağında əkilən ağaclar böyüyüb qol- budaq atıb otaqlara qəribə bir kölgə salmışdı. Otaqları bir - bir gəzməyə başladıq. Hər yerdə eyni hal ilə qarşıladıq. Ağacların yarpaqlarının arasından çöl görünmürdü. Birinci gün toz - torpağı bir az təmizləyib, əşyalarımızı yerləşdirdik. Ertəsi gün köməkci bir qadın gətirib təmizlik etdim. Pərələri dəyişib dolabdakı təmiz pərdələri asdırdım. Ev səliqəyə düşdükcə gözəlləşirdi. Böyük açıq eyvanda oturub, bu evin vaxtı ilə olan səs -küylü vaxtını xatırlayırdım. Bir vaxtlar bu pilləkənlərlə uşaqlar yuxarı aşağı qaçıb hay- haray salardılar, həyətdə kimlərsə nərd oynayır, Məsmə arvad həyətin bir tərəfində yorğan- döşək salırdı. Cardağın altında söhbət

edən qadınların səs- küyü ətrafı başına götürürdü. İndi isə tam sakitlik idi. Samovarı qaynadıb şənlik yaratmaq istədim. Ətrafına toplaşan olmadığı üçün bir şey alınmadı. Axşamdan bir az televizor izləyib yatmağa keçdik. Gecənin bir vaxtı qulağıma qəribə səs gəldi. Ayıldım, narın- narın yağış yağırdı. . Hərdən şimşək çaxıb otağımızı işiqlandırırdı. Dünəndən bizə məlum olmuşdu ki, gecələr işıqlar sönür. Ona görə yanımdakı dolabın üstünə batareya qoymuşdum. Batareyanı yandırıb oturdum. Bayaqkı səs yenidən gəldi, lap aydın eşidildi. Kimsə pianinonu dınqıldadırdı. Piano qapısı biz yatan otağa açılan böyük dəhlizdə yerləşirdi. Çox təəccüb etdim. Nə Aslan, nə də mən piano çalan deyildik. Ona görə ona yaxın gedib qapağını açdığımız yadıma gəlmirdi. Piano çalan isə durmadan dınqıldadırdı. Sanki bu başdan başlayıb o başadək dilləri basa - basa gedir və bir də təkrar edirdi. Qorxa- qorxa Aslan tərəfə baxdım. Səsə o, da oyanıbmış. Barmağını dodağının üstünə qoyub sus işarəsi verdi. Sonra cəldliklə yerindən qalxıb qapını arxadan bağladı. Ehmalca dolabdakı ov tüfəngini götürüb hazır vəziyyətə gətirdi. Səs isə kəsmək bilmədən davam edirdi. Təəccüblə: Oğru niyə piano çalır?- dedim. O, yenə də sus işarəsini verib qapıya lap yaxınlaşdı. Pıçıltı ilə: Bizim oyaq olmağımızı bilmək istəyir , - dedi. Bir şey anlamasam da inanmağa məcbur oldum. Yağış artmışdı, şırhaşırla yağırdı. Müsiqiçimiz daha bərk dınqıldatmağa başlamışdı. Aslan hirslənib rəzəni acıb qapını itələdi. Onu görəndə iri qara pişik pianonun üstündən hoppanıb miyoldaya - miyolda-

ya dəhlizdən qaçıb zala keçdi. Qapını açıb pişiyi çölə qovub gülməyə başladıq. Sən demə təmizliyə gələn qadın tozunu təmizləmək üçün pianonun qapağını açıb, sonra da açıq qoyubmuş. Amma hər dəfə bu hadisəni danışıb güləndə bərk qorxduğumu da xatırlayıb məyus olurdum.

## TƏSDİQ OLUNMUŞ YALAN

Sərdar uzun illərdən bəri Oktay müəllimin yanında sürücü işləyirdi. Kişinin işini bir idarədən başqa idarəyə keçirəndə mütləq Sərdarı da özü ilə aparırdı. Hələ vaxt olurdu ki, Oktay müəllim işsiz qalırdı. Həmin vaxt Sərdar da bağındakı meyvədən, zaddan satıb bir təhər dolanıb, Oktay müəllimin yeni iş tapmağını gözləyirdi. Bu işə hər kəs təəccüb etsə də olan bu idi. Hamıya təəccüblü gələn o idi ki, Oktay müəllimlə Sərdar bir - birindən tam fərqli adamlar idi. Oktay müəllim çılğın, tez hirslənən, hövsələsiz adam idi. Sərdar isə onun əksinə sakit, səbirli, ağzıbütöv, etibarlı bir adam idi. Qəribəsi o idi ki, Oktay müəllim onunla çox hörmətlə davranırdı. Ya Sərdar özünə söz dedirtmirdi, ya da ki, Oktay ona hörmətlə yanaşırdı. Ən vacibi isə Oktay müəllim ona çox güvənib etibar edirdi.

On beş günə yaxın idi ki, Sərdarın atası rəhmətə getmişdi. Atasının qəfil ölümü onu sarsıtmışdı. Heç cür özünə gələ bilmirdi . Oktay müəllimin xətrinə işə gəlsə də özündə sözündə olmurdu. Atası ona tək atalıq etmə-

mişdi. Onunla həm yaxın dost, həm də güvəniləcək qardaş kimi idi. Oktay müəllimin evində isə iki gün idi ki dava gedirdi. O, iki gün bundan əvvəl evə gecə yarı dönmüşdü. Köynəyində dodaq boyasının ləkələri olmağı ilə yanaşı, sərxoş halda, Gülnaz xanıma başqa bir qadının adını deyib müraciət etmişdi. Vəssalam, elə o dəqiqədən bəri Gülnaz xanım susmaq bilmədən dava edirdi. Dodaq boyasına batmış köynəyi Oktayın gözünə soxub: Nara kimdir? - deyib dururdu. Kişi isə qətiyyətlə Nara adlı birini tanımadığını, köynəyini isə sousla buladığını təkrarlayırdı. Hər səhər işə getməmişdən əvvəl dava başlayır, arxası kişinin işdən dönməyinə qalırdı. Kişinin andının- amanının heç bir xeyri olmurdu. Gülnaz günlər ötdükcə sakitləşmək əvəzinə daha da qızışırdı. Axır günlər paltarlarını da toplayıb, boşanıram deyirdi. Bu durumdan uşaqlar əziyyət çəkib, gül kimi saralmışdı. Oktay vəziyyəti düzəltmək üçün çarə axtarırdı. İlk ağlına gələn Sərdar oldu. Gülnazın ona inam və etibarı olduğu üçün onu çağırıb dedi:

- Sərdar, sən atanın goru, bu Gülnaza düzünü de, mən Nara adlı birini tanıyıram?

Sərdar başını qaldırıb Oqtay müəllimin üzünə baxdı. Sonra əlini atası ölən gündən bəri qırxılmadığı üçün tük basmış saqqalında gəzdirib sakit bir tərzdə dedi:

- Atamın goru haqqı tanıyırsan.

Gözünü Sərdarın ağzına dikmiş olan Oktayla, Gülnaz hər ikisi birdən diksinib: Nə? - deyə qışqırdılar.

Sərdar halını pozmadan: Oktay müəllim, atamın öldüyünün heç qırx günü tamam olmayıb,bağışla onun goruna yalandan and içə bilmərəm, deyib oradan uzaqlaşdı. Oktay ilə Gülnaz bir an susub qəhqəhə ilə gülməyə başladılar. Elə bu gülüşdə onların barışmağına səbəb oldu.

Amma hər nə olur olsun, Oktay müəllim Sərdardan əl çəkmədi. Yenə də uzun illər bir yerdə işlədilər. Hər dəfə kişi o söhbəti yad edəndə, Sərdar haqlı olduğunu deyib gülürdü.

## MEMAR

Səlim universitet bitirəndən yaxşı işlərdə işləyirdi. Həm iş yerlərində, həm də xalq arasında yaxşı hörməti var idi. O, yaxşı insan olmaqla yanaşı həm də çox zarafatcıl adam idi. Bacarınça dava -dalaşdan, söz- söhbətdən kənar olmağa çalışardı. Ona görə də ən mürəkkəb davalı bir məsələni zarafata salıb üstündən ötərdi. Bir də onun bir xüsusiyyəti var idi. Halallıqla, zəhmətlə qazandığı pulu yeyib içməyə xərcləyirdi. Masa arxasına da tək keçməyi sevməzdi. Qohumu-qonşunu, dostu başına yığıb kef məclisi açardı. Hər kəs də onun yanında oturmaqdan həzz aldığı üçün, onun məclisində olmaq üçün can atırdı. Demək olar ki, Səlimin gəncliyi beləcə ötdü. Və bir vaxt gözünü açıb gördü ki, oğlu - qızı böyüyüb. Qazandıqları isə kef məclislərində yeyilib, içilib qurtarıb. Uşaqlar çətinliklərlə üzbəüz qalıb. Qızlar böyüyüb, qapını elcilər döyməyə başlayıb. Onlara cehiz verib, toy edib yola salmaq

lazım idi. Oğlanlar qız sevirdi, qızıl alıb nişan aparmaq, sonra da toy edib ev-eşik yiyəsi etmək lazım idi. Səlim balalarını çox sevirdi. Onların hər işini yerli yerində görmək istəyirdi. Qızlarının ər evinə cehizsiz getməyinə razı ola bilməzdi. Nə də ki, oğlanlarının ailə quracağı qızın qarşısında gözü kölgəli olmağını istəmirdi. Leylinin axır vaxtlar ona verdiyi xəbərlər sanki kişini silkələyib yuxudan oyatmışdı. Uşaqların böyüdüyünü indi görürmüş kimi onlara yenidən nəzər salırdı. Baxıb Leylinin haqlı olduğunu anladı. Doğurdan da baba olmaq vaxtının çatdığına əmin olub, düşünməyə başladı. İlk əvvəl yeyib- içməyi, qonaqlıqları azaltdı. Ayıq başla problemləri dinləyəndə qarşıda onu böyük çətinliklər gözlədiyini görüb, baş sındırmağa başladı. Gecə- gündüz nə edəçəyini düşündü. Onun ətrafına yığılıb müftə yeyib içənləri dərd götürmüşdü. Səlimin məclisləri olmasa qarınlarını harada dolduracaqlarını , boğazlarını harada otaracaqlanı düşünüb narahat olurdular. Nəhayət dostlardan biri Səlimə halal yolla çox pul qazanmaq üçün yol göstərib dedi:

- Ay qardaş,sən yaxşı memarsan. Əlindən hər iş gəlir. Baş daşı düzəldənlər pula pul demirlər. Demirsən ki, halal pul? Burada haram heç nə yoxdur, zəhmət çəkib daşların üzərinə şəkil çəkib pulunu da alacaqsan.

Səlimin əvvəlcə təklif xoşuna gəlmədi. Lakin bir neçə gündən sonra düşünüb daşınıb bu işi əlinə almaq qərarına gəldi. Onu bu sənətdə tanıyan olmadığı üçün tanışlardan ona müştəri tapmağı xahiş etdi. Aradan az bir zaman keçməmiş dağ kəndlərinin birindən bir oğlan gə-

lib atası üçün daş sifariş etdi. Səlim başında böyük, el arasında motal papaq deyilən bir papaq olan qoca çirkin kişinin şəklini daşa döyməyə başladı. İşini asan və tezliklə yerinə yetirib özündən razı halda müştərinin gəlməyini gözlədi. Axşam ürəklə qonşunun toyuna getdi. Yaxşıca yeyib, içib həmişəki adətindən fərqli olaraq ertədən yatdı. Gecə yarıdan sonra yuxudan oyanıb su içmək üçün həyətə düşdü. Pilləkənlərin başında ilk gözünə sataşan cardağın altında dayanan qoca, papaqlı kişi oldu. Səlim sərxoş halda haradansa tanıdığı kişini səslədi:

- Ay kişi, nə gəzirsən orada ? Səninlə deyiləm, ay kişi,nə edirsən mənim həyətimdə?

Səlim nə qədər bağırdısa motal papaq kişi yerindən tərpənmədən, ağzında da lopa bığları dayanıb ona baxırdı. Kişinin cin başına vurdu. Hirsindən dil- dodağı əsdi. Bir göz qırpımında içəri keçdi. Ov tüfəngini götürüb, gülləni tüfəngin ağzına verib, tətiyi çəkdi. Güllə daşa dəymiş kimi bir səs çıxarsa da deyəsən qocanın sifətinin bir tərəfi parçalandı, amma o,yenə də məğrur bir görkəmlə yerində dayanmışdı. Səlim çox təəccüb etdi. Sonra özü zorla ayaq üstə durduğu üçün : Cəhənnəmə dur yerində,- deyib su vedrəsinin üstündəki qulplu, dəmir qabı doldurub doyunca su içib,yatmağa getdi. Səhər yuxundan hamıdan tez oyanıb gecəki hadisəni zorla xatırladı. Yenə təəccüb etdi, yerindən dik atılıb həyətə düşdü. Pilləkənin başına çatan kimi gözü bir tərəfini güllə parçalamış olan daşa sataşıb məsələnin nə yerdə olduğunu anlayıb məyus oldu. Başı bərk ağrıyırdı, elə bil başından daş asılmışdı.

Həyətdəki taxtın üstündə oturub fikrə getmişdi. Elə bu zaman daşı sifariş edən oğlanın özü deyil, böyük qardaşı daşı aparmağa gəldi. Kişinin həm də yeni sifarişi var idi. Qayınatasına daş sifariş etdirmək istəyirdi. Ona görə əvvəlcə sifarişini edib, sonra daşını aparmaq fikrində idi. Həmin məqsədlə çibindən qayınatasının şəklini çıxarıb masanın üstünə qoydu. Ağzını açıb danışmaq istəyirdi ki, Səlim daşa dönmüş başını qaldırıb kişinin üzünə baxıb dedi:

- Yox qardaş, qadan alım, mən daha sifariş götürmürəm. Sonra əlini daşa uzadıb: Bu köpək oğlu bu gecə məni qorxudub, dəli edib, - dedi.

Kişi təəccüblə donub Səlimin göstərdiyi səmtə baxdı. Atasını bir tərəfi parçalınmış daşına görüb gözləri böyümüş halda dedi:

- Atam?

Səlim qarşısındakı kişinin sifarişçinin qardaşı olduğunu anlayıb pərt oldu. Daşı parçaladığı yetmir hələ üstəlik də oğlunun yanında kişiyə söydüyü üçün iki qat peşman oldu. Oğlandan dönə -dönə üzür istədi. Və doğrudan da o gündən sonra baş daşı düzəltməyi bir dəfəlik ləğv etdi. Bu onun ilk və son sifarişi idi.

## RUS QONAQ

Ermənilər yenidən torpaq iddiasına düşüb, indi də gözlərini Qarabağa dikmişdilər. Başqasının yalına hürməyi adət etmiş mənfur qonşular günbəgün coşur, öz uydurduqları yalanlara inanıb, torpaq tələbi ilə mitinqlərə başlamışdı. İlk günlər bu sözlərin boş cəfankiyyat olduğunu söyləyənlər get- gedə təəccüb etməyə başladılar. Bir sözlə başımızın üstünü qara buludlar almışdı. Bu qara xəbərlər elə qara, zəhərli ilan kimi kəndbəkənd gəzirdi. Çox keçmədi ki, ermənilər sözdən hərəkətə keçdilər. Nəinki Qarabağda, bütün sərhəd rayonlarında atəş səsləri eşidilməyə başladı. Əvvəl- axır, ağ yalan uyduran bu xalqın susacağını gözləyən kənd sakinləri vəziyyətin daha da pisləşdiyini görüb özlərini, ailələrini qorumaq üçün könüllülərdən ibarət dəstə düzəldib ,keşik çəkməyə başladılar. Sərhəd rayonlarından gələn xəbərlər hər gün artırdı. Təpədən dırnağa kimi silahlanmış acgöz ermənilər əliyalın xalqa vaxtaşırı hücum edirdi. Hətta iri çaplı silahlardan atəş açıb evləri dağıdırdılar. Hər gün atəşə tuş gəlib ölənlərin sayı artırdı. Bu bəd xəbərlər Fikrəti qurub yaratdığı pambıq zavodunun uğurlarından həzz almağa qoymurdu. Nəinki həzz almaq heç sevinə də bilmirdi. Vətənin başının üstünü alan qara buludlar onun əhval-ruhiyyəsini qara edirdi. Bu il bol məhsul götürüb ilk qazancını əldə etmişdi. Bu sahədə daha yeni mükəmməl işlər görmək arzusunda idi. Çünki açmış olduğu zavoda çoxsaylı işçi qüvvəsi tələb olurdu. Bu da əhali arasındakı

işsizliyi aradan götürdüyü üçün Fikrətin sevincinə səbəb olurdu. Lakin bu sabah eşitdiyi xəbər onu fikrindən daşındırdı. İlk öncə düşmənin silahlı basqınına tuş gələn qocalara və körpələrə yardım etmək lazımdır deyib, ermənilərlə sərhəd olan Tovuz, Qazax bölməsinə yollandı. Məqsədi keşik çəkən könüllülərə yardım etmək idi. Bir başa yaxın dostu Süleymanın evinə üz tutdu. Ondan kəndlərdəki vəziyyəti, həm də neçə kömək etmək lazım olduğunu öyrənmək istəyirdi. Qapıda onu Süleymanın kiçik qardaşı Musa qarşılayıb içəri apardı. Fikrətin gəlişini tək qardaşlar deyil, könüllülər dəstəsinin bütün üzvləri sevinclə qarşıladı. Birlikdə axır günlərdə baş verən hadisələri müzakirə etdilər. Süleyman uşaq göndərib, bu axşam keşikdə dayanan Əlini çağırtdırdı. Ondan keşik çəkənlərə nələr lazım olduğunu öyrənmək istəyirdilər. Süleymanın anası həmişəki kimi Fikrətin şəninə yaxşı süfrə açmışdı. Yemək masasının başında günbəgün kəskinləşən münasibətlərdən danışırdılar. Süleyman uşaqların arasında ən dəliqanlısı, çılğını olan Əlidən danışırdı. Əslində hər kəs vətənpərvər idi. Bir qarış torpaq uğrunda canından keçməyə hamı hazır idi. Lakin Əli dəlisov olduğu üçün hisslərini çilovlaya bilmirdi. Ermənilərin torpaq iddiası onun onsuz da kəm olan hövsələni daraldırdı. Süleyman Əlinin darvazadan içəri girdiyini görüb susdu. İçəriyə yekəpər, nataraz bir oğlan girdi. Hay küylə otağa keçib Fikrəti görüb döyükdü. Bir an duruxub kobud tərzdə dedi:

- Əə, Süleyman bu rus haradan gəlib?

Fikrət sarışın göy göz oğlan idi. O, Əlinin onu rusa oxşatdığını başa düşüb ehmalca Süleymana göz vurdu. Süleymanla Fikrət hələ tələbəlik illərindən dost idilər. Aralarında zarafatları var idi. Odur ki, Süleyman Fikrətin eyhamını dərhal başa düşüb, ciddi bir görkəm alıb rusca danışmağa başladı. Fikrət də özünü guya Əlinin nə dediyini anlamırmış kimi göstərib rus dilində Süleyma cavab verdi. Hirslənmiş Əli yenə sual verdi: -Əə, demirəm bu rus burada nə gəzir? -Süleyman ciddi görkəmini pozmadan dedi: -Moskvadan gəlib, burada baş verən hadisələrdən kino çəkəcək. Əli çılğın və əsəbi bir tərzdə dedi: -Əə qağa, bizim aramıza müharibəni salan ruslardır ey. Erməni bizdən torpaq istəyə bilər? Onları qızışdıran rusdur ey rus. İndi nə çəkməyə gəlib Əə, bu? -Süleyman yenə də bayaqkı tərzdə dedi: --Bəsdir, Əli bu kişi bizim xalqın dostudur. Gəlib bizim haqsızlığa uğramağımız haqqında kino çəkəcək.

- Əli başını bulayıb, çiynini çəkdi, sonra da dedi:

- Mən bunlara inanmıram, qoy rədd olsunlar.

Fikrət guya Əlinin sözlərindən tam xəbərsiz imiş kim rus dilində sakit bir tərzdə söhbətini davam edirdi. Əli bir az onlara baxıb birdən birə həvəsə gəlib dedi: -Süleyman, bu əclaf məni də kinoya çəkərmi? -Süleyman bir az duruxub dedi: -Bəs nə? Səni çəkməyib kimi çəkəcək? Əli lap həvəsə gəlib dedi: Süleyman, yaxşı tut arağım var, gedim gətirimmi, Əə? De ki, məni də çəksin. Süleyman başının hərəkəti ilə get gətir işarəsi verdi. Əli dabanı üstə fırlanıb qapıdan çıxdı. Özlərini gülməkdən zorla saxla-

yan uşaqlar, Əlinin öz əli ilə çəkdiyi tut arağını gətirməyini həvəslə gözləyirdilər. O,beş dəqiqədən sonra əlində tut arağı geri döndü, amma qəribə halı var idi. Yenə də cin - cin olmuş bir görkəmlə dedi: Əə, Süleyman, atamın goru haqqı bunun ağzını partlatmaq istəyirəm. Çəkir çəksin, çəkmir çəkən günü olmasın. Nəyimə lazımdır ,Əə bu külbaşın kinosu. Aranı qatıb kino çəkməyə gəlib şərəfsiz. Ağzımda sənə deyirəm bu əclaflardır davanı salan. Bir bunun sifətinə bax də görmürsən nə yumruq yeri var orda? Bizdən torpaq istəyirlər? Əə, buna de ki, əllərimlə boğaram mənim torpağıma göz dikəni. Sən canın bunu bir yaxşı - yaxşı söylət görək bunun özü nə fikirdədir. Başa düşürmü ki, biz öz torpağımızı qorumaq üçün dava edirik? Süleyman Əlinin hələ də əlində tutduğu araq şüşəsinə baxıb dedi: Sənə deyirəm ki, bu adam bizim haqlı olduğumuzu bilir. Elə ona görə gəlib bayaqdan səndən danışıram ki, səni çəksin, nə oldu birdən birə ? Əli arağı masaya qoyub, içsin zəhəri olsun, amma bizim torpaqlara göz dikənin kinosu zadı mənə lazım deyil, - dedi. Sən balanın canı bir soruş görək bu nə deyir ? Sənin başın haqqı bir qarış torpağımızda gözləri varsa ağzını partladacam bunun. Əlinin gətirdiyi tut arağı məclisi bir az qızışdırdı. Səs küy artmışdı. Əli bir iki qədəh içəndən sonra lap həvəsə gəlmişdi. Film qəhrəmanı olmaq həvəsi daha da artmışdı. Əməlli başlı coşub rusa başqa hədiyyələr də gətirmək fikrinə düşmüşdü. Az qala filmin ssenarisini düşünməyə başlamışdı. Əl qolunu ölçə - ölçə otağın düz ortasında dayanıb danışırdı. Bir anda gözü masanın ba-

şında oturan rus oğlanla göz gözə gəlib susdu. Sonra əlini Fikrətə uzadıb dedi: - Əə, sən atanın goru bu xortu masanın başından rədd elə, a kişi gördükcə havalanıram. Qaşınıram ey, qaşınıram. Rədd olsun bunun özü, də kinosu da. Fikrətin bu çılğın, dəliqanlı torpaq sevgisi ilə alışıb yanan vətənpərvər oğlana gülməyi tutsa da, özünü zorla saxlayırdı. Əli isə kinoya çəkilməyə həvəslənsə də içindəki vətən sevgisi onu didib parçalayırdı. O, film qəhrəmanı olmaqla, düşmənə olan nifrətin arasında qalmışdı. Süleyman onu həvəsləndirdikcə ilan kimi fısıldayıb, Əə yox ey mən bunu döymək istəyirəm,- deyirdi. Nəhayət Fikrət gülməkdən özünü saxlaya bilməyən uşaqlara baxıb ayağa durdu. Üzünü Əliyə tutub : Yaxşı oğlansan,- dedi. Gəl danış görək könüllülər dəstəsinə necə yardım edə bilərəm? Təəccübdən gözü kəlləsinə çıxan Əli : Əyə, qağa, sən rus deyilsən?- dedi. Uşaqlar gülməkdən qəşş edirdi. Fikrət isə bu su kimi saf, elinə, obasına, torpağına bağlı olan, vətən sevgisi ilə alışıb yanan oğlana məhəbbətlə baxırdı.

## İTMİŞ SAAT

Hələ mən uşaq olanda anamın itirdiyi saat haqqında eşitmişdim. Bu saata görə babam ömründə birinci dəfə anamı danlayıbmış. Nəinki danlamaq bir neçə gün anamın üzünə də baxmayıbmiş. Qəribə də olsa babam heç vaxt bu işə görə qardaşının arvadını günahkar görmürdü. Halbuki anamla, nənəm əminliklə saatı Güləbətin nənənin apardığını iddia edirdilər. Babam hər dəfə bu sözü eşidəndə kəs səsini,- deyərdi. Görünməyən oğru bəydən, xandan doğru deyib ata - bablarımız. Mən bir tək günahkar tanıyıram o, da mənim qızımdır. O, mənim ona alıb gətirdiyim qiymətli bir hədiyyəyə hörmətsiz yanaşıb. Atasının ona sevə -sevə hədiyyə etdiyi saatı qolundan açıb, hara gəldi atıb. Anam babama təəccüb edirdi. Çünki Məhəmməd babam mala, dövlətə görə deyinən adam deyildi. Babam bu saatı Tiflisdən Şeytan bazarı deyilən bazardan bir generalın arvadından alıbmış. Babam özü ilə xeyli pul götürüb dükanlarına mal vurmağa gedibmiş. Elə alış verişə başlamaq istəyirmiş ki, bir nəfər qadının çox gözəl bir saat satdığını eşidib, qadına yaxınlaşıb. Qadın saatın çox qədim və qiymətli olduğunu, onların nəslində uzun illərdən bəri saxlandığını söyləyib. Kişi çibindəki son qəpiyədək ödəyib saatı alıb. Saatın tək özü deyil, qolbağı da brilliant daşlarla bəzədilbmiş. Üstəlik də qurmaq üçün olan yer çox böyük ölçülü göy rəngli sapfir daşdan imiş. Babam pulu ödəyəndən sonra, qadın qızınıza bir sapfir qaşlı üzük də alarsınız deyə məsləhət də

edibmiş. Bu söz babamın ağlına batıbmış. Kişi də elə üzük almaq haqqında düşünürmüş ki, saat itib.

Güləbətin nənə hələ mən uşaq ikən dünyasını dəyişmişdi. Amma o qadını yaxşı xatırlayırdım. Nənəm ilə danışmırdı. Həmişə onun haqqında xoşagəlməz bir söz deyirdi. Halbuki saat itənə qədər bir- birilərini bacı kimi sevərmişlər. Amma bizi çox məhəbbətlə qarşılayır, əzizləyir, əlimizdən tutub bağçanı gəzdirir, xoş sözlər deyirdi. Oğurluq etmiş bir qadının özündən razılığına, nənəm haqqında pis danışmağa dili olmağına, təkəbbürünə təəccüb edirdim. Mənə görə o, günahkar idi. Özünü haqlı kimi aparmamalı idi. Nənəmin isə onu görməyə gözü yox idi. Elə hey qızın saatını oğurlayıb, Məhəmmədin yanında uşağımın dilini gödək elədi,- deyib onu ittiham edirdi. Anamın Güləbətin nənəyə münasibəti tam başqa idi. Onlar həmişə səmimi görüşüb, öpüşüb söhbət edirdi. Onların uzun uzadı söhbətlərini görəndə mən təəccüb edirdim. Anam ondan ayrılan kimi sual verirdim , ay ana saatını kim oğurladı. O, hər dəfə nənəm kimi odlu alovlu deyil, sadəcə Güləbətin bibim deyib üstündən keçirdi. Əmisi arvadı olmağına baxmayaraq anam ona bibi deyirdi.

İllər ötdü, nənəmlə Güləbətin nənə dünyasını küsülü dəyişdi. Babam da rəhmətə getdi. Anam artıq ahıl bir qadın idi. Günlərin birində başqa bir kəndə hüzr yerinə getmişdi. Kənd bizdən xeyli aralıda yerləşən ucqar bir dağ kəndi idi. Anam lap toran düşəndə gəlib çıxdı. Məsələ onun geç gəlməyində deyildi. Qadının sifətində məçhul bir ifadə donub qalmışdı. O, tez -tez yazıq Güləbətin

bibim deyib təkrarlayırdı. Gah da yazıq anam günaha batdı, - deyirdi. Ay ana, nə olub?- desəm də cavab vermirdi. Nəhayət bir iki saatdan sonra özünə gəlib danışdı. Anam hüzr yerində uzaq bir qohumları ilə rastlaşıb. Söhbət əsnasında anam başa düşüb ki, onun saatını babamın bacısı qızı aparıb, daha doğrusu oğurlayıb. O vaxtlar babamın yetim bir bacısı qızı var imiş. İmkanlı bir ailəyə ərə gedibmiş. Lakin bu ailədə onunla adi bir qulluqçu kimi rəftar edirlərmiş. Gecə gündüz işləməkdən xəstəliyə düşür. Xəstə vaxtı bu bədbəxtə qayğı göstərən olmadığı üçün vəziyyəti günbəgün pisləşir. Nəhayət elə günə düşür ki, qaynanası onun çarpayısını həyətdəki dama qoydurur. Heç kimi onunla ünsiyyət bağlamağa qoymur ki, ondan sizə xəstəlik yoluxar. Soyuq damda ac, susuz qalan Suğranın vəziyyəti daha da ağırlaşıb ölümlə üzbəüz qalır. Qaynanası da kəndin ortasına çıxıb, yetimin əlində qalmışam deyir. Bir yiyəsi yoxdur ki, ismarınc edəm ki, gəlin bu zibili mənim həyətimdən götürün. Söz gəlib babama çatır. Elə ertəsi gün gedib Suğranı gətirir. Yataqdan qalxa bilməyən qızı maşın tutub bir başa Tiflisə həkimə aparır. Orada məlum olur ki, qız vərəm zad deyil sadəcə sətəlcəm olub. Həkimlər ona hər şeydən əvvəl yaxşı yeyib içmək lazım olduğunu söyləyirlər. Babam lazım olan dava- dərmanı alıb gətirir. Amma Suğraya yaxşı yemək lazım olduğu üçün bu işi də nənəmə həvələ edir. Doğrudan da çox keçmir ki, Suğra canlanıb ayağa durur. Günbəgün ətə -qana dolub gül kimi açılır. Dayısının evində doqquz aya yaxın qalan qızın kökəlib gözəlləşməyi dil-

lərdə dastan olur. Xəbər ərinə də çatır. Deyilənlərə inanmayan Mayıl babamgilin küçəsinə gəlib Suğranı güdür. Bir necə gün istədiyinə nail ola bilməsə də nəhayət kökəlib, yanaqları laləyə dönmüş yaraşıqlı əndamlı qızı görüb gözünə inanmır. O gündən hər gün gəlib Suğra ilə barışmaq istədiyini deyir. Lakin babam bu işə razı olmur. Onu bir də sənə etibar etmərəm, əgər mən olmasaydım indiyə yazıq uşağın heç sümükləri də qalmamışdı, - deyir. Suğra gecə gündüz ağlayıb uşaqları ilə görüşmək istədiyini ,- söyləyir. Və bir gün babamdan gizlin əri ilə qoşulub qaçır. Anamın dediyinə görə onun gedişinə babam sevinirmiş. Qəsdən belə edirdim, deyir. İstəyirdim ki, dama atdıqları yetimin qədrini bilsinlər.

Sən demə Suğra gedəndə özü ilə anamın oğurlayıb qoynunda saxladığı saatını da aparıb. Bu isə heç kimin ağlına gəlməyib. Babamın ölümün ağzından aldığı, nənəmin gecə gündüz keşiyini çəkdiyi qızın oğurluq etməyini təsəvvür belə etməyiblər. Halbuki, bu evə bir tək əynindəki paltarla gələn Suğra gedəndə hər fəslə aid olan paltarlarının arasına anamın saatını da yerləşdirməyi unutmayıb. Evinə çatan kimi saatı ərinə verib buralarda deyil, haradasa uzaqlarda sat gətir xərcləyək deyib. Anamın qohumu saatı gördüyünü də etiraf edib. Nəinki etiraf edib, saatın görünüşünü də təsvir edib. Suğra saatı ona babamın bağışladığını eyib.

Anam çox məyus olmuşdu. Əvvəla elə bil ki, onu bu gün itirmişdi. İkincisi onunla bərabər çox sevdiyi Suğra xalanı da itirmişdi. Ən pisi o idi ki, Güləbətin nənə ilə

nənəmin pozulmuş dostluğuna heyfi gələrdi. Onların birlikdə keçirdikləri xoş günləri xatırlayır, ən çox da nənəmin günaha batdığını düşünüb kədərlənirdi. Anam onu da yaxşı bilirdi ki, saatı Suğraya babam bağışlamamışdı. Çünki kişi ölənə qədər saatın itməyindən məyus olurmuş.

## SİRLİ DÜNYA

Günortadan sonra Nazım zəng edib, hazırlaş, rayona gedirik, - dedi. Etiraz etmək istədim sözüm ağzımda qaldı. Çünki o, dəstəyi çoxdan asmışdı. Həvəsim olmasa da hazırlaşmağa başladım. Həvəsim deyəndə əslində getmək istəyirdim, sadəcə geç olduğu üçün narahat olurdum. . Yol çox uzun idi. Bakıdan bizim rayona ən azı altı saatlıq yol idi. Yola düşəndən iki saat sonra hava qaralacaqdı, qaranlıqda yol getməkdən isə qorxurdum. Düzü bu fikri ağlıma rəhmətlik qayınatam salmışdı. Kişi üç oğlunun üçünə də deyərdi: “ Gecənin xeyrindən səhərin şəri yaxşıdır”. Heç vaxt gecə yola çıxmayın. Bu sözü Nazimə daha çox deyirdi. Çünki biz iki ildən çox idi ki, ailə qurmuşduq hələlik uşağımız yox idi. Təkliyimiz kişini narahat edirdi. Yanında gənc bir qadınla kənardan diqqət cəlb edə bilərsiniz,- deyirdi. Nazim elə atasının vaxtında bu sözlərə əhəmiyyət vermirdi. Amma məndə qaranlığa qarşı bir qorxu hissi yaranmışdı. Elə bilirdim ki, kimsə yolumuzu kəsib bizə nə isə edəcək. Yenicə yığışmağa başlamışdım ki, Nazim qapıdan girdi. O, məni dinləyib

sözümə qulaq asmadı . Necə gündür anamdan narahatam deyib, mütləq gedəçəyini söylədi. Sonra da mənim solğun çöhrəmə baxıb istəmirsən sən getmə deyib ,atasının qarasınca deyinməyə başladı: Rəhmətliyin oğlu bunun başına söz salıb də. Evdə qalmaq istəmirdim. Hoppanıb maşına mindim. Yolun yarısınadək əla gəldik. lakin atalar yaxşı deyib ki, qorxan gözə çöp düşər. Kürdəmirdə maşın xarab oldu. Nazım güzgüdə üzümə baxıb narahat olma- işarəsi verdi. Düşüb maşın ustası tapmağına tapdı, amma Ford markalı bu maşından başı çıxan usta yox idi. Yəni, iri şəhərlərdə bu elə də ağır iş deyildi. Rayonlarda isə çətin məsələ idi. Maşının qırılıb qaldığı yer çölün düzü idi. Gələn ustalar da bir az maşının sağına, soluna fırlanıb çəkilib getdilər. Bir azdan hava qaralacağını düşündükcə doğrudan da məni vahimə bürüyürdü. Nazim də dilxor idi. Nə edəçəyini düşünürdü. Gərginliyimizin artdığı bir vaxtda yanımızda bir taksi dayandı. Nazim sürücüdən bizi bir otelə aparmağı xahiş etdi. Əlli-əlli beş yaşlarında olan uca boylu qarayanız adam ilk əvvəl nə olduğunu xəbər aldı. Nazim anasının yanına tələsdiyini və maşının xarab olduğunu söylədi. Bu yekəpər adam gah Nazimə gah da mənə baxıb dedi:

- Oğlum, bu maşın yalnız sexdə düzələr, bir saatlıq işi var. Mənim evim burada yaxındadır. Qızımı aparaq bizim evə, uşaqlarla otursun. Biz də səninlə gedək maşını düzəltdirək. Ya da ki, gecəni bizdə qalın səhər gedib düzəltdirərik. Başımın işarəsi ilə heç yerə getmək istəmədiyimi bildirdim. Dodağımın altında mızıldayıb mən də sə-

ninlə gedirəm, - dedim. Kişi üzünü Nazimə tərəf çevirib nələrsə danışmağa başladı. Ürəyimi yeyirdim. Mən bu adamın evinə getmək istəmirdim. Bir azdan Nazim məni inandırıb arxayın saldı ki, narahat olmayım. Razılıq versəm də ürəyim çırpınırdı. Doğrudan da yoldan azca kənara çıxıb kiçik bir darvazanın qarşısında dayandıq. Kişi hər ikimizi içəri ötürüb,Ofeliya deyə səsləndi. İçəridən səs səmir gəlmirdi. Birlikdə evə tərəf getdik. Çəmi beş altı pilləkəni olan kiçik mənzildən qarışıq səslər gəlirdi. Kişi yenidən, Ofeliya deyib daha ucadan səsləndi. Bu dəfə içəridən iki - üç gənc qız və orta boylu,kök bir qadın gəlib pilləkənin başında durdu. Onlar bizə təəccüblə baxırdı. Kişi bu xanım qızımı içəri aparın çaydan, sudan içsin-dedi. Biz də bir saatdan sonra gələrik. Qadın əl ayağa düşüb tək məni deyil, Nazimi də yuxarıya evə təklif etdi. O, isə dayanmayıb çıxıb getdi. Mənzil çəmi bir açıq eyvandan və iki kiçik otaqdan ibarət idi. Amma kiçik olmağına rəğmən mənzil mənə çox xoş təsir bağışladı. Bir tək baş tərəfi taxta ilə bağlanmış olan eyvanın elə baş tərəfində qaz pilətəsi ilə su kranı var idi. Belə anladım ki, bura mətbəxi əvəz edir. Qalan yerlər açıq idi. Məni otağa keçirdilər. Çünki bahar fəsli olmağına baxmayaraq hava soyuq idi. Məhəccərin kənarına cərgə ilə gül dibçəkləri düzülmüşdü. Günəş sadəcə işıldayırdı. İstidən əsər əlamət yox idi. Oturan kimi qızlardan biri çay gətirdi. O, biri qızlar da xoş münasibət göstərib, gülümsəyirdilər. Az sonra mənə aydın oldu ki, bu ailənin üzvləri bu gün qəbir üstünə getməli imişlər. Daha doğrusu buraların adətinə görə

bu gün hər kəs öz rəhmətə gedənini yad etməlidir. Ofeliya da qəbir üstünə getmək üçün Bakıda yaşayan iki qızını gözləyirmiş. Onlar da bizdən bir az əvvəl gəlib çıxıblarmış. Artıq hava toranlaşmağa başlasa da bu işi sabaha qoymaq istəmirdilər. Mənim gəlişim onları yolundan edirdi. Nə məsələ olduğunu anlamasam da nə isə bir narahatlıq olduğunu duydum. Nəhayət Ofeliya xala çox səmimi şəkildə,  qızım, qızlar qəbir üstünə gedib gəlsələr inciməsən ki?- dedi. Təəccüb etdim, niyə inciyirəm desəm də bir anlıq yad evdə kiminlə qalacağımı düşünüb narahat oldum, lakin Ofeliya xalanın mənimlə qalacağını biləndə sakitləşdim. O, qızlar, di tərpənin mən də qızımla oturub sizi gözləyəçəm -dedi. Bir azdan evdə Ofeliya xala ilə mən qalmışdım. Qadın qalxıb süfrəni açmağa başladı. Boşqabları süfrəyə yığa - yığa danışırdı:

- Səhərdən əsl çərşənbələr, yəni bayram günləri başlayır, bizlərdə bayram günlərində məzar üstünə getməzlər. Əslində şər vaxtı da getmək adətdən deyil. Nə edək ki, Məryəm geç gəlib çıxdı onu gözləməli olduq. . Başa düşürdüm ki, qadın mənim başımı qatmaq üçün danışmağa söz axtarır. O, bəs sizin rayonda adət necədir ? - dedi.

Mən çiynimi çəkib bu barədə heç nə bilmədiyimi söylədim. Amma bizlərdə də qara bayram deyilən bir söz var ki, həmin gün ölüləri yad edərlər, - dedim. Ofeliya xalanın suallarına cavab versəm də fikrim Nazimin yanında idi. Darıxırdım, az qala bir saat idi ki burada idim. Hava qaralırdı. Ofeliya xala məni darıxmağa qoymamaq

üçün əlindən gələni edirdi. Gah mənə nə isə sual verir, gah özü nə isə danışırdı. Amma mənim artıq başım qarışmışdı. Bayaqdan bir şeyə çox təəccüb edirdim. Həyətdə on beş- on altı yaşı olan bir oğlan gəzirdi. Hərdən bir yuxarı qalxıb ana, Məryəmgil gəlmədi ?- deyib sual verirdi. Məni təəccübləndirən isə divardakı qara çərçivəli şəkil idi. Şəkildəki oğlan bu oğlanla eyni yaşda olardı. Anasının Mahir deyə çağırdığı oğlan şəklə o qədər bənzəyirdi ki, əgər şəkilin kağızı köhnə olduğu bilinməsə elə bu oğlanın şəkli olduğunu zənn edərdim. Bir də ki, şəkildəki oğlanın yenicə çıxmış seyrək bığları var idi. Mən şəklə baxırdım. Ofeliya xala əlinə keçəni süfrəyə yığa -yığa gözaltı mənə baxırdı. Nəhayət dözə bilməyib soruşdum. " Şəkildəki oğlan sizin qardaşınızdır? Oğlunuz eyni ilə dayısına bənzəyir". Ofeliya xala əlindəki su stəkanlarını süfrəyə yığıb yanıma gəldi. Xeyli susub dedi:

- O, mənim böyük oğlumdur. Bacıları hər il bu günki gün onun qəbrini ziyarət etmək üçün Bakıdan gəlirlər.

Dil- ağız etmək qabiliyyətim olmasa da oğlana rəhmət diləyib nələrsə dedim. Amma Ofeliya xala öz -özünə danışırmış kimi hə onlar bir - birinə çox bənzəyirlər,- dedi. Qadın uzaqlara baxıb dünya sirlidir, qızım, - deyib təkrar edirdi. O, əvvəlcə susdu sonra mənə bir az da yaxın oturub sənə bir şey danışacam, qulaq as dedi:

- Qızım, mənim beş qızım var idi. Amma Cavan oğlan deyib oğlan eşidirdi. Nəhayət allah arzumuzu eşidib bizə bir oğlan nəsib etdi. Sevincimizin həddi yox idi.

Onu deyim ki, oğlan övladımızın olmağını arzulayan Cavan olsa da Tahiri mən ondan çox sevirdim. Nə isə bu uşaq hədsiz böyük məhəbbət içində böyüdü. Bacıları da onu əzizləyirdi On altı yaşı tamam oldu. Sanki son ad günü olduğunu bilirikmiş kimi ona təntənəli bir ad günü keçirdik. Həmin vaxtlar nədənsə benzin qıtlığı yaranmışdır. Cavan iki- üç böyük qabda benzin alıb həyətdəki yardımçı damın arxasına qoyubmuş. Sən demə Tahir gizlin siqaret çəkirmiş. Gəlib keçib damın arxasına orda siqaret yandırıb. Daha neçə olub?- bilmirəm. Cən partladı, uşağı alovun əlindən xilas etsək də əcəlin əlindən xilas edə bilmədik. Bir həftəyə qədər yaşayıb öldü.

Ofeliya xala birdən -birə susub mənə sual verdi:

- Qızım, sənə baş ağrısı vermirəm ki?

- Başımı bulayıb, mənə çox maraqlıdır dedim. Ofeliya xala köksünü ötürüb davam etdi:

- Hə qızım, nələr çəkdiyimi dillə söyləyə bilməyəçəm. İllərlə ocağıma qazan asmadım. Yazıq Cavan qızlarla nə yeyirdi, harada yeyirdi ?- bilmirəm. Günüm Tahirin məzarının yanında keçirdi. Elə oradaca yatıb qalırdım. Cavan bütün şofer dostlarından xahiş etmişdi ki, qəbirsatlıqda məni görən götürüb evə gətirsin. Yazıqlar məzara boylanmamış yoldan keçmirdilər.

Ofeliya xala yenə də duruxub dönə - dönə üzr istəyib sözünə davam etdi:

- Hə, qızım və bir gün hiss etdim ki, hamiləyəm. Xəcalət çəkdim, utandım. Mənim haqqımda nə düşünürlər? - dedim. Bayaqdan əli iş tutmurdu, məzarlıqda yatır-

dı. Deməzlərmi bəs bu nə uşaqdır? Odur ki, onun varlığını heç kimə demədən ondan azad olmaq istədim. Və bu məqsədlə səhər tezdən qalxıb qonşu rayona həkimə getmək qərarına gəldim. Qətiyyən bundan kiminsə xəbər tutmağını istəmirdim. Yenicə dalanımızı keçmişdim qarşıma gənc, qəşəng bir gəlin çıxdı. Onun qonşunun təzə gətirdiyi gəlin olduğunu düşündüm. Tahirin ölümündən sonra heç bir toy -düyünə getmədiyim üçün təzə gəlinləri tanımırdım. Qız sözlü bir adam kimi mənə yaxınlaşıb, xala, Ofeliya xalanı tanıyırsınız?- dedi. Təəccüblə üzünə baxdım. Qız bir nəfəsə danışmağa başladı:

- Xala, xahiş edirəm, mənim sözümü ona çatdırın. Yoxsa yuxuma girən ağ saçlı, nurani kişi məndən əl çəkmir. Bir aydır mən bu evdə gəlinəm. O qoca hər gün yuxuma girib deyir: " Qızım, Ofeliyaya de ki, ondan Tahiri aldım, Mahiri verdim".

Bütün bədənim əsdi. Başımın tükləri biz - biz durdu. Düzü mən uşaq dünyaya gətirmək haqqında düşünməmişdim. Qızı öpüb təşəkkür etdim. Ofeliya mən özüməm deyib yoldan geri döndüm. İlk işim qazanımı ocağıma asıb xörək bişirmək oldu. Amma yenə də hamilə olduğumu ən yaxın adamıma bildirməndən ,sadəcə hər kəsə dünyaya uşaq gətirmək fikrində olduğumu söylədim. Həmin gündən məzarlığa getməyi ləğv etdim. İldə bir dəfə bu günkü gün gedirəm. Şəkildəki oğlan Tahirdir. Bu oğlan isə Mahirdir. Doğrudan sanki həmin uşaqdır yenidən qayıdıb dünyaya.

Çox təsirlənmişdim. Bir azdan qızlar gəldi. Qonağa görə tez döndük dedilər. Onlarla birlikdə oturub yemək yedim. Amma şəklə və Mahirə baxıb dünyanın sirləri haqqında düşünürdüm. Nazimgil çox geç döndülər, artıq hamının yuxusu gəldiyini hiss edib narahat olurdum. Nəhayət darvazaya maşın yaxınlaşdığını görüb sevindim. Doğrudan da gələn Nazimgil idi. Maşını təmir etmişdilər. Ofeliya xala ilə Cavan əmi dönə-dönə təklif etsələr də Nazım içəri girmədi. Anası xəstə olduğu üçün tələsdiyini söylədi. Təşəkkür edib pilləkənlərin aşağısına endim. Əyilib ayaqqabılarımı geyinirdim. Otaqdan Məryəmin səsi gəlirdi: Ata sən bunları haradan tanıyırsan? O, oğlan Kərim Kərimlinin kiçik qardaşıdır.

Üzü darvazaya addımlasam da Cavan əminin sözlərini aydın eşidirdim.

--Ay qızım, mənim Kərimli ilə nə işim var? Mən maşını xarab olub yolda qalmış bir gənc oğlan gördüm və bacarınca kömək etməyə çalışdım.

Hoppanıb maşına mindim. Nazim Cavan əmiyə təşəkkür edib,onun çəkdiyi zəhmətdən dönə-dönə danışırdı. Mən onu dinləmirdim. Çünki fikrim uzaqlarda yerləşən kiçik bir evdə qalmışdı. Hansı ki, o evdə saf insanlar var idi. Bu ailədə elə bir saflıq var idi ki, allahın da nəzəri onlarla idi. Tək bir şeyə təəccüb edirdim ki, tanrı niyə Ofeliya xalaya olan ismarınçını qonşu vasitəsi ilə göndərmişdi?

## NAZLİNİN MƏHƏBBƏTİ

Evin son beşiyi idi Nazlı. O, anadan olanda qardaşları ali məktəbdə oxuyurdu. Çoxdan qız arzusunda olan anası bir az narahat olsa da atası onun gəlişini toy bayramla qarşıladı. Qarşılandığı kimi də böyüdü Nazlı. Qardaşlarının, ata -anasının ərkəsöyünü idi. Sevgi ilə böyüsə də ata anasının bir kəlməsinə də etinasız qalmadı. Çünki ağlı kəsəndən ailələrində atasına olan böyük hörməti gördü. Onu da gördü ki, atasının bir sözünü iki eyləyən yoxdur. O, nə danışır daşısın qanun idi. Əlbəttə atası da boş danışan adam deyildi.

Quş qanadlı illər ötüb keçdi. Murad kişinin adı kimi özü də nazlı olan qızı böyüyüb ərsəyə çatdı. O, təkcə Xavər xanımın deyil, həm də atasının öyüd -nəsihəti ilə böyüdü. Çünki Xavər xanım ona evdarlıq, ədəb-ərkan dərsi versə də həmişə qızı ilə gəzməyə çıxan Murad kişi də qızına həyat dərsi verməyə çalışırdı. Odur ki, subay oğlu olan evlərdə xurmayı saçlı, ağ üzlü, yanağında qoşa xalı olan Nazlının tək gözəlliyindən deyil, həm də səliqə-səhmənından, biş -düşündən danışırdılar. Elçilər ayaq açmışdı. Nazlı heç kimə könül vermirdi. Murad kişi ilə Xumar xanım qızlarının seçiminə qarışmaq istəmirdilər. Gələn kim olur olsun Murad kişi Nazlının özü bilir deyirdi. Elə insanı seçsin ki, buradan ər evinə oradan gör evinə köçsün. Seçdiyi oğlana qibləgahı kimi baxsın. Oturduğu ocağı müqəddəs sansın. Gündə bir necə dəfə bu sözləri eşidən qız nəhayət Arif adlı bir oğlanı dəlicəsinə sevdi.

Nazlıya görə atasının dediyi seçimi etmişdi. Müqəddəs bir ocağa gəlin köçməyə hazırlaşırdı. Onun seçimi ata anasının da ürəyindən idi. Arif yaraşıqlı həm də savadlı oğlan idi. Murad kişi Nazlını böyük həvəslə sevinə - sevinə ər evinə köçürdü. Onun toyunu üç oğlunun toyundan təntənəli keçirdi. Çünki qardaşları da yeganə bacılarını şan- şöhrətlə yola salmaq istəyirdilər.

Nazlı xoşbəxt idi. Arifi düşündüyündən çox sevirdi. Onun özünə də, ata -anasına hörmətlə yanaşırdı. Qardaşını qardaş, bacılarını özünə bacı sayırdı. Şirin dili və hörmət etməyi bacarmaq qabiliyyəti ilə onların da sevgisini qazanmışdı. Bu evdə hörmət qazanmaq elə də asan iş deyildi. Arifin qonaq-qaralı böyük bir ailəsi var idi. Özündən böyük olan iki qardaşı və üç bacısı artıq çoxdan ailə qursalar da bütün qayğıları bu evdə çəkilirdi. Minə xanım bütün nəvələrinin ad gününü öz evində keçirirdi. Bu zaman bütün məsuliyyət Nazlının üzərinə düşürdü. Çünki yeməkləri bişirmək, süfrəni açmaq hamısı onun işi idi. Uşaq sahibləri hazır süfrəyə gəlib oturur xeyr -duaları dinləyib, yeyib içib yığışıb gedirdi. Gecə yarıya qədər qab- qaçaqları yuyub yığmaq, tör-töküntüləri yığmaq isə Nazlıya qalırdı. Belə tədbirlər demək olar ki, iki gündə bir keçirilirdi. Qız tez oyanıb geç yatmalı olurdu. Bütün günü yorğun olurdu. Ən pisi o idi ki, illər ötürdü. Ad günü olanların sırasına Nazlının da körpəsi qoşulmurdu. O, ana olmurdu. Müalicəyə gec başladılar. Əslində bu qaynanasını maraqlandırmırdı. Çünki onun bu işlə məşğul olmağa vaxtı yox idi. Nəvələr böyümüşdü. Məclislər art-

mışdı. İndi nişanlar, toylar, elciliklər başlamışdı. Nazlının da işi başından aşırdı, adəti üzrə əksər məclislər onların evində keçirilirdi. Odur ki, vaxtlı vaxtında iynə dərmanını qəbul edə bilmirdi. Arif ilə aralarında soyuqluq yaranmışdı. Hər qonaqlıqdan sonra Arif demək olar ki, onu danışdırmırdı. Deyilən sağlıqlar onun xətrinə dəyirdi. Ürəyinə dəymiş olan hər sözə görə Nazlını günahkar sayırdı. Çünki əksər badələr uşaqların şəninə qaldırılırdı. Bir müddət bu belə davam etdi. Lakin soyuqluq günlər ötdükcə daha pis şəkil almağa başladı. Əgər Nazlı Arifə baş qoşsa dava başlayırdı. O, isə davadan qaçmağa çalışırdı. Bir gün Arif işini başqa şəhərə dəyişib evdən çıxıb getdi. Anası Nazlını da özü ilə aparmağa icazə vermədi. İş -güc başımızdan aşır,- dedi. Əslində bunu Arifin özü də istəmirdi. İlk aylar bir iki dəfə gəlib getdi. Sonralar heç bir ad gününə və ya başqa bir məclisdə iştirak etmək üçün gəlmədi. Nazlı yayın gəlməsini gözləyirdi. Müalicəyə getməyi düşünürdü. Qaynanası: Yayda uşaqlar Bakıdan gələçək ,evdə qonağı qoyub hara gedirsiniz? – dedi. Arif ezamiyyətə tək getməli oldu. Doğrudan da yayda qızın başını qaşımağa vaxtı olmurdu. Düzdür qonaqların arasında ondan narazı olanlar da olurdu. Bəzən Nazlı bu evdə kim olduğu haqqında düşünürdü. Lakin heç bir cavab tapmadığı üçün yorğun halda yuxuya gedirdi. Aradan bir ildə ötdü. Həyat öz axarı ilə gedirdi , zaman təkcə Nazlı üçün dayanmışdı. Yeknəsəng, mənasız günləri ötürdü. Axır vaxtlar Arifin bibisi tez -tez gəlməyə başlamışdı. Bu gün də lap tezdən gəlmişdi. Qız əl ayağa dü-

şüb qadına qulluq etmək üçün mətbəxə keçməyə hazırlaşırdı. Özü də bilmədən qaynanası ilə onun söhbətini eşitdi. Bibi deyirdi:

- Ay qız, inək qısır olanda ətliyə verib canını qurtarmaq olur. Siz də, bunu boşayıb canınızı qurtarın də. Arifin taylarının uşaqları məktəbə gedir.

Qaynanasının acığı tutacağını zənn edən Nazlı eşitdiyi sözdən dəhşətə gəldi. O, deyirdi:

- Yazıq balam, bunun sifətindən evdən didərgin düşüb. Bizim üzümüz gəlmir. Özü də ki, zəli kimi yapışıb qopmur. Arifin də mənə acığı tutur deyir ki, sən məni düşünmürsən Nazlını özünə qulluqçu saxlayırsan. Qızın qulaqları uğuldadı, qadınların daha nələrsə dediyini eşidirdi. Lakin heç nə başa düşmürdü. Daha mətbəxə keçməyib yataq otağına keçdi. Arifə zəng etməli idi. Bu sualı ona vermək haqqında düşünürdü. Amma bir qərar verə bilmirdi. Arifin onu boşamaq istəməyi ağlına da gəlməmişdi. Özünün də belə fikri yox idi. Atasının dediyi kimi ər evindən gör evinə getmək haqqında düşünürdü. Uşaqlarının olacağına da inanırdı. Axı düz əmməli müalicə olmamışdı. Ona uşaq olmadığına görə ciddi bir səbəb də deməmişdilər. Fikirlər onun ürəyini didib parçalayırdı ki, Arif gəldi. O, çox hirsli idi. Hətta Nazlıya elə gəldi ki, içkilidir. Bibisi də gəlmişdi. Bu dəfə özü ilə qızını da gətirmişdi. Qızın Arifdən xeyli kisik olmasına baxmayaraq Nazlıda bir qısqanclıq hissi yarandı. Dünənə qədər uşaq hesab etdikləri qız birdən- birə böyüyüb boy atmışdı. Həm də ki, Nazlı onda bir qəribə hal hiss etdi. Qız hədsiz

bəzənmişdi. Nazlı onları görəndə özünü itirdi. Nədənsə bu gəliş ona qəribə gəldi. Özünü toplayıb otağından çölə çıxmaq istəyirdi. Amma ayaqları sözünə baxmırdı. Ürəyi titrəyirdi. Arif içəri girib, harada ölübsən ? - dedi. Korsan evə qonaq gəlib. O, nə dediyini xatırlamırdı. Deyəsən onun bibisindən inçidiyini söyləmişdi. Üzünə dəyən sillənin təsirindən gözündən od çıxdığını isə yaxşı xatırlayırdı. Daha heç nə yadına gəlmirdi. Başı fırlanıb yerə dəymişdi. Gözünü xəstəxanada açdı. Tez - tez onu huş aparırdı. Hərarəti var idi, yanaqları köz kimi yanırdı. . Qəribə yuxu görürdü, sayaqlayırdı. Həyətdəki böyük tövlənin İçindəki inək doğmağa hazırlaşırdı. İnəyin gözləri böyüyüb hədəqəsindən çıxmışdı. Arif var qüvvəsi ilə heyvana yardım etmək istəyirdi. Güçü çatmayınca yerindən qalxıb baytar dalınca qaçdı. Lakin onu tapa bilməyib dəliyə dönmüşdü. Nazlıya qışqırıb,bura gəl,- deyirdi, gəl inəyin başına dolan, qoy dardan qurtarsın, çünki o səndən çox qiymətlidir, bala verir. Nazlı isə dolanmaq istəmirdi. Mən insanam deyirdi, İnsanı heyvana qurban etməzlər. Qız üzünə düşən iri damcıların səsindən diksinib gözün açanda başının üstündə dayanan atasını gördü. Üzünə düşən atasının göz yaşları idi. Ona elə gəldi üzünə düşən daçcı közə düşmüş su səsi çıxardır. O, atasının üzünə baxıb, ata ər evindən gör evinə gedə bilmədim, evimizə qayıdıram,- dedi. Murad kişi əlini uzadıb qızının göz kimi yanan dodaqlarının üstünə qoyub,sus, - dedi. O, göz yaşında boğula - boğula- bağışla məni, qızım bağışla ,- deyirdi.

## TANRININ HƏDİYYƏSİ

Cavanşir tez-tez saatına baxırdı. O, səbirsizliklə iş vaxtının sona çatmağını gözləyirdi. Çünki, sevimli qızı Nigarın çoxdankı arzusunu yerinə yetirmək istəyirdi. Daha doğrusu bu gün onun istədiyi notbuku almaq üçün yetərincə pulu var idi. İşdən pul mükafatı almışdı. O, Nigarı çox sevirdi. Əvvəla ona görə ki, qızına üzünü zorla xatırladığı sevimli anasının adını qoymuşdu. Bir də ki, Nigar doğrudan da böyük məhəbbətlə sevilməyə layiq qız idi. Gözəl, ağıllı, təmkinli olmağı ilə yanaşı həm də əlaçı idi. Bu il yüksək bal toplayaraq Tibb universitetinə qəbul olmuşdu. Nigar valideynlərindən heç nə tələb etməyi sevmirdi. Amma indi birinci dəfə idi ki, universitetə qəbul olanda atasının, sənə nə alım ? sualına Notbuq - deyə savab vermişdi. Lakin Cavanşir qızının istəyini yerinə yetirə bilmir və buna görə çox məyus olurdu. Bu ay kreditlə almaq fikrinə düşmüşdü. Amma bu gün pul mükafatına layiq görülmüşdü. Odur ki, sevincinin həddi yox idi. O, anasına olan həsrətinin yerini qızına olan məhəbbəti ilə doldururdu.

Nəhayət işdən çıxıb evə gəldi. Yuyunmağa keçməmiş başını uzadıb Nigarın otağına baxdı. Qızına yemək yeyəndən sonra notbuq almağa gedərik, - dedi. Əlini yuyub iştaha ilə yemək masasının arxasına keçdi. Nigar bu xəbəri eşidən kimi atasının üzündən öpüb hazırlaşmağa başladı. Cavanşir çox tələsdiyi üçün telefonu gödəkcəsi-

nin cibindən götürməmişdi. Amma yemək zamanı zəif səslə olsa da telefona gələn zəng səsini eşidirdi. Yeməyi bitirər -bitirməz qalxıb telefonunu götürdü. Eyni zamanda Nigara əli ilə işarə edib, gedək, - dedi. Dəstəkdən gələn həyəcanlı səs mənzilə yayılmışdı. Danışan analığı idi. Qadın təlaşla atasını xəstəxanaya qaldırdığını söyləyirdi. Telefon Cavanşirin əlində qaldı. O, nə deyəçəyini bilmirdi. Donub yerində qalmışdı. Qadın telefonu çoxdan qapatmışdı. O, sevinə -sevinə geyinib hazırlaşan qızına baxırdı, amma gözünün önündə atası canlanırdı. Cavanşiri nənəsi ilə babası böyütmüşdü. Demək olar ki, aylarla atasının üzünü görmürdü. Halbuki onlara getməkdən çox xoşu gəlirdi. Çünki babasının yarım qaranlıq evində həmişə bir ölü sükut hökm sürdüyü halda, atasının evi çox qələbəlik olurdu. Cavanşir atası evini həmişə belə xatırlayırdı. Qəhqəhə çəkən qonaqlar, üstü qıpqırmızı kababla dolu olan manqal, az qala masanın yarısını tutan tort və bu şən məclisdə daima sevilib əylənən bacı- qardaşı. O, burada tam yad idi. Demək olar ki, heç kim idi. Ən hörmətsiz qonaqdan da sonuncu adam o, idi. Atası tək bir dəfə içəri girəndə onunla görüşərdi. Sonra isə Cavanşirin varlığını hamı kimi o, da unudurdu. Ən çox əzizlənən, şəninə sağlıqlar söylənən qardaşı Cəmil olurdu. Sevil nəinki əzizlənir, ərkəsöyünlük edirdi. Onun etdiyi dəli hərəkətləri məhəbbətlə, qəhqəhə ilə qarşılanırdı. Cavanşir isə o evdə kim olduğunu bilmirdi. Əslində bilirdi. O, burada heç kim idi. Gəldiyi kimi çəkilib gedirdi. Nə gəlişi nə də ki gedişi heç kimi maraqlandırmırdı. Lakin atası

onun böyütmək üçün babasına pul verirdi. O, isə məhəbbət istəyirdi. Tək bir ovuc məhəbbət.

Bir anlıq bütün bunları düşündükcə, əvvəlcə Nigarın arzusunu yerinə yetirmək, sonra da atasının yanına xəstəxanaya getmək haqqında düşünürdü. Odur ki, gödəkcəsini geyinib qızını səslədi. Ayaqqabılarını geyinib dayanmışdı. Ürəyindən sanki daş asılmışdı, ürəyi sıxılırdı. Daxilindən bir səs atan xəstəxanadadır deyirdi. Getgedə bu səs artırdı, daha doğrusu haray çəkirdi. Durmadan atan xəstəxanadadır deyirdi. Cavanşir dayanıb qapıdan çıxmağa hazırlaşan qızının üzünə yazıq - yazıq baxıb dedi:

- Nigar qızım, zəng vuran adam babanın xəstəxanaya düşdüyünü söyləyir. Nə edək? Bəlkə əvvəl babanın yanına gedək?

- Nigar rəngi qaçmış atasının üzünə baxıb, ata sən get mən dərs oxuyuram. Mən də başqa vaxt gedərəm,- dedi. Cavanşirin üstündən sanki yük götürüldü. Sevincək qızını bağrına basıb öpdü. Sənə mütləq notbuq alacam deyib qapıdan çıxdı.

- Hövləng özünü xəstəxanaya saldı. Qardaşı gözə dəymirdi. Çatan kimi Cəmili soruşdu. Zəng edib xəbər etmişik, amma hələ gəlməyib,- dedilər. Atasını vəziyyəti doğrudan da ağır idi. Mədəsində olan şiş yayılıb hər tərəfi bürüyübmüş. İndi də qanaxma vermişdi. Cavanşir eşitdiyi xəbərdən dəhşətə gəldi. Qəribədir kişinin xəstəliyi gizli getmişdi. Çəmi bir neçə gün bundan əvvəl evində oturub yeyib içirdi. Həkim artıq geç olduğunu söyləsə də

hələlik müvəqqəti yardım etmək olar, - dedi. Həm qan lazımdır, həm qüvvəli ağrıkəsicilər.

Eşitdiyi xəbərdən bütün bədəni əsən Cavanşir çölə çıxanda, Cəmillə üzbəüz gəldi. O, dəhşətlə atasından danışmaq istəyirdi ki, Cəmil etinasız halda gülümsəyib dedi:

-Nə olub, ey haray salmışınız ? Qoca kişidir də ölməməlidir?

Cavanşir təəccüblə Cəmilin üzünə baxıb dedi:

- O nə deməkdir? İndi kişi ölsün deyirsən ?

Cəmil Cavanşirə cavab verməyib əlini yellədi. Onun telefonuna zəng gəlirdi. Telefonu açıb qardaşından uzaqlaşdı. Bir azdan o, bahalı maşınına minib oradan uzaqlaşdı. Cavanşir gecə saat on ikiyə qədər ora- bura qaçdı. Bahalı ağrı kəsicilər, və qan tapıb gətirdi. Atasının qan qrupu mənfi idi. Ona qan tapmaq çətin olsa da, hər yerə baş çəkdi. Nəhayət pulla bir adam tapdı. Vurulan ağrı kəsicilər və qan atasının halının düzəlməyinə kömək etdi. Kişi sakitləşib yuxuya gedəndən sonra xəstəxanadan çıxdı. Çibində çəmi beş manat pul qalmışdı. Ayaqlarını sürüyə-sürüyə evlərinin altındakı marketə girdi. Nigara heç olmasa fanta alım aparım, deyə düşündü. Və içinə rahatlıq çökdü. Özündən razı idi. Atasını sakitləşdirmişdi. Kişi ona məhəbbət və ümidlə baxırdı. Sağalacağına ümid edirdi. Cavanşir sevinirdi, ürəyi sakitləşmişdi. Heç nəyə peşman deyildi. O, atasını puluna, malına görə sevməmişdi, eləcə də qızı Nigar onu pula görə sevmirdi. Qız atasına notbuku ala bilməsə də məhəbbətlə baxırdı. Cavanşir qızını bağrına basıb bərk -bərk öpüb yenə də

mütləq notbuq alacağına söz verdi. Aşağıdan aldığı fantaları ona verib mətbəxə keçdi. Bir stəkan çay içib yatmağa getdi. Bir azdan Nigar əlində fanta qapağı onun otağının qapısının ağzında dayanmışdı. Yenicə yuxulamağa çalsan Cavanşir gözünü acıb təəccüblə qızına baxıb sual dolu gözlərini ona zillədi. Nigar gülümsəyib dedi :

-Ata mənim fantam notbuk udub.

Cavanşir yerindən qalxıb oturub dedi:

- Necə yəni fantam notbuk udub?

Nigar səsi boğula - boğula təkrarladı:

_ Ata, uduşludur də. Fantam notbuk udub.

Cavanşirin yuxusu çəkildi. Qalxıb qonaq otağına keçib, eşitdiyi sözə inana bilmirdi. Ertəsi gün o, qızı ilə birlikdə uduşa düşmüş Notbuku almağa gedəndə hələ də gözlərinə inanmırdı. Lakin o, inansa da, inanmasa da gənc qız notbuku büküb Nigara tərəf uzadıb onu uduşa görə təbrik edirdi. Cavanşir onlara baxıb düşünürdü ki, bu uduş deyil, tanrının hədiyyəsidir.

## MOLLA SADIQ

Sadıq hələ uşaqlıqdan gündə bir macəra törədirdi. Əlindən məhəllədə uşaq da, böyük də zara gəlmişdi. Döymədiyi uşaq, daş atmadığı ev yox idi. Axırıncı dəfə törətdiyi iş ata anasını lap hövsələdən çıxartmışdı. Belə ki, bir neçə gün bundan əvvəl evlərinə gələn qonağın başına elə bir oyun açmışdı ki, qonaq nəinki Sadıqgilə, bu tərəflərə gəlməyə tövbə etmişdi. Atını həyətdə qoyub içə-

ri keçən qonaq bir müddətdən sonra çölə çıxıb atını görmür. Qonaq içəridəkiləri səsləyib atını soruşur. Bir az aralıda dayanan atı göstərib o at deyil ki deyə soruşurlar, qonaq başını bulayıb yox,- deyir. Sadığın atası da qonağa qoşulub atı axtarmağa gedirlər. Düzü- dünyanı gəzib, geri dönəndə bayaqkı atı elə həmin yerdə olduğunu görən qonağın gözü bərələ qalır. At elə onun atı idi. Sən demə Sadıq anasının süzmək üçün qoyduğu qatıq torbasını oğurlayıb, qara atı nə ki bacarır süzmələyib. Yazıq qonaq öz qara atını, ala-bula görüb tanımayıb. Kişi üzünü Sadığın atasına çevirmədən, heç allahın bir "sağ ol"-unu demədən atını minib uzaqlaşır. Sadığın atası xəcalətindən ölüb yerə girir. Hirsindən dil- dodağını çeynəyə - çeynəyə qayıdır evə. Bir neçə gündən sonra arvadı ilə düşünüb daşınırlar ki, Sadığı molla məktəbinə qoysunlar. Belə düşünürlər ki, həm özlərinin baş qulaqları dincələr həm də uşaq savad alar. Amma aradan heç bir həftə keçməmiş Sadığın əlindən baş molla başlayır şikayətlənməyə. Cavabında atası deyir ki, döy,ay molla döy. Döyülməklə uşaq ölməz,qoy tərbiyələnsin. O gündən Sadığın da, mollanın da qara günləri başlandı. Ayağı falaqqaya salınmaqdan qançır olardı həftələrlə axsaya- axsaya yeriyərdi. Korazehin olmağına,Sadıq korazehin deyildi. Əksinə mollaxanada ondan zehinli uşaq yox idi. Di gəl qəsdən mollanı hirsləndirməkdən həzz alırdı. Sadığı bir dəfə qiraətlə oxumamağının üstündə molla yenə falaqqaya saldırdı. Qolunun gücü çatdıqca ayağının altına o qədər çırpdılar ki, ayağının altı şişib,qıpqırmızı tuluğa döndü. Evlərinə

də uşaqların köməyi ilə gəldi. Ayağını yerə basa bilmirdi. Evdə ata –anasının ürəyi yansa da səslərini çıxartmırdılar. Anası şirin xəmir yoğurub saldı ayağının altına. Əlindən nə gəlir, nə bacarır eylədi yenə də xeyri olmadı səhərəcən Sadıq ayağının zoqqultusundan yata bilmədi ki, yata bilmədi. Ertəsi gün vaxtından əvvəl durub mollaxanaya getməyə hazırlaşdığını görəndə ata- anası məəttəl qaldılar. Onlara elə gəlirdi ki, uşaq mollaxanaya getməyə tövbə edəcək. Amma Sadıq elə mollanın yanında da özünü ədəb-ərkanla apardı. Bir qədərdən sonra barmaq qaldırıb izin istədi. Molla qalın qaşlarını qaldırıb ona baxdı,sonra da durub irəli çıxmağa icazə verdi. O , da azacıq axsaya – axsaya, durub irəli çıxdı. Bir anlığa mollanın arxasına keçib çırta- çırtla yanan ocaqdan maşa ilə xırda bir köz parçasını götürüb mollanın başındakı əmmamənin ortasına qoydu. Molla bir şey hiss etmədi. Başını çevirib Sadığa baxdı və dedi:

- Hə nə oldu, bayaqdan barmaq qaldırmışdın nə demək istəyirdin?

Sadıq üzünə sakit bir ifadə verib, molla əmi daha bu gündən özümə söz vermişəm dediyiniz kimi nə danışsam qiraətlə danışacam,-dedi.

- Bunu deyib xüsusi qiraətlə aram- aram sözə başladı:

- Molla əmi, bir od parçası xuruc eyləyib qalxdı göyün yeddinci qatına.

- Molla bu yavaş – yavaş aramla danışmaqdan ləzzət alıb dedi:

- Ha bərəkallah, belə danışın döyülməyin də. Buyur.

Sadıq elə həmin tərzdə sözünə davam etdi:

Göyün yeddinci qatında xeyli fırlanıb-fırlanıb yavaş-yavaş endi aşağı.

Molla tez-tez bərəkallah ,söyləyirdi.

Əmmamə yavaş-yavaş od alıb tüstülənirdi. Uşaqlar gülməkdən uğunub gedirdi. Molla heç nə hiss etmirdi, elə zənn edirdi ki, uşaqlar Sadığın qiraətlə danışmağına gülürlər. Hirslənib dedi ki, kim bu gündən Sadıq kimi danışmasa, döyüləcək. Əmmamənin tüstüsü isə əməllicə artmışdı. Sadıq bərəkallah ala-ala aramla danışmağa davam edirdi.

Endi-endi gəlib əmmaməyə rast oldu. Əmmamə də od aldı, tüstülədi. Başına birdən isti keçən molla dik atıldı və onun sözünü indi anladı. Qan beyninə vurdu.

-Köpək oğlu köpək bayaqdan deyə bilmirsən ki, papağın alışıb yanır. Səhərdən mənə nə vəzəriət oxuyursan.

Molla köməkçilərin vasitəsi ilə Sadığı tutdurdu. Nə ki var çırpdırdı. Sadıq bu dəfə evə lap qucaqda getdi.

Amma Sadıq mollaxananı atmadı, elə bu minvalla dava-dalaşla bir təhər oxuyub qurtardı. İllər ötdü Sadıq özü kəndlərin birinə molla təyin olundu. Qəribə molla idi Sadıq. Elə oturub durub molları pisləyir, mollaya, duaya inanmağı cəhalət sayır, hər kəsə elm dalınca qaçmağı, xəstələrə həkimə getməyi tövsiyə edirdi. Bu vaxt kəndlərdə qara yatalaq xəstəliyi gəzirdi. Elə gün yox idi ki, ölən olmasın. Camaatın canına vəlvələ çökmüşdü. Bu bəladan neçə qurtarmağa çarə axtarırdılar. Odur ki, kənd camaatı yığılıb gəldilər molla Sadığın yanına ki, ay molla amandı, bizi bu bəladan xilas et. Duadan zaddan yaz, qara yatalaq

elə günümüzü də qara edib, daha kənddə adam qalmayıb. Belə getsə kənddə adam qalmayacaq. Sadığı fikir götürdü. Bir istədi desin, ay allah evinizi yıxsın dua nədir, dua ilə adammı sağalar? Deyə bilmədi. Camaat arasında lap nüfuzdan düşəcəyindən qorxdu. Yenə bir qarın çörək pulu qazanırdı. Bir yandan da belə bir vaxtda daş qalaq olaçağından qorxdu. Axır xeyli sükutdan sonra gedək bir baş molla ilə də məsləhətləşək, -dedi.

Elliklə yığılıb gəldilər baş mollanın yanına. Baş molla Sadığın vaxtı ilə müəllimi olan molla idi. Onun da Sadığı görəndə başı ağrıyırdı. Canını dişinə tutub Sadığı zorla dinlədikdən sonra, əlindəki təsbehi şaqqıltı ilə çevirib dedi:

-Bu günlərdə öləcək xəstə varmı ?

-Dedilər:

- Topal Cəfərin oğlu can üstədir.

- Baş molla dedi:

- Hə bax o,ölən kimi molla Sadıq gedib girsin köhnə bir qəbrin içinə.

Orada gözləsin cənazənin gəlişini. Gərək dəfndə hamılıqla iştirak edəsiniz. Qəbiristanlığa çatanda dəfndə iştirak edən molla qəbiristanlıq əhli ilə salamlaşdıqdan sonra ucadan soruşsun:

Yer varmı? Gələkmi yenə?

Molla Sadıq da qəbrin içindən ucadan, az qala kəndin o başından eşidiləcək bir səslə qışqırsın:

Yox –yox daha torpaq qəbul etmir, yer yoxdur gəlməyin. Vəssalam daha burada nə çətin iş var ki, necə demişəm elə də olsun. Çalışın heç nə yaddan çıxmasın.

Camaatın elə bil üstündən yük götürüldü. Kimi sevindiyindən ağladı, kimi mollanın əlindən öpdü, kimi ətəyindən. Molla Sadıq baş mollaya ürəyində söyə -söyə, kənd əhli dua edə-edə qayıtdılar kəndə. Heç aradan iki gün keçməmiş topal Cəfərin oğlu canını tapşırdı. Kənddə elə bil hamı həsrətlə yazığın ölümünü gözləyirdi. Hamı yığılıb gəldi. Molla Sadığı qabaqlarına qatıb gətirdilər məzarlığa, sonra da yazıq kişini qabaqcadan nəzərdə tutduqları köhnə məzara soxdular ki, gözlə gəlirik. Molla Sadıq əti ürpəşə-ürpəşə məzarda oturub gözləyirdi. Gün günortadan keçmişdi gəlib çıxan yox idi. İsti adamın başını qaynadıb üzünü qarsıyırdı. Elə bil molla Sadığı diri – diri basdırmışdılar. O qədər tərləmişdi ki, bütün paltarı islanmışdı. Duzlu köynəyi ətinə yapışırdı. Susuzluqdan ciyəri yanırdı, üstəlik də acmışdı ürəyi üzülürdü. Bir qədər də keçdi, amma gəlib -gedən yox idi. Molla Sadıq qalmışdı söyə -söyə. Daha hövsələsi lap daralmışdı, canını dişinə tutub zorla dururdu. Sən demə camaat səhv edəcəyindən qorxub, dəfndə elə baş mollanın özünün iştirak etməsini istəyiblər. Baş molla əvvəl gəlmək istəməyib. Uzun minnətdən sonra gözaltı qapının ağzına yığılmış xurcunları görəndə razılıq verib.

Dili ağzında şişib odun parçasına dönən molla Sadıq bir də gördü ki, hə budur camaat topal Cəfərin oğlunu gətirib gəlir. Qabaqda da baş molla gəlir. Hələ kənd də heç kimin dəfnində bu qədər adam iştirak etməmişdi. Uşaqdan böyüyə, lap xəstələrəcən hamı gəlirdi. Qan beyninə vurdu molla Sadığın. Bu qədər adamın avamlığı ki-

şinin tüstüsünü başından çıxartdı. Elə bu vaxt baş molla-nın əzəmətli səsi eşidildi:

-Əssalami əhaliyi qəbiristanlıq. Bu mömin bəndəni-zə yer varmı ? Gələkmi yenə?

Ağır bir sükut çökdü. Hamı molla Sadıqın cavabını gözləyirdi.

Molla Sadıq başını çürük qəbirdən uzadıb var səsi ilə bar –bar bağırdı:

-Əə, bəri rədd olun. Burada o qədər yer var. Düz Şiş təpəyəcən boşdur. Elə torpaq siz ağılda başı boşları göz-ləmirmi?

Camaatın arasına bir vəlvələ düşdü ki, gel görəsən. Kimin əlinə nə keçdi atdı molla Sadığın təpəsinə. Söyüş söyənlər ağlayanlar bir -birinə qarışdı Bu dəfə məzara öz xoşu ilə girdi molla Sadıq. Canını bir təhər qurtardı, amma mollalığın daşını birdəfəlik atdı. Kənddən də o çıxan çıxdı.

## ATA GİLEYİ

Mürsəl kişi oğlu Səmədlə qürur duyurdu. Toyda da , yasda da oğlundan ağız dolusu danışar, onunla qürur duyduğunu heç kimdən gizlətmirdi. Səməd də bu qiymətə layiq oğul idi. Orta məktəbi qızıl medalla, institutu qırmızı diplomla bitirmişdi. Təyinatla bir başa Bakının rayonlarının birinə müstəntiq təyin olunmuşdu. O, işində də bacarıqlı, dəqiq, çalışqan biri kimi tanınmışdı. Tez bir zamanda həm rəhbərliyin, həm də kollektivin hörmətini qazanmışdı. Bir necə dəfə işində qazandığı uğurlara görə tərifnamələrlə təltif olunmuşdu. Səməd valideynlərinə qarşı da çox diqqətli idi. Ata- anasının yeganə övladı olsa da, neçə deyərlər yüz oğula dəyərdi. İşi başından aşsa da onlardan qayğısını, nəzarətini əksik etməzdi.

Axır vaxtlar Mürsəl kişinin ürəyinə xal düşmüşdü. Səmədə anası Səkinənin xəstələndiyini teleqram vurub xəbər vermişdi, sonra ürəyi durmayıb zəng edib gəlini ilə danışıb ki, Səkinə çox xəstədir, özü də oğlunu görmək istəyir. Səməd mütləq kəndə gəlsin. Səməd isə gəlməmişdi, pul göndərmişdi. Səmədin gəlməməyindən çox pul göndərməyi yandırırdı Mürsəl kişini. Sən bir puluna, zadına bax bunun, –deyirdi. Gör Mürsəl nə günə qalıb ki, pul uçun teleqram vurur, hətta zəng də edir. Çox düşünüb- daşınandan sonra Səmədin pulunu qaytarmaq qərarına gəldi. Amma pulu poçtla qaytarmadı ki, kəndə səda

düşəcək. Tel Əhməd kəndin başından düşüb ayağında dayanacaq. Hər qarşısına gələnə deyəcək ki, Mürsəl açıq edib tərifli oğlunun pulunu başına çırpdı. Ona görə bu barədə heç kimə, hətta Səkinəyə də bir kəlmə söz demədi. Pulu mütləq qaytarmağı qət edib, Səkinənin sağalacağı günü gözləməyə başladı. Nəhayət o gün gəldi. Artıq iki uç gün idi ki, Səkinə yataqdan qalxıb həyət bacada yavaş – yavaş gəzməyə başlamışdı. Bir necə gün də ötdü, qarının əməllicə dirçəldiyinə əmin olandan sonra Mürsəl kişi Bakıya getmək istədiyini Səkinəyə söylədi və sovqatını yığmağa başladı. Özü bəslədiyi quzudan, cücədən, yağdan- şordan, yumurtadan əlinə keçəndən böyük həvəslə səbətlərə yığır, bunlar nəvələrimindir,- deyə düşünürdü. Bu sovqatların Səmədə heç bir dəxli yoxdur. Əslində isə Səmədin sevdiklərini daha böyük həvəslə səbətə yığırdı. Mürsəlin belə həvəslə hazırlaşdığını görən Səkinə bir silkələndi ki, ay kişi gəlsən mən də səninlə gedim uşaqların yanına. Ürəyim Səmədi istəyir. Axırıncı cümlə Mürsəl kişinin tüstüsünü başından çıxartdı. Səkinənin arıqlayıb, saralmış sifətinə baxıb, qanı lap qaraldı. Bir o qalmışdı xəstə qadını götürüb, Bakıya aparsın. Səkinənin üzünə tərs – tərs baxıb,otur oturduğun yerdə, -dedi.

Mürsəl kişi səhər tezdən ürəyində min bir gileydagüzar avtobusa minib Bakıya yola düşdü. Səmədi evdə tapa bilmədi. Gəlin də, uşaqlar da onu görəndə ürəkdən sevindilər. Gəlin dönə - dönə Səkinəni soruşdu. Uşaqlar babasının dizinin üstündə oturmaq üstündə dava edirdilər. Nənəm də gəlsə, mən də onun qucağında oturardım,

deyən Muradı sinəsinə basıb Səkinəni gətirmədiyinə çoxpeşman oldu Mürsəl kişi. Hər dəfə gəlin Səkinəni soruşanda acığı tuturdu, araya söz qatır cavab vermək istəmirdi. Ürəyindən keçirdi desin ki, belə maraqlanırdınızsa onun yanına gələrdiniz, amma bu sözü Səmədə deyəcəyini düşünürdü. Odur ki, qaş qabağını töküb qısaca xəstədir,- dedi.

Artıq hava çoxdan qaralmışdı. Səməd gəlib çıxmadı. Gəlin qayınatasına yer acıb yatmaq təklif edəndə, bayaqdan bəri bir dəfə olsun oğlunu xəbər almayan kişini narahatlıq götürdü. O, səsi əsə - əsə oğlunu xəbər aldı. Gəlin dedi:

- Eh kim bilir nə vaxt gələcək. Bir adam ki, cinayət axtarış şöbəsinin müstəntiqi ola, nə cinayət qurtarır nə də axtarışı. Axı vaxtlar uşaqlar Səmədin üzünü görmür. Siz yatın.

- Mürsəl kişi bir söz deməyib yerinə girdi. Səhər yuxudan oyanıb Səmədi görməyəndə təəccüblə soruşdu:

- Səməd gəlməyib?

- Gəlin dedi:

- Gec gəlmişdi, sizi oyatmağa qoymadı gündüz vaxt tapıb gələcəm, – dedi.

-Səmədin gəlişi xeyli çəkdi. Nahar vaxtı çoxdan ötmüşdü. Səməd qocalıb əldən düşmüş atasını bağrına basıb dönə-dönə öpdü, gözləri yaşla doldu. Anasından düz əməlli xəbər tutmamış işdən zəng edib təcili çağırdılar. Səməd yeməyini başa çatdıra bilmədi. Onun ayağa durduğunu görən kişi deyinməyə başladı:

- Ay bala, çayını iç yeməyini ye. Sonra gedərsən.

Səməd artıq qapıdan çıxmışdı. Gecə Mürsəl kişi yatmadı, oturub Səmədi gözlədi. Səməd gecə yarıdan sonra yorğun, kefsiz qayıtmışdı. Atasını yenidən bağrına basıb qucaqladı. Onu gözlətdiyi üçün dönə- dönə üzr istədi. O,çox fikirli idi. Yeməyini də iştahasız yeyirdi. Mürsəl kişi hər şeyi unudub Səmədin bu halına narahat olmuşdu.

- Səməd çayını içib dedi:

- Ata, bu gecə qəribə bir cinayət törədiblər, qoca bir qarını evində öldürüblər. Baş idarədən zəng edib qatilin dərhal tapılmasını tələb edirlər. Deyirlər belə cinayətlər törənəndə xalqın dövlətə güvəni azalır.

- Səməd başını iki əli ilə tutub sözünə davam etdi:

- Bu qoca qarını öldürmək kimə lazımdır? Qadın zəif gördüyü üçün necə ildir evdən bayıra çıxmır. Yenə ölən kişi olsa nə isə düşünmək olar. Və yaxud evdən nə isə itsə, qatilin oğru olduğunu deyərdim.

Mürsəl kişi lap təəccübləndi. Bıy, qarını niyə öldürüblər, ay bala nanəciblər?- dedi

Səməd alnını ovxalaya- ovxalaya dedi:

-Nə isə sən narahat olma, get yat. Yerin deşiyində də olsa qatil tapılacaq və cəzasını da alacaq.

Amma  Mürsəl kişi yata bilmədi. Artıq onun oğluna qarşı heç giley- güzarı yox idi. Onun oğlu illərdən bəri qurur duyduğu həmin oğul idi. Mürsəl kişinin fəxrinə layiq olan Səməd idi. Sadəcə işi çox ağır, məsuliyyətli bir iş idi. Hökumətin ona etibar etdiyi işi Səməd başlı başına buraxıb kəndə gələ bilməzdi. Daha cibinə qoyub gətirdiyi

puldan bəhs etmədi. Mürsəl kişi ertəsi gün nəvələrini başına yığıb bazar -dükana aparıb, pulu istədiyi kimi xərcləməyə qərar verdi. Yata bilməməyinə səbəb qarının ölümü idi. Nə qədər düşünürdüsə ağlı bir şey kəsmirdi

Səhər yuxudan tezdən oyanıb oğlunu gözlədi. Səməd oyanıb qonaq otağına keçən kimi, ona sual verdi: Ay Səməd,qarının oğul-uşaqdan, qohum-qardaşdan kimi kimsəsi yoxdurmu? Səməd atasının sualına təəccüb etsə də kişinin xətrinə dəymək istəməyib dedi:

-Yox, ay ata əri müharibədə ölüb. Bir oğlu var o, da haradasa başqa şəhərdə yaşayır. Axırıncı dəfə üç ay bundan gəlibmiş.

Səməd vanna otağına yuyunmağa keçdi. Mürsəl kişi xəyala daldı. Səməd çay süfrəsinin arxasına keçən kimi kişi stulu çəkib, oğlu ilə üzbəüz oturub dedi:

Ay Səməd,qarının oğlunun adını öyrən, onun adı nədirsə, qatil həmin addadır. Belə ki, qatil qarının oğlu ilə adaşdır. Özü də onların tanıdığı biridir. Evə oğurluq məqsədi ilə gəlib. Qarı isə evə girənin oğlu olduğunu zənn edib, oğlunun adını çəkib. Qatil qarının onu tanıdığını düşünüb qadını öldürüb. Səməd başını qaldırıb atasına baxıb gülümsündü. Çayını içib işə getdi.

Mürsəl kişi də nəvələrini başına yığıb dənizkənarı parka apardı. Dükan- bazarı gəzdi. Hamıya hədiyyə aldı. Səkinəni də unutmadı. İndi Mürsəl kişinin özünə fikir verməyib tez-tez xəstələndiyinə görə Səkinəyə açığı tuturdu. Səmədi narahat etmək olmaz,- deyə düşünürdü. Amma canı da Səkinənin yanında qalmışdı. Onu gətir-

mədiyinə görə çox peşman olmuşdu. Çünki, qayıtmaq istəmirdi,mütləq qarının qatilinin tapılmağını görmək istəyirdi.

Aradan iki- üç gün keçməmiş dəfələrlə xırda oğurluq üstündə tutulan Rəsul, bu dəfə qatil kimi həbs olmuşdu. Məhəllə uşağı imiş. Özü də qarnın oğlu ilə adaş.

Səmədin atasına gülə -gülə ,ay ata sən əsl xəfiyyə imişsən ki, deməyi kişinin çox xoşuna gəlmişdi. O, da cavabında sən də xəfiyyə oğlu xəfiyyəimişsən demişdi.

Ertəsi gün Mürsəl kişi sübh tezdən ürəyində min bir sevinc avtobusa minib kəndə qayıdırdı.

## DOSTLAR

Kamalla Səlim neçə deyərlər anadan gəlmə dost idi. Dostluqları da qəribə dostluq idi. Hələ uşaqlıqdan bir küçədə yaşayırdılar. Elə gün yox idi gündə ən azı iki- üç dəfə dalaşıb barışmasınlar. Kamal əli ilə dalaşardı, Səlim dili ilə. Kamal nə qədər iri gövdəli, yekəpər idisə, Səlim bir o qədər arıq sısqa idi. Səlim sısqa canı ilə uşaqların arasında Kamala elə bir söz atırdı ki, Kamal yanıb tökülürdü. Silləni neçə yapışdırırdısa Səlimin mütləq bir yeri qanayırdı. Dəfələrlə valideynləri onları bir –birindən ayırmağa cəhd etsələr də, heç bir faydası olmurdu. Davadan heç bir saat keçməmiş biri gəlib, digərini çağırır o, da anasının üzünə baxa- baxa düşüb qaçırdı. Hər dəfə Səlim bir daha Kamala sataşmayacağına, Kamal da Səlimi döy-

məyəcəyinə söz verirdi, amma hər şey yenidən təkrarlanırdı. Beləcə dalaşa- barışa uşaqlıqlarını başa vurub, orta məktəbi bitirdilər. Hər ikisi instituta qəbul oldu. Tələbə vaxtı da küsüb barışdılar, lakin bir- birindən ayrı nə pulları oldu, nə də paltarları. Kimə evdən nə göndərilsə hər ikisinin idi. Axırıncı davalarından altı aya yaxın bir vaxt keçməsinə baxmayaraq Kamal nə qədər Səlimə yaxınlaşsa da Səlimin onunla barışmaq fikri yox idi. Bu dəfə Kamal Səlimin xətrinə neçə dəymişdisə Səlim onu bağışlamayacağına söz vermişdi. Altı ay bundan əvvəl Səlim illərdən bəri sevgisini acıb söyləyə bilmədiyi, Sevda ilə ilk görüşə çıxmışdı. Heç onların arasında hələ düz əməlli səmimiyyət yaranmamış haradansa Kamal peyda oldu. Həmişə söz atmaq ona aid olduğu ücün Səlimin ağlına bir şey gəlmədi. Çünki, Kamal bunu istəsə də bacarmırdı. Kamal Səlimi çoxdan görmürmüş kimi özünü üstünə atdı. Əvvəl o yağından bu yanağından öpdü. Sonra onu balaca uşaq kimi qucağına götürüb fırlamağa başladı. Səlim qaldı çabalaya- çabalaya. Nə qədər Kamalın qulağına yalvardısa, söydüsə heç nəyin xeyri olmadı. Kamal onu yerə qoymadı. Elə bil öz boy- buxunu ilə, pəhlivan cüssəli olmağı ilə fəxr edir, Səlimin cılız, zəif olduğunu göstərməyə çalışırdı. Sevda qalmışdı baxa – baxa. Kamal öz istədiyi qədər Səlimi fırladıb, sonra balaca uşaq kimi gətirib düz Sevdanın qənşərində qucağından yerə qoydu. Səlim qıpqırmızı qızarmışdı, saclarının dibindən su tökülürdü, dönüb Sevdaya baxdı. Qızın çaşmış sifətinə baxıb,on oradaca qoyub az qala qaca – qaca oradan uzaqlaşdı. Xeyli

zaman qızın üzünə baxa bilmədi. Bir müddətdən sonra Səlim ,Sevda ilə yenidən görüşməyə başladı. Aralarında münasibət tam qaydaya düşdü, amma Səlim Kamalı bağışlamadı. Onun hərəkətini zarafat deyil,təhqir sayırdı. Gözünün önünə gələndə, Sevdanın gözü önündə, Kamalın qucağında balaca uşaq kimi çabaladığı, yanıb yaxılırdı. Əvvəl Kamal Səlimsiz çox darıxırdı, neçə olur olsun barışmağa çalışırdı. Sonra küsülü olduğuna görə sevindi və birdəfəlik öz toyundan sonra barışacağına qərar verdi. Kamal yaxşı bilirdi ki Səlim dili dil deyil, bu heyfi onda qoymayıb, gəlinin yanında onu ölməli edəçəkdi. Kamal öz qərarından razı qaldı və içinə bir rahatlıq çökdü.

Toya az bir vaxt qalmışdı, Kamali dərd götürmüşdü, ürəyinə dammışdı ki, Səlim özünü toya yetirəcək. Toya bir gün qalmış Səlimdən xəbər olmadığını görən Kamal lap arxayınlaşdı. Səhər tezdən qatarın gələn vaxtı yerindən durub Səlimgilin həyətinə boylandı ki, görsün gəlib eyləyən varmı? Axırıncı qatar ötənə qədər doqqazda dayandı. Gəlib gedənin olmadığına tam əmin olandan sonra kefi lap kökəldi. Bayaqdan səhərin soyuğunda küçədə qalan Kamal zərifcə titrəyib içəri keçdi. Elə yenicə yatağına girməyə hazırlaşırdı ki, divanda sısqa balaca bir adamın büzüşüb yatdığını görəndə ürəyi əsdi,yaxınlaşıb, şirin yuxuda mışıl -mışıl yatan Səlimi gördü. Bayaq çölə çıxanda nədənsə onu görməmişdi. Amma niyə öz evlərində deyil, burada yatdığına təəccüb edərək sakit dayanıb ona baxırdı. Güllü xala oğlunun maraqla baxdığını görüb dedi:

- Nə var, nə baxırsan, ay bala ? Səlimdir də gecə yol maşını ilə gəlib. Mən oyaq idim,qoymadım evlərinə getməyə. Anasıgil çoxdan yatmışdı, istəmədim onları oyatsın. Çay çörək verdim, yer acdım yıxılıb yatdı. Ürəyinə narahatlıq çöküb,şübhə toxumu səpilsə də Kamal Səlimim gəlişinə ürəkdən sevindi. Səlim yuxudan oyanan kimi həmişəki kimi qucaqlaşdılar. Səlim aralarında heç nə olmamış kimi qollarını çirmələyib can- başla işə başladı. Onun yaxşı əl qabiliyyəti var idi. Əvvəlcə toyxananı sonra gəlin maşınlarını bəzədi. Kamalın atası onu hara göndərdi ora getdi. Bir sözlə əldən düşənəcən işlədi. Səlim Kamala o qədər də əhəmiyyət vermirdi. Arada bir özünü məşğul kimi göstərib söz arası – "Biz artıq uşaq deyilik zarafatlarımız uşaqlıqda qaldı",- deyirdi. Həmişəki kimi Kamal da inanıb,artıq lap arxayınlaşmışdı.

Gəlin ucqar dağ kəndlərinin birindən idi. Günortaya yaxın əsasən gənclər və bir neçə ağsaqqal maşınlara minib getdilər gəlini gətirməyə. Insafən qız evinin adamları bəylərə yaxşıca süfrə açmışdı. Süfrədə quş südü,can dərmanı hər nə desən var idi. Gənclər doyunca yeyib içdilər. Səlim ağız dolusu Kamalı tərifləyib şəninə sağlıqlar söylədi, badə qaldırdı. Aradan bir az keçmiş hay- haray qopdu ki, bəyi oğurlayıblar. Sən demə bu kənddə qədim ənənə çox dəbdə imiş. Gərək oğurlanmış bəyi qaytarmaq üçün, oğlan evinin adamlarından kimsə nəmər verib bəyi qaytarsın. Səlim tez ayağa durub, sinəsinə döydü ki bu iş mənlikdir, heç kim narahat olmasın. Xərc çəkməkdən azad olan hər kəs canidildən razı oldu. Nə isə yedilər iç-

dilər, oynadılar. Vaxt tamam olanda Səlimin başçılığı ilə hamı maşınlara mindi. Səlim gəlini də maşına oturdandan sonra qız evinin adamlarına bildirdi ki, bəy bizə lazım deyil, bağışlayırıq sizə. Sözünü bitirər- bitirməz maşına minib yola düzəldilər. Bir göz qırpımında oradan uzaqlaşdılar. Aldandığını başa düşən, qız evinin adamları Kamalın saxlandığı otağın qapısını acdılar. Kamal çölə çıxıb gördü ki, lələ köçüb yurdu qalıb. Xəcalət təri tökə - tökə, payı –piyada yola düzəldi,görsün bir maşın tapa bilərmi. Yolda maşın zad yox idi. Kamal söyə - söyə irəliləyirdi. Özü də təkcə Səlimə yox onun yanındakılara da söyürdü ki, bunlar hamısı kordurmu? Görmürlərmi bəy yoxdur? Bəyi burada qoyub hara gedirlər? Səlim bir dik yerdə maşınları saxlatdırdı. Hər kəsi maşından düşürtdürdü ki, düşün çalıb oynayaq və arxada qalmış bəy maşınını gözləyək. Maşınları elə yerdə saxlatdırmışdı ki, oradan baxanda hər yer ovucun içi kimi görünürdü. Bir az keçmiş az qala yüyürə - yüyürə gələn Kamalı gördülər. Dizinəcən palçığa batmış, sacının ucundan su tökülən, qıpqırmızı qızarmış Kamalı görəndə hamının gülməkdən gözündən yaş gəlirdi. Kamal tənginəfəs özünü birtəhər onlara çatdırdı. O, əvvəl çibindən yaylığını çıxardı üz gözünün tərini silmək istəyəndə, bayaqdan palçığa batmış yaylığındakı palçıq sifətinə yayıldı. Yaylığını atıb Səlimi qapazlamaq istədi, amma bu dəfə fikrindən daşınıb, Səlimə qoşulub gülməyə başladı. Artıq zarafatlara son qoymaq istəyirdi. Çünki nə qədər qoldan qüvvətli ol-

sa da, İti ağlı və zəngin dili olan Səlimlə heç vaxt bacara bilməyəçəyini yaxşı anlayırdı.

## QATİL GƏLİN

Havalar istiləşəndən evimizdə mübahisə başlamışdı. Ailə qurandan bəri, artıq on ilə yaxın idi ki, yay gələn kimi Zahidin Pirşağıdakı ata- babadan qalma bağ evinə köçürdük. O, bağ mövsümnü nə qədər sevsə də bu illər ərzində mən dənizə öyrəşə bilmədim. Zahidin az qala müqəddəsləşdirdiyi bağ mövsümünün adət ənənələrini sevə bilmədim. Sadəcə ona hörmət xətrinə hər şeyə lazımınca əməl edirdim. Hətta kənardan baxan mənim əsl bağ adamı olduğumu zənn edərdi.

Rayonumuzdan ötəri burnumun uçu göynəsə də əslində getməyə yerim yox idi. Atamın ölümündən sonra bizim evə yerləşən əmimgil bir neçə ildən sonra evi satıb, Rusiyaya köçdülər. Hər il bahar fəslində bizim tərəflər gözümün önündə canlanırdı. Meşələrdən gələn küləklərin sehrli səsi, çayların şırıltısı, bulaqların diş göynədən suları, günəşin şüaları altında min bir rəngə calan yamacların əsrarəngiz gözəlliyi məni hər ötən gün daha böyük qüvvə ilə özünə çəkirdi. Uşaq vaxtı gördüyüm həmin mənzərələri hər gün film kimi xatırlayırdım.

Zahid bu axşam işdən gələndə, içəri keçməmiş məni sevindirdi. Bağa köçməzdən əvvəl bir həftəlik rayona gedirik, -dedi. Hara gedirik deməyə dilim gəlmədi. Hər

gün bizim yerləri ürəyim istəyir, deyəndə də utanırdım. Yaxşı ki, Zahid mənə haraya, kimin evinə gedək, sualını vermirdi. Sadəcə bu istəyimin üstündən pünhan keçirdi. Zahid mənim sual verməyimi gözləməyib, sizin rayona deyil, qonşu rayona gedirik, - dedi. Sevincimdən ürəyim çırpınmağa başladı. Bu lap yaxşı oldu deyə düşündüm. Balaca uşaqlar kimi dayanmadan sual verməyə başladım. Nəhayət suallarımdan təngə gəlmiş Zahidə çay- çörək verib, dərhal səfərə hazırlaşdım. Əslində dağların ətəyində yerləşən həmin rayona getməyimiz ürəyimdən oldu. Bizim rayon nisbətən aran olduğu üçün, yayın lap qızmarında hamı ora üz tuturdu. Qızmar günəşin istisindən qaçıb, oradakı dərin meşələrdə uca ağaclarının altına xalça salıb üstünə uzanıb sərinləyirdilər. İndi həmin günləri xatırlayır, nədənsə kövrəlirdim. Əslində o günlərdə elə də sevindirici nələrsə yox idi. Anamı xatırlamırdım. Mənim iki yaşım olanda süd vəzinin xərçəngindən rəhmətə getmişdi. Anamdan sonra atam bu ayrılığa tab gətirmədi. Demək olar ki, yaşamırdı, canlı ölü idi. Təkcə məni deyil ətrafda heç kimi, heç nəyi görmürdü. Zaman onun yanından ötüb gedirdi. Bir səhər yuxudan gec oyandığını görən nənəm atamın otağına keçib dəhşətlə qışqırdı. Deyilənə görə intihar etmişdi. Amma, necə?- onu mənə deyən olmadı. Nədənsə bunu bilməkdən qorxurdum. Heç vaxt atamın necə öldüyünü öyrənmək istəmədim. Məni nənəmlə, babam böyütdü. Amma meşələrə, bulaqlara nə nənəm gedərdi, nə də ki, babam. Məni babamın qardaşı uşaqları aparırdı. Ümumiyyətlə qohumlar məni uşaqları-

na qatıb gəzməyə aparmasalar, bəlkə də evlə məktəbdən başqa bir şey xatırlamazdım. Nəhayət səfər zamanı yetişdi. Axşamdan hər şeyi hazırlasam da gözümə yuxu getmədi. Mənim yata bilmədiyimi görən Zahid hava işıqlaşar- işıqlaşmaz qalxıb yola düşdü. Bakıdan uzaqlaşdıqca kədərlənirdim. Özümə yol boyu sual verirdim, bu qədər səbirsizliklə kimdən ötəri darıxıram? Zaman keçdikcə kədərim artırdı. Ürəyim sıxılmağa başladı. Bütün günü yol boyu gözümü təbiətdən çəkməyəçəyimi düşünsəm də, pəncərədən çölə baxmırdım. Artıq heç nə düşünə bilmirdim. Bir azdan rayonların ərazisinə girəndə yaşıllaşmış ağaçalara, qıpqırmızı lalələr açmış çəmənlərə baxdıqca, nə gözəldir, - deyən Zahidin sözləri məni yenidən ruhlandırdı. Yol boyu ağacların arasında, mənzərəli yerlərdə salınmış istirahət guşələrinə baxıb təəccüb edirdim. Yağışdan sonra qalxan göbələk kimi hər addım başı bir restoran var idi. Zahid maşını bir başa gedəçəyimiz rayona sürdü. Mənzil başına çatanda günorta çoxdan ötmüşdü. Yaxşı ki, uşaqlara yolda yeməyə nələrsə götürmüşdüm. Maşın üzü dağlara sarı qalxanda gözümə ilk sataşan turş suya qalxan yolu göstərən ox oldu. Həmişə turş suya çatanda Firəngiz xalanın bal atlaması etməyini xatırladım. O, bulağa çatmamış yolun kənarında bal satanlardan bir iki banka bal alardı. Bulağa çatan kimi turş sudan bala qatıb bal atlaması edərdi. Sonra növbə ilə bizə içirdərdi. Uşaqların arasında harada dayansam da ən birinci fincanı mənə içirdərdi. Bir az yuxarı qalxan kimi yamyaşıl ləliyin arasında məskən salmış arıçını görən kimi xəyal-

dan ayrılıb, Zahid, maşını saxla bal alaq, - dedim. Maşından düşüb, dağlardan gələn suyun acdığı kiçik qajı adlayıb, arı qutularına tərəf getdik. Əsən sərin meh lalələrin arasından baş qaldırmış rəngbərəng çiçəkləri titrətdikcə sanki dünyanın ən gözəl rənglərinin rəqsi başlayırdı. Günəş şüaların altında bərq vuran çiçəklər gözümü qamaşdırırdı. Arıçının qurduğu talvarın altında üstünə döşək salınmış dəmir çarpayının düz qarşısına uzanmış yekə bir it yerindən qalxıb, tənbəl - tənbəl oradan uzaqlaşdı. Zahid ətrafa boylanıb səslənməyə başladı. Mən uşaqlığımda olduğu kimi arıçının çarpayısına uzanmaq istəyirdim. Yenə bu çarpayı mənə dünyanın ən gözəl guşəsində yerləşən, ən rahat bir yataq kimi görünürdü.

Bulağın üstünə çatıb Firəngiz xala kimi turş su ilə baldan atlama düzəltsəm də özümdən başqa içən olmadı. Bulağın suyunun faydasından danışmağımın heç bir əhəmiyyəti olmadı. Dağların qoynunda yerləşən çox da böyük ərazisi olmayan, ağaclığın arasında yerləşən yeməkxanaya gəldik. Burada hər şərait və xidmət olduğunu görüb təəccüb etdim. Biz bulağa gələndə hər şeyi özümüzlə gətirirdik. Yerdən xalça sərib üstündə süfrə açardıq. Bir az aralıda isə yemək hazırlığı başlayırdı. Ocağı yandırmaq üçün ətrafdan ağac toplayardıq. Demək olar ki, uşaqdan böyüyə hamı çalışırdı. Hətta yeməkdən sonra qabları da yumaq üçün ya yaxınlıqdan axan çaya, ya da bulağa getməli olurduq. Taxtadan düzəldilmiş çardağın altında qoyulmuş masaların birinə yaxınlaşdıq. Ətraf adamla dolu idi. Az sonra bizim masanı yeməklə doldur-

dular. Bu rahatlıq mənə xoş gəlsə də sanki axtardığımı tapa bilmirdim. Zahidlə uşaqlar isə sözün əsl mənasında ləzzət alırdılar. Təzəcə təndirdən çıxmış ,ətirli çörəklə pendiri, qaymağı, balı elə həvəslə yedilər, mənə elə gəldi ki, kababı yeyən olmayacaq. Masaların yanına yaxınlaşan musiqiçilərin yaratdığı əhval ruhiyyənin isə öz yeri var idi. İki bir, üç bir gəzən kişilərin əksəriyyəti qoça idi. Hətta Zahid birinin yaşını soruşanda doxsan yaşı olduğuna çox təəccüb etdik. Çünki səsində hələ də məlahət olan bu qoca musiqini çox usta və səriştəli ifa edirdi. Ən çox xoşuma gələn isə onların oxuduğu mahnıların sözləri idi. Sözlər televiziya və radiolarda səslənməsə də hamısının öz mənası var idi. Doxsan yaşı olduğunu söyləyən qoca gözünü qonşu masada oturmuş ağ başlı yaşlı kişi ilə, qısa ətəkli sarıbaş qıza dikib oxuyurdu:

***Kül başına iki arvad alanlar***
***Evlərinə qalmaqalı salanlar***
***Arvadın birin özü şaxlar***
***O birini çobanlar***

Zahid qəhqəhə ilə gülüb, qocanı yola saldı. Onu kefi lap durulmuşdu, qulluq edən oğlanla haqq hesabı kəsəndən sonra, ondan gecələmək üçün yer xəbər aldı. Oğlan yeməkxananın özündə gecələmək üçün evciklərin olduğunu söylədi.

Gecəni iki gözdən ibarət, içərisində hər cür şəraiti taxta evcikdə keçirdik. Səhər mən yuxudan oyananda Za-

hid artıq ağacların arşında gəzirdi. Qalxıb onun yanına gəldim. O, məni ilk dəfə görürmüş kimi təəccüblə üzümə baxıb dedi:

Aygün, niyə bizi bu gözəllikdən məhrum etmisən?

Təəccüblə üzünə baxıb çiynimi çəkdim. Zahid buraları çox bəyəndiyini, havasına suyuna heyran qaldığını söyləyib, havalar lap qızana qədər burada qalmaq istədiyini dedi.

Ertəsi gün bu yeməkxanada işləyən oğlanın vasitəsi ilə bir ev kirayələyib oraya gəldik. Deyilənə görə bu kəndlərdə kirayə ev tutmaq elə də asan iş deyilmiş. Adının Rasim olduğunu söyləyən oğlan bizi evə ötürüb, axşam gələcəyini söyləyib getdi. Həyət- bacasını ot basmış iki mərtəbəli evin qapıları acıq idi. Axşam Rasim gəlmədi. Zahidlə özümüz bir təhər hər şeyinin yerini öyrənib yerləşdik. Hamamla, tualet demək olar ki, məhəllənin o başında idi.

Səhər yuxudan quşların səsinə oyandım. Uşaqlar şirin yuxuda idilər. Zahidin səsi həyətdən gəlirdi. Kiminlə isə söhbət edirdi. Paltarımı geyinib aşağı düşdüm. Gələn Rasim idi. Axşam qonaq çox olduğu üçün gələ bilmədiyini söyləyib, Zahidə həyət- bacanı, qazın, suyun yerini göstərirdi. O, sözünü bitirər- bitirməz çıxıb getdi. Axşam biz məhəlləyə girəndə hava qaraldığı üçün evin dağlarla üzbəüz dayandığını görməmişdim. Üzü dağlara tərəf dayanıb füsunkar gözəlliyə baxmaqdan doymurdum. Zahid damdan bir samovar tapıb talvarın altındakı su kranın yanına qoyub məni danlamağa başladı:

Niyə bu vaxta qədər məni buralara gəlməyə məcbur etmirdin? Hava məni məst edib. Qəribədir sanki hava insanın ciyərlərinə dolub, daxilinə sevinc gətirir. Nəfəs aldıqca kefin durulur. Fikirləşirəm ki, yəqin qan oksigenlə zənginləşir, ona görə də insanda belə yüngüllük yaranır.

Ona cavab verməyib samovarı yuyub su ilə doldurdum. Səhər yeməyini hazırlamaq üçün mətbəxə keçdim. Və hər şey buradan başladı. Otaqları gəzdikcə hər şeyə təəccüb edirdim. Adətən evi kirayə verəndə içərisinə bir neçə günlük yaşamaq üçün vacib şeylər qoyulurdu. Bura belə deyildi. İki mərtəbəli, on otaqlı mənzil başdan -başa xalça ilə döşənənmiş və içərisi bahalı təptəzə mebellərlə dolu idi. Otaqları gəzdikcə təəccübüm daha da artırdı. Ehtiyyat edə- edə qapısını itələyib açdığım hər otaq mənə qəribə təsir bağışlayırdı. Böyük pəncərələri aşağıdan başlayan zalda divan və qoltuqlar üzbəüz qoyulmuşdu. Onların qarşısına qoyulmuş dairəvi jurnal masasının üzərinə, pərdələrin parçasından tikilmiş kənarları saçaqlı süfrə salınmışdı. Baş tərəfə iri ekranlı televizor qoyulmuşdu. Zalın aşağısına tərəf gedib pərdələri acdım. Gözümün qabağında acılan mənzərə məni mat qoydu. Otaq sanki dağların ortasında yerləşmişdi. Zaldan çıxıb ortadakı dəhlizdən qapıları ensiz bir dəhlizə acılan iki çox da böyük olmayan uşaq otağına keçdim. Otaqlarda hər şeyin pərdənin, xalçanın, çarpayının örtüsü fərqli rəngdə olsa da, hər iki otağın oğlan uşağı üçün olduğu məlum idi. Çünki otağın birində hər şey tünd göy, digərində mavi

rəngdə idi. Divara vurulmuş rəflərdə olan çəmi bir neçə əşya isə uşaq oyuncaqları deyildi. Ensiz dəhlizdən çıxıb yenidən böyük dəhlizə keçdim. Dəhlizin düz baş tərəfində qapısı taybatay açıq olan bir otaq və qapısı üzbəüz olan iki yataq otağı var idi. Zal ilə yanaşı olan yataq otağının pəncərəsindən həmin füsunkar mənzərə görünürdü. Bu otaq daha bəzəkli idi. Pərdələr, xalçalar, yataq dəsti hər şey gözəl və təzə idi. Qapısı acıq olan başdakı otaqda tək bir piano və ensiz bir dolab var idi. Dolabın şüşəsindən görünən böyük albomu götürüb vərəqləməyə başladım. Şəkillər səliqə ilə vərəqlərə yapışdırılmışdı. Albomu axıra qədər vərəqləyib, bir də başdan acdım. Bütün şəkillər ala gözlü gəncliyində çox gözəl, son vaxtlar isə çox kök olan bir qadının əsasən həyat yoldaşı və başqa kimlərlə isə olan şəkilləri idi. Albom ala gözlü qızın tək şəkli ilə başlayıb, özünə az qala qardaş qədər bənzəyən oğlanla olan toy şəkilləri və illər boyu çəkilmiş olan anların xatirəsindən ibarət idi.

Bu otağın pəncərəsindən baxanda başqa məhəllə aydın görünürdü. Köhnə bir evin həyətində qoca bir qadın oturmuşdu. Qırmızı xələtli bir gəlin isə zivəyə paltar sərirdi. Məni görəçəklərindən ehtiyyat edib, pərdəni tez yerinə çəkib otaqdan çıxdım. Təəccübüm get-gedə daha da artırdı. Demək olar ki, dolablar geyimlərlə və ev əşyaları ilə dolu idi. Ütülənib səliqə ilə yığılmış süfrələrə, yorğan -döşək üzlərinə, məhrəbalara əl vurub götürməyə əlim gəlmirdi. Halbuki, oğlan hər şeydən istifadə edə bilərsiniz demişdi. O biri yataq otağında iki qoşa çarpayı-

dan başqa üstünə az qala tavana dəyənə qədər rəngbərəng, atlaz üzlü yorğan- döşək yığılmışdı. Zahidin səsini eşidib tələsik aşağı düşməzdən əvvəl, pilləkənlərin sağında o biri otaqlarla heç bir əlaqəsi olmayan otaqda yatan uşaqlara baş çəkdim. Onlar ikisi də şirin yuxuda idilər. Dünən bərk yorğun olduğumuz üçün qarşımıza çıxan ilk otaqda yıxılıb yatmışdıq. O biri otaqlara nisbətən daha müasir üslubda bəzədilmiş bu otağı yenidən nəzərdən keçirdim. Burada bir çarpayı və bir neçə divan var idi. Baş tərəfdə taxtadan düzəldilmiş bir rəf qoyulmuşdu ki, bir gözündə televizor, digər qatlarda musiqi mərkəzi və çoxlu sayda kasetlər, disklər yığılmışdı. Mən aşağı düşəndə Zahid artıq samovarı qaynadıb çay dəmləmişdi. Çayı mətbəxdən tapdığını söylədi. O, mənim sifətimə baxıb nə olub? - dedi. Otaqları gəzdiyimi və bütün hər şeyi içərisində olan mənzili niyə bu şəkildə kirayə verdiklərinə təəccüb etdiyimi söylədim. Ev sahibinə aid olan hər şeyin yerində olduğunu deyib, aşağıdakı otaqlara girdim. Burada da həmin halı müşahidə etdim. Divar boyu kreslolar, ortada kiçik dairəvi masanın ətrafına isə stullar qoyulmuşdu. Bura həm mətbəx, həm də zal idi. Çünki, başqa bir divar başdan başa mətbəx avadanlıqları ilə dolu olan servantdan ibarət idi və şüşə qablar ərzaqla dolu olmasa da bütün hər şey var idi. Çay, qənd, düyü, noxud, makaron və sairə. Bu otaqdan iki qapı açılırdı, biri kiçik yataq otağı, ikincisi bütün divarları rəfdən ibarət olan bir otaq idi. Bura otaqdan çox mağazanı xatırladırdı. İçi rəngbərəng şirələrlə, mürəbbələrlə, turşularla dolu şüşə

qablar, kisələr yarımçıq da olsa, hamısının içərisində un, şəkər, toyuq yemləri var idi. Rəfin bir gözü çiçək quruları, əvəlik qurusu və quru meyvələrdən ibarət idi. Baxdıqca səliqə sahman, qadın əlinin hərarəti məni valeh edirdi. Amma məni təəccübləndirən hər şeyin beləcə ortaqlıqda olmağı idi. İstəsələr istifadə etmək üçün iki- üç otağın qapısını açıq qoyub qalan içərisi ərzaq və pal-paltarla dolu olan otaqların qapısını kilidləyərdilər. Səhər yeməyini hələlik Bakıdan gətirdiyim yeməklərlə yola verdik. Bir azdan oğlanın məsləhət etdiyi meşəyə qalxmalı idik. Amma mənim artıq buradakı təmiz hava, sərin su, gözümüzün önündə acılan füsunkar gözəllik heç biri vecimə deyildi. Ağlım ev sahibinin yanında qalmışdı. Həyətində üstünü toz basmış Niva markalı maşına baxıb, mənə elə gəlirdi ki, bu hər şeylə zəngin olan məhlədən kədər yağır. Ətrafa boylandıqça ürəyim sıxılırdı. Məni elə bir kədər bürümüşdü ki, hay küylə meşəyə getməyə hazırlaşan Zahidlə uşaqları demək olar ki, görmürdüm. Şəkillərdə həmişə gülümsəyən ala gözlü qadınla, görkəmindən zabitə yağan uça boylu yaraşıqlı kişi haqqında düşünürdüm. Şəkilləri gözümün önündə çanlandırıb nə isə uydurmaq istəyirdim. Lakin bir şey alınmırdı.

Bir azdan yığışıb meşəyə getdik. Zahid ürəyimi oxuyurmuş kimi, gedəndə özü ilə bazarlıq edib apardı. Ev sahibinin samovarını və kiçik manqalla şişlərini də özü ilə götürmüşdü. Yemək hazırlığına başlamazdan əvvəl samovara od saldım. Zahid doğrudan da məst olmuşdu. Gözəllikdən doya bilmirdi. Ara bir deyinib, məni

danlayırdı. Vaxtında tələb etsən hər il gəlib, bu gözəllikdən həzz ala bilərdik, - deyirdi. Şər qarışana qədər yeyib içib istirahət etdik. Mənim fikrim evdə qalmışdı. Elə bilirdim ki, evə dönsək kimdənsə ev sahibləri haqqında nə isə öyrənə biləçəm. Zahid isə evə dönmək istəmirdi. Meşəyə qaranlıq birdən birə düşdüyünü bildiyim üçün, qalxın gedək, - dedim. Zahid gələndə düşdüyümüz yerə getməyi təklif etdi. Təklif hamımızın ürəyindən oldu. Biz yeməkxanaya çatanda demək olar ki, oturmağa yer yox idi. Rasim yenə də köməyimizə gəldi. Yer tapıb bizi yerləşdirdi. Uşaqlar masanın yaxınlığındakı sürüşkəndə oynamağa getdilər. Rasim masamıza yaxınlaşar- yaxınlaşmaz qaldığımız evin sahiblərini soruşdum. Oğlan məyus bir görkəm alıb, rəhmətə gediblər, - dedi. Donub yerimdə qaldım. Özümdən asılı olmayaraq neçə yəni rəhmətə gediblər?- dedim. Rasim daha da kədərlənib, uzun söhbətdir, deyib bizim masadan uzaqlaşdı. Onun kədəri mənə keçdi. Zahidin mənim oğlanı suala tutduğuma hirsləndiyini hiss edib, özümü şən göstərməyə çalışsam da bacarmırdım.

Ertəsi gün gəzməyə başqa yerə getdik. Bura daha gözəl idi. Uca bir qayanın başından çılğınlıqla axıb gələn şəlaləyə baxmaqla doymaq olmurdu. Zahid hər ötən gün dağların qoynunda istirahət etmək üçün, daha yaxşı şərait yarada bilirdi, çöllüyə alışırdı. Mən oturub onun həvəslə çubuqlardan şiş və topladığı daşlardan təmizləyib ocaq yeri düzəltməyinə tamaşa edirdim. Bu gün şişlər və kiçik manqal yadımızdan çıxıb evdə qalmışdı. Fikrim evdə

qalmışdı. Ala gözlü xanım və zabitəli kişinin şəkillərdəki xoşbəxt anları gözümün önündən çəkilmirdi. Bu axşam da meşəyə qaranlıq çökəndə geri döndük. Gecəni demək olar ki, səhərə qədər gözümə yuxu getmədi. Bu marağım haqqında Zahidə sual verəndə hirsləndiyi üçün o barədə söz sala bilmirdim. Amma Zahid özü də arada bir nəyi isə görəndə öz - özünə mızıldanıb sual verirdi.

Bu səhər həmişəkindən fərqli olaraq mən Zahiddən tez oyanmışdım. Qalxıb aşağı düşüb həyətdə oturdum. Doğrudan da hava çox gözəl idi. Mən gözümü gəzdirib, mənə donub yerində qalmış kimi görünən məhləyə baxırdım. Elə bu zaman arxa tərəfdən səsi eşidib, arxaya çevrildim. Aradakı dəmir torun o tərəfindəki kiçik hovuzun qarşısında qırmızı xələtli yaraşıqlı gəlin paltar suya çəkirdi. Ona maraqla baxdığımı görüb salam verdi. Mən ona darıxdığımı deyib, bura keçməsini xahiş etdim. Zinyətlə tez dostlaşdıq. Söhbət əsnasında təəccübümü ona bildirdim. Qadın kədərlənib çiynini çəkəndə az qala yalvarıb, ev sahiblərinin başına gələnləri soruşdum.

Zinyət onları gəlinləri öldürdü, - dedi. Təəccübdən gözlərim hədəqəsindən çıxdı. Neçə yəni gəlin öldürdü?- dedim. Sonra dayanmadan sualı sual dalınca yağdırmağa başladım. Hər ikisini gəlin öldürdü?. İndi o, həbsxanadadır? Bəs əri haradadır? Gəlin mənim bir nəfəsə verdiyim suallara uzun müddət susandan sonra cavab verib danışmağa başladı:

Ağgül xala anamın uzaq qohumudur. Onu uşaqlıqdan tanıyır və çox sevirdim, Məzahir əmini isə bir tək

mən deyil, bütün hamı çox sevirdi. Rayonumuzda böyük hörmət və nüfuz sahibi idi. Hər ikisi mərkəzi aptekdə işləyirdi. Kimin dərdi olsa Məzahir əminin üstünə qaçırdı. Pulu oldu -olmadı əlacı kəsilənə dərman verirdi. Düzdür hamı pulunu gec də olsa gətirib ödəyirdi. Amma hər halda rəhmətlik hamıya kömək əlini uzadırdı. Hətta iş o yerə çatmışdı ki, həkimlərin Məzahir əmidən acığı gəlirdi. Çünki hamı dərdini götürüb həkimə deyil, Məzahir əminin yanına gəlirdi. O, da hər dərdin öz dərmanını verib xəstəni yola salırdı. Ağgül xala da onunla bir yerdə işləyirdi. Anamın dediyinə görə İnstitutu bir yerdə oxuyub qurtarmışdılar. Deyilənə görə aralarında dillərə dastan olan məhəbbət var imiş. Iki oğul sahibi və dünyanın xoşbəxti idilər. Böyük oğlu institutda oxuyanda sevdiyi bir qızla ailə qurdu. Toydan sonra Bakıda yaşadılar. Kiçik oğluna isə rayonumuzdan olan bir qız aldılar. Çox gözəl qız idi. Ağgül xala onu qeyri -adi bir məhəbbətlə sevirdi. Onun gözəlliyi ilə qürur duyurdu. Onu bəzəyib özü ilə aparmaqdan həzz alırdı. Hər yerdə qızımdır deyirdi. Hər kəs Səidə ilə Nahidin xoşbəxt olduğunu bilirdi. Onlarda iki övlad sahibi idilər. Məzahirlə Ağgül nəvələrini oğlanlarından da çox sevirdilər. Bir sözlə bu xoşbəxt, firavan ailəni Səidə dağıtdı. Axır vaxtlar apteki Nahid işlədirdi. O, da əczaçılığı qurtarmışdı. Tez - tez Bakıya dərman dalınca gedirdi. Günlərin birində Ağgül hüzr yerindən qayıdıb, otağında yatırmış. Səidənin isə onun evə qayıtmağından xəbəri yox imiş. Hər şey də elə buradan başladı. Ağgül yuxudan qalxıb telefonu götürüb haraya isə zəng

etmək istəyir. Dəstəyi qaldıran qadın, Səidənin kiminlə isə danışdığını eşidib, dəstəyi yerinə qoymaq istəyir. Elə bu zaman xəttin o biri başından kişi səsi gəldiyini eşidir. Ona tanış gələn bu kişinin kimliyini bilmək üçün dəstəyi yerinə asmayıb, qulaq asır. Və qadın eşitdiklərindən dəhşətə gəlir. Ürəyi dayanmaq dərəçəsinə gələn qadın qulaqlarına inanmasa da hər şeyi aydın eşidir. Səidə qonşu Raufla Nahidin bu günlərdə Bakıya rədd olub gedəcəyini və elə o zaman görüşə biləçəklərini deyirmiş. Rauf isə səsi titrəyə - titrəyə artıq dözə bilmədiyini, bundan qabaqkı görüşlərini hər gecə xatırladığını söyləyirmiş. Ağgül dəhşətə gəlir. Qadın huşunu itirib yerə yıxılır. Amma nə baş verdiyini heç kimə demir. Bir necə gündən sonra eşitdiklərini Məzahir əmiyə və Nahidə söyləyir. Onlar da inanmasalar da bu işi yoxlamaq qərarına gəlirlər. Birlikdə qurğu qurub Nahidin Bakıya getməli olduğunu söyləyirlər. Nahid hazırlaşıb özünü gedirmiş kimi göstərir. Əslində isə otaqların birində gizlənib gecənin düşməsini gözləyir. Həmin gecə baş verənləri ölənə qədər unuda bilməyəcəm. Ağgül xalagilin həyətində qopan səs küyə ətrafdakı evlərdən oyanıb gəlməyən olmadı. Raufla Nahid əlbəyaxa vuruşurdu. Ağgül xalanın ürəyi gedib yıxılmışdı. Məzahir oğlunu Raufdan ayırmağa çalışırdı. Sizi inandırım ki, gəlində utanar sifət -zad yox idi. Sanki, üstündə dava düşdüyünə görə fəxr edirdi. Atasını çağırıb onu gecə ikən yola saldılar. Səhər açılar- açılmaz isə cehizini yığıb göndərdilər.

Təəccübdən gözüm böyümüş halda, bəs necə oldu ki, gəlib qayınanası ilə qayınatasını öldürdü? Zinyət gözləri dolmuş halda sözünə davam etdi:

Məzahir əmi çox şən, deyib gülən, duzlu, məzəli bir adam idi. O gündən sonra ayağını mərəkələrdən çəkdi. Nə Ağgül xala, nə də ki, Məzahir əmi aptekə getmədi. Birdəfəlik apteki Nahid işlətdi. Hər ikisi xəcalət çəkirdi. Nəvələrindən ötəri darıxırdılar, amma dillərinə alıb o barədə kəlmə olsun söz danışmadılar. Rayonun xeyr - şərindən bir dəfəlik ayaqlarını kəsdilər. Lap yaxın adamların hüzurunda iştirak etsələr də toylarda iştirak etmirdilər.

Hadisə baş verməmişdən əvvəl Məzahir əmi rayonumuzun girəcəyində Nahidə gözəl, əzəmətli bir ev tikdirirdi. Ən sevimli işi o evə gedib tamamlanma işlərinə baxmaq idi . Tam müasir üslubda tikdirdiyi bu mənzilin bizim rayonda tayı- bərabəri yox idi. Məzahir əmi Nahidgili bura köçürəndə böyük bir qonaqlıq etmək fikrində idi. O, oğlu üçün tikib hazırladığı əzəmətli mənzili hər kəsə göstərmək istəyirdi. Hadisədən sonra kişi ayağını ora basmadı.

Aradan bir ilə yaxın bir vaxt ötmüşdü. Məzahir əmi ilə Ağgül xala yeni- yeni bir az özlərinə gəlmişdi. Bir axşam Nahid evə gəlmədi. Ata anası narahat olub əl - ayağa düşdülər. Oradan - buradan maraqlanıb soruşdular. Ətrafdakı adamların cavab vermək əvəzinə gözlərini onlardan gizlətdiyini hiss edən Məzahir əmi lap təşvişə düşür. Nəhayət bir nəfər risk edib Nahidin arvadı ilə barışıb, təzə evə köçdüyünü söyləyəndə, kişi inanmır. O, belə bir

işin baş verəcəyini təsəvvürünə belə gətirə bilmirdi. Ertəsi gün eşitdiyi bu xəbərin düz olduğunu eşidən Məzahir bu xəbəri Ağgüldən gizlətməyə çalışsa da, ona da hər şeyi söylədilər. Ağgül xala Nahidin Səidəni yenidən qəbul etdiyini eşidib intihar etdi. Qəribə intihar üsulu seçmişdi. O xəbəri eşidən gündən nə yemək yemədi, nə də ki, bir kəlmə olsun danışmadı. Yazığa bir qaşıq su da içirdə bilmədik. Həkimə getmədi. Məzahir əmi gətirdiyi həkimin dava dərmanını qəbul etmədi. Heç bir iş görmədən gözünü uzaqlara dikib saatlarla otururdu. Tək bir dəfə tələsik nə isə axtardığını görüb sevindik. Özünə gəldiyini zənn etdik. Evdəki bütün şəkilləri tapıb yandırdı. Elə həmin gün də öldü. Məzahir əmi Nahidə gəlməyə icazə vermədi. Rauf da həmin gündən rayonu tərk edib. Deyilənə görə Rusiyaya gedib. Ağgül xaladan sonra Məzahir əmi bir il yaşadı. Əgər buna yaşamaq demək olardısa. Ayda bir dəfə evdən çölə çıxırdı. Onda da bir- iki qutu araq alıb gətirirdi. Bir həftə ov etməsə bağrı partlayan kişi, qapını açıb çölə çıxmadı. Səhər açılandan gecənin yarısına qədər içirdi. Gətirdiyimiz yeməklərə əlini də vurmurdu. Pendir çörəklə, ya da meyvə ilə ac qarına elə hey içirdi. Hərdənbir Ağgül deyə səslənirdi. O albomu mən düzəltdim. Şəkilləri qohum əqrəbadan yığmışdım. Doğrudan çox sevindi. Onu özü ilə yuxarı aparıb, aşağı düşürürdü. Axır günlər lap pis günə düşmüşdü. Ayaqları şişib kötük kimi olmuşdu. Sevinirdi, bu gün sabah Ağgülün yanına gedəçəm, - deyirdi. Elə bil qadının ilini verməyi gözləyirdi. Bütün günü kefli olan kişi həmin günlərdə dilinə araq

vurmadı. Yaxşı süfrə açdırdı. Hər şey bişirtdirdi. Ağgül ac öldü, -deyirdi. İsmarınç edib bütün rayonu dəvət etmişdi. Hamı ilə görüşmək istəyirəm, - deyirdi.

Ertəsi gün həyətdəki bu masanın arxasında ölüb qaldığını gördük.

Bakıdakı oğlu gəlib dəfn etdi. O, Nahidə bir söz deməsə də camaat onu hüzrdə iştirak etməyə qoymadı. Valideynləri öləndən bəri, hər il yayı rayonda keçirən Rüfət bir dəfə olsun rayona gəlməyib. Evi, məhləni də qohumlara tapşırıb. Biz də kirayə verib onun pulu ilə uçulub, sökülən yerləri təmir edirik.

Söhbət mənə elə təsir etmişdi ki, donub yerimdə qalmışdım. Zinyətin dönüb getdiyindən, Zahidlə uşaqların oyanıb aşağı düşdüyündən xəbərim olmamışdı. Bir neçə gün də qaldıq Zahid bu gözəlliklərdən əl çəkib Bakıya qayıtmaq istəmirdi. Onun buralara belə alışmağı məni sevindirsə də rastlaşdığım bu ailə faciəsi məni kədərləndirirdi.

Bakıya döndüyümüz gün Zahiddən maşını mərkəzi aptekə sürməyi xahiş etdim. Bəhanə edib başım ağrıdığını söylədim. Maşından düşüb qaça - qaça aptekə girdim. İçəri keçib qırmızı sifətli, yekəqarın oğlana baxıb dərman istəməyi belə unutdum. Gözümü dirəyib ona baxırdım. Belə baxışlara alışmış yekəqarın oğlan bir az qurcalanıb, sizə nə lazımdır?- dedi. Mən heç nə deyib,getdiyim kimi qaça – qaça geriyə döndüm. Maşın bu gözəl, möhtəşəm rayonu tərk edib çıxacağa yaxınlaşanda, gözüm Zinyətin təsvir etdiyi əzəmətli evə sataşdı. Doğrudan da bu ərazi-

də belə gözəl ev yox idi. Darvazanın iki tərəfində olan böyük flakonlar axşamdan yana - yana qalmışdı. Mən rayonu çıxana qədər başımı döndərib, dağların qoynunda yerləşən əzəmətli saraya baxıb, qatil gəlin, -deyə düşünürdüm.Zahid isə hər il bura gələçəyindən, gödüklərindən, eşitdiklərinən həvəslə danışırdı.

## KÖHNƏ SAAT

Elnurun ezamiyyət vaxtı çatırdı. Amma o, evə getməyə tələsmirdi. Əslində anası üçün burnunun ucu göynəyirdi. Cücəli, qurutlu xəngəlinin qoxusu burnuna gəlirdi. Qadın axır vaxtlar onu bezdirmişdi. Yeməyini bitirməyə aman verməyib, evlən deyib, əl çəkmirdi. Əlbəttə Elnur da çoxdan evlənib ailə, uşaq sahibi olmaq istəyirdi. Di gəl anasının təklif etdiyi qız onun ürəyinə yatmırdı. Bəyənmirəm sözünü deyib, qızın könlünü qırmaq istəmirdi. Yaxşı bilirdi ki, o sözü ağzından çıxartsa bütün kəndə yayılacaq. Bu sözün Gülüşün xətrinə dəyəcəyindən qorxurdu. Gülüş pis qız deyildi. Amma nədənsə Elnurun onunla ailə qurmaq ağlının ucundan keçmirdi. Bəyəndiyi başqa kimsə də yox idi. Bir neçə gündən sonra hər şeyi unudub sevinə-sevinə evə dönürdü. Anası onu cəmi bir gün azad buraxdı. Səhər tezdən yenə də həmin mövzuya dönmüşdü. O,anasına cavab verməmək üçün arxa pəncərənin qarşısına keçdi. Orada həmişədən köhnə, uçuq- sökük bir daxma var idi. Hələ pəncərəni açma-

mış həyətdə nəyinsə qaraldığını görüb təəccüb etdi. Əlini uzadıb pəncərəni acdı. Gözünün önündə canlanan mənzərə onu mat qoydu. Köhnə, uçuq evin yerində yeni tikilmiş səliqəli bir mənzil var idi. Həyət-baca da səliqə sahmanlı İdi. Elnuru ən çox təəccübləndirən məhəllədə gəzişən sarışın qız idi. Ona elə gəlirdi ki, ömründə belə qız görməyib. Elə bil yuxu görürdü. Qız əlindəki balaca qırmızı vedrəni su ilə doldurub ayaqlarına tökürdü. Sanki bunu Elnura acıq vermək üçün edirdi. Hər dəfə aşağı əyiləndə sarı ipək saçları aşağı tökülüb qıza daha da gözəl görkəm verirdi. Elnurun ürəyi az qala ağzından çıxa-çıxa arxaya dönüb dedi:

-Ana, bunlar kimdir ? Bura nə vaxt köçüblər ? Heç burada yeni bir ev tikildiyindən mənim xəbərim olmayıb.

O, sualları yağış kimi yağdırandan sonra özündən asılı olmayaraq, qız nə gözəldir? - dedi. Səlmi oğluna cavab verməsə də iki -üç gün onu narahat etmədi, Gülüşün adını ağzına da almadı. Sanki qurbağanın gölünə daş düşmüşdü. Elnurun gözü pəncərədə qalmışdı. Artıq qızın bəzi xüsusiyyətlərinə, hətta bir az dəlisov olmağına da bələd idi. İki günlük sükutdan sonra Elnur yenidən qız haqqında sual verməyə başladı. Qəribə də olsa qadın mülayim bir tərzdə oğluna cavab verirdi. Bir səhər o, aydınca, oğlum mən də çox istəyirdim ki, Aysel sənə yar olsun, - dedi. Onu bilirəm ki, çox ərköyün qızdır. Gələn elçilərin hamısını qaytarır. Elnur anasına bir söz deməyib çölə çıxdı. Bir neçə gün də ötdü. Onun məzuniyyəti bitmək üzrə idi. Amma ki, heç nə əldə edə bilməmişdi. Bir

yaxşı iş olmuşdu ki, Səlmi susmuşdu. Axırıncı iki gün idi ki, oğlan tərs dəyirmana dönmüşdü. Birdən qızgilin həyətində hay -küy qopdu. Elnur heç nəyə baxmadan onların məhləsinə keçdi. Burada hər kəs qışqırırdı. Yanğın başlamışdı. Su motoru taxılmış olan şəbəkə alışıb yanırdı. Alovun dilləri yuxarıya doğru qalxıb pərdəni bürümüşdü. Oğlan irəli atılıb döşəmə taxtası ilə vurub motoru şəbəkədən ayırdı. Sonra isə qapının önünə salınmış kiçik xalçanı götürüb onunla alovlanmış pərdəni söndürdü. Onun əllərini alov qarsımışdı. Saatının qayışı qızıb qolunu yandırırdı. O, saatı qolundan açıb indicə ətrafa nəzər saldı. Aysel qar kimi ağappaq olmuşdu. Elnurun baxışları onun üzündə dayananda qız qaçıb su gətirdi. O,suyu alıb içdi. Lakin gözünü qızdan çəkə bilmirdi. O gecə oğlanın gözünə yuxu getmədi. Səhər yerindən duran kimi,ana Ayseldən xoşum gəlir,- dedi. Məzuniyyətini bitirib işə qayıtdı. Bu dəfə tək deyil, ürəyində gözəl bir qızla hərbi hissəyə çatdı. Bundan sonra hər dəfə evə gələndə gözü anasının ağzında qalırdı. Amma qadın dinib,

danışmırdı. Gülüşün də adını çəkmirdi. Amma bu dəfə qapıdan içəri girməmiş qadının üzündəki sevinci hiss etdi. Bu sevincin qızla əlaqəli olduğunu düşünüb ürəyi çırpındı. Doğrudan da qadın Elnurun paltarını dəyişməyinə aman verməyib sözə başladı:

-Ayselin başına dönüm. Lap ürəyimdən xəbər verir dedi: Deyir Elnurla ailə quraram bu şərtlə hərbidən işdən çıxsın.

Sevinci ürəyində parça - parça olan oğlan anasını danışmağa qoymadı: -Bilirsən nə var ? Mən vətənim darda ikən, torpaqlarım işğal altında olan bir dövrdə heç vaxt başqa işə keçmərəm. Bir daha o qızın adını mənim yanımda çəkmə, -dedi. Yemək yeməmiş otağına keçdi. Kədərdən üzülsə də bir daha pəncərəyə yaxınlaşmadı. O,Ayseli hədsiz sevir və çox məyus olurdu. Gedənə yaxın yenə də nə isə öyrənmək ümidi ilə ana, mən onlara yardıma gedəndə saatımı orada qoymuşam,- dedi. O saat köhnə olsa da mən ona öyrəşmişəm. Səlminin nə xəbərlə gələcəyini gözləyən oğlan təəccüb içində işə qayıtdı. Qəribə olsa da, saat bizdə deyil, cavabını alan qadın qonşularla mübahisə etmədən evə dönmüşdü.

Ertəsi gün hərbi hissəyə çatan Elnur ermənilərin yeni həmləsinə tuş gəldi. Onun nəinki saat heç Aysel haqqında düşünməyə macalı yox idi. Şiddətli atışma gedirdi. Ermənilər iri çaplı silahlardan atəşə başlamışdılar. Yaralılar var idi. Elnur ön xəttə gizirləri keçirib, hərbi xidmətdə olan uşaqları arxaya keçirdi. Tovuzlular artıq otuz il idi ki, itkilər verə -verə acgöz ermənilərin torpaq iddiasının qarşısını alırdı. Hər dəfə qızışıb ortaya düşən bu həyasız xalqın burnunu ovub geri qaytarırdılar. Başqa millətlərin qüvvəsinə, silahına və pulla tutulmuş əsgərlərinə güvənən ermənilər bu dəfə lap qızışmışdılar.

Aysel birinci dəfə idi ki, belə bir hadisə ilə qarşılaşmışdı. Onlar indiyə qədər Rusiyada yaşamışdı. Tovuzda müharibə getdiyini isə sadəcə eşitmişdi. Artıq bir həftə idi ki, yağış kimi yağan mərmilərin altında yaşayırdı.

Dəhşətli səsdən qulaqları batırdı. Gecə gündüz mərmilər yağış kimi yağırdı. Təkcə özü deyil, anası da mat qalmışdı. Burada hər kəs öz işinin, gücünün başında idi. Ağlayanda ağlayır, ayağa duranda pəhləvan kimi dururdular. Demək olar ki, hər gün şəhid qəbul edir, bu acını elliklə bir nəfər kimi qəbul edib kədərə, göz yaşlarına qərq olurdular. Bununla yanaşı uşaqdan böyüyə kimi hər kəs tək bir söz bilirdi: Bu vətən bizimdir. Bura erməni ayağı dəyə bilməz. Ölən öləcək,qalan qalacaq! İşğal altında olan torpaqlarımızı da azad edəcəyik!

Elnurun adı dillərdə gəzirdi. Hər kəs onun döyüşdə göstərdiyi rəşadətdən danışırdı. Hər yeni xəbərdən sonra Aysel hamıdan xəlvət otağına qaçır, çarpayısının altında gizlətdiyi saatı çıxardıb tumarlayır, bəzən isə öpürdü. Qız çox peşman idi. İndi tək bir arzusu var idi. O, da Tovuzlulara bənzəmək istəyirdi. Düzdür burada böyüməsə də ata- anası Tovuzlu idi. Qız öz soy kökünə, onların əqidəsinə, cəsarətinə, mərdliyinə heyran olmuşdu. Bu gün atışma lap artmışdı. Aysel çox qorxurdu. Dəhşətli top, mərmi səsindən sonra qorxa - qorxa başını pəncərədən çölə çıxarıb insan selini görəndə damarında qan dondu. Qız əhalinin rayonu tərk etdiyini düşünürdü. Lakin əhali üzü döyüş yerinə doğru axın edirdi. Hər kəs döyüşçülərə nə isə aparırdı: siqaret, yemək içmək, meyvə və sairə. Ən təəccüblüsü o idi ki, dünən dava edən qonşular cəbhəyə doğru birgə addımlayırdı. Onların cəbhə bölgəsinə sarı getdiklərini eşidən qız mat qaldı. Hərə bir xəbərlə gəlirdi. Ən dəhşətli xəbər isə Generalın şəhid ol-

ması idi. Hər kəs ağlayırdı. Bütün xalq ayaq üstə idi. Xalq uğrunda canından keçən general xalq tərəfindən alqışlarla qarşılandı. Uşaqdan böyüyə kimi hamı onun qanının yerdə qalmayacağına and içirdi. Qız şəhidlərin son mənzilə yola salınmaq mərasiminə nə ad verəcəyini bilmirdi. Buradakı mərdlik, qürur, çırpıntı onun ürəyini silkələyirdi. Yeni bir xəbər rayona bomba kimi düşdü. Elnur ağır yaralanmışdı. Deyilənə görə onu da rayon hospitalında yerləşdirmişdilər. Aysel qaçıb yenə saatı götürdü. O, gah allaha, gah da müqəddəs saydığı saata yalvarıb Elnurun sağ salamat qayıtmağını arzu edirdi.

Elnur gözünü bir həftədən sonra açdı. İlk gözünə sataşan saatı oldu. Təəccüblə gözünü tibb bacısının üzünə dikdi. Qadın gülümsəyib dedi:

-Şükür allaha qolun kəsiləsi olmadı. Yoxsa bu saatı gətirən sarışın, gözəl, mən qolumu Elnura verirəm deyirdi.

Elnur qoluna baxıb gülümsəyirdi.

## QEYRƏTDƏN GƏLƏN HARAY

Fərman kişi adəti üzrə yuxudan tez oyanardı. Lakin bu səhər onu sərhəddən gələn atəş səsləri oyatdı. Ermənilər yenə də hücuma keçmişdi. Səs get -gedə güclənirdi. O, köhnə döyüşçü olmuşdu. Odur ki, məsələnin nə yerdə olduğunu, atılan silahın hansı növ olduğunu, və onun hara düşdüyünü yaxşı bilirdi. İndi gələn səslərdən mərmilərin Dondar Quşçuya düşdüyünü anladı. Siqaretini

alışdırıb pilləkənlərin başında oturdu. Şəhərdən gələn uşaqlara görə narahat olurdu. Rayondakı uşaqlar adətkər idilər, şəhərdən gələnlər səs küydən qorxarlar, deyə düşünürdü. Havalar qızandan məhlələr şənlənmişdi. Hər yerdən körpə gülüşü eşidilirdi. Düzdür hal- hazırda uşaqlardan oyanan yox idi. Amma bu səs belə davam etsə indicə oyanıb gələcəkdilər. O, bir necə il bundan əvvəl Puşkin məktəbinin həyətinə düşən qradı xatırladı. On-on iki yaşlarında üç oğlan uşağı tikə - tikə olmuşdu. Tikələrini məktəbin məhəccərinin arasından bir - bir yığmışdılar. Hansı tikənin kimə aid olduğunu bilmədikləri üçün onları sahiblərinə başlarına görə ayrıd edib vermişdilər. Ondan bir neçə gün sonra isə üç yaşlı bir qızcığazın öz məhlələrində oynadığı yerdə düşən mərmi başını bədənindən ayırmışdı. Məsələ onda idi ki, körpənin təkcə bədənin tapdılar baş isə yox idi. Onu dəfn edəndən üç gün sonra qonşu gəlin evinin damına soğan düşürmək üçün qalxanda körpənin başını soğanların üzərinə görüb bayılmışdı. Uşağın başını yenidən aparıb bədənin yanında dəfn etdilər. Lakin sarı, qıvrım saçları soğanın üstünə yayılmış körpəni unuda bilməyən gəlin uzun müddət xəstə yatdı.

Hara isə lap yaxına düşən mərmi səsi Fərman kişini xəyaldan ayırdı. Onsuz da yadına düşən xatirələrdən ürəyi çırpınan kişi siqaretin kötüyünü zibil qabına atıb ayağa durdu. Aşağı yenicə düşmüşdü ki, pilləkənlərin başında dayanan dörd yaşlı Muradı gördü. Yadına düşən xatilərərdən yenə də əti ürpəşib, nə tez oyanmısan, başı-

na dönüm, -dedi. Murad baba, guppultu səsi haradan gəlir? - deyib öz sualına özü cavab verdi: ermənilər bomba atırlar? Kişi Muradın qorxaq olmadığını bilsə də dedi:

- Yox başına dönüm təlim keçirlər.

Bombanın səsi isə lap artmışdı. Fərman kişi bir siqaret də yandırıb darvazadan çölə çıxdı. İlk qarşılaşdığı qonşunun oğlu Fariz oldu. Onunla iki gün bundan əvvəl görüşmüşdü. Bir- iki günlük gəldiyini söyləyirdi. Bakıda bankda işləyirdi. Onun Bakıya getdiyini düşünüb uğur olsun, - dedi. Fariz dönüb təəccüblə ona baxıb dedi:

-Getmirəm ermənilər hücuma keçib.

Fərman siqareti acgözlüklə ciyərinə çəkib dedi:

- Bəs deyirdin işə qayıtmalıyam.
- Yox belə bir vaxta hara gedim ?
- Uşaqlarını apar.
- Sən nə danışırsan Fərman əmi mənim uşaqlarım buradakı uşaqlardan artıqdır? Sonra sakitlik düşəndə hansı sifətlə qayıdım rayona ? Adama deməzlər bizim canımız can deyil? Sənin üçün torpaq qoruyuruq ki, gedib Bakıda oturasan,sonra da durub dincəlməyə gələsən. Yox - yox gedə bilmərəm. Heç Nazimgil də qayıtmır. Sabah mütləq işdə olmalıdır. Deyir işi tapmaq olar belə bir vaxta rayondan çıxsam hərə bir yana yozar. Həm də nə olur olsun rayonu tərk etsək əhalidə ruh düşgünlüyü yaranar. Oğlanın sözlərindən xoşu gələn Fərman kişi bığaltı gülümsünüb dedi:

- Əə, bu rayonun oğlanları gedəni, qalanı vecinə də almır. Elə mən özüm də qalxacam sərhədə. Oraları məndən yaxşı tanıyan yoxdur.

- Bu dəfə Fariz qəhqəhə ilə gülüb dedi:

- Ay kişi,otur oturduğun yerdə,şükür allaha cavanlara nə gəlib ki, sən qalxırsan sərhədə?

Sonra əlini Fərman kişinin kürəyinə vurub, sən buralardan, uşaqlardan muğayat ol, məni isə dostlarım gözləyir, biz qalxırıq sərhədə. Fərmanın ürəyi qürur hissi ilə dolsa da Farizin axırıncı sözündən incidi. Necə yəni sən uşaqlardan muğayat ol? Mən uşaq baxıcısıyam nəyəm?

Günortaya yaxın atəş daha da qızışdı. Mərmilər yağış kimi yağırdı. Həyətdə oynayan uşaqlara təpinib evə gedin,- deyəndə Farizi düşünüb evə sarı qışqırdı: Atışmanın səsini eşitmirsiniz ?Bu uşaqları evə yığın də. Günorta yeməyini yeməmiş maşına minib darvazadan çıxdı. İlk əvvəl yolunu marketdən saldı. Burada maşın əlindən tərpənmək mümkün deyildi. Əli tutan döyüşçülərə bazarlıq etməyə gəlmişdi. Özünün də məqsədi o idi. İndi əsgərlər yeməklə, paltarla, silahla tam təmin olurdular. Lakin bu adət -ənənə Tovuzlulara doxsanıncı illərdən qalmışdı ki, o zaman hec nə yox idi. Nə silah var idi, nə də ki ərzaq. Hər şeyi xalq özü edirdi. Lakin bu adət -ənənə otuz il idi ki, davam edirdi. Acgöz, işğalçı yırtıcılar hücuma keçən kimi xalq ayağa qalxırdı. O, düşüncələr içərisində markettə çatdı demək olar ki, doxsan faiz adam əsgərlərə bazarlıq edirdi. Növbədə iki qardaşın arxasında dayanmışdı. Onlar maşının içərisini və yük yerini ağzınadək doldur-

muşdular. Fərman on qutu siqaret alıb, özlüyündə Farizin açığına cəbhəyə yola düşdü. Yol maşınla dolu idi. Amma piyada axını da su kimi axırdı. Onların əllərində bağlama, bəziləri isə bağlamanı kürəyinə sarıyıb gedirdi. O, maşını saxlayıb bir neçə piyadanı maşına götürdü. Həyəcandan ürəyi sancırdı. Atışma lap qızışmışdı səsdən qulaq batırdı. Lakin bir nəfər olsun geri dönən yox idi. Farizin açığına qətiyyən qayıtmaq istəməyən Fərmanı döyüş meydanına buraxmadılar. Get dincəl dedilər. Biz hələ ölməmişik ki, sən yaşda adam gəlib döyüşsün. Hələ ona təsəlli də verdilər ki, bir qarış torpağımız ermənidə qalmayacaq. Lakin artıq üç şəhidimiz var idi. O, Şəhidlərlə bərabər rayona dönürdü. Ağlaya bilmirdi. Çünki gözünün önünə otuz il bundan əvvəlki Əlibəylidə olan toy gəlirdi. Bu şəhid oğlanın atasının toyu idi. Çox ağır günlər idi atışma gedirdi. Polislər kəndi boşaltmışdılar. Musa deyəndə oğluma kənddə toy edəcəm. Fərman təəccüb etmişdi. Kim gələcək deyə sual vermişdi. Musa cavabında elim, obam, basılmaz xalqım hamısı gələcək, - demişdi. Elə də olmuşdu. Rəhbərlikdən icazə verməsələr də Musa kənddə oğluna toy etmişdi. Hər kəs də iştirak edib çalıb oynamışdı. Oğlanlar əllərində avtomat oynayırdı. Fərmanın gözünün önünə bəy gəlirdi. Güllə sədaları altında toyu olan bəy.Bu həmin bəy idi ki, otuz ildən sonra oğlu vətən yolunda şəhid olmuşdu. Şəhidin qapısına çatdılar. Həmin bəy bu gün qucağında nəvəsi oğlunu son mənzilə yola salırdı. Vətən sağ olsun,- deyirdi. Qucağımda tutduğum bu körpə qoruyacaq torpaqlarımızı. Fərman dəfn-

dən çıxıb evə gəldi. Oradakı o çoşqu ürəyini silkələmişdi. Səslər qulağından getmirdi. "Şəhidlər ölməz, vətən bölünməz"!! Bu sözləri durmadan təkrar edirdi. Döyüşə götürülmədiyini evdə heç kəsə demədi. Əslində bunu özündən başqa kimsə bilmirdi. O, yenə də pilləkəndə oturub siqaret çəkirdi. Qapıdan içəri keçən Farizi görəndə narahat olmağa başladı. Onu götürmədiklərini oğlanın bilməyini istəmirdi. Amma Fariz o halda deyildi. Ağzını zorla açıb Poladı vurdular, -dedi. Fərman yerindən dik qalxıb, hansı Poladı ?- dedi Fariz gözləri dolmuş halda:

- General Həşimovu-, dedi.

- Fərman ürəyinin cırıldığını hiss etdi. Başını qaldırıb günəşə baxdı. Günəş batırdı. Ona elə gəldi ki, bir daha günəş çıxmayacaq. Bu acgözlüyü, vəhşiliyi, işğalçılığı, murdarlıqları nurlandırmayacaq. Gözü get- gedə qaralırdı. Uzaqdan bomba səsləri gəlirdi. Uşaqlar həyətdə o tərəf bu tərəfə qaçırdı. Fərman torpağını qoyub qaçmayan Farizə və oynaşan uşaqlara baxıb düşünürdü, bu xalq başqasının yalına hürən, başqasının qüvvəsinə güvənən ermənilərə təslim olmayacaq!. O, çox zəif bir səs də eşidirdi. Fariz Fərman əmi öldü deyib haray çəkirdi. Fərman isə özünü toplayıb ölməyib dedi, vətən uğrunda şəhid oldu deyə son dəfə qeyrətdən gələn bir haray çəkib susdu.

## TƏNHA MƏZAR

Hələ uşaq vaxtlarımda Şamaxıya gedəndə yol kənarında tənha bir məzar görürdüm. Atam mütləq onun yanında maşını saxlayıb düşər, dua oxuyub salavat çevirib sonra maşına minərdi. Hər dəfə də maşına qayıdanda "allah rəhmət etsin" deyərdi. Türk əsgərinin məzarıdır. O vaxtlar ermənilər Azərbaycana basqın edəndə bizə köməyə gələn əsgərlərdən biridir. Burada şəhid olub.

Hər bu söhbəti eşidəndə içimə dərin bir kədər çökürdü. Əsgərin məzarı tənha olmağı yetmirmiş kimi həmin ərazi yaşayış yerindən aralı,yaşıllığı çox az olan kiçik sarı təpələrin arşında yerləşirdi. Mənə elə gəlirdi ki, qərib əsgər orada çox darıxır. Daxilimdən bir xəcalət hissi keçirdi. Və bu hiss məni uzun müddət tərk etmirdi. Həmin aşırımı ötəndən xeyli sonra da gözüm arxada qalırdı. Az qala mənzil başına çatana kimi gözümün önünə tənha məzarın sahibinin anası, nişanlısı gəlirdi. Hər dəfə də onların haqqında özümdən yeni bir şey uydururdum.

İllər ötdü, atam haqqın dərgahına qovuşdu. Amma mən həmin yerə çatan kimi qərib məzara baxıb utanırdım. Maşından düşüb mütləq duamı oxuyurdum. Həmin boşluqda daim əsən və qəribə səs çıxardan külək sanki daxilimə əsirdi. Maşına qayıdanda özümdən asılı olmayaraq əlimi uzadıb musiqini kəsirdim. Daxilimə əsən külək isə çox keç sakitləşərdi. Və bir dəfə xəstə yatan bibimə dəymək üçün yenə Şamaxıya gedirdim. Adətim üzrə düşüb məzarı ziyarət etdim. Orada təzətər çiçəklər var idi.

Həmişəki kimi yenə də kədərlənib, məyus oldum. Bibimgilə çatıb hal -əhval tutandan sonra ilk söhbətim türk şəhidin məzarı haqqında oldu. Oradan keçəndə keçirdiyim hissləri və təəccüb etdiyimi söylədim. Məzarın üstündə bir dəfə toz torpaq görmədim, -dedim. Tərtəmiz, demək olar ki, həmişə təzətər çiçəklərlə bəzədilmiş olur. Bayaqdan məni maraqla dinləyən bibimin dodağında gülüş dondu. O, uzun sükutdan sonra kürəyini açıb oradakı dərin xəncər yarasını göstərib sözə başladı:

Bu xəncər yarasının izi kürəyimdə olsa da ağrısı ürəyimdədir. O vaxtlar mənim cəmi üç yaşım var idi. !918- çi illər idi. Ermənilər Azərbaycan torpaqlarına hücuma keçmişdi. Hər kənddə, şəhərdə qan töküb vəhşiliklər törədirdilər. Zülm ərşə dayanmışdı. Çalıb, çapıb, talayıb günahsız insanları xəncərdən keçirirdilər. Bizim kəndə daxil olanda mən küçədə oynayırmışam. Yanımdan ötən atlılardan biri xəncəri siyirib, kürəyimi yarıb sonra ötüb. Anam məni tamam qana bələnmiş halda tapıb. Sağalmağıma heç bir güman olmadığı halda uzun müddətdən sonra özümə gəlmişəm. Həmin basqın zamanı bizim kənddə də Şirəli kişinin Əminə adlı qənirsiz gözəl bir qız var imiş. Onun sərvi boyu,az qala topuğuna dəyən saçları və ay parçası kimi gözəl sifəti var imiş. Sən demə bu gözəlin səsi, sorağı ermənilərə çatıbmış. Daha doğrusu kəndə girən quldur dəstəsinin rəhbərinin çoxdan gözü Əminədə imiş. Bizim qızların nəinki gözəli, ən çirkini evdə qalmışı erməniyə ərə getməzdi. Arzusu ürəyində qalmış o vəhşi kəndə girən kimi Əminəni soraqlayıb, hər

kəsdən qızı soruşur. Təbii ki, heç kəs qızın yerini demir. Kənddə şiddətli döyüş gedirdi. Qan su yerinə axırdı. Lakin Əmimənin  ələ keçməyini heç kim istəmədiyi üçün ərinə xəbər çatdırırlar ki, ermənilər Əminəni axtarır. Oğlan döyüşü qoyub qaçır evə. Hər tərəfi axtarsa da heç yerdə onu tapa bilmir. Qızı gördüm deyən olmur. Əminə isə xəbəri duyan kimi çox böyük çətinliklə qaçıb girir Pirmərdəkana. Lakin burada da ələ keçəcəyindən qorxub qalxır pirin künbəzisinin üstünə. Əllərini orada bir yerə keçirib saatlarla göydən asılı vəziyyətdə qalır. Gözləri qızmış vəhşilər hər yeri atıq- atıq edəndən sonra gəlib pirə çatırlar. Hətta erməni dığa Əminə deyib bağırırmış da. Pirə də girib gəzirlər, xoşbəxtlikdən yuxarıya baxmadan qızı tapmayıb çıxırlar. Yazıq qızın qollarına qan sağılıbmış, hətta damar partlayıb yerə damcı - damcı qan damırmış. Uzun illər künbəzi boyu axmış həmin qan izləri divarda dururdu. Yerindən qalxan hər bir yeniyetmə qızın anası əlindən tutub pirmərdəkana aparırdı. Kəndlərindəki gözəl Əminənin murdar ermənilərin əlinə keçməmək üçün göstərdiyi rəşadətin izlərini göstərib həmin hadisəni danışardı. Həmin vaxt bütün Azərbaycanı, eyni zamanda bizim kəndi Türk əsgərləri xilas etdi. Onlar erməni quldurlarının layiqli cavabını verib, onları yerlə yeksən etdilər. Ağır döyüşdən iki gün sonra gənc oğlan Əminəni Pirdə bayılmış halda tapıb gətirir. Lakin özü həyatını itirir. Çünki özü də yaralı imiş, çox qan itirsə də qızı böyük çətinliklə gətirib kəndə çıxara bilir. Kənd sakinləri oğlanı həmin yerdə dəfn etsələr də, onu heç vaxt tək,

sahibsiz qoymadılar. Sovetlər dönəmində belə şeylər qadağan olsa da demək hər gün onun qəbrini ziyarət edib, məzarın kənarına səliqə ilə yığılan daşları yenidən yığıb, üstünə gül çiçək yığırdılar. Nəinki bizim kəndin sakinləri ətraf kəndlərin adamları da daima o məzarı ziyarət edirdi. Bir sabah yerimizdən duranda sadə məzarın yerində mərmərdən bir xatirə abidəsi ucaldığını gördük. Buna hər kəs sevindi. Abidəni vəzifəli bir şəxs qoydurmuşdu. Həmin adamı işdən çıxartsalar da xalq tərəfindən sevilən türk şəhidinin abidəsini götürə bilmədilər. Həmin adət bu günə kimi davam edir. Məzar hər gün xalq tərəfindən ziyarət edilib, gül çiçəklə bəzədilir.

Bibimi dinləyib, sakitləşə bilmədim. Həm əllərindən qan axan Əminəni gözümün önündə çanlandırırdım. Həm də gənc yaşlarından nahaq yerə həyatını itirən nakam oğlanı düşünürdüm. Axı onların günahı nə idi? Nəyə görə allah bizə belə paxıl, xain, qan içən bir qonşu vermişdi ? Qayıdanda yenə maşını məzarın yanında saxlayıb düşdüm. Məzar təzə çiçəklərlə bəzədilmiş olsa da, həmin külək əsib qəribə səs çıxardırdı. Mən yenə də bizim uğrumuzda həyatını itirən oğlandan utanırdım. Onun gözü yollarda qalan anasını, sevgilisini düşünürdüm.

# YETİM ŞƏHİD

*( Ata- anasız şəhidimiz Rəşad Cəfərzadənin əziz xatirəsinə İthaf edirəm. )*

Rəşadgilin evləri yanandan sonra uşaqlıq dostu Fəridi birinci dəfə hərbi hissəyə çağırış şöbəsində gördü. Hər ikisi sevinirdi, bir - birini tanıyıb quçaqlaşdılar. Artıq on il olardı ki, görüşmürdülər. Uşaqlıqları birlikdə keçmişdi. Qapıbir qonşu idilər. Fərid hədsiz arıq sısqa bir uşaq olduğu üçün Rəşadın anası həmişə ona da yemək yedizdirməyə çalışırdı. Eyni zamanda Fəridin anası da Rəşadı öz balalarından ayırmırdı. Lakin o dəhşətli yanğın gecəsindən sonra Rəşad bir dəfə olsun onları görmədi. Ata - anasını itirdiyi həmin gecədən sonra yetimxanada böyüdü. İlk günlər Fərid üçün çox darıxırdı, hətta gecələr xəlvət ağlayırdı da. Zaman ötdükcə isə onu tamamı ilə unutmuşdu. Uşaqlıqda Fərid arıq sısqa, Rəşad isə koppuş idi. İndi isə fərqli görkəmdə idilər. Uzun hal -əhval tutundan sonra Fərid istirahət günü günorta mütləq onlara gəlməyi təklif etdi. Atası onun hərbi xidmətə yola düşməyinin şəninə qonaqlıq təşkil etmişdi. Bütün qohum, qonşular bizdə olacaq,- dedi. Oğlanlar ayrıldı, amma Rəşad elə həmin dəqiqədən istirahət günün gözləməyə başladı. Çünki özü də hərbi xidmətə yola düşürdü. Lakin bu dünyada vidalaşmaq üçün heç kimi yox idi. Həm də Fəridin valideynlərini görüb, öz atalı -analı günlərini xatırlayıb, o günlərin istisinə isinib, bu hərarəti özü ilə hərbi xidmətə aparmaq istəyirdi. Xatirələr Rəşad üçün çox əziz

idi. Onları sevə -sevə qorumağa çalışsa da köhnə şəkil kimi solmağa başlamışdılar. O, xatirələrinin çanlanmağını istəyirdi.

Rəşadı Fəridgildə çox təntənə ilə qarşıladılar. Fəridin anası - atası onun heç xatırlamağı şeyləri yada saldılar. Lap yadına gəlməsə də gözünün önündə çanlandırıb həyaçanlanmışdı. Ürəyinin döyüntüsü artıb, saçının dibindən su tökülürdü. O,artıq çoxdan idi ki, belə isti ocaqda oturub, mehriban münasibətdə olmamışdı. Yeməklərin ən yaxşısını, istisini onun qarşısına qoyub, şəninə sağlıqlar söyləyib uğurlar diləyirdilər. Bütün bunlar öz yerində bayaqdan bəri ortalıqda gəzişən ala gözlü, sarışın qız gözünü ondan çəkmirdi. Bu qızın kimliyini bilməsə də gəldiyi ocağa hörmət qoyduğu üçün bu fikri özündən uzaqlaşdırmağa çalışıb, özünü görməməzliyə vururdu. Lakin bu sarışın gözəldə qəribə bir açıq- saçıqlıq, sərbəstlik var idi ki, qəflətən hamının eşidəçəyi bir səslə Rəşada sual verib dedi:

- Bəs sənin qonaqlığın nə vaxt olacaq?

Oğlan bir an çaşıb qaldı. Onun əvəzinə Fəridin atası cavab verdi:

-Bu qonaqlıq elə onun da şərəfinə açılıb. Fərid bizə Rəşadın da gələçəyini söyləmişdi.

- Lakin Rəşad qıza alçaq bir səslə cavab verdi:

- Məni nə yola salan var, nə də ki, qarşılayan olacaq.

Onun səsini qızdan başqa duyan olmadı, çünki məclis qızışmışdı. Hamı yeyib içirdi. Qonaqlıq gecəni yarısınadək davam etdi. Yedilər,içdilər rəqs etdilər. Rəşad

da ömründə birinci dəfə oynadı. Özü də yaxşı oynayırmış. Halbuki həmişə mən oynamaq bilmirəm,- deyirdi. Qapıdan çıxanda bir az da dəlisovluq hiss etdiyi sarışın qız, mən səni həm yola salaçam, həm də qarşılayacam, - dedi. O, qulağına inana bilmirdi. Bunların hamısı bu günki xoşbəxtliyin təsirindəndir,- deyə düşünürdü. Lakin səhər açıldı, bir necə gün ötdü, onun yola düşəçəyi gün çatdı. Hər şey gözünün önündən çəkilib getdi. Bir tək sarışın qız qaldı. Hansı ki, " Mən sən həm yola salaçam, həm də qarşılayacam,"- deyirdi.

O, hərbi xidmətə yola düşəçəyi gün gəlib çatdı. Gözü yollarda qaldı. Qız gəlmədi. Nəhayət özünü xam xəyala düşdüyü üçün danlayıb, gözünü yollardan çəkib yola düşdü. Bəzən elə darıxırdı ki, Fəridlə rastlaşdığı günə lənət yağdırıb, kaş heç qarılaşmayaydıq,-deyirdi. Bəzən isə ürəyindəki böyük bir boşluğun yerini dolu kimi görüb həmin günü minnətdarlıqla xatırlayırdı.

Cəbhədə ağır döyüşlər gedirdi. Artıq Rəşad komandirin yanında və dostlarının arasında böyük hörmət qazanmışdı. Onun gözündə qorxu yox idi. Vətənə sevgisi isə hədsiz idi. Ən çətin, ən ağır tapşırıqlarda sinəsini qabağa verirdi. Uşaqlarla elə davranırdı ki, sanki burada hamıdan böyük o, idi. Bütün qayğı onun üzərindədir. Bir necə dəfə yoldaşlarını xilas etmək üçün özünü qabağa verib ölümlə üzbəüz qalmışdı. Komandır bu mərd, sözünə bütöv, qorxu nə olduğunu bilməyən qoçaq oğlanı çox sevirdi. Onu dəfələrlə sinəsini gülləyə verməyinə görə

danlamışdı. Bir necə dəfə tərifnamə və nişanlarla təltif olmuşdu.

Vətən, torpaq dərdini çiynində daşısa da boş vaxtı olan kimi o qızın sözlərini xatırlayırdı. Amma qızın onu yola salmağa gəlmədiyini xatırlayıb məyus olurdu. Məyus olmağına baxmayaraq demək olar ki, hər gün qıza məktub yazırdı, neçə ki, bir vaxtlar hər gecə anasına məktub yazardı. O məktubları yollamağa ünvan yox idi. Anasının həyatda olmadığını yaxşı bilirdi. Ala gözlü bu qız isə var idi. Rəşada hamının önündə, heç kimdən çəkinmədən söz vermişdi.

Bir gün möcüzə baş verdi. Növbədən gələn Rəşad masasının üzərində məktub gördü. Əlləri titrəyə - titrəyə məktubu acıb oxumağa başladı. Məktub ona yazılmışdı. Məktubu adı Arzu olan həmin sarışın qız yazmışdı. Rəşadı gözlədiyini,ondan xoşu gəldiyini, hətta onun çox yaraşıqlı olduğunu deyirdi. O, gözünə inana bilmirdi. Bir necə dəfə məktubu o tərəf bu tərəfə çevirdi. Doğrudan da məktub ona ünvanlanmışdı. Oğlana elə gəlirdi ki, ürəyi şişib sinəsinə sığmır. Yatana qədər məktubu dəfələrlə oxudu. Qıza cavab məktubu yazmaq istəyirdi. Amma bu məktubu yazmaq üçün dünyanın ən gözəl sözlərini seçmək istəyirdi. Odur ki, düşünmək qərarına gəldi. Məktubu sinəsinin üstünə qoyub yuxuya getdi. Səhər yuxudan duran kimi ilk işi məktubu oxumaq oldu. Gününə ruh yüksəkliyi ilə başladı. Arzunun sözləri ürəyinin dərinliyində gizlənib qalmış arzularına qanad vermişdi. Axşama qədər vaxt tapan kimi məktubu acıb bir neçə dəfə

oxudu. Məktuba cavab yazırdı. Hər gün cəmi bir iki çümlə yaza bilirdi. Lakin o cümlələrin ətrafında böyük bir xəyal qurmuşdu. Xəyalında Arzu ilə özünə isti yuva qururdu. Arzunun tərəfindən təməli qoyulmuş yuvasının divarları hər gün bir kərpic ucalırdı. Qurduğu xəyal ona xoşbəxtliyə aparırdı. Orada istilik, məhəbbət, sədaqət, ən başlıcası Arzu var idi. O, qurduğu bu xəyalların sevincini qızla bölmək üçün məktubunu yekunlaşdırmağa çalışırdı. Son sətirləri yazırdı. Lakin məktub sona yetməmiş həyəcan siqnalı çalındı, oğlan məktubu sinəsinin üstündəki cibə qoyub, yerindən dik qalxdı. Az sonra o, döyüşə hazır vəziyyətə idi. Düşmənlər növbəti hücuma keçmişdi. Atışma get -gedə qızışırdı. Mərmi daşıyan oğlanlardan birinə güllə dəymişdi. Rəşad onun cəsədini arxa tərəfə çəkmək istəsə də bacarmadı. Çünki topun arxasındakı oğlan da yaralanmışdı. O, yaralı topçunu zorla geriyə çəkib, qayanın kənarına gəldi. Oradan ermənilərin qərargahı aydın görünürdü. Rəşad yaxşı bilirdi ki, adi halda orada on, on beş əsgər olur. Hal hazırda isə qərargahda ən azı otuz nəfərin olduğu ona gün kimi aydın idi. Həlak olan və qan içində son dəqiqələrini yaşayan topçu oğlan onu yandırırdı. Sinəsindən alov qalxırdı. Hirsindən dərisi yanırdı. Onların qisasını almaq üçün bir necə qumbaranı üstünə bağladı. Əlini atıb sinəsinin üstündəki məktubu çıxarıb dodağına yaxınlaşdırıb bir neçə dəfə öpüb, qoxuladı. Məktubla pıçıltı ilə vidalaşıb, "Vətən sağ olsun" deyə hayqırdı. Özünü qayanın başından düşmənin qərarga-

hının üstünə atdı. Onun son harayını və güclü partlayış səsini komandır və dostları eşidirdi.

## GÖZLƏNİLMƏZ VƏSİYYƏT

Vətən uğrunda canından keçən nakam şəhidlərimizin əziz xatirəsinə ithaf edirəm.

Çingiz qollarını çayın körpüsünün kənarındakı məhəccərə söykəyib, ilan kimi qıvrılıb uzaqlara gedən Kür çayına baxırdı. Daxilindəki təlatüm onun yuxusunu qaçırmışdı. Hələ hava tam açılmasa da yerindən durub çayın sahilinə gəlmişdi. Çünki artıq beş il idi ki, gəlib çay ilə dərdləşirdi. Bütün arzularını ona söyləyib ondan imdad istəyirdi. Yenicə çıxmağa başlayan günəşin şüaları altında par-par parıldayan çay sakitcə axıb uzaqlara gedirdi. Həmişə Çingizə elə gəlirdi ki, su onun ürəyinə ağırlıq salan dərdi götürüb özü ilə uzaqlara aparır. Eyni zamanda, hər yerdən od tökülsə də burada əsən həzin meh saçlarını, üz gözünü xəfifcə tumarlayıb ona ümid verirdi. Bu gün oğlan bura sevincini bölməyə gəlmişdi. Ürəyi köksünə sığmırdı. Hələ də beş illik həsrətinin sona yetməyinə inana bilmirdi. Amma bitmişdi, hər şey sona yetmişdi. O, sevgilisinə qovuşmuşdu. Hətta nişanı da olmuşdu. Dünənki gün həyatının ən xoşbəxt günü idi. Qara gözlü gözəllə əl-ələ, diz - dizə oturmuşdu. Onun səsini eşidib, hənirtisini duyurdu. Rəqs də edirdilər. Hər dəfə qız gözlərini qaldırıb, sifətindəki məsum bir ifadə ilə gülümsəyəndə az qalırdı ki, ürəyi köksündən çıxsın. Xatır-

layıb gülümsəyirdi. Sonra ilan kimi qıvrılıb lap uzaqlara gedən çaya baxıb, həsrətinin təməli qoyulan həmin günü xatırladı. Universitetin üçüncü kursunu bitirirdi. İmtahanları müvəffəqiyyətlə verib qurtarmışdı. Kefi ala buludda idi. Universitetdə böyük bir tədbir var idi. Dekan çıxış edirdi. Çingiz onu dinləmək halında deyildi. Çünki birdən- birə gözü iki şeyə ilişmişdi. Düz yaxınlığındakı cərgədə qara gözlü, yumru sifətli bir qız dayanmışdı ki, onun ağlını başından almışdı. Ürəyi elə döyünürdü ki, əynindəki köynəyini titrədirdi. Ona elə gəldi ki, qız da ona baxıb gülümsəyir. Bütün bunlar bir anın içində baş verdi. Çünki Çingizin gözü binanın baş tərəfində dava edən Yusifi də almışdı. Çingiz tanımadığı bir oğlanla əl qol ata- ata danışırdı. Çox çəkmədi ki, oğlanlar xoruz kimi dimdik- dimdiyə dayanıb bir- birini təpikləməyə başladı. Yusif Çingizin yaxın dostu idi. Ona görə xəlvətcə aradan çıxıb özünü dava edənlərin yanına saldı. Araya girdi, onları sakitləşdirməyə cəhd etdi. Heç nəyin mənası olmadı. Oğlanlar daha da qızışdı. Çingizin ilk vaxtlar gözü qızda olsa da, bir azdan ara elə qarışdı ki, hər şey yadından çıxdı. Əslində yadından çıxmadı,ətrafa o qədər uşaq toplaşdı ki, heç kim görünmədi. Qruplar tərəf- tərəf olmuşdu. Vuran vuranın idi. Düzdür məsələ böyüməmiş, xəbər dekanatlığa çatmamış Çingiz qaçıb canını qurtardı. Amma kimləri isə yaxşıca kötəkləyib, özü də bir neçə təpik yemişdi. Onun gözünə heç nə görünmədiyi üçün heç davanın nə üstündə olduğu ilə də maraqlanmadı. Ertəsi gün universitetə gəlib qara gözlü qızı axtarmağa başladı.

Bu axtarış bitmək bilmədi. Qız yağlı kökə olub göyə çıxmışdı. Həmin yay onu tapmayıb rayona gəldi. Üç ay yay tətilinin bitməyini böyük səbirsizliklə gözlədi. Dərslər başlayan kimi isə o, dərsdən əvvəl qızı axtarmağa başladı. Adını bilməsə də birbəbir bütün qrupları dönə- dönə axtardı,belə bir qız yox idi. Bəzən ona elə gəlirdi ki, yuxu görüb. Amma onu da bilirdi ki, yuxu ya da ki aşkar , qız onun ürəyindən çıxan deyil. Nəinki oradan çıxmaq günbəgün xəyalları kök atıb böyüyürdü. Ailəsi universiteti bitirən kimi ailə qur,- deyib tutdurmuşdular. Lakin Çingizə elə gəlirdi ki, ömrünün sonuna qədər o, qızı tapmasa ailə qurmayacaq. Doğurdan da onun gözü heç kimi görmürdü. Valideynləri təklif etdiyi qızla görüşməyə gedirdi. Yalnız o ümidlə ki, bəlkə bu elə axtardığı həmin qızdır. Ata - anasından canını qurtarmaq üçün hərbi xidməti bəhanə etdi və qara gözlü gözəlin xəyalını da özü ilə aparıb getdi. Onu hər kəsdən qoruyub gizlətdi. Xidməti bitirib qayıdan kimi evdə yenidən söz söhbət başladı. O, isə heç nə eşitmək istəmirdi. Mənim sevdiyim qız var, deyib canını qurtara bilmirdi. Çünki bilirdi ki, bu sözü eşitsə anası ondan əl çəkməyəçək. Sualı sual dalınca yağdırıb kimidir, kimin qızıdır, adı nədir? -deyə suallar verəcəkdi. Onun isə bu suallara verməyə cavabı yox idi. Çingizin canını bu yorucu suallardan hərbiyə işə qayıtmağı xilas etdi. Dəfələrlə ölümlə üzbəüz gəldi. Ən ağır döyüşlərdə belə o, qızı xəyalından qova bilmədi. Axırıncı döyüş çox ağır idi. Çingiz dəlilik etmişdi. Komandirdən icazəsiz düşməni susdurmaq üçün yan tərəfdən sürünüb onların

topuna yaxınlaşmışdı. Və lap yaxından atdığı qumbara ilə düşmənin əsas mövqeyini susdura bilmişdi. Bu ağır əməliyyat vaxtı az qala həlak olacaqdı. Yüngül yaralansa da, töhmətdən canını qurtara bilməmişdi. Bir də belə iş görsə hərbidən qovulacağı ilə hədələnsə də axırıncı döyüşdə göstərdiyi rəşadətə görə medalla təltif olunmuşdu. Medala görə çox sevinmişdi, amma bacısının nişanında sevindiyi qədər deyil. Həmin günü heç vaxt unutmayaçam, deyə düşünürdü. Nişandan bir neçə gün əvvəl atası onu yanına çağırıb çox ciddi söhbət etmişdi. Kişinin hirsindən bütün bədəni əsirdi. Səni gözləyirik, ilk övladımızsan, səndən əvvəl bacını ərə vermək istəmirik. Amma elcilər əl çəkmir, demişdi. Atasının çox əsəbləşdiyini görüb and aman edib tezliklə ailə quracağınıa söz vermişdi. Yalvar yaxar edib, bacısının nişanını qabağa salmağı xahiş etmişdi. Mərasim evlərində keçirdiyi üçün qollarını cirmələyib, nə ki var işləmişdi. Qonaqların gələn vaxtı paltarını dəyişib, üzünü qırxıb qonaqları qarşılamaq üçün atasının yanına gəldi. Bəzəkli maşınlar bir- bir özünə yer edib, dayandılar. Maşınlardan birinin içindən düşən qızı görəndə Çingizin az qaldı ürəyi dayansın. Bu həmin qara gözlü gözəl idi. Hər şeyi nə baş verdiyini, harada olduğunu unutmuşdu. Atası qonaqları qarşılayırdı. O, isə donub yerində qalmışdı. Qız indi daha da gözəl görünürdü. . Əlində xonça tutan, uçan mələyə bənzəyirdi. Oğlanın yanına çatanda ona salam verib ötdü. Üzündə qəribə ifadə var idi. Çingizə elə gəldi ki, oğlanın onu axtardığını bilir və elə ona görə də gülümsəyir. Çingiz mat qal-

mışdı. Necə olmuşdu ki, bu qızın onların rayonundan ola bilməyi heç vaxt ağlına gəlməmişdi. İndi onu fikir bürümüşdü. Bu gözəlin ailəli olmadığını elə bu dəqiqə öyrənmək istəyirdi. O, süst düşüb, bir kənarda qalsa da bir azdan ara qızışıb şənlik başladı. Aradan cəmi bir saat keçmiş, illərlə müxtəlif adla ürəyində saxladığı qızın adını və kimliyini öyrəndi. Adı Çiçək olan bu gözəl onların yaxın qonşuları imiş. Arzusu müəllim olmaq olduğu üçün İnşaat universitetində cəmi bir il oxuyub, İkinci il yenidən imtahan verib, müəllim olmaq arzusuna qovuşub. Ən vacibi isə ailə qurmamışdı. Həmin gün Çingiz nələr keçirdiyini düşünəndə, yenə də ürəyi çırpınırdı.

Onlarla ad düşündüyü bu gözələ elə Çiçək adı çox yaraşırdı. Çiçəklə nişanlanmağına heç nə mane olmadı. Qız onu tanıyırmış. Ailəsi də dərhal razı oldu. Dünən nişanı oldu. Xoşbəxtlikdən bütün gecəni gözünə yuxu getməmişdi. Sevincini Kür çayı ilə bölüşürdü. Payızda isə toyları olmalı idi. Çingiz özü toyun payızda olmağını istəmişdi. Çünki o, otağına əl gəzdirmək istəyirdi. Otağında çaya baxan pəncərə açmaq istəyirdi. Necə ki, bu beş ildə daim qara gözlü gözəllə pəncərədən baxıb, çay ilə dərdləşməyi düşünmüşdü. Ezamiyyətinin başa çatmağına hələ bir neçə gün qalmışdı. Günü sabahdan təmirə başlamaq fikri var idi.

Günəş lap qalxıb zillənənə qədər xəyalları ilə birlikdə körpünün üzərində durdu. Sonra köksünə dolmuş səhərin xoş havasını özü ilə aparmaq istəyirmiş kimi bir

daha dərindən nəfəs alıb yola düşdü. Evə çatıb həvəslə işə başladı. İşlərini sabaha saxlamaq istəmirdi.

Bir neçə gündən sonra onu ezamiyyəti başa çatmamış geri çağırdılar. Bacısından ismarınç edib, Çiçəyi Kür çayının körpüsünün üstünə görüşə çağırdı. Özü də həmişəki kimi sübh cağına. Gecəni rahat yatıb, hava açılmamış görüş yerinə getdi. Ürəyi ağzından çıxırdı. Həvəslə qızı gözləyirdi. Elə səbirsizlənirdi ki, çay ilə dərdləşməyi də unutmuşdu. Qızı gözlədiyini də ona deyə bilməmişdi. Çiçək onu çox darıxmağa qoymadı. Hava düz əməlli işıqlaşmamış gəldi. Çox kefsiz görünürdü. Deyəsən ağlamışdı. Çingizin dodağındakı təbəssüm dondu. Təəccüblə nə olub ?- dedi. Görüşə gəlməyinə icazə vermirdilər? - deyə sual verdi. Qız daha da kövrəldi. Özünü toplayıb uzaqlara baxdı. Çingiz əlini qorxa – qorxa uzadıb onun qara gözlərinin üstünə tökülmüş zil qara ipəyi xatırladan saclarını geriyə doğru tumarladı. Onun barmaqları əsirdi. Qız başını qaldırıb onun üzünə baxdı. Gözləri bir- birinə sataşan kimi bayaqdan gizlətməyə çalışdığı göz yaşlarını tuta bilmədi. Yaş yanağı uzunu sel kimi axırdı. Çingizin sözü bitmişdi. Nə baş verdiyini anlamağa çalışırdı. Çiçək onun sinəsinə sığınıb hıçqıra-hıçqıra yuxumda gördüm şəhid olmusan - dedi. Çingizin bədənindən zəif bir gizilti keçdi. Gülümsəməyə çalışdı. Bu illər uzunu çəkdiyi həsrəti düşündü. Əli- qolu boşaldı. Uzun sükutdan sonra vətənə canım fəda olsun,- dedi. Amma səndən bir istəyim olacaq, mən şəhid olsam ailə qur, oğluna mənim adımı ver. Qoy heç olmasa adım səninlə birlikdə yaşasın. Qız

sus- sus deyib, əlini onun dodaqlarına yaxınlaşdırdı, lakin toxuna bilməyib geri çəkildi.

Daha söhbət etməyə həvəsləri qalmamışd. Evə də tez döndülər. Çingiz hələ sabaha qədər bir az da işləmək istədiyi halda əli işə yovuşmadı. Sabahı gözləmədən hərbi hissəyə qayıtdı. Bir neçə gündən sonra Çiçək Çingizin dəfnindən dönüb həmin yerdə tək dayanıb "Şəhidlər ölməz, vətən bölünməz " deyə dönə- dönə təkrar edirdi. Gözünü Kürün lal axan sularına dikmişdi. Bu sular onun dərdini apara bilməzdi. Su qızı özünə çəkirdi, dünyalar qədər sevdiyi Çingizin adı ilə deyil özü ilə birgə ömür sürmək istəyirdi. Murdar ermənilərin gülləsinə tuş gələn sevgilisinə qovuşmaq istəyirdi. Kür isə elə hey axıb uzaqlara gedirdi. Qız köksünü dağıdan bu dərdi təkcə Kür çayı deyil, Araz çayı da gəlib ona qoşulsa ondan qoparmağa gücü çatmayaçağını yaxşı bilirdi.

## SƏHV ÜNVAN

Aylanın gözü pəncərədə qalmışdı. Sabah məktəbdə son zəng idi. O,çox sevinirdi. Çünki birinci sinif şagirdlərinin arasından şer söyləmək üçün müəllim onu seçmişdi. Qız şeri deyəndən sonra əlindəki güllərlə məktəbi qızıl medalla bitirən oğlanı təbrik etməli idi. Oğlan da zəngi son dəfə çalıb ,Aylaya verməli idi. Müəllim gül gətirməyi tapşırmışdı. Qız şeri çoxdan əzbərləmişdi. Onu narahat edən güllər idi. Atası işdən gül alıb gətirməli idi. Tərslikdən kişi gözə dəymirdi. Qız bir necə dəfə mətbəxə

gəlib atasını soruşdu. Mətbəxdə yemək bişirən anası onu arxayınşadırıb, sən get şerini əzbərlə, - dedi. Güldən narahat olma atan işdən gələndə alacaq. Yusifə də tapşırmışam. Qız otağına dönüb şeri bir də təkrar edirdi. Amma atası ilə qardaşının gəlmədiyini gördükcə darıxırdı. Nəhayət anası ,ay qız bəsdir get bir yerdə otur,- dedi. Elə bu vaxt qapının zəng çalındı. Gələn gənc yaraşıqlı bir oğlan idi. Əlində çox böyük bir gül dəstəsi var idi. O, gülü Mələk xanıma verib, bu güllər Aylaya çatacaq, - dedi. Ayla qaçıb gülləri görəndə çox sevindi. Anası isə deyinirdi. Bu boyda gül bu uşağın nəyinə lazımdır, götürməyə gücü də çatmayacaq. Bir azdan atası da işdən döndü. Onu görəndə Ayla sevincini bildirməyə macal tapmamış Mələk xanım deyinməyə başladı:

Vaqif, o nə boyda güldür almısan? Uşağın özü boydadır, onu neçə götürəcək.

Atası kefsiz görünürdü. Kişi çiynini çəkib, nə gül ? - dedi. Mənim başım qarışıq idi. İclasımız var idi. Yəqin Yusif alıb. O, sözünü deyib yuyunmaq üçün hamama keçdi. Mələk xanım yenidən deyindi:

-Elə mən bilirdim ki, bu Yusifin işidir.

Bir azdan hər kəs otağına çəkilib gülü unutdu. Yusif evə dönəndə saat on ikiyə işləyirdi. O, içəri girən kimi ilk gözünə sataşan gül oldu. Və elə ilk sözü də bu oldu:

-Bu nə güldür?

Mələk xanım bu nə deməkdir ? Məgər bu gülləri sən almamısan ? _ dedi. Yusif bu güllərdən xəbərsiz olduğunu söylədi. İndi hamı təəccüb etdi. Evə sükut çök-

dü. Birdən Yusif yerindən dik atılıb, ana bu güllər bizə gəlməyib. Yəqin ki, qonşu blokda yaşayan Aylaya gəlib. Eşitməmisən onlar nişana hazırlaşır.

Vaqif səhər aparıb gülü özlərinə ver, desə də, Yusif isə indi aparacam deyib, gülü götürüb göz qırpımında qapıdan çıxdı. O, on dəqiqədən sonra geri dönüb, nə yaxşı ki, indi apardım, - dedi. Ayla ağlamışdı gözləri qıpqırmızı idi.

Səhər Ayla yuxudan oyananda Yusifin əlində kisik bir gül dəstəsi ilə içəri girdiyini görüb təəccüblə dedi:

Bəs mənim dünənki güllərim neçə oldu?

Yusifin yerinə ona anası cavab verib dedi:

O gül dəstəsi çox böyük idi. Sənin ona gücün çatmayaçaqdı ona görə onu qaytarıb bunu aldıq.

## HUMAYIN MƏHƏBƏTİ

Aida xanımın gözü pəncərədə qalmışdı. Bu saatlarda Humay artıq evdə olmalı idi. Aida xanımın gözünün ağı -qarası yeganə övladı bu il institutu bitirirdi. lakin qadını narahat edən bu deyildi. Bu xoş bahar günüdə qız ona nə isə demək istədiyini söyləyib, sonra susmuşdu. Bu sözün nə söz olduğunu təxmin etməyə çalışan Aida xanım qızının elçilərdən danışacağını düşünüb həyəcanlardı. Axır vaxtlar dalbadal xoş xəbərlər eşitməyə vərdiş edən xanım, indi də ürəyinə yatan bir kürəkən haqqında xəbər duymaq istəyirdi. Keçən il ilin bu vaxtlarında hec

ağlına gəlmədiyi bir halda Vidadinin işini dəyişib nazirliyə aparmışdılar. Çəmi altı ay bundan əvvəl isə vəzifəsini qaldırıb şöbə müdiri təyin etmişdilər. Qadının dünyası dəyişmişdi. Ətrafındakı adamlar, gedib gəldiyi məclislər, məclislərin keçirildiyi məkanlar başqalaşmışdı. Aida xanım bütün varlığı ilə təzə tanış olduğu, qadınlara oxşamağa çalışırdı. Geyiminə, sac düzümünə, dırnaq və dodaq boyalarına nəzər yetirməyə başlamışdı. Qızının ona verdiyi xəbərdən sonra isə yeni - yeni xəyallara düşmüşdü. Qudasının da ən azından nazir müavini olmağını istəyirdi. Bu istəklə gözünün önündə canlandırdığı aləmdən ayrıla bilmirdi. Hətta az qalırdı ki, Humaydan bir xəbər almamış Vidadiyə də desin ki, tezliklə nazir qudamız bizə ayaq açacaq. Bir təhər səbrini basıb, Humayın verəcəyi xəbəri gözləyirdi. Qız isə bacarınça söhbətdən yayınırdı. Qapının zəngi çalınanda Aida xanım qurduğu xəyaldan zorla ayrılıb qapını açmağa getdi. Gələn Humay idi. Qızın xoşbəxt görkəmi qadını daha da ruhlandırdı. Vidadinin gəlmək vaxtına qədər özünü zorla saxlaya bildi. Nəhayət xoşbəxt görkəmli qızının ağzını açmadığını görüb,özü sual yağdırmağa başladı. Aldığı cavablar az qaldı ki, qadının ürəyini yatırtsın. Humayın sevdiyi oğlan onunla oxuyurmuş. Maraqlısı isə o idi ki, hansısa ucqar bir rayondan idi. Rayon sözünü eşidəndə od tutub yanan qadın, oğlangilin kənddə yaşadıqlarını eşidəndə dəli oldu. Üstəlik də qız oğlanın ata, anasının nə işin sahibi olduğunu bilmirdi. Amma anasından oğlanın elçilərini qəbul etməyini tələb edirdi. Vidadi qapıdan içəri gir-

məsə ana bala əməlli başlı dava edəçəkdilər. Bu gün tez kəsilən davanın təməli qoyuldu. Xəbər Vidadiyə də çatdı. Kişi də Aidə xanım kimi daş atıb başını altına tutdu. Dava qız institutu bitirənə qədər davam etdi. Humay isə institutu bitirən kimi, anasını yola gətirə bilmədiyi üçün Nicata qoşulub rayona getdi.

Vidadi ilə Aidə qızlarından belə bir hərəkət gözləmirdilər. Demək olar ki şoka düşmüşdülər. Bir həftə dəliyə döndülər. Günlər ötdükcə isə Humaysız dünyalarının qaraldığını anladılar. Belə ki, qız ilə küsülü qalmaq iqtidarında olmadığılarını başa düşən kimi, Aidə mən gedib qızımı qaytaraçam ,-dedi. Qadının sözündən başının tükləri ayağa duran Vidadi, bir neçə gündən sonra onunla razılaşmalı oldu. Aidə Humayın kənddə bədbəxt olmağına razı ola bilmərəm,- deyirdi. Gələndə özü başa düşəcək ki, səhv edib. Bir müddətdən sonra nəhayət qarşısına yaxşı qismət çıxar, onunla ailə qurub xoşbəxt olar.

Bir səhər yuxudan duran kimi qərarlarını qətiləşdirib Humayı gətirmək üçün rayona yola düşdülər. Havalar bərk qızmağa başlamışdı. Bakıda istidən nəfəs almaq olmurdu. Yol boyu heç biri danışmadı, sanki sözləri bitmişdi. Aidənin qarnından qara qanlar axırdı. Humayın onu görəndə sevinəçəyini və dərhal qayıtmağa razı olacağını düşünüb için -için ağlayırdı. Getdikləri rayon lap ucqarda yerləşdiyi üçün oraya şər qarışanda çatdılar. Oğlangil rayona bitişik kənddə yaşayırdı. Soraqlayıb kəndin yolunu da öyrəndilər. Kənd yoluna düşəndə başından tüstü qalxan Aidə od tutub yanırdı. Nicatgilin evini tap-

maq elə də çətin olmadı. Çünki onun atasını hər kəs tanıyırmış. Maşını qarşısında skamya olan bir darvazanın ağzında saxlayıb düşdülər. Maşından düşüb təəccüb etdilər. Bu elə bir darvaza idi ki, sanki qəsr qapısı idi. Necə deyərlər başına baxanın başından papağı düşürdü. Bir az tərəddüd edib qapını çaldılar. Darvaza açıq idi. Səsə içəridən uca boylu, yaraşıqlı, səliqəli geyimli orta yaşlı bir qadın çıxdı. Rəfiqə xanım gələnlərə xoş gəldin deməyə macal tapmamış, Aidə bir nəfəsə qızımı aparmağa gəlmişik deyib hay - küy saldı. Donub yerində qalan qadının köməyinə haradansa peyda olan Zöhrab müəllim gəlib dedi:

- Ay canım belə xoş gəlib, səfa gətirmisiniz. Hələ bir içəri keçin, bir stəkan çay için, su için. Sonra da necə istəyirsiniz onu da edərsiniz. Deyin görüm, sizin qapınızdan Humay kimi gözəl bir qız içəri girsə nə edərsiniz? Biz çox sevindik və xoş gəldin dedik.

Kişi elə hay küy salmışdı ki, Vidadigil pilləkənlərlə nə vaxt yuxarı qalxdıqlarını bilmədilər. Bildikləri o idi ki, qeyri adi gözəl və çox böyük bir zala daxil olmuşdular. Əslində bura toyxanaya bənzəyirdi. Başdan başa bahalı xalçalarla döşənmiş zalın qövsvarı pəncərələrindən, atlaz və tül pərdələr asılmışdı. Divar boyu bahalı divan və kreslolar düzülmüşdü. Ortada az qala qırx adamlıq böyük bir masa qoyulmuşdu. Zöhrab müəllim danışa - danışa pəncərələri açırdı. O, qonaqların yanından ayrılmasa da ,az sonra masanın üstündə barmaq basmağa yer yox idi. Hava qaraldıqca çöldən xoş, sərin hava ilə birlikdə

kababın ləzzətli qoxusu içəri dolurdu. Aidə xanım arada bir Humayla görüşmək istədiyini söylədikcə, Rəfiqə xanım, ay bacı görüşəcəksən də niyə darıxırsan ?- deyirdi. Vidadi gözü ilə işarə edib otur yerində, dedi. Onların görüşünə gələnlərin sayı artdıqca yeməklərin də çeşidi artırdı. Hinduşka kababı, balıq soyutması, beçə qızartması və daha nələr. Bulaq suyundan qaynadılmış samovar çayı Vidadiyə ləzzət edirdi. Düzü çoxdan bəri şəhərdən kənara çıxmayan kişi buradakı abu -havadan həzz alırdı. Gecənin yarısına qədər davam edən qonaqlığın bitmədiyini görən Aidə xanım yatmağa getdi. Vidadi ilə danışa bilmədiy üçün hələlik Humayla görüşmək fikrindən daşındı. Rəfiqə xanım onu iri bir dəhlizdən keçirib yataq otağına ötürdü. Saraya bənzəyən mənzilin yataq otağına çatmaq üçün xeyli getməli oldular. Neçə gündən bəri gözünə yuxu getməyən Aidə xanım yatağa uzanan kimi yatdı. Vidadinin otağa nə vaxt gəldiyindən xəbəri olmadı. Səhər onu yuxudan pəncərədən gələn xoş səhər mehi oyatdı. Harada olduğunu birdən anlayıb yerindən dik atıldı. Pəncərəyə yaxınlaşıb pərdəni çəkib çölə baxdı. Gözünün qarşısında açılan mənzərə qadını məftun etdi. Bura əsl cənnət idi. Gül gülü çağırırdı, bülbül bülbülü. Quşların səsi insanı valeh edirdi. Sol tərəfdən nə isə pıçıltı səsi gəldiyini duyan qadın başını səs gələn tərəfə çevirəndə ürəyi titrədi. Humay çarhovuzun başında oturub əlini üzünə tutub ağlayırdı. Onun yanında ayaq üstə dayanan oğlan əllərini qoynuna qoyub nə isə deyirdi. Hələ indiyə qədər Nicatın neçə bir oğlan olmağı ilə maraqlanmayan

qadın donub yerində qalmışdı. Əynində ağ idman geyimi olan oğlan sanki əl ilə çəkilmiş rəsm əsəri idi. Uca boyu, düzgün qaməti və çox yaraşıqlı, eyni zamanda ciddi sifəti var idi. Qadın pəncərədən ayrılıb Vidadini silkələyib zorla oyatdı. Kişi təəccüblə nə olub ?- dedi. Aidə, dur tez ol pəncərədən sol tərəfə bax deyib, özü yenidən pərdəni ehmalca kənara çəkdi. Vidadi nə isə ciddi bir məsələ olduğunu düşünüb cəld pəncərəyə yaxınlaşdı. Humay indi hönkür - hönkür ağlayıb atam gedək desə, mən nə edəçəm?- deyirdi. Sakit dayanıb qıza baxan Nicat ehmalca əlini uzadıb qızın saçlarını tumarladı,sonra axı mən sənin atana nə deyə bilərəm?- dedi. Vidadi dabanın üstündə geri fırlanıb gedirik,- dedi. Aidənin ağzını açıb sual verməyinə macal verməyib sözünü təkrar etdi. Geyinib ehmalca aşağı düşdülər. Axşamdan içəri salınmağına razı olmadığı maşınına minib yola düşdülər.

Hava lap açılanda onlar artıq Gəncəni keçmişdilər. Qızına çox yaraşan yaraşıqlı oğlanı gözünün önündə canlandıran Aidə gülümsəyərək dedi:

-Niyə qoymadın vidalaşaq?

Zəhmətkeş bir ailənin uğurlarına hələ də təəccüb edən Vidadi, dünən gələn qonaqlardan duydum, Zöhrab toya hazırlaşır, - dedi. Masanın üstünə yazıb qoydum ki, toya bizi də dəvət edin. Uzaq başı bir iki günə qohum qardaşı da yığıb toya gələrik.

## ZƏFƏR NƏĞMƏSİ

Həmin gün Muradın oğlu dünyaya gəlmişdi. Sevincinin həddi yox idi. Başqa hec nəyə bənzətmədiyi bu hissin sevincini yaşaya bilmirdi. Onun ürəyini sıxan başqa bir dərdi var idi. Vətən dərdi. Vətən sevgisinin müqəddəsliyi bambaşqa idi. Bakı qan çanağına dönmüşdü. Yetmiş ildən bəri bir bayraq altında yaşadığımız mənfur qonşularımız, ermənilər yenidən torpaq iddiasına düşmüşdülər. İllərdən bəri Sovetlər birliyinə güvənib, arxalanan Azərbaycan xalqı ilk günlər acgöz ermənilərin layiqli cavab alacağına inanırdı. Lakin Moskva susurdu. Torpaq iddiasında olanlar isə günbəgün qızışırdı. Bu haqsızlığa dözməyən xalq etiraz səslərini ucaltmaq üçün meydana axışırdı. Vətən sevgisi, torpaq sevgisi onları birliyə səsləyirdi. Bu birliyin sıraları günbəgün sıxlaşırdı. Murad elə ilk gündən etirazçıların arasında idi. Günlərlə davam edən mitinqlər nəticəsiz qalırdı. Əsəblər tarıma çəkilmişdi. Hiddətlənmiş xalq ermənilərin torpaq iddiasından əl çəkməyini tələb edirdi.

Murad meydandan ayrılıb yeni doğulmuş oğlunu görməyə getmək istəsə də, xalqdan ayrıla bilmirdi. Ayaqları getmirdi. Halbuki, körpənin varlığından xəbər tutan gündən bəri onu gözünün önündə çanlandırmışdı. Nədənsə onu, bütün körpələrdən fərqli görürdü. Özlüyündə düyməcik adlandırdığı körpəni sanki tanıyırdı. Lakin onu özünə doğru çəkən qüvvədən çox, başlarının üstünü alan vahiməni duyurdu. Bu vahimə sanki yerə, göyə, bu-

ludlara çökmüşdü. Bunu hiss edən təkcə Murad deyildi. Heç kim bunu etiraf etməsə də bu hər kəsin üzündən qəzəb oxunurdu. O, böyük bir toplumun arasında dayanmışdı. Uzaqdan duyduğu səsin atəş səsi olmağını ağlına belə gətirmirdi. Ətrafdakı insanlar da bunun atəşfəşanlıq olduğunu zənn edirdilər. Kiminsə rus qoşunları xalqı atəşə tutub deməyi, hər kəsi dəhşətə gətirdi. Cəmi bir neçə dəqiqədən sonra yağış kimi yağan güllənin altında qaldılar. Tanklar içərisi adamla dolu maşınların üstündən ayaqlayıb ötürdü. Ətraf yerə yıxılmış insan cəsədi ilə dolu idi. Hər yer al qırmızı qana boyanmışdı. Küçələrdə qan gölməçələri yaranmışdı. Bu ağıla sığmaz vəhşilik idi. Güllə səslərinə tükürpədici qışqırıq səsləri qoşulmuşdu. Murad yaxınlıqda yerə yıxılmış qızı qaldırmağa cəhd etdi. Onun donub qalmış gözlərini görəndə diksinib arxaya çəkildi. Başının üzərindən vıyıldayıb ötən gillədən yayına bilsə də, qəfil çiynində dəhşətli ağrı hiss etdi. Yıxıldığını xatırlamırdı. Qulaqları batıb, gözü qaralırdı. Oğlunu görürdü. Ona əlini uzatsa da çata bilmirdi. Hər dəfə ona yaxınlaşanda yumru yanaqlı, qara gözlü körpə, sanki qanadı var imiş kimi uçub uzaqlara gedirdi. Arada bir nə isə qəribə səslər eşidirdi. Gözünü iki gündən sonra xəstəxanada açdı. Eşitdikləri, gördükləri onu dəhşətə gətirdi. Şəhər xarabalığa çevrilmişdi. Küçələrdən cəsədləri toplayıb yerinə qərənfil gülləri döşəmişdilər. Həmin günü, şəhidləri dəfn etməyə hazırlaşan insan selini, mətəm fitini, bu cinayəti törədənlərə heç vaxt bağışlamacağını yaxşı bilirdi. Özünə gələn kimi bir təhər telefon tapıb evə zəng

etdi. Səsini eşidəndə atasının huşunu itirib yerə yıxığldığını evdən gələn qışqırıq səsindən anladı. Bütün küçələri zəbt etmiş rus əsgərlərinin gözünə görünməməyə çalışaraq böyük çətinliklə evə döndü. Həmin gecə onun da öldüyünü zənn edən valideynləri uzun müddət özünə gələ bilmədi. Üzünü görən kimi adına Azad dediyi oğlunu vətən sevgisi ilə böyütdü. Müstəqilliyini qanla qazanmış Azərbaycanın sonradan itirdiyi torpaqlarının dərdini Azadla birgə yaşadılar. Közünü Azadlıq meydanında götürdüyü alovu sönməyə qoymadı. Həmin alovun istisində qovrula – qovrula böyüyən Azad illərlə İşğal olunmuş torpaqların sülh yolu qaytarılaçağını gözlədi. Lakin bir gün gözləməkdən səbri tükənmiş mərd oğulların sırasına qarışıb vətənin harayına getdi. Cəmi qırx dörd gün döyüşüb, düşməni yuvasına qədər qovdu. Murad qapının önünə çıxıb,müharibədən qalıb qayıdan oğlunun yolunu gözləyirdi. Bu gün Azadın oğlu dünyaya gəlmişdi. O, yola baxıb düşünürdü:" Deyirlər lalənin ləcəklərindəki qara xallar, oğlanlarını vətən uğrunda itirmiş anaların ürəyindəki dərdin nişanəsidir. Bu dünyada ən böyük dərd vətən dərdidir. İndiyədək itirdiyimiz digər torpaqları yerindən qalxan lalələrin oğlanları analarının ürəyinə xal salsalar da azad edəcəklər. O, qalib oğlunu bağrına basıb içəri ötürdü. Bundan sonra hər gün Azdın oğlunun beşiyinin başında Azərbaycan oğullarının qəhrəmanlıq səlnaməsindən bəhs edən nəğmələr oxuyurdu.

## İTMİŞ ŞƏKİL

Banu dünənki qonaqlıqdan sonra hələ də özünə gəlməmişdi. Yuxudan oyanıb yenə də özünü məclisdə hiss edirdi. Qəlbini riqqətə gətirən musiqinin həzin səsi qulağında səslənir rəqs edənlər, şən zarafat edənlər gözünün önündə canlanırdı. Məktəbdə keçirdikləri sonuncu yığınçaq idi. Son zəngdən əvvəl Çiçəyin anası hamını evlərinə dəvət etmişdi. Çox gözəl də məclis qurub, süfrə açmışdı. Günləri xoş keçmişdi, çəmi bir neçə gündən sonra isə son zəng olmalı idi. Yerindən qalxıb pəncərəni açdı. İçəriyə dolan xoş bahar havası sanki otağa deyil, bir başa

qızın köksünə dolurdu. Nədənsə ona elə gəldi ki, havadakı mülayimlikdə bir kövrəklik var. Həmin kövrəklik içinə dolduqca onun hisslərini də tarıma çəkirdi. Ona tanış olmasa da, xoş olan bu hislərlə pəncərənin önündən çəkilib paltarını geyindi. Əl- üzünü yuyub saçına əl gəzdirdi. Yemək yeməyə həvəsi olmadığı üçün, bir başa məktəbə yollandı. Sinfə girəndə zəngin içəri çalınmağa hələ çox qalırdı. Dəhlizdən uşaqların səsi gəlirdi. Birdən- birə məktəbin radio qovşağından gələn səs qızı diksindirdi. Ona görə yox ki, Vahid müəllim hər səhər olduğu kimi, hər kəsi salamlayırdı. O, bir necə dəfə təkrar edib Banunu öz yanına səsləyirdi. Axırıncı dəfə,onuncu " A "sinfindən Cəfərzadə Banu Vahid müəllimin otağına gəlsin deyəndə, artıq kabinetin qapısını döyürdü. Gəl, sözünü eşidib içəri girsə də Vahid müəllimi görəndə təəccüb etdi. Kişi gözündə eynək qarşısındakı kağızlara elə

baxırdı ki, sanki bayaqdan qızın otağa gəlməyini tələb edən o, deyildi. Donub yerində qalmışdı ki, Vahid müəllim başını kağızlardan qaldırmadan dedi:

- Cəfərzadə Banu, sənin şərəf lövhəsindəki şəklini oradan kim götürüb?

Qıza elə gəldi ki, onu elektrik cərəyanı vurdu. Bir an Vahid müəllimin nə demək istədiyini anlamadı. Əslində onun şəkli şərəf lövhəsindən götürülməli deyildi. Çünki, o, əlacı idi. Həm də bu il keçirilən bütün olimpiadalarda yüksək bal toplamışdı. Çaşıb qaldığı üçün özündən asılı olmayaraq çiynini çəkdi. Onun cavab vermədiyini görən müəllim eynəyini çıxarıb sualını təkrar etdi. Lakin qıpqırmızı qızarıb gözləri yaşla dolmuş qızın üzünə baxıb, əgər bir məlumatın yoxdursa gedə bilərsən,- dedi. Banu otaqdan çıxıb, dəhlizdə donub yerində qalmışdı. Başını qaldırıb dəhlizdəki şərəf lövhəsinə baxdı. Onun ən yuxarı cərgəsində olan şəklinin yeri boş idi. Təəccüb içində sinfə döndü. Axırıncı dərsə qədər ağlına heç nə gəlmədi. Sonrakı günlərdə də bu barədə nə isə öyrənə bilmədi. Əslində heç kimə bir kəlmə də söz demədi. Özünün isə bu haqda heç bir fikri yox idi. Nəhayət bir necə gündən sonra məktəblə birdəfəlik vidalaşmaq günü yetişdi. Vahid müəllim Banunu məktəbi əla qiymətlərlə bitirməyi münasibəti ilə təbrik edib, ovcunun içində tutduğu kiçik şəkli qıza qaytardı. Banu yenə də qıpqırmızı oldu. Nə Vahab müəllim şəkli haradan tapdığını söyləmədi, nə də ki Banu bu barədə sual verə bilmədi.

Banı həmin il yüksək balla ali məktəbə qəbul oldu. Lakin bu illər ərzində həmin günü unutmadı. Hər dəfə İtmiş şəklin ətrafında düşünürdü. Bəzən düşünürdü ki, bəlkə kimsə paxıllıq edib şəkli götürüb. Amma bu fikrin üstündə dura bilmirdi. Əvvəla belə bir adam tanımırdı. İkincisi bunun belə olmağını istəmirdi. Şəkli oğurlayan o, adam onun sirrinə çevrilmişdi. İllər ötdükcə həmin sirli adamla doğmalaşmışdı. Hətta get- gedə onu özünün ağ atlı oğlanına çevirmişdi. Onun mütləq gəlib çıxacağını gözləyirdi. Lakin xəyalını qurduğu oğlan elə xəyal olaraq qalmaqda idi. Artıq axırıncı kursda oxuyurdu. Yay tətilində rayona gəlmişdi. Evlərinə elçilər ayaq açmışdı. Heç kim Banunu maraqlandırmırdı. Anası narahat olmağa başlamışdı. Qız isə öz yaratdığı qəhrəmanını gözləyirdi. Axırıncı gələn elçilər qızı dəli etmişdi. Çünki ata, anası israrla bu oğlana yox demək olmaz,- deyirdilər. Banu mən onu tanımıram, tanımaq da istəmirəm deyib dururdu. Dünən qətiyyətlə bir də bu mövzuya qayıtmayın deyib ağlayandan sonra atası qızdan əl çəkin,- deyib bu mövzunu qapatmışdı. Atasından razı qalan Banu yenidən qəhrəmanı ilə baş başa qalmışdı. Bəzən görmədiyi, adını bilmədiyi oğlanın qəlbində yer tutduğuna görə özünü qınasa da, özü ilə bacara bilmirdi.

Yay sona çatırdı. Dərslər başlayırdı,Bakıya qayıtmağa hazırlaşırdı. Otağında paltarlarını yığırdı. Həyətdən qonşu ilə söhbət edən anasının səsini eşidirdi. Anası nə edək, istəmədi getmədi, məcbur edəsi ha deyildik ?- de-

yirdi. Qonşunun sözlərinin eşidəndə qız donub yerində qaldı. O, deyirdi:

Vallah, Püstə qız sənindir özün bilərsən, amma indi belə məhəbbət yoxdur. Hələ necə il bundan əvvəl Kamal Banunun şəklini şərəf lövhəsindən çıxarmaq üçün onlarla oxuyan Lətifənin oğluna filan qədər pul vermişdi. Vahid müəllim soraqlayıb işin sonuna çıxdı. Şəkli geri qaytartdı, amma sürətini çıxarıb sonra özü ilə apardı. Kamal Türkiyədə oxuyur axı. Banunu da Çiçəkgildə görmüşdü.

Qız donub yerində qaldı. Qonaqlığın ertəsi günü ürəyinə dolan o ılıq hərarəti, və oradakı sarışın, alagöz oğlanı xatırladı. Demək adı Kamal imiş deyə düşündü. Lakin bir daha o barədə heç nə eşitmək istəmirəm dediyi üçün səsini çıxara bilmədi. Bakıya yola düşəndə, sanki ürəyindən daş asılmışdı. . Qatarda səhərə qədər gözünə yuxu getmədi. Qatardan düşəndə ilk rastlaşdığı adam həmin sarışın, alagöz oğlan oldu.

## ZAMANIN HÖKMÜ

Rüstəm artıq altı aydan artıq idi həbsxanadan çıxmışdı. İlk günlər iş axtarmaq haqqında düşünmürdü. Daha doğrusu uzun zamandan bəri rəhbər vəzifədə işlədiyi üçün adi, sıradan bir işə girməyi özünə yaraşdırmırdı. Zümrüd xanım bacarınça qarşılaşdığı çətinlikləri Rüstəmdən gizlətməyə çalışırdı. Evinin düzənini pozmamaq üçün,özünün zinət əşyalarını dəyər -dəyməzinə satıb, yemək- içmək hazırlayıb, süfrə açırdı. Hər şey əvvəlki gün-

lər kimi olmasa da, isti ocağını, dolu bucağını növraqdan düşməyə qoymurdu. Günlər ötdükcə, Zümrüd xanımın güvəni azalırdı. Belə ki, onun güvəndiyi mücrüsü boşalırdı. Daha iri, qiymətli qızılları Rüstəm yeni həbs olan vaxtlar satmışdı. Sona qalan qızıllar bir vaxtlar bəyənməyib bir kənara atdığı az çəkili,ucuz qiymətli olan zinət əşyaları idi. Onların əksəriyyəti ad günlərində nisbətən kasıb qohumların hədiyyəsi idi. Rüstəm yüksək vəzifədə olanda Zümrüd hər yetirən qohum- qonşunu evində və ya restoranda qurduğu məclisə dəvət etmirdi. Ən yaxın qohumu tutarlı bir hədiyyə gətirmək iqtidarında deyildirsə, Zümrüd xanım hikkə ilə : " Sən allah qoy rədd olsun, əlinə ucuz bir qab alıb mənim süfrəmin kənarında oturacaq" - deyirdi. İndi həmin bəyənməyib nifrətlə qarşıladığı hədiyyələri əlinə alıb, fikrə getmişdi. Hələlik keçinmək üçün bir çarə axtarırdı. "Hələlik" sözünü ona görə düşünürdü ki, Rüstəm axır vaxtlar köhnə dost- tanışlara baş çəkib, iş axtarmağa başlamışdı. Düzdür hər yerdən əli üzülmüş halda qayıdırdı. Amma Zümrüd xanım səbirsizliklə həmin günlərin qayıdacağını gözləyirdi. Hətta əvvəl - əvvəl hər işi yaxın qoymurdu. Bir az da döz, daha yaxşı iş taparsan,- deyirdi. Zaman ötdükcə nə yaxşı, nə pis heç bir işin olmadığını anladı. Bunu Rüstəmin özü etiraf edib, sən bəyənmədiyin işi mənə verən yoxdur,-dedi. Hara gedirəmsə həbsxanadan çıxmağımı üzümə vururlar. Zümrüd xanım bütün bunları düşünüb, mücrüdəki son qızılları əlinə alıb, ürəyindən keçənləri həyata keçir-

mək üçün Rüstəmin yanına keçdi. Ovcundakı qızılları cibinə qoyub dedi:

- Rüstəm bizi bədbinlik basıb,deyirəm kiçik bir şənlik təşkil edək. Sən həbs olan gündən ad günü keçirmirik. Bir necə gündən sonra Pərvinin ad günüdür. Elə evimizdə bir məclis açım, hətta musiqiçi də dəvət edim, şənlənək üstümüzdən ağırlıq götürülsün.

Zümrüdü maraqla dinləyən Rüstəm onun nə demək istədiyini yaxşı başa düşürdü. Lakin ürəyindən keçənləri saxlamayıb dedi:

- İndi bizim məclis açmağa nə imkanımız, nə ki, qüvvəmiz var.

- Kişinin çox da etiraz etmədiyini görən qadın sevinclə dedi:

- Sən razı ol qalan işlər mənim boynuma. Rüstəmin ağlı bir şey kəsməsə də daha danışmadı. Çünki çoxdan bəri onun heç nədən xəbəri yox idi. Evi Zümrüd xanım tək başına idarə edirdi.

Bir necə gündən sonra qadın həvəslə hazırlığa başladı. Lakin bu hazırlıq əvvəlkilərə bənzəmirdi. Qabaq gündə bir məclis açılsa da Zümrüd xanımın nəzarət edib, onu bunu danlamaqdan başqa heç bir işi olmurdu. Bir də qonaqlıqda iştirak etmək üçün əldən ayaqdan gedənlərin zənginə cavab verirdi. Sonra da fəxrlə onların etdiyi təkliflərdən ağız dolusu danışırdı. Doğrudan da," Ay Zümrüd sən zəhmət çəkmə,balıq ləvəngisi, dana basdırması mənim boynumdadır" - deyə müraciət edənlərin ardıarası kəsilmirdi. Qalan bazarlıqdan da xəbəri olmurdu.

Çünki onu da Rüstəm özü sürücüyə həvalə edirdi. İndi isə qadının ən asan işi qızılları satmaq oldu. Əsl çətinlik bundan sonra başladı. Sürücüləri yox idi. Ağır zənbillər əlində bazara gedib gəlməkdən çiyinləri ağrıyırdı. Əslində nəzərdə tutduqları qonaqların çoxu bir bəhanə gətirib aradan çıxdı. Həmişə bahalı hədiyyədən başqa tortu mən sifariş edəçəm,siz allah etiraz etməyin mən bu işdən həzz alıram deyən, yaxın rəfiqəsi Sevil kimilərinin bir necəsi, yaxşı gələrəm sözünü dilinə zorla gətirdi. Bütün sıxıntılara baxmayaraq Zümrüd xanım məclisini qurub, süfrəsini acdı. Bacardıqca təntənəsini saxlamışdı. Qonaqların arasında çətinlik çəkdiklərini göstərmək istəmirdi. Özü də bəzənib -düzənib qonaqları qarşılamağa hazırlaşdı. Lakin bir az sonra məlum oldu ki, qonaqların yarısı gəlməyib. Stulların çoxu boş olsa da, İnsafən məclis sönük keçmədi. Əvvəlki kimi təntənəli çıxış edənlər olmadı, amma rəqs edib əyləndilər. Doğrudan da Zümrüd xanımın çoxdan bəri sükut çökmüş mənzilində şənlik yaranmışdı. Qadının kefi durulmuşdu. Özündən razı idi, ta gələn hədiyyələri açana qədər. Həmişə bu işdən zövq alan Zümrüd xanım donub yerində qalmışdı. Ən bahalı qızıl dəstini gətirənlər, kiçik bir güldan və yaxud kül qabı gətirmişdi. Qəribədir,sanki bir-birinə xəbər etmişdilər. Hədiyyələrin əksəriyyəti ucuz süvenir idi. Qadını başından tüstü qalxırdı. Olub qalan son qızıllarını da satıb bu qonaqlığa xərcləmişdi. Vaxtı ilə ad günlərindən sonra mücrüsündən aşıb- daşan qızılların əvəzinə, bir birindən az fərqlənən fiqurlar, xalçanın üstündə qalaq bağlamışdı. Rüstəm qa-

pının arasında dayanıb ortalığa tökülən qabqacaq qalağına və Zümrüd xanımın əlində məyus halda tutduğu boş mücrüyə, baxıb başını bulayırdı.

## DADAŞ MÜƏLLİMİN KİRAYƏŞİNLƏRİ

Dadaş müəllim çox şən, deyib- gülüb, şənləməyi sevən bir insan idi. Uşaqlar böyümüşdü,qızlar köçüb getmişdi. Oğlanlar hələ ailə qurmasalar da hərə bir yanda idi. Dadaş müəllim rayona getməyə hazırlaşırdı. İki oğuldan heç biri onunla getmək istəmədi. Hərə bir bəhanə gətirdi. Kişi məcbur olub Adiləni götürüb rayona gəldi. Məhləsinə çatıb, təmiz havanı sinəsinə çəkib, gəldiyi üçün çox sevindi. Ata -baba yurdunun abu-havası, nostalji hisslər kişiyə ləzzət edirdi. Həyətin ortasında durub buraların hay -küylü vaxtlarını xatırlayırdı. Bir az dayanıb sıxıldı, qardaşının məhləsinə keçdi. Orada da ölü sükut hökm sürürdü. Dadaş deyinməyə başladı: - - Ay kişi sənin nəvələrin haradadır niyə belə sakitlikdir? - Əli kişi əlini yelləyib dedi: -

Ay qardaş hərənin bir ya iki uşağı var. Onları da elə yükləyirlər, bizə gəlməyə vaxtları nə gəzir? Günortayadək dərslər, məşğələ sonra da İdman, rəsm, rəqs başlayır. Dadaş qardaşını dinləyib ona haqq qazandırdı. Çünki onun nəvələri də bu gündə idi. Kişi bir iki gün bağında, həyətində yalqız gəzib dolanandan sonra, ölü sükutu rədd etmək üçün carə tapdı. İlk əvvəl qardaşı Əlinin ya-

nına gedib yenə də əvvəlki hikkə ilə deyinməyə başladı : -Ay Əli, bu boyda məhləni, evləri, köməkçi damları niyə boş saxlayırsan? Damların birinə kasıb bir ailə yerləşdir. Qoy gəlib həyan olsunlar, yeri gələndə kömək etsinlər. Mənim məhləmin ağırlığı da sənin üstündədir. Mən damlardan birini gənc bir ailəyə verəçəm. Qoy bağ - bağçaya, həyət - bacaya qulluq etsinlər. - Əli başını bulayıb etiraz etdi: -Çətindir, qardaş hər adamı gətirib məhləyə soxmaq olmur. -Dadaş qardaşının sözünü ağzında qoyub dedi: -Niyə olmur ? Kasıb bir ailəni gətir qoy. Necə deyərlər əl- əli yusun, əl də üzü. Əlinə keçəndən ver dolansın. Lazım gələndə də sənin işinə yarısın. Dadaş sözünü deyib, Əlini dinləmədən darvazadan çölə çıxdı. Çıxıb qohum - qonşuya hay saldı ki, kirayəçi axtarıram. Özü də pul, filan da istəmirəm. Aradan iki gün ötməmiş Murad adlı uzaq qohumu ailəsini gətirib, Dadaş müəllimin həyətdəki köməkçi damına yerləşdi. Ailənin iki kiçik oğlu var idi. Onların gəlişi kişini çox sevindirdi. Həmin gün özündən xeyli razılıq edib, xeyrhaqlığı ilə fəxr etdi. Hətta arada Əlini qınadı da.Ertəsi gün istirahət günü idi. Dadaş müəllim işə, filana getməsə də səhərlər tez oyanırdı, daha saat altıda deyil. Bu səhər kişi Muradın həyətdən gələn səsinə oyandı. Pəncərədən çölə baxdı, hava hələ işıqlaşmamışdı. Ala toranda oğlan nə isə deyib bağırırdı. Adilə oyanıb təəccüblə Dadaş nə olub, bu oğlan niyə bağırır ?- dedi. Kişi dillənməyib yerindən tənbəl -, tənbəl qalxıb pəncərənin qarşısına gəldi. Məlum oldu ki, oğlan antena quraşdırır. Çıxdığı dirəyin başından arvadına mü-

raciət edib, televizorun göstərib-göstərmədiyini öyrənmək istəyirdi. Dadaş müəllim hirslənmişdi, amma özünü o yerə qoymayıb yerləşənə qədər bir az narahatçılıq olacaq,- dedi. Kişini təəccübləndirən Muradın Sevilə olan müraciət tərzi idi. O, bir dəfə olsun Sevil sözünü ağzına almırdı. Bayaqdan bəri "Qız" deyib bağırırdı. Heç Sevilin səsi ondan geri qalmazdı. O, da öz növbəsində cır bir səslə qışqırıb cavab verirdi. Qışqır - bağır mərasimi iki saata qədər davam etdi. Axşam tərəfi kişi Murada bir- iki xırda- para tapşırıq verib, yenə də özündən razılıq etdi. İkinci sabah da həmin minvalla hava işıqlaşmamış Dadaş müəllim Muradın səsinə yuxudan oyanmalı oldu. Bu dəfə məlum oldu ki, darvazanın önündə içərisi adamla dolu böyük bir yük maşını dayanıb, Muradı səsləyirdilər. O, da öz növbəsində cavab verib indicə gələcəyini söyləyirdi. Bu mərasim çox çəkməsə də kişi artıq tam oyanmışdı. Bir həftə hər gün davam edən bu hay - küy kişini saat altıdan oyanmağa məcbur edirdi. Düzü Dadaş müəllim Muradın işinə də, iş yoldaşlarına də məəttəl qalmışdı. Bu qədər kişi yığışıb boş şüşə yığmağa gedirdi. O, bir axşam Muradı çağırıb, ona yaxşı iş tapdığını söylədi. Belə ki oğlanı məktəbə gözətci təyin etdirmişdi. Axsadığı az da olsa bilinən bu oğlanın qüsurlu olduğunu nəzərə alıb onu rahat bir işlə təmin etdiyinə görə yenə də özündən razı qalmışdı. Kişi doğrudan da onlara bacardığı yardımı edirdi. Ev əşyaları, pal-paltar, qabqacaq yeri gələndə pul da verirdi. Qaldı Adilə ocağında hər nə bişsə hamısından Sevilə pay qoyurdu. Di gəl elə gün yox idi ki, Dadaş mü-

əllim əsəbləşməsin. Amma böyük səbirlə özünü ələ alırdı, çünki Əlinin yanında peşman olduğunu bildirmək istəmirdi. Dadaş müəllimin fikrinə görə Murad da Sevil də pis adam deyildilər. Sadəcə başa düşükləri bu qədər idi. Çünki hər ikisi gündə bir necə dəfə kişiyə ürəkdən dua edib, dil ağız edirdilər. Dua ilə bərabər hər gün yeni bir problem törədirdilər. Artıq saat altıdan oyanmağa Dadaş müəllim özü də adət etmişdi. Bir səhər kişi Muradın əlində iki böyük vedrə qapıdan çıxdığını görüb təəccüb etdi. Vedrələr zoğalla dolu idi. Dadaş müəllim sual dolu gözlərini oğlana dikib, əli ilə işarə edib bu nədir ? - dedi. Murad əhvalını pozmadan, müəllim bir pula getmir, qəpik - quruş edir,- deyib darvazadan çıxdı. Zoğalın yığıldığını yaxşı ki, Adilə xanım görməmişdi. Axşam Dadaş müəllim Murad yanına çağırıb, pul verdi. Bir də ondan icazəsiz heç bir ağacın meyvəsini dərməməsini dönə - dönə tapşırdı. Hətta Adilə xəbər tutsa yaxşı olmayacaq da, - dedi. Onsuz da Adilə xanımın da öz işləri var idi. Bu müddət ərzində ağacların, güllərin dibindənkimi istifadə edən uşaqlara tualetə getməyi zorla öyrətmişdi. Uzun sözün qısası doğrudan da başları qarışmışdı. Təlim- tərbiyyə ilə məşğul idilər.

--Yeni-yeni bir az sakitlik çökmüşdü. Dadaş müəllimlə Adilə xanım həyəti sulayıb, hər tərəfi bürümüş güllərin gözəlliyindən həzz alırdılar. Bu güllərin hərəsinə filan qədər pul verib öz əlləri ilə əkmişdi. Qəfil açılan darvazanın səsinə hər ikisi dönüb arxaya baxdı. Sevil idi, darvazanı taybatay açırdı. Köhnə qırıq -salxaq, hətta ka-

potu taxta boyası ilə boyanmış bir maşın düz həyətin ortasında dayandı. İçəridən yekəpər kişi düşüb, iki böyük çantanı yük yerindən götürüb yerə qoydu. Dərhal da maşına minib qapıdan çıxdı. Adilə Dadaş müəllimin üzünə baxırdı, çünki çantalar tərpənirdi. Onlar sual verməyə macal tapmamış, Sevil çantaların ağzının zəncirini çəkib, hinduşkaları həyətə buraxdı. Çəmi on dəqiqədən sonra iki ana hinduşka və az qala qırxa qədər cücə həyəti başına götürdü. Hətta bir necəsi pilləkənlərlə yuxarı dırmaşdı. Onların qulaq deşən çəppiltisi bir yana qalsın, artıq hər tərəfi batırmışdılar. Sevil təəccüblə baxan ər - arvada izahat verməyə başladı:

-Anam deyir, böyük məhlədir, yemək- içmək də boldur, apar tök böyüsünlər. Dadaş müəllimlə Adilə yuxarı qalxıb uzanmağa keçsələr də hinduşkanın səsi kişini gözünü yummağa qoymadı. Adilə deyinmək istəmirdi, amma hirsindən partlayırdı. Bu dəfə Dadaş müəllim yerindən dik atılıb pəncərənin önünə gəldi, Murad,- deyib səslədi. Oğlanın məğrur bir görünüşü var idi. Deyəsən qaynanasının hədiyyəsindən çox razı idi. Kişi pəncərədən yerə pul atıb dedi: --

-Yığ bu hinduşkaları bir taksi tut qaytar geri. Oğlan nə isə mızıldamaq istəyirdi ki, kişinin bağırtısından diksinib geri atıldı. Cücələri tutmaq mərasimi uzun çəksə də, axşamtərəfi həyətə sakitlik çökdü. Hinduşkaları yola salanda Muradın sifətində yaranan ifadə Dadaş müəllimin gözünün önündən çəkilmədiyi üçün ona yazığı gəlib, dalbadal cibinə pul qoydu. Bir iki gündən sonra Da-

daş müəllimin qonağı var idi. Çəpiş kəsdirib kabab çəkmişdi. Xına kimi qızarmış kababı masaya qoyub,- dedi: -Ay uşaq, bir qab zoğal dərib qoyun masaya. Çəpiş ilə zoğal ləzzət edir. Qonaqların ən gənci ayağa qalxıb bağa keçdi. Dabanı üstə fırlanıb, ağacda bir dənə də olsun zoğal yoxdur, - dedi. Dadaş müəllim qaşlarını çatıb neçə yəni yoxdur, axşam ağacda yarpaq görünmürdü,-deyib bağa keçdi. Kişinin sözü ağzında qaldı. Doğrudan da ağacın dərilib, soluxmuş yarpaqlar sanki utandığından başını aşağı dikmişdi. Kişinin gözünün önünə əlində vedrələr gedən Murad gəldi. Bir də dünənki hadisəni xatırladı. Səhər pəncərədən baxanda körpə fidan ərik ağaclarının başında sapsarı saralmış əriklәri görüb xoşu gəlmişdi. Aşağı düşən kimi Muraddan ərikləri yığıb gətirməyi xahiş etmişdi. O,isə utanmadan,müəllim ərikləri yerə düşəndə qız yeyir, axı hamilədir,- demişdi. Kişinin cin başına vursa da ar- abır etmişdi. Mən boyda kişiyə ayıbdır , iki -üç ərikdən ötəri davamı edim? -deyib susmuşdu. İndi kişi gözünü gəzdirib ətrafa baxdı. Bütün meyvə ağaclarının meyvəsi dərilmişdi. Sapsarı meyvələri yerə dəyən yapon gavalısı, ananas qoxusu verən qırmızı alma, hələ yetişməyinə xeyli qalmış armud, cənnət alması deyilən xırda almalar bir sözlə satlığa gedə bilən bütün meyvələr yığılmışdı. Bir tək nar ağacının meyvələri yerində idi. O da hələ yetişməmişdi. Kişinin gözündə çaxmaq çaxdı. Bu günlərdə nəvələri də gəlməli idi. Üzünü çevirib manqalın yanında etinasız halda qurdalansa da üzündə narahatlıq hiss olunan Murada baxdı. Gözləri bir-birənə sataşan ki-

mi var səsi ilə rədd olun,- dedi. Murad özünü məşğul göstərib işə -gücə cumsa da Dadaş müəllim ciddi tərzdə qapını göstərib bu dəqiqə buranı tərk edin,- deyib bağırdı. Məsələdən xəbər tutan Adilə xanım durmadan deyindi.

Ertəsi gün sanki üstlərindən dağ götürülmüşdü. Dadaş qardaşı Əlinin yanında bu mövzuya qayıtmaq istəməsə də Muradın axırıncı addımı kişini elə yandırdı ki, rayondan çıxıb gedənə qədər deyinməli oldu. Belə ki, yayın sonuna yaxın uşaqların hamısı gəlib yığılmışdı. Kişinin nəvələri ilə xoş gün keçirdiyi günlərin birində bir oğlan içəri girib ərklə həyət- bacanı gəzdiyini görüb hər kəs təəccüb etdi. Uzun çək-çevirdən sonra aydın oldu ki, Murad qarşıdakı digər köməkçi damı bu oğlana kirayə verib, beh də alıbmış. Hətta evdə heç kim olmayanda oğlanı qalacağı yer ilə tanış da ebibmiş. Sadəcə Dadaş müəllimgil Bakıya gedəndən sonra gələrsiniz deyibmiş. Guya bunu Dadaş müəllim özü belə istəyib. Verdiyi behi tələb edən oğlanı yola salandan sonra, birinci dəfə qardaşının yanına gedib, deyinməyə başladı. Əli indi nə olub, ay  Dadaş? -deyib gülməkdən qəşş edirdi.

## GECİKMİŞ SƏADƏT

Aysel səhər gedəcəyi toya böyük həvəslə hazırlaşırdı. Bu həvəs qızın daxili sevincindən irəli gəlirdi, həm də rəfiqəsi Sonanı çox sevirdi. Artıq üç- dörd aydan bəri Ayselin yuxusu ərşə çəkilmişdi. Nə gecələr gözünə yuxu gedirdi, nə də gündüzlər rahatlıq tapa bilmirdi. Qızın rahatlığını pozan hələ işə çıxdığı ilk gün həyətdə rastlaşdığı, uça boylu, qaraşın oğlan olmuşdu. Həmin günü demək olar ki,hər gün xatırlayırdı. O, idarənin həyətinə çatıb, binaya daxil olmaq istəyəndə, maşınını saxlayıb düşməkdə olan oğlanla üzbəüz gəldi. Sanki oğlanın gözündən bir cüt ox çıxıb qızı yerinə mismarlamışdı. O, bir an özünü itirib duruxsa da, qaça -qaça oradan uzaqlaşıb binaya daxil oldu. Amma özü ilə içəriyə bir parça od aparmışdı. Həmin gündən o bir parça odun közü qızın ürəyində közərirdi. O gecə gözünə yuxu getmədi. Hər nə qədər özünü qınasa da, tanımadığı bu oğlanı unuda bilmədiyi üçün hirslənsə də özü ilə bacara bilmirdi. Kiçik, bir anlıq görüş səhnəsini böyüdüb bir dastan etmişdi. İki- üç gündən sonra isə yenidən həmin yerdə peyda olan oğlan indi qızın yaratdığı dastanın qəhrəmanına çevrilmişdi. Düzdür bu oğlanın kimliyini, bura niyə gəldiyini bilən yox idi. Subay qızları maraq götürmüşdü. Gündə bir söz uydurub danışırdılar. Bəzən Aysel qızların sözünə inanırdı. Lakin hər dəfə onunla göz- gözə gələndə oğlanın gəlişinin səbəbini təxmin edirdi. Bir necə gün bundan əvvəl onunla dəhlizdə rastlaşıb ümidini itirmişdi. Belə ki,

onun da burada işlədiyini düşünmüşdü. Dünən isə hər şeyə son qoyulmuşdu. Adının Emin olduğunu söyləyən oğlan Aysel yaxınlaşıb yarım ildən bəri ondan xoşu gəldiyi üçün, buralarda süründüyünü söyləmişdi. Təəssüf ki, söhbətlərini davam etdirə bilməmişdilər. Çünki həmin gün təsadüfdən onu işdən götürmək üçün atası gəlmişdi. Aysel "atam gəldi"- deyib, oğlanın sözünün ağzında qoyub qaçıb atasının maşınına minib uzaqlaşmışdı. Bu iki gün ərzində uçmağa qanadı yox idi. Emini yaxından görüb daha da bəyənmişdi. Onun təmkini, səsinin tonu, danışıq tərzi xoşuna gəlirdi. Sevinirdi, toya böyük həvəslə hazırlaşırdı. Vaxt tapıb bu barədə Sona ilə danışacağını düşünürdü. Sona onu evə dəvət etmişdi. Evdən çıxanda mənimlə ol demişdi. Həm ona görə, həm də Emin haqqında danışmaq üçün evdən tez çıxdı. Oraya çatmağa tələssə də tez gəlməyinin mənası olmadı. Sona gözəllik salonundan hələ gəlib çıxmamışdı. Oturub onu gözləməli oldu. Lakin Aysel darıxmırdı. Özü burada oturub Sonanın gəlişini gözləsə də, daxilindəki sevinci yaşayırdı. Buradakı abu - havanı öz evlərində olurmuş kimi xəyal edib, özünü xoşbəxt hiss edirdi. Nəhayət Sona gəlib çıxdı, vaxt az idi. Oğlan evnin adamlarıi gəlib çıxana qədər, zorla geyinib hazırlaşdı. Aysel həvəslə hazırlaşmaqda Sonaya kömək etdi. Maşınların siqnal səsini eşidib hamıdan əvvəl pəncərənin önünə gəldi. Öndəki maşından ilk düşən musiqiçilər oldu. Vağzalının sehrli -sirli səsi gələndə nədənsə başının tükləri biz - biz durdu. Qızın ürəyi çırpınırdı. O, Sonanın gələcək həyat yoldaşını tanımırdı. Ma-

raqla bəyin maşından düşməyini gözləyirdi. Bəyin düşmədiyininin görüb hövsələsi daraldı. Pəncərənin qarşısından çəkilib Sonanın yanına döndü. Çox keçməmiş musiqi səsləri lap yaxından mənzilin qarşısında eşidilirdi. Əlində gül tutmuş mavi kostyumlu bəy qapının kandarında göründü. O, məhəbbətlə Sonaya baxırdı. Ayselin damarında qan donmuşdu. Bəy Emin idi. Bu altı ay ərzində Ayselin üzünə dikilən məhəbbət dolu gözləri ilə Sonaya baxırdı. Həmin od tökülən, qaynar baxış idi. O, Ayseli görmürdü. Qızın otaq başına fırlanırdı. Əllərinin titrədiyini gizlətməyə çalışırdı. Qulaqları batmışdı ona elə gəliri ki, oynayanlar musiqisiz oynayırlar. Kimsə onu ortalığa dartırdı. Dizlərində taqət olmasa da bir an özünü toplayıb oynamağa başladı, əgər buna oynamaq demək olardısa, sanki yuxu görürdü. Ən dəhşətlisi isə Eminlə göz - gözə gələndə oldu. Onun Aysələ baxan gözlərində buz kimi soyuq bir ifadə var idi. Qızın bütün vücudundan bir gizilti keçdi. Bundan başqa heç nə xatırlamırdı. Bir tək yadında qalan o idi ki, bəylə, gəlin maşına minib gedəndə özünü pis etdiyini deyib taksi ilə evə qayıtmışdı. Evdə onun gəlişini çox təəccüblə qarşıladılar. Anasının təşvişi atasına da təsir etdi. Hər ikisi nə baş verdiyini öyrənməyə çalışsalar da Ayseldən səs çıxmadı. Gecə gözünə yuxu getməsə də ağlaya bilmirdi. Axı Eminin məqsədi nədir?- deyə özünə sual verib dururdu. Həmin gecə ağlaya bilməsə də ondan sonrakı gecələr yastığı göz yaşından islaq olurdu. Yaxşı ki, iş yox idi. Amansız pandemiyaya görə hər yer, bütün idarə - müəssisələr, məktəb-

bağçalar, restoran – kafelər bağlanmışdı. Sanki bütün ölkə Ayselin dərdinə şərik olub qəmə qərq olmuşdu. İlk günlər xəstəliyi ciddiyə almayan əhali təşviş içərisində idi. Ayseli isə heç nə maraqlandırmırdı. Əslində bu matəm əhval ruhiyyəsinin ona aid olduğunu düşünürdü. Əsl matəm isə davam edirdi. Ölənlərin sayı durmadan artırdı. Bu hüzinlü, ölü sükut içində ötən günlər Aysələ görə ötmürdü, elə yerindəcə sayırdı. Qız durmadan Emin nə etmək fikrində idi ?- deyə düşünürdü.

Aysel hiss etsə də, etməsə zaman ötüb gedirdi. Amansız xəstəlik yüzlərlə insanın həyatına son qoysa da bir az səngidi. Həyat yavaş -yavaş axarına düşdü. Karantin bitdi, iş yerləri açıldı. Aysel toparlanıb işə gedə bilmirdi. İşə çıxmasa valideynlərinin yenidən təşvişə düşəcəyindən qorxub, sürünə- sürünə geyinib işə getdi. Dəhşətlisi o idi ki, onun gözü yenə də Emini axtarırdı. Həyatdə Emin filan yox idi. Onun həmişəki kimi dəhlizdə olacağına ümid edib, yerişini sürətləndirdi. O, isə yox idi. Bir həftəyə yaxın idi ki, özünü toplayıb ətrafa boylanmadan işə gəlib gedirdi. Bu gün işdən bir az gec çıxmışdı. Otaqdan çıxan kimi gözünə ilk sataşan Emin oldu. Toyda geyindiyi mavi kostyumda idi, çox yaraşıqlı görünürdü. Aysələ elə gəldi dəhliz çox uzanıb, bitmək bilmir. Onun bütün vücudu titrəyirdi. Çiynindən asmış olduğu çantanın qulpundan elə sıxmışdı,dırnaqları ovcunu deşirdi. Oğlanın yanından sürətlə ötüb keçmək istəyirdi. Emin gülümsəyib ona sarı gəldi. Dişlərini bir- birinə qıcasa da ayaq saxlayıb onun nə deyəçəyni,hansı sifətlə gəldiyini

öyrənmək istədi. Emin yenə həmin qaynar baxışlarını qızın üzünə dikib gülümsəyirdi. Nəhayət ciddi görkəm alıb dilləndi:

Məndən küsmüsən, Aysel? Araya karantin düşdü, ona görə səndən xəbər tuta bilmədim. Həmin gün səndən telefon nömrəsi ala bilmədim. Tez qaçıb getdin.

Ayselin hirsindən dili- dodağı əsirdi. Oğlanın üzündəki, sakit, təmkinli, ifadəyə baxıb təəccüb edirdi. Eminin Sonagildə onu gördüyünə dəqiq əmin idi. Soyuq gözlə olsa da düz ona baxırdı. Özünü toplayıb titrək səslə dedi:

-Nömrəmi Sonadan ala bilərdin. -

Emin halını pozmadan dedi:

-Hansı Sonadan, bizim Sonadan?

-"Bizim Sona " sözünü eşidib daha da hirslənən Aysel dözə bilməyib hikkə ilə dedi: -Bəli sizin Sonadan. Sona köçəndə görmədin məni ? Orada idim. Emin çiynini çəkib təəssüf edirmiş kimi dedi:

-Xeyr görmədim, gəlin gətirməyə getməmişdim. Axı mən Elvindən beş dəqiqə böyüyəm. Ona görə ata əvəzi restoranda qonaqları qəbul edirdim. Aysel donub yerində qaldı. Təəccübə, siz əkizsiniz? - dedi.

Emin həmişəki kimi məhəbbət dolu gözlərini Aysələ dikib, hələ də nə baş verdiyini anlamasa da gülümsəyirdi.

## SÖNMÜŞ OCAQ

Teymur işdən çıxıb evə tələsirdi, iki gün bundan əvvəl evdə olmalı idi. Amma Neft Daşlarında baş verən qəzaya görə növbədə iki gün də artıq qalmalı olmuşdu. Həmişəki kimi evə çatmağa tələsirdi,lakin blokun qarşısına çatanda son dəfə etdikləri davanı xatırlayıb, kədərləndi. Axır vaxtlar belə davalar tez- tez təkrar olurdu. Əslində onlar çox xoşbəxt idilər, amma anası Teymurun tək bir qız övladı olmağı ilə razılaşmayıb, durmadan dava salırdı. Oğlun, yəni varisin yoxdur deyib dururdu, necə deyərlər Kamilənin gününü göy əsgiyə bükmüşdü. Kamilə isə əməliyyatdan sonra ana olmaq iqtidarında deyildi. Evdən çıxanda qızın yanağı uzunu axan göz yaşlarını gözünün önündə çanlandırır,qapıya yaxınlaşdıqca ürəyinin döyüntüsü artırdı. Halbuki, növbədən gələndə Kamilə onu böyük məhəbbətlə qarşılayıb,həvəslə hazırladığı ləzzətli yeməklərdən süfrəyə düzüb, ətirli çay dəmləyərdi. Hövsələsi daralan Teymur ciblərini axtarıb açarları çıxartdı. Qapını açıb elə dəhlizdə donub yerində qaldı. Lələ köçüb yurdu qalmışdı, asılqan və ayaqqabı dolabı boş idi. Ayaqqabısını soyunmadan bir başa qonaq otağına keçdi. Otağın baş tərəfində süfrəsiz masa, aşağıda isə divan və qoltuqdan başqa otaqda heç nə yox idi. Xalça, pərdə, dolab, qablar hətta çilçıraq sökülmüşdü. Dabanı üstə fırlanıb yataq otaqlarını və mətbəxi gəzdi. Gülnarın otağı tamamı ilə boş idi. Döşəmədə bir qolu olmayan gəlincik atılıb qalmışdı. Öz yataq otağında isə üzəri onun paltar-

ları qalaqlanmış ütü stolundan başda heç nə yox idi. Mətbəx daha pis təsir bağışladı. Həmişə yan- yana düzülən qazanların və çaydanın yeri boş idi. Mətbəxdən gələn ləzzətli qoxunun əvəzinə bir küncdə qalaqlanıb qalan kartof,soğanın çürümüş qoxusu gəlirdi. O, keçib divanda oturub ilk əvvəl anasına zəng etdi. Güllü xanım Teymura ağzını açmağa imkan verməyib bir nəfəsə danışmağa başladı:

Axır ki, rədd edə bildim. Atasına zəng edib, gəl soyu qurumuş qızını mənim ocağımdan apar,- dedim. Oğlum sizə görə varissiz qalası deyil. Onsuz da mən oğlumu evləndirəçəm, hətta qız tapdığımı da dedim.

Teymur ömründə birinci dəfə var səsi ilə bağırıb dedi: -

Sən nə etdin, ana?

Güllü xanım dəstəyi çoxdan asmışdı. Təkcə o gecə deyil aylarla Teymurun gözünə yuxu getmədi. Qızının sərgidə qalmış yeganə paltarını sinəsinə sıxıb onunla yatırdı. Ən pisi o idi ki, Kamiləni Rusiyada işləyən atası gəlib oraya aparmışdı. Teymurun zənglərinə cavab verən yox idi. Yenicə onların arxasınca getməyə hazırlaşırdı ki, qayınatası zəng edib Kamiləni ərə verdiyini söylədi. Bu dəhşətli xəbər Teymur üçün gülləyə bərabər oldu. Əmməli başlı yatağa düşdü. Özünə gəlməyi bir ilə qədər çəkdi. Yeni - yeni özünə gələn kimi anasının təkidi ilə yenidən ailə qurdu. İlk təəccübünə səbəb olan, dənizə getməyə hazırlaşdığı gün oldu. Kəmaləni xatırlayırdı. Növbəyə gedəndə, Kamilə iki - üç növ xörək, on günlük azuqə və

xırda- para lazım olan şeylərdən ibarət çantanı Teymura verib, işə yola salardı. Yola düşməyə hazırlaşan Teymura Mehrinin ilk sözü, mən sən gələnə qədər nə yeyəcəm?- oldu. Teymurun təəccüblə baxdığını görən qız, yaxşı narahat olma yemək sifariş edərəm,- dedi. Beləcə də bu ailənin təməli belə quruldu. Teymur həm növbəyə gedəndə, həm də geri dönəndə o gündən sönmüş olan ocağında bişən yeməklərə həsrət qaldı. Zaman keçdikcə bu həyat tərzinə vərdiş etdi. Dalbadal iki oğlu gəldi dünyaya. Qayğısı daha da artdı, çünki bütün problemlər onun üzərində idi. Paltarları quru təmizləməyə aparmaq, xalçaları yudurtmaq, yemək sifariş etmək və daha nələr, nələr. Vəzifəsi qalxandan sonra evdə işləməyə bir qadın tapdı, amma evinin növrağı düzəlmədi ki, düzəlmədi. Bir dəfə olsun işdən dönüb rahatlıq tapa bilmədi. Çay istəməyi çoxdan unutmuşdu. Masanın üstü müxtəlif şirələrlə,qazlı sularla dolu olurdu. Uşaqlar böyüdükcə hər şey daha da pisləşirdi. Teymur oğlanlarını küçələrdən yığa bilmirdi. Çünki Mehri Teymuru ağzını açmağa qoymurdu. Uşağın xətrinə dəymə, dərs oxumaqları lazım deyil,- deyirdi. Bir sözlə evdə küçələrdən yığılmayıb, evə gecə yarısı dönən iki avara böyüyürdü. Hər şey bir yana musiqi dinləməyə həsrət idi. Mehri yalnız xarici musiqi dinləyirdi. Evdə səsdən qulaq batırdı, lakin musiqi Teymurun ruhunu oxşamırdı. Ona elə gəlirdi,dəmirçixanada yaşayır.

Oğluna varis axtaran Güllü xanım dünyasını dəyişəndən sonra, Teymur özünü daha da yalnız hiss etdi. Çünki bu dünyada ruhuna yaxın kimsə yox idi. Axır

günlər özünü çox pis edirdi. Düzdür onun bu halı ilə maraqlanan yox idi. İşdən çıxanda dəmirçixana səsi gələn evinə dönmək istəmədiyi üçün maşını sakit bir guşəyə sürüb dincəlmək istəyirdi, lakin gözünü xəstəxanada açdı. Başının üstündə dayanan həkim nə isə soruşurdu. Cavab verə bilməyib yenidən huşunu itirdi.

Ertəsi gün özünə gəlib yataqda oturmuşdu. Huşunu itirməzdən əvvəl Kamilə deyə pıçıldadığını yaxşı xatırlayırdı. Gənc yaraşıqlı bir həkim onun kim olduğunu,adını soyadını soruşub yazırdı. Həkim müalicə təyin edən sonra dedi:

-Müəllim, ailənizə xəbər verin, çünki huşunuzu itirəndə maşınınızı ağaca çırpıbsınız.

Teymur həkim qıza baxıb susdu. Uzun sükutdan sonra dedi:

Ailəm yoxdur, qızım iyirmi ilə yaxındır ki, ocağım sönüb. Anam söndürüb, tək – tənha ailəmin həsrəti ilə yaşayıram.

Teymurun müalicəsi uzun müddət davam etdi. Xəstəxanadan çıxmaq vaxtı çatanda könülsüz - könülsüz hazırlaşırdı. Həkim qızla vidalaşıb aşağı düşdü. Ayaqlarını sürüyə -sürüyə xəstəxananın darvazasına yaxınlaşdı. Darvazanın önündə dayanmış maşınını görüb təəccüb etdi. Təmir edilmiş maşınına baxıb xəyala getmişdi, ağlına heç nə gəlmirdi. Ətrafa boylanıb düz yanında dayanmış həkimi görüb, sual dolu gözünü ona dikdi. Qız ona cavab vermədən, müəllim məni evə apararsınızmı?- dedi. Yol boyu heç biri danışmadı. Mənzil başına çatmaq çox vaxt

tələb etmədi. Maşından düşən həkim qız israrla Teymuru evlərinə dəvət etdi. Kiçik bir qapıdan keçib içəri girdilər. Çəmi üç- dörd pilləkəni olan kiçik köhnə mənzilin pilləkəninin solunda qoyulmuş samovarın xoş qoxusuna plovun ləzzətli ətri qarışmışdı. İçəridən muğamat səsi gəlirdi. Düşdüyü abu hava Teymuru süst salmışdı. Gözünün önünə Kamilə gəlirdi, ürəyi sıxılırdı. Həkimə təşəkkür edib geri dönmək istəyirdi Kəmalənin səsini eşidib diksindi. Başını qaldırıb donub yerində qaldı. Dönüb həkimə bir də baxdı. Bu necə gündə ona doğma gələn qara gözlərin sahibini indi tanıdı. Gülnar, deyib özünü qızının üstünə atdı. Maşının kim tərəfindən təmir olduğunu da elə indi anladı. Bir necə saatdan sonra onun yaxınlığında yaşayan Kamilədən xəbəri olmadığı üçün yanıb tökülürdü. Onu ən çox yandıran isə Kamilənin onun sualına verdiyi cavab oldu:

Mən səndən başqası ilə ailə qura bilməzdim.

## SƏRVƏT DÜŞKÜNÜ

Şənbə günü olduğu üçün Maya işdən evə tez dönmüşdü. Əslində o, nə gecikməyi, nə tez dönməyi xoşlamırdı. Bu gün isə evdə işi çox idi. Həm təmizlik işləri var idi, həm də mürəbbə bişirməli idi. Tələsik yemək hazırlayıb, uşaqlarla Raufu yeməyə çağırdı. Rauf kefsiz görünürdü. Axşamdan mübahisə etmişdilər. Hər həftə sonu bu mübahisə təzələnirdi. Rauf haraya isə istirahətə get-

mək qərarına gəlirdi. Maya onun istəyini ürəyində qoyub, işi çox olduğunu söyləyirdi. İşi doğrudan da çox olurdu. Üç körpə anası olmaqla yanaşı o, həm də bağça müdiri idi. Raufun dəstəyi ilə açmış olduğu özəl bağçanın bütün məsuliyyəti, əziyyəti Mayanın üzərində idi. O, gecə - gündüz bilmədən çalışırdı. Daha çox uşaq cəlb etmək üçün əlindən gələni edirdi. Bayram və müxtəlif tədbirlər keçirmək üçün bütün günü baş sındırmalı olurdu. Hətta uşaqların tədbirlərdə geyinəcəyi paltarların satışını da təşkil etmişdi. Elə bağçanın özündə tikiş sexi açıb,bütün heyvan növlərini təmsil edən paltarlar tikdirirdi. Uşaqların daha çox sevdikləri şahzadə, kübar xanım, cəngavər geyimlərinin ülgüsünü özü verirdi. Düzdür bu onun peşəsinə aid deyildi, amma əvəskar dərzi kimi bu işin də öhdəsindən ustalıqla gələ bilirdi. İxtisası İngilis dili müəllimi olduğu üçün, bağçada ingilis dili kursu da açmışdı ki, orada gedən dərsləri heç vaxt nəzərindən yayındırmırdı. Bir sözlə az bir zamanda açdığı bağça böyük uğur qazanıb, məşhurlaşmışdı. Yaxından, uzaqdan olan hər kəs uşağının Mayanın bağçasında tərbiyə almasını istəyirdi.

Həmişəkindən fərqli olaraq bu gün Raufun daha çox gərgin olduğunu hiss etsə də, tələsik işlərinin üstünə döndü. Masanı toplayıb, çiyələyi təmizləyib şirəyə qoydu. Sonra çirkli paltarları maşına atmaq üçün otaqları gəzməyə başladı. Yataq otağının qapısının arxadan bağlı olduğunu görüb təəccüb etdi. Cəftədən tutub qapını bir neçə dəfə astadan itələdi. Raufun ,yatıram əl çək sözünü

eşidib qapıdan geri çəkildi. Amma qapıdan aralanmamış içəridən gələn pıçıltını duydu. Rauf kiminlə isə telefonla danışırdı, səsində bir qəribəlik var idi. O, paltarları yığıb aşağı düşdü. Paltaryuyan maşın həyətdəki köməkçi dama quraşdırılmışdı. Düşüb paltarları maşına qoydu, amma fikri Raufun yanında qalmışdı. Həm qapını arxadan bağlamağı, həm də pıçıltı ilə danışmağı ona təəccüblü gəlirdi. İşi çox olsa da bir az oturdu. Sonra özünü toplayıb aşağıda olan, çoxdan bəri əl dəyməyən telefona yaxınlaşıb dəstəyi qaldırdı. Rauf hələ də danışırdı. Qarşıdakı adamın səsi gəlməsə də Raufun sözləri onun ürəyini silkələdi. O, kimə isə əməlli - başlı yalvarıb, bir də məni tək qoyma,- deyirdi. Mayanın qulağı uğuldasa da Raufu aydın eşidirdi. O, deyirdi:

-Sənə qurban olum, bilirsən ki, sənsiz mənə dünya dardır. Üç gündür dünyam qaralıb. Əgər sabah da gəlməsən, mən artıq orada tab gətirə bilmərəm.

O, dayanmadan xoş sözlər deyib, darıxdığını daha çılğınlıqla bildirməyə cəhd edirdi. Dünya Mayanın başına fırlansa da hələ də nə baş verdiyini anlaya bilmirdi. Əlləri titrəyib, ürəyi çırpınırdı. Qarşıdakı adam sanki danışmyacağına and içmişdi. Ya da Raufun xoş sözlərindən xoşhal olub onu dinləməyə üstünlük vermişdi. Rauf onun on ildə bir dəfə olsun eşitmədiyi sözləri yağış kimi yağdırırdı. Durmadan əzizim, canım, gözəlim, ceyranım, hətta sənə qurban olum kimi sözlər işlədirdi. Gec də olsa nəhayət qarşıdakı adam da dilləndi. Cingiltili səsli və gülə - gülə danışan qadının səsi gələndə Maya donub yerin-

də qaldı. Sanki onu yerə mismarlamışdılar, başından su tökülürdü. Gözündən yaş gəməsə də yanağından su axırdı. Danışanlar isə öz haylarında idi. Rauf xoş sözlərdən yağdırır, o, isə işə gəlməmək səbəbini açıqlayırdı. . Qızı yandırıb tökən onların son sözləri oldu. Raufun Zəriş deyə müraciət etdiyi qadın sonda Mayanı xəbər aldı. Bişirdiyi mürəbbədən mənə də gətir,- deyib xudahafizləşdi. Maya qıpqırmızı olmuşdu. Nə deyəçəyini, nə edəçəyini bilmirdi. O, ağlına gəlməyən bir halla üzbəüz qalmışdı. Axşama qədər nə iş gördüyünü xatırlamırdı. Bir tək onu bilirdi ki, mürəbbəni bişirməyib,paltarları maşından çıxarıb sərməyib. Rauf otaqdan lap geç çıxdı, kefi duru idi. Maya onun tərəfinə belə baxmırdı. Bir necə gün bu hal davam etsə də Rauf yaranan vəziyyətin fərqinə varmırdı. İki -üç gündən sonra Maya onunla ayrılacağını elan edib, səbəbini açıqladı. Telefon söhbətini eşitdiyini dedi. Rauf donub yerində qalmışdı. Heç vaxt Mayanın iş -gücdən ayrılıb ona qulaq asaçağı ağlına gəlməzdi. Özünü müdafiə etmək üçün nələr isə danışırdı. Amma Maya onda utanmaq, peşman olmaq kimi hallar hiss etmədi. Sanki dediklərini də nəyinsə xətrinə danışırdı. Onda nə hal olur olsun qızın fikri qəti idi. O, bundan sonra Raufla bir çatı altında yaşamayaçaqdı. Bu ötən günlər ərzində gəldiyi nəticə bu idi. Gecələr səhərə qədər gözünə yuxu getmirdi. Özünü təhqir edilmiş, alçalmış sayırdı. Qarşılaşdığı bu halı özünə yaraşdıra bilmirdi. Raufla eyni rayondan olmaqlarına baxmayaraq universitetdə oxuyanda tanış olmuşdular. Tanış olmuşdular deyəndə hələ birinci kurs-

da oxuyandan Rauf bir kölgə kimi onun arxasınca sürünmüşdü. Maya universitetdə barmaqla göstərilən gözəl, ağıllı, əlacı qız idi. Əslində başqa oğlanlar kimi Rauf da ona yaxınlaşa bilmirdi. Kənardan daima ətrafında dolaşırdı. Maya onun ətrafında fırlanmağına elə vərdiş etmişdi ki, bir də gözünü açanda gördü, Raufu həndəvərində görməyəndə gözü ilə onu axtarır. Hər səhər dərsə gedəndə ilk rastlaşdığı adam o, olurdu. Hətta bir dəfə qaldığı evdən narazı olduğu üçün qardaşı gəlib onu gecə başqa mənzilə köçürmüşdü. Həmin gecə gözünə yuxu getməyib, sabah Raufun onu tapmayaçağını düşünmüşdü. Amma qəribə olsa da qapıdan çıxan kimi ilk rastlaşdığı adam yenə də Rauf oldu. Bu dəfə özü də bilmədən ona salam verdi. Bundan sonra bir- birini ülvi bir məhəbbətlə sevdilər. Universiteti bitirib ailə qurdular. On il ərzində üç övlad sahibi oldular, amma bir dəfə olsun aralarında ciddi söz söhbət olmadı. Maya çox qoçaq, təmizkar, səliqəli qız idi. Hər kəs ona həsəd aparırdı.

Günlər ötürdü. Maya mütləq ayrılacağını düşünsə də Raufun ona etdiyi bu xəyanətə mat qalırdı. Bir az özünə gəlib ilk əvvəl güzgüyə baxdı və orada özünü tapa bilmədi. Uca boylu, nəcib, yaraşıqlı qızın yerində yaşına görə hədsiz kök, saçları pərakəndə, əyninə qətiyyən yaraşmayan köhnə libaslı bir qadın gördü. Gözünə inanmadı. Çünki özünə baxmağa vaxtı olmurdu. Gecə- gündüz çalışıb pul qazanırdı. Yaşadıqları kiçik və köhnə mənzili də birləşib özləri zorla almışdılar. İndi isə o, demək olar ki,tək öz qazancı ilə təzə ev almışdı. Təmir etdirirdilər.

Maya dönüb arxaya baxanda zamanın yanından axıb getdiyini gördü. Bu illər ərzində bir gün olsun istirahətə vaxt ayırmamışdı. Toylarda, ad günlərində və digər şənliklərdə iştirak etmirdi. Əvvala vaxtı olmurdu, İngilis dilindən uşaq hazırlayırdı. Qruplar arasında demək olar ki, fasilə qoymurdu. Bağçanın işləri də öz yerində. Ən əsası özünə məclis paltarları almırdı. Nəinki məclis paltarı, adi iş və ev paltarına çox nadir hallarda pul verirdi. Dəvət olduqları yerə getmək Raufun boynunda idi. Düzdür Rauf hər dəfə deyinirdi. Gəl bir yerdə gedək, deyirdi Həm də o, istirahət etmək şənlənmək, əylənmək istəyirdi. Hələlik bu mənzil bəsimizdir. Yavaş - yavaş yenisini,böyüyünü alarıq deyib, Mayanın yorulmaq bilmədən işləməyinə qarşı üsyan edirdi. Bütün bunlar kino lenti kimi gözünün önündə canlanır, harada nə zaman səhv etdiyini düşünürdü. Hər şeyi olduğu kimi xatırlayıb, özündə heç bir səhv görmürdü. O, fədakar ana, zəhmətkeş ev xanımı olduğunu düşünürdü. Həyat yoldaşı kimi də Raufun yeməyi yerində, əyin başı isə həmişə tərtəmiz olurdu. Bir sözlə Mayaya görə Rauf bu dünyanın ən vəfasız yoldaşı idi. Tezliklə ondan ayrılmağı düşünüb, nəhayət təzə evə onsuz köçmək qərarına gəldi. Belə də etdi, hələ təmir sona yetməmiş uşaqları da yığıb təzə evə köçdü. Bu elə də çətin deyildi. Çünki orada hər şeyin təzəsini alıb qurmuşdu. Min bir həvəslə qurduğu mənzilə sürünə - sürünə gəldi. Gözünə heç nə gözəl görünmürdü. Evin divarları üstünə gəlirdi. Əslində uşaqların səsindən qulaq batırdı. Mayaya elə gəlirdi, evdə soyuq kabus gəzir. Şər qarışan-

da cırcıramaların səsindən dəhşətə gəlirdi. Ömrü boyu eşitdiyi bu səsdə yaranan zəhlətökücü sıxıntıya təəccüb edirdi. El arasında öyöy adlandırılan quşun haqqında söylənilən rəvayəti özlüyündə dəyişmişdi. Deyilənə görə qardaşlarını itirən iki bacı quşa dönüb bir- birinə, tapdınmı - tapdınmı deyə sual verirlər. Maya indi bu quşu əri xəyanət edən qadına bənzədirdi. Onun səsi də qulağında vəfasız- vəfasız deyə səslənirdi. Bütün günü vaxt tapmayan qadın işsiz darıxırdı. Çünki bütün qruplarını ləğv etmişdi. Dərs deməyə həvəsi yox idi. Uşaqların səsi başına düşürdü. Yemək bişirməyi də azaltmışdı. Əslində Rauf evdə az olduğu üçün yeməyə də tələbkar deyildi. Çox vaxt yeyib -içib gəlirdi. O da Mayanın öz istəyi idi. Bir vaxtlar Rauf evdən gedən kimi rahatlanıb işinin başına dönürdü. İndi qulağı səsdə qalmışdı, onun harada olduğunu öyrənmək istəyirdi. Bu elə də çətin olmadı. Mayadan başqa hamıya məlum olan eşq məcrası haqqında hər kəs xəbər daşımağa çalışırdı. Hətta artırıb yalan söyləyənlər də var idi. Hər halda məlum olan o idi ki, Raufla Zərnişan kefdə idilər. Hər həftə sonu haraya isə gəzməyə gedir, həftə arası isə elə rayondaca restoranlarda gün keçirirdilər. Deyilənə görə Rauf  hər axşam evə gecəyarısı dönürdü. Bütün bunları eşidən Maya heç çür özünü toplaya bilmirdi. Ona təəccüblü gələn o idi ki,Rauf hər həftə sonu onunla istirahətə getmək üstündə az qala dava edirdi. Əgər getmək adamı var imişsə o nə oyun idi? Özünə nə qədər sual versə də, əslində sonda Raufu haqlı çıxardırdı. Uzun çək- çevirdən sonra ona aydın oldu ki,

bu on ildə onlar sadəcə bir damın altında yaşayıblar. Birlikdə ömür sürməyiblər. Günahkar isə o özü idi. Keçmişi xatırladıqca buna tam əmin olurdu. Çünki onunla birlikdə televiziya seyr etdiyini də xatırlamırdı. Halbuki, Rauf onu səsləyə- səsləyə qalırdı.

Məhkəməyə ayrılıq ərizəsi yazıb, müraciət etmək istəyirdi, əli gəlmirdi. Rauf ondan ayrılmamağı xahiş etmişdi,uşaqlara pis təsir edəcək demişdi. Özləri haqqında kəlmə kəsməmişdi. Bunu da düşünəndə onu haqlı gördü. Çünki özləri adında bir şey yox idi.

Aradan bir -iki fəsil ötdü. Necə deyərlər Mayanın nə gələn qışdan, nə gedən payızdan xəbəri olmadı. Dünya onun üçün qaranlıq, rəngsiz, yaşamaq mənasız idi. Gecə -gündüz çalışmağına çoxdan son vermişdi. Hədsiz arıqlamışdı. Əslində cavan görünürdü. Paltarlar əyninə böyük olduğu üçün əyin-başını təzələmişdi. Güzgüyə baxdıqca özündən xoşu gəlirdi. Görkəmi ona ruh verirdi. Özünü ələ almağa cəhd edirdi. Amma boşanma ərizəsi yazmağa əli gəlmirdi. Tələbə vaxtı hər yeni mənzilə köçəndə Raufu orada görməyə alışan, Maya Raufun qayıdacağını gözləyirdi. Onu bağışlamayacağını deyib, gözü qapıda qalmışdı.

Günəşli, güllü, çiçəkli, novruz bayramlı, şəkərbura-paxlavalı, səmənili bahar fəsli qapını kəsmişdi. Lakin Mayanın təzə təmirli, bəzəkli evinə özü ilə hərarət, sevinc əvəzinə böyük sıxıntı və kədər gətirmişdi. Ona elə gəlirdi ki, evdə soyuq külək əsir. Hər halda onun daxilində bu külək əsirdi. Bu gün işdə bərk başı ağrıdığı üçün evə tez

dönmüşdü. Axır vaxtlar Nuray tez -tez kürlük edib, atasını axtarırdı. Turalla, Vüsal da çox kədərli idilər. Onlar da gündə bir necə dəfə ataları haqqında qəribə suallar verirdilər. Hələlik uşaqlardan dərsdən qayıdan yox idi. Yerindən qalxıb yemək bişirməyə həvəsi olmasa da, mətbəxə keçdi. Elə həmin an qapının çalındığını eşidib qapıya yaxınlaşdı. Gələn Raufla Nuray idi. Qız atasının əlindən bərk - bərk tutub onu içəriyə dartırdı. Maya Raufun salamına cavab verib, qapıdan çəkildi. Nuray demək olar ki, qardaşları dərsdən gələnə qədər atasının əlini əlindən buraxmadı. Bir yerdə nahar etdilər, axşam tərəfi uşaqlar həyətə düşdü. Raufun Mayaya ilk sözü bu paltar sənə çox yaraşır oldu. Maya sözü yad adamdan eşidirmiş kimi qıpqırmızı oldu. Rauf onun cavabını gözləmədən davam etdi:

Mavi və çəhrayı paltarın da çox gözəl yaraşır.

Bu ayrılıq müddətində bir dəfə olsun onu görməyən qız təəccüblə gözünü oğlanın üzünə zillədi. Rauf onun paltarlarının rəngindən danışdıqca tələbəlik illərini xatırlayrdı. O, sözünə sualla davam etdi:

- Maya, niyə məni özündən uzaqlaşdırmağa çalışırdın? Bəzən həyatında kiminsə olduğunu düşünürdüm. İnanırsan ? Telefon danışığımı sənin eşitdiyini biləndə sevindim. Sən çoxdan idi ki, mənim varlığımı unutmuşdun. Təklikdən bezmişdim, qərarım qəti idi. Səndən ayılmaq istəyirdim. Amma bacarmadım. Yenə də təzə mənzili qarşısında durub səni gözləməyə başladım. Məni bağışla demək istəyirəm, amma özüm səni bağışlaya bilmi-

rəm. İllərdir, məni tək qoymusan. Sənsiz yaşamaq mənə çox çətin gəldi. Bunu etmək istəsəm də bacarmadım.

Rauf danışırdı. Danışdıqca coşurdu. Maya onu demək olar ki, eşitmirdi. Bayırdan gəlib atalarına bərk - bərk sarılan uşaqlarına baxıb, dünyalar qədər sevdiyi bu adama olan məhəbbətini göstərə bilməməyi haqqında düşünürdü. Çünki onun bütün hislərinin yerini sərvət düşkünlüyü tutmuşdu. Telefonda eşitdiyi o səs qulağına gəlməsəydi o, da uşaqları kimi Raufa sarılardı. Səs isə dayanmaq bilmirdi. Kaş bu səsi kimsə susdura biləydi,- deyə düşünürdü. Az bir müddətdən sonra uşaqların atalarına olan məhəbbəti həmin səsi susdurdu. Onlar davadalaş edib atalarının evə köçməyinə nail oldular. İllər ötdü, Raufla birlikdə uşaqlarını böyüdüb evləndirdilər. Maya özünə düzgün həyat mövqeyi seçdi. Rauf çox xoşbəxt idi. Amma Mayanın qulağından həmin telefon danışığı getmədi ki getmədi. Demək olar ki, hər gün Raufun Zərişə sənə qurban olum deməyini xatırlayırdı.

## XƏYANƏTƏ AÇILAN YOL
## 1 ci BÖLÜM

Gülər Hafizi ülvi bir məhəbbətlə sevib ailə qurmuşdu. Əslində onun məhəbbəti çoxlarında təəccüb doğurmuşdu. Çünki qız iki günün içində Bakıdan rayona dostunun toyuna gələn, tanımadığı yaraşıqlı oğlana qoşulub qaçmışdı. Bununla nəinki adı- sanı rayonla bir olan nüfuzlu valideynlərini, həm də qohum - qonşunu şoka salmışdı. Anası onu bağışlamayacağına söz versə də, Gülərlə dərhal barışdı. Lakin Hafizi görməyə gözü olmadı. Qadına görə Hafiz onun qızına aid qurduğu bütün xəyalların üstündən xətt çəkmişdi. Elza xanımdan fərqli olaraq, Ələddin müəllim sadə, təmiz, ziyalı bir ailənin oğlu olan bu ağıllı, təmkinli, yaraşıqlı oğlanla tez bir zamanda dostlaşdı. İlk baxışdan bir- birinə aşıq olan gənclərin xoşbəxt həyatına dünyaya gələn övladları nəşə qatdı. Dalbadal doğulan körpələrin eytiyacını ödəmək üçün Hafiz əlindən gələni edirdi. Mühəndis olsa da maaşı onlara yetmirdi. Odur ki, bacardığı hər işdən yapışıb ailəsini dolandırmağa çalışırdı. İl boyu günlərini bir təhər yola versə də yay gələndə Hafizin qara günləri başlayırdı. Belə ki, Gülər yayı haradasa keçirmək qərarından əl çəkmirdi. Qızın bu tələbini ödəyə bilmədiyi üçün, Hafiz onu rayona aparıb, atası evinə yığmalı olurdu. Bundan sonra hər ikisinin fərqli dünyaları olurdu. Ev işlərində o qədər də səriştəsi olmayan Hafiz günlərlə ac -susuz qalmalı olur-

du. Ev – eşiyi toz basır, qab çanağı çirkli qablarla dolurdu. Paltarları maşına atıb yusa da ütüləmək gələndə naçar qalırdı.

Gülər də atası evində bir ayrı aləmə düşürdü. Oraya çatar- satmaz bütün işlərdən azad olurdu. Evdəki iki qulluqçu, anası hətta gəlinləri ona xidmət edirdi. Bu Elza xanımın istəyi idi. Oturub durub qızının ağır həyat keçirdiyini təkrarlayıb, heç olmasa burada beş – on gün istirahət etsin, - deyirdi. Qadın hər adım başı Gülərin " çətin" həyat tərzi keçirməyində Hafizi günahlandırıb, qızının qarşısına çıxdığı günə və qonşunun toyuna lənət yağdırırdı. Bu mövzunu təzələyəndə Ələddin müəllim hirslənirdi. Uşağın beynini doldurma, hələ onların gələcəyi qabaqdadır. Hafiz pis oğlan deyil, qoçaqdır. Bir azdan hər şey yaxşı olacaq deyib, Elzanın sözünün ağzında qoyurdu.

Hafiz on - on beş gündən bir gəlib onlara dəysə də, bir az keçmiş Gülərin evə qayıtmasını tələb edirdi. Təəssüf ki oğlanın bütün cəhdləri boşa gedirdi. Qız evinə az qala üç - dörd aydan sonra dönürdü. Üçüncü uşağın dünyaya gəlişi Hafizi nə qədər sevindirdisə, o qədər də məyus etdi. Elza xanım uşaq baxıcısı tutmağı tələb etdi. Tələbi yerinə yetirilmədikdə qızını yığıb apardı. Hafiz vaxt aşırı gedib onlara dəyir, Gülərin keçirdiyi həyat tərzini görüb xəcalət çəkirdi. Qızın nəinki işdən, gücdən, uşaqdan xəbəri yox idi. Özünə bir fincan çay da süzmürdü. Qulluqçu təzə çəkilmiş şirəni gecikdirsə Elza xanım dünyanı dağıdardı. Bütün bunları Hafizə göstərilib həyat

yoldaşına necə baxmaq lazım olduğunu anlatmağa çalışdıqca oğlan oralara getməyi azaltdı. Daha, evə gedək deməyə üzü gəlmirdi. Rahat həyat tərzinə alışan Gülər özü də buradakı rahatlığı qoyub, evinə dönmək istəmirdi. Bu işdən Ələddin müəllim narahat olub deyinib, bu qızın ailəsini dağıdacaqsan, əl çək qoy gedib evində otursun, nə kömək edirsən evində et,- deyirdi. Lakin bu sözlər Elza xanımın ağlına batmırdı.

Aradan bir necə ay ötdü. Hafiz gəlişini tam seyrəltmişdi. Hətta zəng də etmirdi. Gülər narahat olmağa başlamışdı. İçinə dərin bir kədər çökmüşdü. Axır vaxtlar özünü əlil arabasında oturan adama bənzədirdi. Həyat eşqi ilə dolu, bütün günü iş güclə məşğul olan gəlinlərinə baxıb özünü miskin, lazımsız bir adam kimi hiss edirdi. Hafizdən səs soraq gəlmədikcə darıxmağı daha da artırdı. Bir səhər yuxudan lap tez oyanıb Hafizi zəng etməyə başladı. Həmin gün günortaya yaxın onun zənginə cavab verən Hafiz, işim çoxdur, vaxtım yoxdur,- deyib, bir daha zənglərə cavab vermədi. Qızı şübhələr didib parçalayırdı. İçinə kədər dolmuşdu. Birdən- birə sanki yuxudan oyandı. Hafizdən ötəri bərk darıxdığını hiss edib yerindən dik atıldı. Qalxıb dolabdan onun axırıncı dəfə gələndə burada qalan köynəyini götürüb qoxulamağa başladı. Daha da darıxdı. Könülsüz köynəyi qatlayıb yerinə qoymaq istədiyi anda yerə düşən kağız parçası diqqətini cəlb etdi. Kağızı əlinə alıb yerində donub qaldı. Çox təəccüb etdi. Kağızda uzun bir ərzaq siyahısı yazılmışdı. Hansı ki, bu ərzaqlardan Gülər heç vaxt istifadə etmirdi. Əlləri

titrəyə- titrəyə siyahını bir də oxudu. Orada yazılan pendir növləri,ədvalar və sair bir necə ərzaq ona tanış gəlmədi. Başından ağrı qopdu, saçının dibindən su tökülürdü. Əvvəl telefona əl atsa da zəng etməmək qərarını verdi. Nə qədər əsəbləşsə də evdə bu barədə heç nə danışmadı. Sadəcə tələsik yığışıb evinə getmək istədiyini bildirdi. Anası etiraz edəndə atası onun sözünü ağzında qoyub bağırdı:

- Bəsdir qoy uşaq evinə dönsün.

Daha Hafizin gəlməyini gözləməyib atasının sürücüsü ilə Bakıya yola düşdü. Evə çatanda günorta idi. Öz açarı ilə qapını açıb içəri keçdi. Mənzilə daxil olub gözünə inanmadı. Hər yerdən gül yağırdı. Otaqları gəzdikcə daha da təəccüb edirdi. Burada səliqəli bir qadın əlinin izləri olmağına heç şübhəsi qalmamışdı. Axırıncı mətbəxə keçib, soyuducunun qapağını açıb, bir daha hər şeyə əmin oldu. İdeal dərəcədə təmiz olan soyuducuda kiçik qablarda bir neçə soyuq qəlyanaltı növləri və cücə şorbası var idi. Qalan meyvə və tərəvəz yuyulub səliqəli şəkildə yığılmışdı. Başından ağrı qalxsa da özünü ələ almağa çalışırdı. Keçib televizoru şəbəkəyə qoşdu. Amma orada gedən verilişi nə görür, nə də eşidirdi. Çünki gözü jurnal masasının üzərindəki bahalı saç sancağını almışdı. Yaxınlaşıb əlinə almağa iyrənirmiş kimi onu masadan götürdü. Sancaqdan kəskin, bahalı ətir qoxusu gəlirdi. Qoxu xoş olmağına baxmayaraq onun başını gicəlləndirirdi. Uşaqlar bir- birinə qarışsa da Gülərin yerindən qalxmağa taqəti yox idi. Fikrə getmişdi. Uçmuş bir yuvanın astanasında

dayandığını aydın görürdü. Daxilindən bir qüvvə qalxıb onun tam çökməkdə olan yuvasını qurmağa səsləyirdi Daxilindəki qüvvə ilə birləşib dərin fikrə getdiyi üçün Hafizin qayıtmağından xəbəri olmadı. Hafiz körpəni qucağına alıb soyuq bir nəzərlə Gülərə baxırdı. Qız onun gözünün içinə baxdı, sevimli həyat yoldaşını axtarırdı. Lakin orada kimsə yox idi.

Gülər günlərlə şübhələrindən söz açmadan Hafizin gözündə hərarət axtarırdı. Məyus olsa da, oğlana heç nə demirdi. Bir necə gündən sonra orada kiçik bir işartı görüb sevindi. Bu mənə bəsdir deyə düşündü. Çünki özünə daxili qüvvəsinə yə sevgisinə inanırdı. Aradan zaman keçdikcə Hafizin tam qayıdacağına inanır, bir daha ailəsinin dağılmağına yol açmayacağına dönə-dönə söz verirdi.

## XƏYANƏTƏ AÇILAN YOL
## 2 ci BÖLÜM

Gülər özünə verdiyi sözə əməl etməyi bacarmırdı. Tez - tez gedib atası evindən gələndə evində tapdığı saç sancağına baxır, hər dəfə ilan görürmüş kimi diksinib geri atılırdı. Ürəyi sıxılıb başı hərlənirdi iştahası küsmüşdü. Amma qətiyyətlə ailəsini qorumaq, daha doğrusu uçmaqda olan yuvasını bərpa etmək fikrində idi. Hafizdəki soyuqluq onu yandırsa da rayonda anasının ona eşitdirdiyi sözləri xatırlayıb susurdu. Beləki qadın oğlanı daim kasıb olmağı ilə ittiham edirdi. Ən çox onu yandıran

Hafizin mənzildə nə isə axtarmağı idi. O, işdən gəlib yemək yeyən kimi, jurnal masasının ətrafında, divanın həndəvərində vurnuxurdu. Dəfələrlə Gülər ona sual vermək istəsə də sanki bərəsi qopacaq olan su hövzəsinin daşıb çoşacağından qorxub susurdu. Gülər susmaq üçün bütün qüvvəsini ev işlərinə verirdi. Bu doğrudan da ona yardım edirdi. Həm işinin öhdəsindən gəlir, həm də sakitləşirdi. Anasının zənglərinə də qətiyyətlə cavab verib, gəlməyəcəm, hər işimi özüm görürəm,- deyirdi.

İlk günlər Gülərin tezliklə geri dönəcəyini gözləyən Hafiz odla, su arasında qalmışdı. Düzdür Aynurla arasında münasibət dərinləşməmişdi. Amma tələbə qız onun sönməkdə olan həyatına rəng qatmışdı. Hər dəfə rayondan qayıdanda az qala depressiyaya düşən oğlan, bir həftə özünə gələ bilmirdi. Elza xanımın hikkəsi, tələbləri, oradakı yaşayış tərzi Hafizi mat qoymuşdu. Gecə - gündüz yatmayıb çalışsa da, Elza xanımın tələblərini yerinə yetirə bilmyəcəyinə tam əmin idi. Gülər atası evində padşah sarayında yaşayırmış kimi yaşayırdı. O tərzi, abu - havanı görən oğlan daha da sıxılırdı. Elza xanıma nifrət etsə də, Gülərdən utanırdı. Elə ona görə də axır vaxtlar ürəyi uşaqlarını istəsə də rayona getməyi azaltmışdı. Əslində uşaqlardan da gen qaçırdı. Onların rayondakı yaşayış tərzinə, geyimlərinə, gündəlik tələblərinə baxıb xəcalət çəkirdi. Əlbəttə bütün bunları qabarıq şəkildə gözə soxan Elza xanım özü olurdu. Evinə dönəndə Hafiz qoluqanadı sınmış quşa dönür, demək olar günlərlə ac- susuz qalırdı. Aynurla tanış olandan sonra qız doğrudan da

sanki ona varlığını, yaşadığını xatırlatdı. Çünki Hafiz özünü itirmişdi. Elza xanımın sayəsində canlı ölü kimi yaşayırdı. Aynurun onların blokuna köçdüyündən xeyli zaman ötsə də oğlan onun varlığını hiss etməmişdi. Halbuki, Aynur hər səhər blokun ağzında rastlaşdığı yaraşıqlı oğlana aşiq olmuşdu. Nə olur olsun oğlanın nəzərini cəlb etməyə çalışsa da bir şey alınmırdı. Nədənsə hədsiz kefsiz olan oğlan sanki ruh düşkünü idi. Axşam tərəfi saatlarla həyətdə dayanıb siqaret çəkirdi. Aynur burada təzə olduğu üçün Hafizin ailəli olduğunu bilmirdi, amma bu yaraşıqlı oğlana olan hisslərinin günbəgün artdığını yaxşı bilirdi. . Günlərini, saatlarını onunla rastlaşmağın üzərində qurmuşdu. Oğlanın kəskinliklə ona məhəl qoymaması qızın hislərini daha da güçləndirirdi. Bir gün özü ilə bacarmayan qız oğlanın qapısını döydü. Evindən qaz qoxusu gəldiyi üçün narahat olduğunu söyləyib ondan yardım istədi. Hafiz hər yerə baxıb qoxu filan olmadığını,- dedi. Qapıdan çıxanda narahat görünən qızı maraqla süzdü. Tanışlıq əsnasında İnşaat universitetində oxuyan qıza, layihələrini çəkməkdə yardımçı ola biləcəyini söylədi. Hər şey bundan sonra başladı. Aynur daha sərhəd gözləmədən Hafizin qapısını döyməyə başladı. Elə İlk gündən əl atıb ev - eşiyi sahmana salmağa başladı. Əvvəlcə narahat olan Hafiz get- gedə Aynura öyrəşdi. Hətta gəlməyəndə gözü qapıda qalırdı. Qızın şən zarafatları, maraqlı söhbətləri onu içinə yığılıb, az qala ürəyini parçalayan fikirlərdən qismən də olsa uzaqlaşdırırdı. O, çox xiffət edirdi. Uşaqları üçün burnunun ucu göynəyirdi.

Aynurun Hafizin həyatında peyda olmağı onu sakitləşdirsə də, narahat olurdu. Ondan gen durmağa çalışır, lakin bacarmırdı.

Bir gün Aynur Hafizin ailəli olduğunu öyrənib məyus oldu. Düzdür Hafiz onun sualına, onların bir daha buraya qayıdacağına inanmıram demişdi. Hafizin böyük kədərlə verdiyi cavab Aynuru elə yandırdı ki, bir necə gün gözə görünmədi. Lakin bu ayrılıq uzun çəkmədi. Onsuz da hədsiz dərəcədə də darıxan qız, Hafizin harayına gəlməyə bilmədi. Pəncədən baxanda təcili yardım maşını ilə evə gələn Hafizi görüb dəhşətə gəldi. Özünü dərhal oğlanın evinə salıb nə baş verdiyini öyrəndi. Məlum oldu ki, Hafizin yüksək təzyiq nəticəsində burnundan qan açılıbmış. Həkimlər damarın ağzını yandırmalı olublar. Hədsiz qan itirmiş oğlanın başı gicəllənirdi. Aynur ona yardım etmək üçün əlindən gələni etdi. Şərbət hazırlayıb yemək bişirdi. Bu gündən sonra onların ünsiyyəti daha da sıxlaşdı. Hafiz qızla arasında məsafə saxlamağa cəhd etsə də artıq evə gələn kimi onsuz darıxırdı. Aynurun varlığı təmiz mənzil, dadlı yemək, ətirli çay, şən, maraqlı zaman demək idi.

Gülərin qəfil gəlişi hər şeyi alt- üst etmişdi. Doğrusu Hafiz belə bir şeyin olmağına inana bilmirdi. İlk günlər Gülərin tezliklə qayıdacağını gözləyirdi. Lakin günlər ötdükcə qızın evinə tam yerləşib, anasının zənglərinə mən daha gələn deyiləm, deməsinə təəccüb edirdi. Hafiz sevinirdi,onu narahat edən Aynurun saç sancağı idi.

Onun Gülərin əlinə keçəcəyindən qorxurdu. Qız onu jurnal masasında qoyduğunu söyləyirdi.

Gülərin isə sancaq sahibinə olan nifrəti günbəgün artırdı. Odur ki, sancağı atıb , sakitləşmək istəsə də Hafizin nə isə axtartmağı, oğlanın kiminlə isə əlaqəsindən xəbər verirdi. Nəhayət o, sancağı yataq otağında çarpayının baş tərəfinə qoydu. Sancağın çarpayıdan tapılmağına Hafiz nə qədər təəccüb etsə də, Gülər bir qədər hirslənirdi. Öz əlləri yatağa qoyduğu sancaq haqqında pis xəyallar qururdu. Sancaq evdən gedəndən sonra hər ikisində bir rahatlıq yarandı. Hafizin sanki buzu əriyirdi. Günbəgün gözündəki, cinlər çəkilib gedirdi. Onun fikri qəti idi. Nə olur olsun Aynurun buradan köçüb getməyinə nail olmalı idi. Yaxşı ki, sonradan peşman olacaq addım atmamışdı. Gecəni səhərə qədər o barədə düşünüb yata bilmədi. Səhər evdən çıxanda Gülərə ,sən çox yorulursan bəlkə uşaqları bağçaya verək,- dedi. Qızdan müsbət cavab alıb sevindi. Bir başa Aynurun oxuduğu universitetə getdi. Ona zəng edib çox da gözləməli olmadı. Aynur çox qanı qara görünürdü. Bu günlər ərzində hədsiz arıqlamışdı. Hafiz söhbəti uzatmadan dedi:

Aynur, səndən bir xahişim var bu günlər ərzində biz bir- birimizə yardımçı olduq. Amma qorxuram bizi səhv başa düşüb Gülərə nə isə deyərlər. Sən yaxşı qızsan, gələcəyin var ,adının boş yerə ləkələnməyini istəmirəm. Başqa yerdə də kirayə ev tuta bilərsən.

Aynur onu axıracan dinləmədən dabanı üstə fırlanıb geri döndü. Onun müəmmalı tərzdə gedişi Hafizi na-

rahat etsə də, bir həftədən sonra uşaqları həyətdə gəzdirməyə aparanda köçüb gedən Aynurla üzbəüz gəlməmək üçün ayağını saxlayıb, parka sarı döndü.

Uşaqlarla şər qarışanacan gəzib, evə döndü. İçində bir yüngüllük var idi. Qapının zəngini çaldı. İçəridən ləzzətli yemək qoxusu gəlirdi. Ona ən çox əziz gələn Gülərin addım səsləri idi. Qapını açıb sakit gülümsəyən qızı qucaqlayıb sinəsinə sıxdı. Pıçıltı ilə qızın qulağına, bir də məni tək qoyma, Gülər,- dedi.

## XOŞ TƏSADÜF

Ramin idmandan yarımçıq çıxıb evə gəldi. Nədənsə özünü narahat hiss edirdi. Axır vatlar qarşısana məqsəd qoymuşdu. Ailə qurmaq istəyirdi. O, institutu bitirib, işləyirdi. Ətrafında olan qızların arasında ürəyinə yatan kimsə olmasa da artıq vaxtdır,- deyə düşünürdü. Evə girən kimi adəti üzrə nənəsinin otağına keçdi. Onun yatdığını görüb ayağının ucunda qapıdan çıxmaq istəyirdi ki, qarı onu səslədi. Arxaya dönüb nənəsini qucaqladı. Birinci dəfə idi ki, ona yazığı gəlirdi. Birdən birə ona elə gəldi ki, tam zəifləmiş nənəsi son günlərini yaşayır. Doğrudan da sönməkdə olan çırağı xatırladan qarı zorla dikəlib dedi:

- Səndən bir xahişim var.

Ramin nənəsini bərk-bərk qucaqlayıb xahiş nədir, ay nənə?- dedi. Əmir et.

Nənəsinin sönməkdə olan gözlərində yaranan işartı oğlanın gözündən yayınmadı. Odur ki, qarının xahişinə marağı daha da artdı. Qarı zəif bir səslə dedi:

-Bu gün bacım qızı Dilbər, qızı Ləman ilə birlikdə Bakıya gəlir. Qız Türkiyəyə getməlidir orada oxuyur. Atandan onların nə vaxt gələcəyini öyrən və qarşıla bura gətir.

Nənəsinin sözünə Ramin çox təəccüb etdi. Çünki o, heç kimi qarşılayıb yola salmırdı. Atasının bir neçə sürücüsü var idi. Bir də ki, Dilbəri çoxdan görmürdü, daha doğrusu uşaq vaxtı gördüyü idi. Atası yüksək vəzifəyə təyin olandan bəri rayona getmirdi. Vaxt olan da xarici ölkələri səyahət edirdilər. Ləmanın da adı gələndə başının tükləri biz-biz dururdu. Saçları oğlan saçı kimi qısa kəsilmiş, qırmızı yanaq, nataraz qız ətrafdakı bütün oğlanlara doy gəlirdi. Uşaqlığı yadına düşdü. Səliqəli geyimi, sakit davranışı ilə hamıdan fərqlənən oğlan qızın üzündən gündə bir necə dəfə paltar dəyişib, qışqır- bağır salmalı olurdu. Düşündükcə xatirələr qısa metrajlı film kimi bir- birini əvəz edirdi. Hamısı da bir birindən betər. Oğlanı fikirdən nənəsinin səsi ayırdı:

_ Hə nə deyirsən, gətirərsən?

Ramin düşünmədən əlbəttə deyib, yan otağa keçdi. Atasından avtobusun vaxtını öyrənib aşağı düşdü. Sürücünü çağırıb nənəsinin istəyinə yerinə yetirməyi tapşırdı. Mənim getmədiyimi nənəm bilməsin, deyə xahiş edib dostlarının yanına getdi.

Əslində bu qonaqların gəlməyi onun ürəyindən deyildi. Səhər qonaqları olmalı idi. Atasının xətrini çox istədiyi müavini Yaşar müəllim ailəsi ilə bilikdə onlara gəlməli idi. Daha doğrusu onun qızı olduğunu öyrənmişdilər. Atası isə kişi ilə dostluğu qudalığa çevirmək fikrində idi Bu qonaqlıq da tanışlıq naminə təşkil olmuşdu. Qızı heç biri görməmişdi. Artıq Ramın onun xəyalı ilə yaşayıb, görmək üçün səbirsizlənirdi. Elə ona görə də belə bir məqamda, dəli qızın peyda olmağı heç ürəyindən deyildi. Onun nə isə danışacağından və ya hansısa artıq hərəkət edəçəyindən qorxurdu.

Evə lap geç döndü. Nənəsinin gözünə görünmək istəmirdi. Hamının yatdığını görüb, arxayın otağına getdi. Ertəsi gün istirahət günü olsa da evdən lap tezdən çıxdı. Çünki axşamkı qonaqlığa hazırlıq gedirdi. Axşam isə özünü qonaqlığa zorla çatdırdı. Əslində o, vaxtında gəlmişdi. Yaşar müəllimgil deyilən vaxtdan tez gəlmişdilər. İçəri keçəndə masanın arxasında hər kəs yerini tutmuşdu. Bir tək onun yeri boş idi. Qonaqlarla salamlaşıb keçib oturdu. Çox keçmədi ki, masanın aşağı tərəfində oturmuş qızı görüb ürəyi çırpınmağa başladı. Qız o, düşündüyündən də gözəl idi. Adının Qəmər olduğunu bilirdi. Qız adının mənası kimi ay parçasına bənzəyirdi. İpək kimi qara saçları ağ sifətini daha da gözəlləşdirirdi. Ürkək ceyrana bənzəməyi, nəcib vücudu, məsum görkəmi oğlanın xoşuna gəlirdi. Lakin Ləmanın görkəmi oğlanı çox təəccübləndirirdi. Daha doğrusu mat qalmışdı. Hədsiz dar, qısa olan paltarından bədənin bütün əzaları bilinirdi. Ka-

man kimi dartılmış qaşları, şişirdilmiş dodaqları, qatlanmış süni kirpikləri qızda təravət qoymamışdı. Hələ Linza taxmış olduğu şüşəyə bənzər gözləri İlə Ramini süzdükcə oğlan cin-cin olurdu. Bunların burada olmağını bax elə buna görə istəmirdim,- deyə düşünürdü. Qızın görünüşündəki bu əcayıbliyi də onun sərbəst xarici ölkədə oxumağında görürdü. Ramını əsas maraqlandıran təpəsindən dırnağına qədər abır, ismət yağan Qəmər olsa da oğlanın sevinci uzun çəkmədi. Çünki nənəsi mən otağıma keçmək istəyirəm, Ləman qızım mənə kömək edərsənmi? deyəndə bayaqdan bəri Qəmər olduğunu düşündüyü qız ayağa durub qarını otağına apardı. Elə həmin an Yaşar kişi boyalı kuklaya Qəmər deyə müraciət etdi. Oğlan mat qalmışdı. Öz -özünə ola bilməz deyib, təkrar edirdi. Doğrudanmı Ləman belə dəyişib, gözəlləmişdi. Gözü qapıda qalmışdı. Qız geç də olsa qayıtdı. Ramin qızın onun üzünə baxmağını arzu edirdi. Qız isə sanki onu görmürdü. Qonaqlar qapıdan çıxanacan oğlan yenə səhv etdiyi düşünürdü. Qəmər biədəb görkəmi ilə çəkilib gedəndən sonra bu gözəlin Ləman olduğuna heç bir şübhəsi qalmadı.

Necə gündən bəri dil boğaza qoymayan valideynləri Raminə Qəmər haqqında sual vermədilər. Sanki qurbağanın gölünə daş düşmüşdü. Raminin isə ürəyinə xal düşmüşdü. İlk əvvəl Ləman hara, mən hara deyə düşünən oğlan hisləri ilə bacara bilmirdi. Qıza aşıq olmuşdu. Gecə gözünə yuxu getmədi. İki gündən sonra Ləmanı hava limanından Türkiyəyə yola salmağa aparanda ilk dəfə onunla göz gözə gəldi. Uzun müddət qızın gözlərini

unuda bilməyib, iki aydan sonra Ləmanı təkrar görmək üçün Türkiyəyə uçmalı oldu. Oradan dönəndə çox xoşbəxt idi. Gətirdiyi xəbər isə hamıdan çox nənəsini sevindirirdi.

## İKİLİ SEVİNC

***Vətən uğrunda vuruşub,***
***zəfər çalan oğlanlara həsr edirəm.***

Mədinə axır vaxtlar Azərin tez- tez hara isə getməyindən narahat olurdu. O, ermənilərin növbəti basqınlarının birində ağır yaranmışdı. Ölümlə üzbəüz qalmışdı. Yuxusuz gecələri, ağır, ağrılı gündüzləri olmuşdu. Yeni - yeni sağlamlığına qovuşsa da kiçik bir qüsuru qalmışdı. Yeriyəndə axsadığı az da olsa bilinirdi.

Düşmən yenidən basqın etmişdi. Vətən müharibəsi başlamışdı. Bütün xalq ayağa qalxıb, vətəni dardan qurtarmaq üçün özünü irəli atmışdı. Çağırış məntəqələrinin qarşısında insan seli dururdu. Azər də onların arasında idi. Lakin nə qədər cəhd etsə də onu geri qaytarırdılar. Belə ki, hələlik sənə eytiyac yoxdur, - deyirdilər. Azər yenidən müharibəyə getmək istədiyini Mədinənin yanında demirdi. Bilirdi ki, qız ağlayıb onun getməyinə razı olmayacaq. Onlar on ildən artıq idi ki, ailə qursalar da, övladları yox idi. Mədinə bu günlərdə ana olacağını öyrənmişdi. Amma bu barədə Azərə demək istəmirdi. Çünki bir

necə dəfə səhvən ona ana olacağını söyləmişdi. Sonra xəbər özünü doğrultmayanda xəcalət çəkmişdi, yalan xəbər verdiyi üçün ölüb, yerə girmişdi. Bir daha tam əmin olmamış belə bir xəbəri söyləməçəyinə söz vermişdi.

Bir necə gün ötəndən sonra Azər nəhayət döyüşə getdiyini Mədinəyə söylədi. Damarında qanı donan qız axı, deyib susdu. O, axı sən axsayırsan demək istədi, amma belə deməyə dili gəlmədi. Bir az duruxub, axı sənin bəlli yaşın yar, artıq saçlarına dən düşüb,- dedi. Qızın nə demək istədiyini yaxşı başa düşən Azər xəfifcə gülümsəyib Mədinənin saçlarını tumarlaya - tumarlaya torpaqlar işğal altındadırsa , saçlarım ağarsa da vətən uğrunda döyüşə gedəçəm, - dedi. Gözlərində yaş halqalanan qız özünü  əla alıb, hamilə olduğunu söyləmək istədi. Lakin deyə bilmədi. Çünki artıq Azər yox idi. O, darvazadan çoxdan çıxmışdı.

Cəbhədə ağır müharibə gedirdi. Xalq ordu ilə birləşmişdi. Xalq arxa cəbhədə, ordu ön cəbhədə əzmkarlıq göstərirdi. Xalqa arxalanan ordu misilsiz rəşadətlər göstərməkdə idi. Ölümdən qorxmaq hissini əsgərlər ləğv etmişdilər. Bu müharibə qabaqkılara bənzəmirdi. İndi vuruşan artıq illərlə sandıqlarda qalıb, qapılarını açmağa hazırlaşan açarların verdiyi əzm idi. El -oba deyə - deyə dünyasını dəyişən baba- nənələrin narahat ruhu idi. Bir vaxtlar həmin bu torpaqlardan qucaqda gedən,illərlə vətən həsrəti adlı bir ocaqda qovula -qovrula böyüyən oğlanlar idi. Torpaqların işğal altında olmağından xəcalət

təri tökən kişilər idi. Elə ona görə də hər gün zəfərə sarı irəliləyirdilər

Azər həftədə bir dəfə zəng edib, xoş xəbərlər verirdi. Mütləq qələbə ilə qayıdacağını, torpaqları azad edəçəklərini söyləyirdi.

Bu günlərdə Mədinə yenidən həkimə getmişdi. Körpəni öz gözləri ilə görüb, varlığına tam əmin olmuşdu. Hətta körpənin cinsiyyəti də məlum idi. O, səbirsizliklə Azərə oğlu olacağını xəbər verib, bu sevinci onun da yaşamağını istəyirdi. Tərslikdən artıq iyirmi günü də ötürdü, ondan heç bir səs soraq yox idi. Günlər ötdükcə Mədinənin ürəyinə şübhələr düşürdü. Gecə gündüz yalvarırdı ki, allah bu dünyada heç bir sevinclə əvəz olunmayan bu sevinci ona Azərin yoxluğu bahasına yaşatmasın.

Azər isə zəng edə bilmirdi, ağır yaralanmışdı. Hospitalda, yaralandığı həmin günü xatırlayırdı. Səhər hücuma keçməli idilər. Bu çox ağır döyüş olacaqdı. Yata bilmirdi,gözünə yuxu gedən kimi yuxuda Mədinəni gördü. Qız ona maraqla baxıb, saçların ağappaq olub deyirdi. İnanmırsan dur bax deyib təkrar edirdi. Sonra onun qolundan tutub silkələyib, qalx saçlarına bax deyib yoxa çıxdı. Azər oyanıb telefonu cibindən çıxarıb saçına baxmaq istəyirdi. Qapının ağzında səsi eşidib, dinşəməyə başladı. Orada kiminsə olduğuna əmin olub,uşaqlar qalxın,- deyib var səsi ilə bağırdı. İçəridə ölüm - dirim savaşı başladı. Bir azdan posta soxulmaq istəyən düşmənlər məhv edilmişdi. Bir tək Azər ağır yaranmışdı. Vaxtında

onları oyatdığı üçün Azərə təşəkkür etmək istəyən əsgərlər onun dümağ olmuş saçlarına baxıb donub qalmışdılar. Saçlarını o, özü sağalandan sonra gördü. Amma həmin gün iki şad xəbər eşitmişdi. Şuşa işğaldan azad olmuşdu. Artıq Şuşada da başqa işğal altından azad olunan şəhərlər kimi Azərbaycan bayrağı dalğalanırdı. Bir də Mədinə ona oğlu olacağını söyləmişdi. Çox sevinirdi. Ağ saçına təəccüblə baxıb cəbhəyə yola düşdüyü günü xatırlayırdı. "Vətən darda olsa saçım ağaranacan döyüşəcəm. " demişdi. Vətəni artıq azad idi. Bütün işğal olunmuş şəhərlərdə Azərbaycan bayraqları dalğalanırdı. Pəncərədən çölə baxıb pıçıltı ilə Qarabağ Azərbaycandır,- deyib təkrarlayırdı.

## ÜZÜK

Azad qatardan düşüb ətrafa boylandı. Hələ işiqlaşmamışdı. Havada duyulan zərif sazağı hiss edib, xəfifcə titrədi. Qatardan düşən yaşlı qadınla gənc qız bir göz qırpımında çəkilib uzaqlaşdılar. Haradansa səs- küy gəlirdi. Dava edənlər kişi olsalar da qadın səsləri aydın eşidilirdi. Kəndə getmək üçün maşın tapmalı idi. Davanın taksi üstündə olduğunu düşünüb kənd yoluna sarı getdi. Yolu uzaq deyildi. Kəndə piyada da getmək olardı. Bir azdan kənd yolunda idi. Hava açıldıqca payızın sazağı daha çox duyurdu. Uzaqdan şanapipiyin səsi gəlirdi. Bəzi məhlələrdən gələn it səsi sanki qaranlığı qovmaq üçün idi. Bu səsə xoruz banlaması, səyrişən toyuqlar, bir də tək- tək

çırpılan qapı səsləri qoşuldu. Azad bu gün, həmişəki kimi evə tələsmirdi. Daxilinə dolmuş hislərlə baş-başa qalmaq istəyirdi. Xəstəxanada gördüyü qız haqqında necə söz açacağını düşünürdü. Əslində anası durmadan qız tap,- deyib dururdu. Azad qızı tapmışdı. Tapmamışdı qız ürəyinə girib orada oturmuşdu. Bir an olsun oğlanın fikrindən çıxmaq istəmirdi. Oğlanin da onu yadından çıxarmaq məqsədi yox idi. Fikri yayınan kimi sanki kimin üçünsə darıxıb, yenidən xəyallarının yanına dönürdü. Bir ay bundan əvvəl hərbi hissədən göndərdikləri xəstəxanada gördüyü tibb bacısı o gündən qəlbinin qonağı olmuşdu. Zil qara saçlı qızın iri gözlərində sanki ulduzlar yanırdı. Məsum çöhrəsində həmişə xoş təbəssüm olurdu. Qızla tanış olandan sonra ona olan hissləri daha da artmışdı. Anasının bu xəbərdən sevinəcəyini düşünüb özözünə gülümsünürdü. Küçənin başına yaxınlaşdıqca hava daha da işıqlaşırdı, artq evləri seçilirdi. Məhlələrindən burula - burula göyə qalxan tüstünü görəndə ürəyi atlandı. Deməli anası oyanmışdı, üstəlik samovara da od salmışdı. Qadının oğlunun gəlişindən xəbəri yox idi. Sadəcə bu onun adəti idi. Yerindən duran kimi samovarı qaynadırdı. Azadın burnuna xoş köz qoxusu gəlirdi. Darvazaya çatıb qapını ehmalca itələdi. Qapının açıq olmağına təəccüb etmədi. Bilirdi ki, kənddə Musa kişinin, Mədinə arvadın qapısını bağlı görən olmayıb. Gecə hamıdan sonra qapıya kilid vurub, səhər o başdan qapını açardılar. Qapını açan kimi atası ilə üzbəüz gəldi. Kişi adəti üzrə heyvanları yemləyib gəlirdi. Oğlunu Mədinə kimi çıl-

ğınlıqla qarşılamasa da bərk- bərk qucaqladı. Amma qadının səsi məhləni başına götürdü. Yeməkdən sonra Azad ağzını açmağa macal tapmamış Mədinə başladı, nə başladı. Azad anasındakı halı bayaqdan hiss etmişdi. Qadının uçmağa qanadı yox idi, sevinə-sevinə deyirdi: Sənə bir qız tapmışam, dünya gözəli. Üstəlik danışıb həll etmişəm.

Azadın qulağı uğuldadı, özündən aşlı olmayaraq atasının üzünə baxdı. Kişinin sevincdən gözlərinin neçə parıldadığını görüb udqundu. İndi atası da ona qoşulmuşdu. Bir- birinə aman vermədən danışırdılar. Lakin o, heç nə eşitmirdi. Eşitsə də onu heç nə maraqlandırmırdı. Azad onsuz da iki günlük gəlmişdi. Bu günləri birtəhər başa vurub şəhərə qayıtdı. Oğlanı dərd bürümüşdü, atasıgilin sözündən neçə çıxacağını düşündükcə başı çatlayırdı. Çünki öz sevgisindən dönmək fikri yox idi. Əksinə Lətafətə günbəgün daha çox bağlanırdı. Nəinki bağlanmaq,onsuz dünyanı boş sayırdı. Tətillərdə kəndə gələndə bir -iki dəfə Lətafətdən söz açmağa cəhd etsə də faydası olmadı. Onu dinləmək istəyən yox idi. Mədinə böyük həvəslə nişana hazırlaşırdı. Odur ki, kənddən tam ümidsiz qayıdan Azad atasının ona təmir etdirmək üçün verdiyi üzüyü zərgərdən götürüb,Lətafətə bağışladı. Halbuki bu üzüyün anasına aid olduğunu, yaxşı bilirdi. Onu Musa əsgər olanda Dağıstanlı bir dostuna düzəltdirmişdi. Hətta üzüyün sirli bir açılışı var idi ki, orada Musa ilə Mədinənin adı yazılmışdı. Bu yazını qıza göstərib,atasının bu üzüyün nəsildən-nəslə keçməyini istəyini söylədi. Lətafət

Azada inansa da ürəyinə şübhələr dolmuşdu. Ümidlə toy, nişan gözlədiyi bir vaxtda, Azad öz istəyi ilə müharibəyə yollandı. Lətafət Azadı yolundan qaytara bilmədi. Çünki o, nəinki toy nişan gözləyirdi, həm də hamilə idi. Qızı dərd götürmüşdü. Hansı hissin altında yaşamağını özü də bilmirdi. Sevinc, kədər, qorxu bir -birinə qarışmışdı. Üzüyünə baxıb, sevinmək istəsə də, kəbinsiz hamıləliyi və Azadın müharibədə olmağı qızı dəhşətə gətirirdi. Düzdür oğlan vaxtaşırı zəng edib, qısa bir müddət ona sevinc yaşada bilirdi. O, onları xoş günlər gözlədiyini deyib, tezliklə qələbə müjdəsi ilə geri dönəcəyini, valideynlərinin hamilə gəlinlərini sevincə qarşılayacağını, Lətafətin valideynləri ilə toy- düyünlə barışıqlıq edəcəyini vəd edirdi. Nədənsə qızın ümidi telefon qapanana qədər davam edirdi. Azad susan sanki bütün arzuları sönən cıraq kimi sönürdü. Günlər ötürdü. Qələbə müjdəli xəbərlər bir - birini əvəz etdikcə, qızın da arzuları qanatlanmağa hazırlaşırdı ki, Azadın qara xəbəri gəldi. Xəbərdən ürəyi dayanmadığına inanmayan qız günlərlə özünə gələ bilmədi. Ölmək istəyirdi, lakin bətnindəki varlıq dünyadan xəbərsiz idi, çırpınmağa başlamışdı. Bu qəhrəman oğlanın döyüşdə göstərdiyi qəhrəmanlıq rəşadətləri dillərdə dastan olsa da, Lətafət üzə çıxıb onunla qürur duyduğunu deyə bilmədi. Amma hər nə olur olsun dünyalar qədər sevdiyi oğlanın körpəsini məhv etmək haqqında düşünmədi. Hər şeyi eşitməyə hazır idi. Hətta körpə oğlan olsa, Azadın adını əbədiləşdirmək qərarına gəldi. Lakin qızın fədakarlığı ona baha başa gəldi, gözlədiyindən də

çox çətinliklərlə qarşılaşmalı oldu. İlk əvvəl atası Azadın ona ailə üzüyü bağışlamağını, nələrsə vəd etdiyini, bir sözlə heç nəyi eşitmək istəmədi. Lətafət adlı bir qızının olmadığını söyləyib, onu evdən qovdu. Anası və bacıları atasının tərəfini saxladı. Qız məcbur olub özünə ev kirayələməli oldu. Heç qohum-qonşu da üzünə yaxşı baxmırdı. Təzə köçdüyü həyətdə, eləcə də işdə söz atıb, pis təklif edənlərin sayı artdı. Qız ürəyinə daş bağlayıb köksünün altındakı varlığın çırpıntılarına sığınmışdı. O bağlar günbəgün möhkəmlənirdi. Körpənin oğlan olduğunu öyrənəndən sonra güvəni daha da artdı. İndi Azadın doğrudan da ona həyan olacağına inanırdı. Ətraf mühitdən ayrılıb, öz aləminə qapılırdı.

Azadın dünyaya gəlişi Lətafətin çətinliyini artırsa da, qıza bir sakitlik də gətirdi. Ömrünü bu körpəyə həsr etməklə, Azadın yarıda qalmış arzularını yaşadacağı haqqında düşünüb təsəlli tapırdı. Körpə böyüdükcə Lətafətin qayğıları da artırdı. Ona çətin olsa da gecə növbəsində qalırdı. Bu zaman körpəyə qonşu baxmalı olurdu. Artıq iki gün idi evə gələ bilmirdi. Nuranı bir kişi, daha doğrusu yeganə oğlunu itirmiş şəhid atası ondan arvadına baxmağı xahiş etmişdi. Qadın əməliyyat olmuşdu. Kişi isə bütün varlığı ilə qadının sağalmağına çalışırdı. Bu səhər bir az özünə gələn qadın ilk dəfə maraqla Lətafətin üzünə baxıb, barmağındakı üzüyü soruşmuşdu. Qız həmin gün sualdan yayına bilsə də, ertəsi gün onu xəstəxananın həyətində gözləyən kişidən qaça bilmədi. Qızı görəndə səbirsizliklə barmağındakı üzüyü kimdən

aldığını soruşdu. Lətafət ayaq saxlayıb üzüyü barmağından çıxartdı. Sonra kədərli səslə dedi: Bunu mənə qayınatam göndərmişdi. Bu üzüyün ailə üzüyü kimi daim saxlanmasını istəmişdi. Göz bəbəyim kimi qoruyuram. Mən də atasının adını daşıyan Azadın nişanlısına bağışlayacam.

Kişi həyəcanlı halda üzüyü əlinə alıb, əlləri tirəyə-titrəyə nə isə demək istəyirdi. Lətafət üzüyü ondan təkrar alıb, altını çevirib acdı. Baxın, burada Azadın ata-anasının adı yazılıb,- dedi.

Kişinin başı gicəlləndi yıxılmamaq üçün özünü zorla ələ aldı. Səsi titrəyə- titrəyə Azdın oğlu var?- dedi.

O, bir tək" bəli" sözünü eşitdi. Qulağı batmışdı. Lətafət nə isə danışırdı. Kişi özünə gələndə qız çoxdan getmişdi. Bir təhər palataya qayıtdı. Mədinənin suallarına cavab vermək iqtidarında deyildi. Qadın durmadan üzüyü soruşurdu. Öz suallarına özü cavablar verirdi: Yəqin zərgərdə qalıb, o, da Azadın şəhid olduğunu eşidib üzüyü satıb.

İki gündən sonra səhər Lətafət işə getməyə hazırlaşırdı. Qapının zəngini eşidib təəccüb etdi. Qapını açıb Musa kişi ilə Mədinəni görüb lap təəccüb etdi. Onları içəri dəvət edib, sual dolu gözünü üzlərinə dikdi. Lakin onlar Lətafətin üzlərinə dikilmiş olan gözlərini görmürdülər. Çünki hər ikisinin gözü Azadın divardan asılmış şəklinə dikilmişdi. Yanaqları ilə yaş süzülürdü. Onlara maraqla baxan balaca Azadı görəndə isə donub yerlərində qaldılar. Mədinə aman Allah ,Azad yenidən dünyaya gə-

lib deyib, hönkürdü. Musa isə kiçik masanın üstünə düzülmüş olan, Azadın əşyalarını bir - bir əlinə alıb baxırdı. Ad günündə aldığı saatı burnuna tutub qoxulayandan sonra Azadı yerdən götürüb bağrına basdı. Qəribə olsa da körpə başını ömründə birinci dəfə gördüyü adamın çiyninə qoyub, ona sığınmışdı.

## XƏSTƏXANA ƏHVALATI

Sərvinazın illərdən bəri həyatı mənasız, maraqsız keçirdi. Beləki uşaqlıqdan bəri əmisi oğluna deyikli olduğunu eşidirdi. Lakin bunu sadəcə eşitmişdi. Çünki əmisi oğlu on beş yaşı olanda dünyasını dəyişmişdi. Adili zorla xatırlasa da atasının onun haqqında dediklərini hər gün eşidirdi. Kişi tam ciddiyətlə Adildən sonra qızını ərə verməyəçəyini deyirdi. Uşaq vaxtı bu sözlərə fikir verməyən qız, rəfiqələri ailə qurub, köçüb getdikcə narahat olmağa başladı. İllər ötəndən sonra qohum-qonşu narahat olub Sərvinazın ata, anasını danlamağa başladı. Qızı bədbəxt etmə, bir övladın var, qoy gedib oğul -uşaq sahibi olsun,- deyirdilər. Lakin bu sözlərin heç biri Süleyman kişi ilə Sənəmə təsir etmədi.

Aradan bir necə il də ötdü. Ətrafda Sərvinazla yaşıd kimsə qalmadı. Hamı çoxdan oğul- uşaq sahibi idi. Sərvinazın valideynlərinə yazığı gəldiyi üçün onların sözündən çıxa bilməsə də özü günbəgün geri gedirdi. Atasının dalbadal aldığı qızıl və qiymətli daş- qaşlara gözünün ucu ilə baxmırdı. Rəfiqələri ilə yaxınlıq etmirdi. Çünki

hər kəsin ev - eşik, uşaq qayğısı var idi. Qızındakı ruh düşkünlüyünü görən Süleymanla Sənəm çox peşman olsalar da artıq Sərvinaza elçi düşən kimsə yox idi. Ən pisi o idi ki, ağır xəstəlik keçirən Sərvinazın ana ola biləcəyi də şüphə altında idi.

Elə həmin ərəfədə qapılarını yenidən elçi döyəsi oldu. Doğrusu bu elçilərin gəlişi Süleymana pis təsir etmişdi. Oğlan həyat yoldaşını itirmiş, iki uşaq sahibi olan dul idi. Bir vaxtlar elçiləri qapıdan asanlıqla qovan kişi indi səsini çıxara bilmirdi. Əvvəla qızı daha heç kim istəmirdi. İkincisi bu ailə çox hörmətli,tanınmış, nüfuzlu ailə idi. Sərvinaz istəməsə də Süleyman qızını yalvar -yaxar edib, zorla yola gətirdi. Ananla mən bu gün varıq, sabah yox. Səni tək qoyub getmək istəmirəm. Çalış Qamətin uşaqlarına ana ol, -deyib qızının yalqız qala biləcəyini dönə- dönə vurğuladı. Göz yaşları ilə ailə quran Sərvinaz çəmi bir neçə aydan sonra Qamətin necə alicənab bir insan olduğunun şahidi olub, ona hörməti artdı. Qız uşaqlara da özünü sevdirib məhəbbət qazanmışdı. Ailənin istiliyinə yeni-yeni alışan Sərvinaz axır vaxtlar özünü pis his edirdi. Xəstə olduğu vaxtlar kimi yenə də ürəyi bulanıb, başı gicəllənirdi. Bu barədə Qamətə xəbər verməyə macal tapmamış onu iri şəhərlərdən birinə rəis təyin etdilər. O, uşaqlarla Sərvinazı götürüb yeni təyin olduğu şəhərə gəldi. Hələ düz əmməli yerləşməyə imkan tapmamış, Qamət onları təzə şəhərdə qoyub,ezamiyyətə getdi. İki gündən sonra Sərvinazın halı lap pisləşdi. Onun vəziyyətini görən uşaqlar qonşuya qaçıb təcili- yardım ça-

ğırdılar. Xəstəxanada elə ilk müəyinədən sonra hamilə olduğu aşkar edildi. Həkim, bu uşağı itirsən bir daha ana ola bilməyəcəksən -deyib, hərəkətsiz halda uzanıb dərmanlar qəbul etməyi təyin etdi. Sərvinazı böyük bir palataya keçirib,uzatdılar. O,qulağına inana bilmədiyi üçün sevinə də bilmirdi. Əslində sevincini bölmək üçün kimsə də yox idi. Anasıgil rayonda, Qamət isə ezamiyyətdə idi. Ən pisi o idi ki, artıq gün günortadan keçmişdi, amma Sərvinaza baş çəkməyə gələn yox idi. Onunla üzbəüz çarpayıda uzanan gəlin dil boğaza qoymurdu. Nahar vaxtı xəstəxananın verdiyi yeməyə əl uzatmayıb, ürəyim bulanır deyən qız indi acmışdı, mədəsi sıyrılırdı. Qəribə geyimli bu qadının sözləri demək olar ki, Sərvinazı dəhşətə gətirmişdi. O, guya pıçıltı ilə danışsa da, əslində bütün varlığı ilə sözlərinin eşidilməyinə can ataraq deyirdi:

-Belələrini yaxşı tanıyıram. Onun qarnındakı uşağının atası məlum deyil. Əgər məlum olsa idi,təcili yardımla xəstəxanaya gətirilən arvadından xəbər tutmaq üçün niyə gəlmir? Bəs ata-anası, ya da qohum əqrəbası haradadır? Yoxdurlar, çünki bu xanım heç kimə xəbər verə bilmir. Elə deyilsə, deyin görüm bu bəzəkli gəlinciyi niyə axtaran yoxdur?

Eşitdiyi sözlərdən tükləri biz- biz duran qız yerindən qalxmaq istəsə də bacarmadı. Çünki doğrudan da başı gicəllənirdi. Onsuz da bərk döyünən ürəyi daha da çırpınırdı. Başını qırmızı yaylıqla bağlamış, nimdaş paltarlı qadının sözlərində haqq tapanlar olsa da, onu sus-

durmağa cəhd edənlər də oldu. Yaşca hamıdan böyük olduğu məlum olan yaraşıqlı qadın "Susun",- dedi. Biİmədiyiniz sözü danışmayın, görmürsünüz elə adama oxşamır.

Bu dəfə adına Xırda deyilən qırmızı yaylıqlı qadın, nimdaş daha doğrusu cırıq- sökük başmaqlarını ayağına taxıb, çarpayıdan durdu. Yenə də guya pıçıltı ilə dedi:

-Balalarımın canına and olsun düz deyirəm. O, bura gələndə mən gördüm, bilirsiniz necə geyinmişdi? Vallah baxanda adamın gözü qamaşırdı. Sonra qızın çarpayısının qarşısındakı bahalı başmaqları işarə ilə göstərib sözünə davam etdi. Mən niyə belə geyinə bilmirəm? Çünki düz yolun yolçusuyam. Amma mən də varlanacam. Bizim şəhərə təzə rəis gəlib. Bir necə gün bundan əvvəl idarəyə gələndə yoldaşmı görüb, tanıyıb. Sən demə bir sinifdə oxuyublar. Ona kömək edəcəyini deyib. Xırda təzə rəisin vasitəsi ilə varlanacağından danışdıqca danışıb, coşduqca coşurdu.

Artıq toran düşməyə başlamışdı. Hər kəs şam etməyə hazırlaşırdı. Tibb bacısı Sərvinazın iynələrini vurub mütləq yemək yeməyi tövsiyə edib, getdi. Qızlar xəstəxana yeməyindən əlavə boşqaba nələrsə yığıb gətirdi. Onlardan biri Sərvinazın qoluna toxunub israrla dedi:

- Bacım, qalx bir qismət yemək ye,belə olmaz. Sərvinaz yerindən qalxmağına qalxdı,amma yeməyə əlini də vurmadı. Əl- üzünə su vurmaq üçün hamama keçdi. Artıq doğrudan da yemək istəmirdi. Qamətin burada olmadığını bildiyi halda ondan acığı gəlirdi. Hamamdan çıxan

kimi Xırda zabitəli bir səslə,- gəl mənim qablarımı apar yaxala,- dedi. Sərvinaz bunu niyə etdiyini başa düşməsə də qabları yuyub gətirdi. İndi tək bir şey düşünürdü. Nə olur olsun sabah ertə hamı yuxuda ikən xəstəxananı tərk etmək haqqında fikirləşirdi. Nə isə deyib, kimləri isə inandırmağa həvəsi yox idi. Daha doğrusu Xırdanın çıxışından sonra kimsənin ona inanmayaçağını düşünürdü.Yerinə uzanıb səhərin acılmasını gözlədi. Amma nədənsə yatıb qalmışdı. Yuxudan yenə də Xırdanın zəhlətökən səsinə oyandı. O, pəncərənin qarşısında dayanıb deyirdi:

-Qızlar, bir baxın,bizim təzə rəisimiz bax bu oğlandır. Görürsünüz necə şəxsiyyətli adamdır. Deyilənə görə arvadlı da çox gözəl cüvanəzəndir. Yəqin onun xanımı da buradadır. Baxın, pəncərələrə boylanır.

Qızlardan bir ikisi ona yaxınlaşdı. Yalnız getmək haqqında düşünən Sərvinaz onların nə dediyini eşitmirdi. Qızlar isə durmadan müzakirə edirdilər. Kimi rəisin çox yaraşıqlı olduğunu, deyir, kimi yanındakı yaşlı qadının əlindəki xonçaya bənzər bağlamadan söz edirdi. Az sonra içəriyə iynə vurmağa gələn tibb bacısı maraqla dedi: --Xəstələrdən birinin anası, yeganə qızının hamilə olduğunu öyrənib bütün palatalara şirni,alça, çiyələk paylayırdı. Mən də gedib payımı götürdüm, ona görə gecikmişəm, üzrlü hesab edin.

Xırda yenə əl ayağa düşüb dedi:

-Bəs bura niyə gəlmir, bəxtəvər?

Tibb bacısı gələr, - deyib, otaqdan çıxdı.

O, çıxan kimi içəriyə baş həkim girib sual verdi:

Qadirli Sərvinaz kimdir?

Sərvinaz tənbəl - tənbəl qalxıb yerində oturub mənəm,- dedi.

Baş həkim bir addım da irəli gəlib dedi:

-Bəs niyə mənə Qamət Qədirlini həyat yoldaşı olduğunuzu deməmisininz? Ananız gəlib, qadının sevincinin həddi yoxdur.

Sərvinaz baş həkimə cavab verməyə macal tapmamış, qulağı anasının səsin aldı. Sevincdən ağlayan qadın içəri keçib, özünü qızının üstünə atdı, əlində tutduğu səbətin içərisindəkiləri payladı. Sonra böyük bir bağlamanı Sərvinazın yanındakı dolabın üzərinə qoyub dedi:

-Uşaqlar həm mənə, həm də Qamətə xəbər verdilər. İkimiz də elə indi çatmışıq. Ürəyimi yemişdim. Yaxşı ki, Qamət xəstəxanaya çatmamış zəng vurub hər şeyi öyrəndi.

Yenə də ən çox danışan, təbrik edib, dua yağdıran və Sərvinaza etdiyi qulluqdan danışan Xırda idi. O, danışır tez- tez Sərvinazın üzünə baxırdı. Sərvinaz isə həkimin təkidinə əhəmiyyət vermədən xəstəxanadan çıxacağını söylədi. O, anasının gətirdiyi o biri bağlamanı da Xırdanın dolabının üzərinə qoyub evdə müalicə alaram,- deyib,palatanı tərk etdi.

Evdə Sərvinazı uşaqlar məhəbbətlə qarşıladı. Atasının sözlərini xatırlayırdı "Səni yalqız qoyub getmək istəmirəm". O, artıq tək deyildi. Üç övlad sahibi idi.

## RƏFİQƏLƏR

Zabitə xanımın həmişəki kimi kefi yuxarı idi. Saunadan çıxıb qadın salonuna getdi. Sacına, üz - gözünə yaxşıca əl gəzdirib,özündən razı halda evə döndü. Qulluqçu qadına bir necə tapşırıq verib divanda uzandı. Gözünə yuxu gedib mürgüləmək istəyirdi ki, qızı Narınc qəribə bir hikkə ilə qapını çırpıb içəri keçdi. Qızının xüsusiyyətinə yaxşı bələd olan qadın ilk baxışdan onun əsəbi olduğunu hiss edib, divandan qalxıb oturdu. Bir -iki mənasız sual versə də qız ona cavab vermədi. Sanki qaynamağa hazırlaşan çaydan idi. Yerində dayana bilməyib, durmadan ayağını silkələyirdi. Birdən əsəbi səslə dedi:

- Ana, Müzamil müəllimin oğlu Nicat bilirsən kimə elçi göndərir?

Zabitə xanımın ürəyi titrədi. Xırıltılı səslə dedi:

- Kimə?

- Narınc yerindən dik qalxıb, dəli kimi qışqıra-qışqıra dedi:

- Qönçəyə.

Xəbər Zabitə xanıma güllə kimi dəydi.

Qızı universitetə qəbul olan gündən Qönçə və Nicatla dostluq edirdi. Elə ilk gündən Zabitə xanım gözünü Nicata dikmişdi. Oğlanın yüksək vəzifəli atasının nüfuzu, şan - şöhrəti, qadını cəlb etmişdi. Üstəlik Nicatın ağlı, yaraşığı, mindiyi bahalı maşınlar Narıncın ağlını başından alırdı. Buna tez-tez nail ola bilməsələr də vaxt aşırı oğlanı qonaq çağırıb, qulluğunda dururdular. Hər onun

gəlişindən sonra Zabitə xanım əminliklə bu oğlan mənim kürəkənim olacaq,- deyirdi. Nicatın Qönçəyə elçi göndərəcəyi heç birinin ağlına gəlməmişdi. Son dəblə geyinib, şuxluğu ilə universitetdə ad salan Narıncdan fərqli olaraq Qönçə sadə geyimli, sakit, demək olar ki,dilsiz, ağızsız qız idi. Əslində Narınc qrupda heç kimlə yola getmirdi. Qönçə yeganə qız idi ki, onunla rəfiqəlik edirdi. Amma onu özünə heç vaxt rəqib görməmişdi. Zabitə xanım eşitdiyi xəbərdən bir həftə özünə gələ bilmədi. Üstəlik Qönçənin anası onu elçilikdə iştirak etməyə dəvət etmişdi. Dəvəti eşidən gündən gözünə yuxu getməyən qadın,nə olur olsun bu izdivacı pozmaq qərarına gəldi. Açıqlama verməsə də, buna qızını da inandırdı. Elçiliyə bahalı hədiyyə alıb getdi. Nicatın anası Məryəm xanımın kübar görkəmi, bahalı geyimi, üzərindəki qiymətli daş-qaş Zabitə xanım dəli etsə də bacarınca özünü şən aparmağa çalışırdı. Arada bir Nazilə xanımın açdığı çox gözəl süfrəyə irad tutmaqla diqqət toplamağa cəhd edirdi. Lakin Zabitə xanım istəsə də, istəməsə də mərasim çox gözəl keçdi. Müzamil müəllim də,Məryəm xanım da oğlanlarının seçimindən çox razı qaldıqlarını bildirib, Nicatın nənəsindən qalma qədim, qiymətli üzüyü Qönçənin barmağına keçirib getdilər.

Elçilikdən evinə az qala xəstə dönən Zabitə xanım günlərlə özünə gələ bilməyib, carə axtarırdı. Nəhayət yay tətili gəlib çatdı. Narıncdan eşitdiyi xəbər azacıq da olsa qadının ürəyində bir ümid çırağı yandırdı. Qönçənin atası heç vəcdlə bu il toy olmağına razılıq verməmişdi. Zabi-

tə günlərlə çalışıb, əlləşib toyun gecikmə səbəbini öyrənə bildi. Nazilə ürək yanğısı ilə bütün banklara borclu olduqlarını,toy etmək üçün heç bir imkanları olmadığını, hətta Qönçənin olub- qalan cehizini də satdıqlarını söylədi. Özünü ürəyi yanırmış kimi göstərən Zabitə ətrafa göz gəzdirdi. Əslində vaxtı ilə çox imkanlı olan Nazilənin ev-eşiyində elə də kasıblıq duyulmurdu. Hər halda dünyada hər şeyin mənasını yalnız pulda görən Zabitə üçün bu xəbər çox sevindirici xəbər idi. İndi o, bu izdivacı daha asanlıqla poza biləcəyinə əmin idi. Odur ki, planını həyata keçirmək üçün müxtəlif yollar axtarırdı.

Bir səhər Zabitə xanım məqsəd yönümlü Gürcüstana yola düşdü. Nicatgil Gürcüstanlı idilər. Yay fəslinin orada keçirirdilər. Tiflisə çatıb ilk əvvəl bazar- dükanı gəzdi. Narınc üçün kobalt servis və digər bahalı qablar aldı. Sonda sürücüyə gəzməyə icazə verib, Narıncı Nicata zəng etməyə məcbur etdi. Qız zəng edib Tiflisdə olduğunu söylədi. Aradan yarım saat keçməmiş, Nicat gəlib onları evlərinə apardı. Məryəm xanımın onları gülər üzlə qarşılamağı Zabitənin gözünə darı qədər görünmədi. Onu maraqlandıran burada gördüyü cahicəlal idi. Son dəbdə tikilmiş üçmərtəbəli ev əsl saray idi. Həyətdəki gül- çiçək, bahalı oturacaqlar, yelləncək, heyvan fiqurları Zabitə xanım üçün təəccüblü və gözlənilməz bir şey deyildi. Sadəcə bütün bunların onun qızına deyil, başqasına nəsib olacağını qəbul edə bilmirdi. Məryəm xanım öz qonaqpərvərliyini göstərdiyi müddətdə Zabitə xanım ilk əvvəl Narınca aldığı cehizdən söz açıb, qiymətləri birə

beş şişirdərək doyunca danışdı. Bu missiyasını yerinə yetirəndən sonra keçdi əsas mətləbə. Hələlik tam aydın olmasa da Qönçəyə aid bir necə söz ilə Məryəm xanımın ürəyini silkələdiyinə əmin oldu. Nəhayət tapmaca oynamağı buraxıb, Nicatın toyunun niyə belə keçikdiyini xəbər aldı. Bayaqkı eyhamlardan ürəyi titrəyən qadın çiynini çəkib, bizlik deyil, Qönçənin atası razıəslıq vermədi.Əsində biz günü sabah yeganə övladımızın toyunu edərdik,- dedi. Bu sözdən daha da hallanan Zabitə xanım bir az da qızışdı. Üzünə qəribə bir ifadə verib, dedi:

- Məryəm xanım, sizə çox hörmətim var, Nicatı balam kimi sevidiyim üçün, bu xəbəri sizə verməyi özümə borc bilirəm.

Eşidəcəyi xəbərdən başının tükləri biz- biz olan Məryəm xanımın ürəyi uçunmağa başladı. Halbuki o, Nicatın nişanlısını gözəl, zərif, ağıllı Qönçəni çox bəyənirdi. Hədsiz ürəyinə yatan qızı öz balası kimi sevirdi. Məryəmin düşdüyü vəziyyət gözündən yayınmayan Zabitə hədəfə toxunduğuna əmin olub sözünə davam etdi:

Bəli, əzizim siz onların tezliklə toy edə biləcəyini gözləməyin. Bütün banklara, qohum - qonşuya, necə deyərlər itə də borcları var. Bugün- sabah bank evlərini əllərindən alıb, onları küçəyə atacaq.

Kətan kimi ağarmış Məryəm xanım Zabitənin uzun -uzadı nitqinə cavab verməsə də halı özündə deyildi. Lakin o, dillənməsə də Zabitə istədiyinə tam əmin olub, bilib- bilmədiyi bir necə söz də söylədi.

O, Bakıya sevinə- sevinə qayıtdı. Özündən çox razı idi. İndi ana – bala oturub səbirsizliklə Qönçənin nişanının qayıdacağı günü gözləyirdilər. Nədənsə zəng edib soruşmağa ürək etmirdilər.

Yay fəsli sona çatırdı. Dərslərin açılmağına sanlı günlər qalmışdı. Narınc Qönçəni görmək üçün səbirsizlənirdi. Anası ilə gündə bir necə dəfə onun düşdüyü halı təsəvvür edib, xoşhal olurdular. Bu kefli günlərin birində, Qönçə zəng edib onları toyuna dəvət etdi. Narınc sual verməyə macal tapmamış dedi;

-Müzamil əmi atamın bütün borclarını bağladı. Cehiz,filan lazım deyil,- deyib toyumuzu bir yerdə etməyi təklif etdi.

Qönçə nələrsə danışırdı. Narıncın qulağı batmışdı, artıq heç nə eşitmirdi. Maraqla ona baxıb "xoş xəbər" gözləyən anasına isə nifrətlə baxırdı.

## BÖHTAN

Damla iki saata yaxın idi ki, üzü üstə uzanıb yerindən qalxa bilmirdi. Dünən qarşılaşdığı hadisə onu dəhşətə gətirmişdi. Halbuki dünən yuxudan oyananda çox xoşbəxt idi. Əslində Damla həyatından razı idi. İndi bu sıxıntının arasında nədənsə Cahidin onu sevdiyini anladığı ilk günləri xatırlayırdı. Oğlanla yaxın qonşu idilər. Uşaqlıqları bir yerdə keçmişdi. Lakin bir gün Cahidin ondan gözünü ayırmadığını hiss edib qəribə hallar keçirməyə başlamışdı. Cəmi bir həftənin içində hisslərində yanıl-

madığına tam əmin oldu. Çünki Cahid gizlicə onu izləyirdi. Bu izləmə qıza xoş gəlirdi. Onu görməyəndə özü də darıxırdı.  Cahid onu darıxmağa qoymurdu. Hər nə olur olsun özünü qıza çatdırırdı. Tezliklə bu gizli sevgi oyunu hər kəsə aydın oldu. Nə Damlanın, nə də Cahidin valideynləri bu sevgiyə etiraz etmədi. Əksinə hər iki tərəf bu xəbəri böyük sevinclə qarşıladı. Təntənəli nişan edib, universiteti bitirmələrini gözlədilər. Xoşbəxt, mənalı nişanlı həyatı sürüb, təhsillərini başa vuran kimi ailə qurdular. . İki ilə yaxın idi ki, ər evində firavan bir həyat yaşayırdı. Burada hər kəs onu əzizləyirdi. Dörd ay budan əvvəl Damlanın ana olacağını biləndən sonra onu daha çox qoruyub, qayğı göstərdilər. Qız özünü bu evdə nəinki xoşbəxt,ərkəsöyün bir uşaq kimi zənn edirdi. Lakin dünən dünyası dağılmışdı. Əslində dünən ömrünün ən xoşbəxt günü idi. Belə ki, bətnindəki körpə zərif çırpıntıları ilə öz varlığını göstərmişdi.

İsti yay günləri bitib,qızılı payız özünü göstərməyə başlamışdı. Damla yerindən durandan həyətdə oturub fikrə getmişdi. Bətnindəki varlığın çırpıntıları qızın hisslərini elə tarıma çəkmişdi ki,hər şey gözündə gözəl görünürdü. İsti havanın içərisində azacıq duyulan sərinlik, havaların soyumağa başlamağından sanki təşvişə düşüb civildəşən quşların səsi, qızılı don geyinən ağaclar, səmadakı topa- topa buludlar hər şey qıza qəribə təsir bağışlayırdı. Yerə tökülmüş sarı yarpaqların arasından baş qaldırmış bənövşəyi çiçəyə də məhəbbətlə baxırdı. Birdən qapının zərblə açıldığını duyub diksindi. Gələn Cahidin

qonşu rayonda yaşayan xalası idi. Qız bu hay- küylü qadını çox sevirdi. Yerindən dik atılıb qadını qarşıladı, elə ilk anda Zivər xanımın kefsiz olduğunu hiss etdi. Hətta deyəsən qadın ağlamışdı. Qadına kömək edib, çantalarını evə gətirdi. O, içəri keçən kimi ağlamağa başladı. Onlar ermənilərlə sərhəd rayonda yaşayırdılar. Qadının dediyinə görə erməni quldurları gecədən bəri rayonu iri çaplı silahlarla atəşə tutublar. Rayondan,kəndlərdən ölən və yaralananlar var imiş. Səhərə yaxın atılan raketlərdən biri onların evinin bir tərəfini darmadağın edib. Evin uçmayan tərəfindəki mebel,xalça, yorğan - döşək və digər avadanlıqları zorla çıxardıb Bakıdakı evinə göndərmişdi. Oğlanları maşını yükləyib Bakıya yola düşsələr də Zivər xanım özünü pis hiss etdiyi üçün bacısının evinə gəlmişdi.Bura ermənilərlə sərhəd olmadığı üçün sakitlik idi. Damla qaynanası gələnə qədər qadına əlindən gələn qayğını göstərdi. Hamama ötürüb, yuyunmağına yardımçı oldu, təzə çay dəmləyib, yemək qızdırdı. Bir azdan hər kəs evə dönüb dəhşətlə erməni faşistlərinin törətdikləri vəhşiliklərin nələrə səbəb olduğuna qulaq asırdılar. Doğrudan adamın damarında qan donurdu. Amma Damlanın başının tüklərini ayağa qaldıran Zivər xanımın ona verdiyi sual oldu. Axşam tərəfi bir az sakitləşmiş qadın birdən- birə üzünü Damlaya tutub qızıllarım haradadır?- deyə təşvişlə soruşdu. Əvvəl onun nə demək istədiyini anlamayan qız dayanıb key - key qadına baxırdı. Lakin onun nə demək istədiyini başa düşəndə əti ürpəşdi. Bu ittihamı özünə yaraşdırmadığı üçün susub dayandı. Onun

susduğunu görən qadın daha da coşdu. Ağzına gələni yağdırıb deyirdi:

Kaş bura dönməyəydim. Mən də uşaqlarla Bakıya gedərdim. Siz ermənilərdən beşbetərsiniz, illərdən bəri yığıb aldığım qızılları bir anın içərisində yox edib,məni müflis etdiniz. O, danışıb, ağlayıb qızılları qaytar,- deyib dururdu. Sonda tam qətiyyətlə qızılların əl çantasında olduğunu və çantanı Damlaya verdiyini söyləyib, bacısına və Cahidə müraciət edib, Damladan onun qızıllarını almağı tələb etdi. Qızın gözləri hədəqəsindən çıxmışdı, bütün vücudu əsirdi. Nə isə demək istəsə də, nəfəsi tıxanıb qalmışdı. Hər kəs susurdu,çünki məəttəl qalmışdılar. Zivər xanım qızın otağına keçib hər yeri atıq – atıq etməyə başladı. Damlanı yandıran Güllərin də bacısına qoşulub otağı axtarmağı oldu. O, ümidlə Cahidin və qayınatasının üzünə baxsa da orada kimsəni tapmadı. Hər ikisi buz heykələ dönmüşdür. Axtarışdan bir şey tapmayan qadın, tam əminliklə, anasına verdi, - dedi. Doğrudan da Damlanın anası Zivər xanımın gəldiyini görüb, beş - on dəqiqəlik onlara keçib hal -əhval tutub geri dönmüşdü. Qız dillənmədikcə təkcə Zivər deyil ,evdəkilər də əsəbləşirdi. Gecənin yarısınadək davam edən davanın ən pis yeri Cahidin Damlaya etdiyi təklif oldu. O, anandan xalamın qızıllarını al gətir. Mən bacarınca həyətdən tapdığımı sübut etməyə çalışacam, dedi. Bütün dava boyu Damla birinci dəfə səsi əsə- əsə mən qızıl zad görməmişəm,- dedi. Cahid qızın üzünə baxıb, yataqdan yastığını götürüb yan otağa keçdi.

Gecəni səhərə qədər Damlanın gözünə yuxu getmədi. Ona verilən sualdan, özünün çavabından, üzünə dikilən baxışlardan iyrənirdi. Sabah açılan kimi qalxıb evlərinə getdi. Utandığından orada nə baş verdiyini dilinə gətirə bilmədi. Evdəkilər təəccüb etsələr də çox da narahat olmadılar. Günortaya yaxın Zivər xanımın hikkəli gəlişi hər kəsi dəhşətə gətirdi. Ata – anasının düşdüyü vəziyyəti görüb, Damla nəhayət otaqdan çıxdı. And- aman edib qızıl filan görmədiyini söylədi.

Bununla iki ailənin arasına nifaq düşdü. İllərdən bəri bir- birini bacıdan artıq sevən qonşuların arasından pərdə götürüldü Dava günlərlə davam etdi.

Zivər evinə dönsə də Cahidgilin ailəsindən gəlib, Damlanın halını soran olmadı. Qız köksünün altında çırpıntısını duyduğu gündən savayı, varlığına bir gün də olsun sevinmədiyi körpəsini dünyaya gətirdi. Oğlu dünyaya gələndən sonra Cahidgil barışmağa cəhd etsələr də Damla yaxın qoymadı. Hamıdan çox Cahiddən küsmüşdü, onu görmək istəmirdi. Düzdür bu günlədə eşitdiyi xəbərə sevindiyi qədər də məyus olmuşdu. Deyilənə görə Gülər ilə Zivər möhkəm dava ediblərmiş. Gülər Zivərin yaxın günlərdə iştirak etdiyi toyların birində çəkdirdiyi şəkildə bütün qızılların istündə olduğunu görüb mat qalıbmış. Zəng edib soruşanda Zivər qızılları Bakıya göndərdiyi paltarların arasından tapdığını, dava saldığı üçün utandığından xəbər vermədiyini söyləmişdi. Həmin günlər Cahidin işdən çıxıb Rusiyaya getdiyini eşidib təəccüb etdi. Çünki o, vətəni tərk etməyi sevmirdi. Həmişə başqa

yerdə varlı olmaqdansa öz vətənimdə kasıb olmaq yaxşıdır, - deyən oğlan Damlanın onu bağışlamaya eşidib,Azərbaycanı tərk etmişdi.

Cahidin çıxıb getməyinə bais olan bu hadisə Gülləri yandırırdı. Oğlunun geri dönməsinə çalışırdı. Şəkli qonum - qonşuya göstərib, bacım oğlumun gül kimi ailəsini dağıtdı. Balamı çöllərə saldı desə də Damlanın atası onlardan bir adamı evinin kandarından içəri buraxmadı. Bilərəkdən Ramal adlandırdığı nəvəsini də küçəyə çıxmağa qoymurdu.

Aradan illər ötdü. Ramal birinci sinfə getməyə hazırlaşırdı. Yenə də bol meyvəli, toylu- büsatlı payız qapını kəsdirmişdi. Damla nədənsə payızın gözəlliyinə məftun olduğu həmin günü xatırlayıb qüssələnmişdi. Atası siqnal verib onu səsləməsə bəlkə də ağlayacaqdı. Tökülməyə hazır olan göz yaşlarını gizlədib maşına oturdu. Məktəbdə bacarınca özünü şən aparmağa çalışdı. . Evdə də rahatlıq tapa bilmirdi. Hislərinin bu gün belə tarıma çəkilməyinə təəccüb edə - edə oğlunu məktəbdən götürməyə hazırlaşırdı. . Qapıdan çıxanda ilk rastlaşdığı Cahidlə oğlu oldu. Donub qalmışdı, lakin Ramalın, ana mən atamı tapmışam,- deyə bağırmasını uzun müddət unuda bilmədi. Ramal ona tərəf bir – iki addım atıb, geri döndü. Özünü çılğınlıqla Cahidin qucağına atdı. Atasının boynuna bərk - bərk sarılıb, sanki kiminsə onları ayıracağından qorxurdu. Bu mənzərəni tək Damla deyil, Cahidin anası da göz yaşları ilə seyr edirdi. Həmin gündən sonra Ramalı heç vəcdlə atasından ayıra bilmədilər. Uşağın gözü

qapıda qalmışdı. Həsrətlə dərsə getməyini gözləyirdi. Cahid də Damla ilə əlaqə yaratmaq üçün çarə tapmışdı. Çünki qız onun zənglərinə cavab vermirdi. Amma hər gün oğlundan Damlaya bir məktub yazıb, nələr çəkdiyini, onsuz yaşamağın işgəncə olmağını və daha nələr yazırdı. Damlanın atası onu yaxına buraxmasa da, Ramalı onlardan gətirmək mümkün olmadı. O, ağlayıb anasınnı da gəlməyini tələb edirdi.

Cahid Ramalın ağlayıb anasının gəlməyini tələb etdiyi günlərin birində oğlunun əlindən tutub Damlagilə keçdi. Dönə- dönə üzr istəyib, bağışlanmağını istədi. Damlanın evinə geri dönməsinə ata -anası çox sevinsə də oğlanın uçmağa qanadı yox idi. Böhtanın qurbanı olan illərini düşündükcə ona elə gəlirdi ki, yeddi il həbs cəzası çəkib, amma Damlaya daha çox yazığı gəlib xəcalət çəkirdi.

## UŞAQ HEKAYƏLƏRİ
## TURALIN KOPƏYİ

Tural dostunun köpəyini görən gündən özünə yer tapa bilmirdi. Dərdə düşmüşdü.

Mütləq Ruslanın köpəyi kimi bir köpəyə sahib olmaq istəyirdi. Ona elə gəlirdi ki, Ruslanın yaxın dostu, köməkçisi var. Özünü yalqız hiss edirdi. Gözünün önünə Ruslanın Ceka adlandırdığı itlə gəzməyi gəlirdi. Onda həmişə özündən razı bir görkəm olurdu. Həm də Ceka oğlanın tapşırıqlarını yerinə yetirirdi. Hətta uzağa atdığı

topu tapıb gətirirdi. Özündən xəyallar qurur, itinə nələr öyrədəçəyi haqqında düşünürdü. Lakin bütün xəyalları puça getdi. Çünki evdə it almaq istədiyini söyləyəndə valideynləri bir ağızdan etiraz etdilər. Nəinki etiraz etdilər qadağa qoydular. Atası sənə itlə oynamaq lazım deyil, get dərsini oxu, - dedi. Anası isə ümumiyyətlə əsəbləşdi. Sonra da dayanmadan köpəyin onlara verə biləcəyi ziyanlardan söz açdı. Tural məyus olsa da köpək istəmək arzusundan vaz keçə bilmədi. Əksinə bu istək günbəgün artırdı. Dəfələrlə it istədiyini evdə təkrarladı. Axırıncı dəfə anası bir də bu sözü ağzına alsa cazəlanaçağını bildirdi. Günlər ötürdü. Tural həsrətdən qovrulurdu. Bir soyuq qış axşamı Tural küçədə təsadüfən bir İtə rast oldu. Gözlərinə inanmadı. İt çox baxımlı idi. Deyəsən haradansa azıb gəlmişdi. Çünki görkəmindən sahibsiz itə oxşamırdı. O, qorxmadan özünü köpəyin üstünə atdı. İt də ona şırvanıb sığındı. İtin bu hərəkəti Turalı dəli etdi. Oğlan həyəcanla küçənin başına tərəf boylanmağa başladı, kimsə gözə dəymirdi. O, daha da həyəcanlandı. Nə edəçəyini bilmirdi. İti küçədə buraxmaq fikri yox idi. Evə də aparmağa qorxurdu. Düşündükcə anasının acıqlı sifəti gözünün önündə canlanırdı. Tural tələsirdi. İndicə iti kiminsə görüb onun əlindən alacağından qorxurdu. Bu his onu dəhşətə gətirdiyi üçün heç nəyə baxmadan iti öz darvazalarına sarı apardı, sonra başını darvazadan içəri salıb həyətə boylandı. Hava soyuq olduğu üçün həyətdə kimsə yox idi. Amma atasının işdən gələn vaxtı idi. O, indilərdə darvazanı açmalı idi. Bunu düşünən Tural əl -ayağa

düşdü. Köpəyi harada gizlətmək haqında düşündü. Toyuq hininə yaxın getmək istəmirdi. Çünki toyuqlar köpəyi görən kimi səs küy cıxaraçaqdılar.Köməkçi dam evə çox yaxın idi. Əvvəla evdən kimsə dama gələ bilərdi. İkincisi isə it özü səs sala bilərdi. Turala gün kimi aydın idi ki, səsini duyan kimi anasıgil qapını açıb onu qovaçaqdılar. Düşüncələr içində olan Tural atasının maşının səsini eşidib tez iti evin arxasına keçirib atasını qarşılamağa getdi. Tez - tez arxaya baxırdı çünki, itin dalınca gəlməyindən qorxurdu. O,atasını qarşılayıb darvazanı bağladı, atası ona fikir vermədən pilləkənlərlə yuxarı qalxdı. Tural indi də köpəyə yemək vermək haqqında düşünürdü. Amma bir az gözləməli idi. Çünki atası yeməyini mətbəxdə yeyirdi. Oğlanın hövsələsi daralırdı. Ona elə gəlirdi ki, bir an öncə köpəyə yemək çatdırmasa it ya acından öləcək, ya da ki, səs küyü həyəti başına götürəcək. Amma onun darıxmağına səbəb yox idi. Çünki həyətdən səs -soraq gəlmirdi. Atası əllərini yuyub mətbəxə gələnə qədər anası masanı yeməklə doldurdu. Başqa vaxt olsa dəfələrlə yeməyə səsləsələr də gəlib çıxmayan Tural indi hamıdan əvvəl masa arxasına keçib ana, acından ölürəm,- dedi. Həvəslə yeməyə girişib, tikələri masanın altına qoyduğu kağız torbanın içinə yığdı. Atası ilə anası söhbət edirdi, onun hərəkətlərinə fikir verən yox idi. O, boşqabı boşaldıb yenə də yemək istədi. Atası otaqdan çıxan kimi kağız torbanı götürüb evin arxasına qaçdı. Köpək həmin yerdə sakitcə uzanmışdı. Tural ətləri itin qabağına atıb evə qaçdı. Və elə həmin andan başlayaraq

soyuducudan əlinə keçəni daşıyıb iti yedizdirdi. Bu hal bir neçə gün davam etdi. Oğlan dərsə gedəndə fikri evdə qalırdı. Anasının köpəyi görə biləçəyindən çox qorxurdu. Daha bir necə gün də ötdü. Havalar get gedə soyuyurdu. Sulu qar yağmağa başlamışdı. Soyuq hava Turalı narahat edirdi. İtin üşüməyindən qorxurdu. Odur ki, bir necə gün idi ki, köpəyi evin dalından gətirib anasının qapının ağzına saldığı kiçik xalçanı götürüb qapının önündə itin altına salırdı. Burada həm də itin başına qar yağmırdı. Səhər isə anasıgildən əvvəl oyanıb onu yenidən evin arxasına keçirirdi. Və belə qış günlərinin birində Tural görə dəhşətli bir hadisə baş verdi. Belə ki, bu günə kimi özünü sakit aparan köpək bu gecə əsil dəlilik etdi. O, axşamdan Turalın yadından çıxıb açıq qoyduğu qapını açıb içəri keçdi. Və indiyə qədər səsini çıxarmayan köpək evin ortasında dəhşətli bir səslə hürməyə başladı. Nəinki hürmək qorxunc bir səslə ulayırdı. Evdə hamı oyanmışdı. Bununla da kifayətlənməyib Turalın beşikdə yatan körpə bacısını dişinə alıb həyətə qaçdı. Evdə dəhşətli qışqırıq qopmuşdu. Hamı körpənin arxasınca çölə qaçdı. Köpək isə dayanmadan var qüvvəsi ilə uzağa qaçmağai çalışırdı. Evdən xeyli aralıda körpəni yerə qoyub yenidən həmin qorxunc səslə ulamağa başladı. Tural dəhşətə gəlmişdi. Köpəyi onun gətirdiyini mütləq başa düşəcəkdilər. Çünki qapının önünə salınmış xalça heç kimin gözündən yayınmadı. Anası körpəyə çatıb onu yerdən qaldırdı. Qızcığazın ağzından köpük gəlirdi. Onun rəngi gömgöy olmuşdu. Qadın körpəyə baxıb qışqırıb çırpınırdı. İt qapıya tə-

rəf qaçıb dırnaqları ilə yeri cırırdı. Tural təəccüblə atasının üzünə baxırdı. Sanki köpək nə isə demək istəyirdi. Elə həmin an Turalın atası nə isə bir qoxu hiss edib: ay aman evə qaz dolur deyə qışqırmağa başladı. O, beli götürüb bir-iki pəncərəni sındırdı. Sonra çöldən evə gedən qazı bağladı. Bundan sonra təcili yardım çağırdı. Çünki hamının ürəyi bulanırdı, körpə isə ayılmırdı. Tural hələ də nə baş verdiyini anlamırdı.

Ertəsi gün isə bu qəhrəman itin səsi -sorağı bütün rayona yayılmışdı. Güclü qaz sızmasından bütün bir ailə xilas olmuşdu. Turalın beş aylıq bacısı da iki -üç saatdan sonra özünə gəlmişdi. Lakin hadisənin şokundan yenicə özünə gələn Tural köpəyin dalınca hönkür - hönkür ağlamalı oldu. Çünki On günə yaxın itmiş köpəyini axtaran qoca general hadisəni eşidən kimi itin dalınca gəlmişdi. İndi qocaya tək Tural deyil, atası da yalvarırdı. O, nə istəyirsiniz verərəm deyib inad edirdi. Onların bütün cəhdləri boşa çıxdı. Qoca köpəyini aparıb getdi. Amma atası hönkür - hönkür ağlayan Turala mütləq köpək alacağına söz verdi.

## QARĞALARIN SÖHBƏTİ

Artıq bahar gəlmişdi. Güllər açıb, ağaclar yaşıllaşmağa başlamışdı. Kamrangilin məhləsinin aşağısından arx axırdı. Bahar gələndə arxın suyu artırdı. Həmişəki kimi bu il də su artmışdı. Kamran o biri tərəfə keçib arxın kənarındakı böyük ağacın başına çıxmaq istəyirdi. Çünki artıq hövsələsi daralmışdı. Qarğaların səsi oğlanı dəli etmişdi. Onların səsindən nə dərs oxuya bilmirdi, nə də ki, yata bilmirdi. Sonunda hər iki istəyindən vaz keçib ağacın yanına gəlmişdi. Uzaqdan olsa da ağacın başındakı quş yuvasını görürdü. Qarğalar dəstə ilə uçub gəlib, yuvanın ətrafında fırlanıb qarıldaşırdılar. Bu dəstənin qopardığı şivən bitməmiş, onlar getməyə hazırlaşan kimi, başqa bir dəstə gəlib qarıldaşıb susmaq bilmirdi. Kamran bu hay küyə baxıb daha da hirsləndi. Nəhayət bir nərdivan tapıb gətirdi. Oğlanın məqsədi yuvanı dağıtmaq idi. O, evə qayıdıb qardaşı Mehmanı da köməyə çağırdı. Ona da qarğalardan zəhləsi getdiyini və onların hədsiz səs küy saldığını,- dedi. Mehman da qardaşına kömək etmək məqsədi ilə yuvanı dağıtmağa ləvazimat götürüb gəldi. Birtəhər arxın o tərəfinə nərdivan keçirdilər. Mehmanın yuvanı dağıtmaq üçün gətirdiyi kiçik baltanı kəmərinə keçirib çətinliklə ağaca qalxdı. Yuvanın yanına çatıb özünə rahat işləmək üçün budaqda yer edib, baltanı kəmərindən çıxardı. Ehmalca başını yuvaya uzadıb yerində donub qaldı. Gördüyü mənzərə oğlanı dəhşətə gətirdi. Orada başlarında demək olar ki, bir dənə tük qalmamış

üç qoca qarğa var idi. Onların gözlərindəki ifadə və qorxu Kamranı dəhşətə gətirdi. Bu üç qarğanın gözündə yorğunluq, qocalıq və acizlik var idi. Mehman aşağıdan nə oldu ? -deyə bağırsa da Kamran dayanıb qoca qarğalara baxırdı. Özü də bayaqdan bəri nifrət etdiyi quşlara məhəbbətlə baxırdı. Onların qoca valideynlərinə baş çəkdiklərini anlayırdı. O, yuvaya əl vurmadan bir göz qırpımında ağacdan sürüşüb düşdü. Onu hirslə gözləyən Mehmanın yanına düşüb, Bu qarıldaşan quşlar məndən ağıllıdır,- dedi. Qardaşı onun nə demək istədiyini anlamaq istəyirdi. O, yenə sual verdi:

_ Nə olub axı ?  Kamran dedi:  Orada üç qoca qarğa var. Bütün bu qarğalar onlara xidmət edirlər. Mən onların yuvasını uçursam özümü qarğalardan ağılsız sanaram.

İki qardaş birlikdə nərdivanı və yuvanı dağıtmaq üçün gətirdikləri baltanı, bıçağı götürüb geri döndülər. O gündən qardaşlar qarğaların səsi gələndə, xəstə, qoca qarğalara baş çəkməyə gələn qarğalara hörmətlə baxırdılar.

## SAPAND

Mətin hər gün dərsdən gələn kimi quş vurmaq üçün sapand hazırlayırdı. Bununla da fəxr edirdi. Çünki nəinki öz məhəllələrin uşaqlar, qonşu məhəllənin uşaqları da gəlib ondan sapand alırdı. Oğlanın quş vuran hazırladığını görəndə atası çox hirsləndi. Mətini çağırıb danladı. Hansı ixtiyarla öz azad səmasında uçan quşu vurub öldürmək üçün nə isə hazırlayırsan?- dedi. Mətin atasının sözündən tutulsa da özü heç vaxt quş vurmadığını söylədi. Eyni zamanda bir daha sapand hazırlamadı. Lakin hərdən bir yaxın dostları xahiş edəndə atasından xəlvət sapand düzəldib verirdi. Neçə ki, bir iki gün bundan əvvəl Orxana özünün də çox bəyəndiyi iri bir sapand düzəlmişdi. Mətin həftə sonu nənəsi ilə qohumların evinə getdi. Yeyib içəndən sonra qohum uşaqlarına qoşulub həyətə düşdü. Uşaqlar damın üstündə göyərçin saxlayırdı. Birlikdə yuxarı qalxdılar. Burada bir necə göyərçin damı var idi. Uşaqların dörd yanında hərlənən quşlar qəribə səslər çıxardaraq onları səpdiyi dənləri yeyirdi. Gördüyü mənzərə Mətinin çox xoşuna gəldi. O, damdan düşüb, quşlardan ayrılmaq istəmirdi. Elə belə də etdi. Nənəsi onu səsləyənə qədər gününü quşlarla keçirdi. Aşağı düşəndə isə nənəsinə, quşlardan ayrıla bilmədiyini söylədi. Bu sözləri eşidən ev sahibi uşaqları çağırıb Mətinə iki quş bağışlamağı tapşırdı. Bu söz Mətini çox sevindirdi. Sevinə-sevinə quşları götürüb evlərinə döndü. Gəlməmişdən əvvəl quşlara qulluq etmək üçün məsləhətlər al-

dı. Quşları görəndə, atası ona kömək edib quşlara kiçik bir dam hazırladı. Sonra sənin də quşların çoxalanda böyük dam hazırlayarıq, - dedi. O, bütün gününü quşlarla keçirirdi. Onlara lap öyrəşmişdi. Aradan bir, iki ay ötmüşdü. Bahar gəlirdi. Dərsdən gələn kimi quşlarını yemləmək üçün damın üstünə qalxdı. Quşlar yox idi. Məhəlləyə çıxıb ətrafa göz gəzdirməyə başladı. Elə həmin an göyərçinlərdən birinin yıxıdığını, digərini onun yanında məyus halda dayandığını gördü. Qaçıb özünü quşların yanına saldı. Yıxılan quş hələ yaşayırdı, daş gözünü çıxartmışdı. Bədənin bir tərəfi qana bürünmüşdü, tez-tez,qısa – qısa nəfəs alırdı. Oğlanın başının tükləri biz - biz dururdu, dəhşətə gəlmişdi. Elə bu zaman qaça – qaça onlara yaxınlaşan Orxanı gördü. Oğlanın sevincinin həddi yox idi. Hədəfi boşa keçməmişdi. . Onun sevincək halını görən Mətin iki əlli Orxanın boğazından yapışıb, sən nə etdin? - deyə bağırdı. Orxan gözündən sel kimi yaş axan Mətini görüb məəttəl qalmışdı. O, oğlanın əlindən canını zorla çıxarıb evə qacıdı. Mətin yaralı quşu götürüb evə gəldi. Atasına anasına yalvarıb kömək istədi. Ölməyə qoymayın deyib, yalvarırdı. Lakin anası hər nə qədər yardım göstərsə də quş öldü. Mətin özünə nifrət edirdi. Atası ona mənalı - mənalı baxıb, oğlum həyatda heç vaxt pislik etməyə xidmət etmə,- dedi.

## MEHRİNİN QƏLƏMLƏRİ

Mehri Vüqarla bir partada oturardu. Onlar dost idilər. Amma bu dostluğa səbəb Vüqarın sakit təbətli olmağı idi. O, hər işdə Mehriyə güzəşt edirdi. Qız isə onun əksinə olaraq davamlı dava edirdi. Hər ikisi əlacı olsalar da Vüqar daha səliqəli idi. Onun kitab - dəftəri, qələmləri, qələm qabı bir sözlə bütün ləvazimatları səliqəli olurdu. Rəsm dərsində hər ikisi qələmlərini çıxardıb partanın üstünə qoymuşdu. Vüqarın qələmləri səliqə ilə qədlənib panelinə yığılmışdı. Mehri hansı qələmə əlini uzatdısa ucu olan qələm tapa bilmədi. Vüqar öz qələmlərini qızın qarşısına qoyub götür, - dedi. Mənim qələmlərimi işlət. Qız sevincək oğlanın qələmlərini götürüb şəkillərini çəkdi. Dərs sona yetəndə isə Vüqarın qələmlərini götürüb çantasına yığdı. Öz ucsuz qələmlərini oğlana tərəf itələdi. Vüqar təəccüblə bu qələmlər mənimki deyil, - dedi. Mehri inad edib öz qələmlərini götürdüyünü söylədi. Həmişəki kimi Vüqar onunla mübahisə etməyib onları evdə qədləyərəm deyib, qızın qələmlərini çantasına yığdı.

Mehri evə dönən kimi nənəsinin yanına gəlib, fəxrlə Vüqarın qələmlərini götürüb öz ucsuz qələmlərini ona verdiyini söylədi. Qızı dinləyən nənəsi heç nə demədi. Mehri yeməyini yeyib dərsini oxuyandan sonra nənəsi onu və bacı - qardaşını yanına çağırıb nağıl danışmağa başladı. Nağılda kiminsə bir başqasının əşyasına göz dikənin mütləq tutduğu bu əmələ görə əvvəl axır cəza alacağını deyir, həmin adamın böyük günah etdiyini anla-

dırdı. Mehrinin nənəsi danışdıqca qızın üzünə baxırdı. Lakin qız nənəsinə heç nə deməyib yatmağa getdi. O, çox məyus idi. Özünə yer tapa bilmirdi. Ertəsi gün dərsə gedən kimi ilk işi Vüqardan üzr istəmək oldu. Çantasını açıb oğlanın qələmlərini ona uzatdı. Vüqar gülümsünüb qızın qələmlərini ona qaytardı. Oğlan qələmləri qədləmişdi. Mehri ona dönə- dönə təşəkkür etdi. Evə çatan kimi nənəsinin yanına qaçıb, " nənə Vüqarın qələmlərini özünə qaytardım, bir daha belə iş görməyəçəm, - deyə and aman etdi. Nənəsi qızı qucaqlayıb, başını tumarlayıb, mənim ağıllı qızım,- dedi.

## YALANCININ AQİBƏTİ

Elmanla ,Telman əkiz qardaşlar idi. Onlar zahiri görünüşcə bir- birinə çox bənzəyirdi. Amma Elman hər nə qədər ağıllı, cəsarətli dürüst idisə, onun əksinə olaraq Telman bir o qədər yalançı idi. Yalançılıq onu elə gözdən salırdı ki, başqa heç bir yaxşı işi gözə görünmürdü. Buna baxmayaraq o, bu pis vərdişindən əl çəkə bilmirdi. Babası hər iksinə maşın almışdı. Telman düşündü niyə mənim maşınım iki dənə olmasın? Odur ki, bir yalan düşünüb babasına maşının sındırdığını dedi. Ertəsi gün babası ona yenidən maşın aldı. Aradan bir qədər keçmiş nənəsi hər iksinə rəngli qələmlər və şəkil dəftəri aldı. Elman nənəsinə təşəkkür edib rəsm çəkməyə başladı. Telman yenə də yalan uydurub qələmlərinin və rəsm dəftərinin itdiyini söylədi. Nənəsi axşam işdən dönəndə ona yenidən qələm

və dəftər alıb gətirdi. Qarşıdan yeni il gəlirdi. Bu dəfə anası hər ikisinə bayram hədiyyəsi alıb gətirdi. Elman həmişəki kimi anasına təşəkkür edib hədiyyəsini götürüb otağına çəkildi. Telman isə adəti üzrə niyə mənim hədiyyəm iki deyil,- deyə düşünüb anasının yanına getdi. Ona gileylənib hədiyyələrin xarab olduğunu söylədi. Qadın təəccüb etsə də bayramdır deyə ona yenidən hədiyyə aldı. Aradan xeyli bir vaxt ötmüşdü qardaşların ad günü yaxınlaşırdı. Səhər yuxudan duran kimi atası hər iki oğluna planşet hədiyyə etdi. Bu qardaşların çoxdankı arzusu idi. Ona görə hər iksi çox sevindilər. Planşetlərini götürüb hərə bir yana çəkildi. Lakin Telman yeni yalan uydurmağa macal tapmamış planşeti əlindən salıb şüşəsini sındırdı. Onu yerdən qaldırıb sınmış şüşəsinə kədərlə baxdı. Və elə həmin an onu götürüb atasının yanına qaçdı. Bir nəfəsə planşetin şüşəsinin sındığını dedi. Lakin televizora baxan atası onun üzünə, nə də ki, əlində tutduğu planşetə baxmadan dedi:

Çıx otaqdan ,nənəni aldatdın, babanı aldatdın, ananı aldatdın. Heç utanmırsan atanı da aldadırsan?- dedi.

O, planşet əlində atasına yaxınlaşıb sınmış şüşəni ona göstərməyə cəhd etsə də. Atası var səsi ilə qışqırıb onu otaqdan qovdu. Telman mətbəxə qaçıb anasına gileylənmək istədi. Amma üzü qaz piltəsinə doğru dayanan anası ona sarı dönmədən çıx mətbəxdən, -dedi. Oğlan əlacsız qalıb divanda qəzet oxuyan babasına yaxınlaşdı. Yenə də gileylənmək istəyirdi ki, kişi onun sözünü ağzında qoyub, bəsdir az yalan danış deyib eynəyini yeni-

dən gözünə taxıb qəzet oxumağa davam etdi. Telmanın son ümidi nənəsinə idi. Təəssüf ki, nənəsi də ona qulaq asmadan danlamağa başladı:

- Bu qədər yalan danışmaq səni uçuruma aparacaq. Sənin yalanlarından sənin əvəzinə mən xəcalət çəkirəm.

O, daha heç nə deməyib qardaşının yanına döndü. Elman maraqlı oyun oynayırdı. Bəzən öz -özünə qəhqəhə də çəkirdi. Telman yalanlarının ucbatından şüşəsi qırılmış planşetlə oynamalı oldu. Və özünə bir də dilinə yalan almayacağına söz verdi.

## VƏFALI PİŞİK

Mənfur ermənilərin atdığı bombanın qurbanı olmuş Gəncənin kiçik sakiılərinin əziz xatirəsinə ithaf edirəm.

Nilay adlı bir qız var idi. O, Gəncədə yaşayırdı. Dərs əlaçısı olan bu qızcığaz ağıllı, səliqəli, rəhimli bir qız idi. Məktəbdə və məhəllələrində çoxlu dostları var idi. Müəllimlərinin də sevimlisi idi. Nilay dərsə gedəndə tində kiçik bir pişik gördü. Heyvan çox arıq və ac idi. Aclıqdan taqətdən düşüb yeriyə bilmirdi. Qız ona məktəbdə xərcləmək üçün verilən pula pişik yemi aldı. Yemi heyvanın qarşısına qoyub qaçıb dərsə getdi. Həmin gündən sonra bu hadisə hər gün təkrar oldu. O, dərsə gecikməmək üçün evdən bir az tez çıxmalı olurdu. Həmin yerdə yatan pişik günbəgün dirçəlib cana gəlirdi. Pişik artıq Nilayı uzaqdan tanıyırdı. Qızı görən kimi miyoldayıb ona

tərəf qaçırdı. Beləliklə kiçik, zəif pişik kökəlib böyümüşdü. Köklükdən tükü parıldayan, qəşəng bir pişik olmuşdu.

Günlərinin birində Gəncənin dinc əhalisi ermənilər tərəfindən raket atəşinə tutuldu. Həmin raketlərdən biri Nilaygilin evinə düşdü. Raket evi darmadağın etmişdi. Alovun dilimləri ətrafa yayılırdı. Tüstü asimana qalxmışdı. İnsanlar yaralanmışdı. Ölənlər var idi. Nilay və kiçik qardaşı ölmüşdü. Hər ikisi yanıb kül olmuşdu. Bu xəbər onun sinif yoldaşlarına çox pis təsir etdi. Uşaqlar buna inana bilmirdilər. Ermənilər Nilayı niyə öldürsünlər?- deyə təəccüb edirdilər. Axı o, uşaq idi. Onun səkkiz, qardaşının isə üç yaşı var idi.

Onun ölümündən bir neçə gün sonra Nilayın rəfiqəsi, onunla bir partada oturan Aysu qızın pişiyini xatırlayıb dərsdən çıxanda həmin dalana gəldi. Pişik yenə də həmişəki yerində uzanmışdı. Qız qaçıb yaxındakı marketdən ona pişik yemi aldı. Gördüyü işdən çox razı idi. Nilayın istəyini yerinə yetirəçəkdi. Tez qaçıb yeməyi pişiyin qarşısında yerə tökdü. Qız tələsirdi, heyvanın tezliklə yeməyi yeməyini istəyirdi. Lakin pişik yerindən tərpənmədi, tənbəl - tənbəl gözünü qaldırıb qıza baxdı. Aysu nə qədər cəhd etsə də pişik ona baxıb oradan uzaqlaşdı. Aysu bir neçə gün bunu təkrar edib,bir nəticə əldə bilmədi. Pişik günbəgün arıqlayırdı. Demək olar ki, aclıqdan haldan düşüb, yeriyə bilmirdi. Nəhayət Aysu Nilayın anasının yanına gedib onun pişiyinin acından öləcəyini söylədi. Qadın tez yemək götürüb pişiyin yanına gəldi. Amma

nə qədər cəhd etsə də pişik heç nəyə ağzını uzatmadı. Ertəsi gündən sonra isə pişik bir daha gözə görünmədi. Aysu və Nilayın digər sinif yoldaşları günlərlə onu axtarıb tapa bilmədilər. Halbuki bu pisik çox vaxt həmin dalanda kiçik bir pəncərənin altına girib orada yatırdı. Onu günlərlə axtardılar. Heç bir nəticə əldə edə bilməyib axtarışdan əl çəkdilər.

Bir necə gündən sonra isə Nilayın anası qızının qəbir üstünə gedəndə sinə daşının baş tərəfinə sığınıb yatan, arıq, sısqa pişiyi görəndə donub yerində qaldı. Qadın qaçıb yaxınlıqdakı marketdən yemək alıb gətirsə də heyvan taqətdən düşmüş halda qadına baxsa da yeməyə yaxın gəlmədi.

## KÖPƏKLƏRİN DOSTLUĞU

Babası ad günündə Ənvərə kiçik bir it almışdı. Bu hədiyyə onu hədsiz sevindirirdi. Demək olar ki, yerindən durandan yatana qədər onunla oynayıb əylənirdi. Bozdar adlandırdığı küçüklə dostluğu günbəgün artırdı. Çox sevdiyi bu itsiz özünü təsvir edə bilmirdi. Onların bu dostluqları davam etdiyi günlərin birində əmisi Ənvərə ikinci bir küçük hədiyyə etdi. Bu küçük o qədər kiçik idi ki, az qala yumruq boyda idi. Qar kimi ağ, qıvrım tükü, zil qara gözü olan bu küçük tez bir zamanda Ənvərin sevimlisinə çevrildi. O, Bozdarı qucağında gəzdirməsə də Toplanı bütün günü qucağından yerə qoymurdu. Ənvərlə Toplanın dostluğu Bozdarın xoşuna gəlmirdi. Toplanı

görən kimi mırıldanıb, arxasınca qaçıb onu qovurdu. Evdə hər kəs körpə küçüyü Bozdardan qoruyurdu. Hətta Toplanı günlərlə həyətə buraxmırdılar. İş o yerə çatmışdı ki, artıq itlərdən birini kimə isə vermək haqqında düşünürdülər. Ənvər isə itlərin heç birini vermək istəmirdi. Babası qəti qərara gəlmişdi. Odur ki, Ənvərə tapşırıq vermişdi. Get düşün itlərin birini verməliyik,- deyirdi. Ənvər gündə bir fikrə gəlirdi. Gah Bozdarı ,gah da Toplanı vermək istəyirdi. Günlər ötsə də o, qərarını qətiləşdirə bilmirdi. Ayrı - ayrılıqda itlərin hər ikisinə yazığı gəlirdi. Ona görə də günü - günə satıb qərarını uzadırdı. Lakin axır günlər ən azı iki, iç dəfə Toplanı Bozdarın pəncəsindən zorla xilas edə bildilər. Evdə böyük gərginlik yarandı. Babası Ənvəri yanına çağırıb Bozdarı qonşu oğlana verəçəyi haqqında qəti qərarını söylədi. Ənvər babasını cəmi bir həftə yalvar yaxar edib sakitləşdirə bildi. Nəhayət günlərin birində kişi bozdarı qonşu oğlana bağışladı. Ənvər evə sığa bilmirdi. Ürəyi köpəyin yanında qalmışdı. Gündə bir neçə dəfə qaçıb ona baş çəkirdi. Heç cür sakitləşə bilmirdi. Qonşu oğlan Ənvəri itinin yanına qoymaq istəmirdi. Eyni zamanda babası ona qonşuya getməyi qadağan etmişdi. Odur ki, evdə oturub pəncərədən çölə baxırdı. Qanı hədsiz qara idi, az qalırdı ki, ağlasın. Onun Toplanlıq da halı yox idi. Qapı açıq olanda küçük həyətə qaçmışdı. Bir azdan gözünü pəncərədən çölə zilləyən oğlan Toplanın qəribə səs çıxardığını eşidib səs gələn otağa keçdi. Qəribə də olsa küçük babasının şalvarından tutub cırmaqlayır, sonra qapıya tərəf qaçıb zingildəyirdi.

Kişi küçüyə təəccüblə baxıb, bu it niyə belə edir? - deyirdi. Küçük isə qapının yanından bir də qaçıb kişinin şalvarından dişi ilə tutub onu qapıya tərəf dartırdı. Kişinin yerindən qalxmadığını görüb onun qarşısında xalçanı cırmaqlamağa başladı. Nəhayət kişi yerindən qalxıb, bu küçük nə istəyir ? - deyib, onun arxasınca qapıya yaxınlaşdı. Küçük indi də darvazaya tərəf qaçır, yenidən kişinin yanına qayıdıb dişlərini onun şalvarına keçirib hara isə dartmağa çalışırdı. Qoca lap təəccüb etdi çünki, küçük heç vaxt ona yaxın gəlməzdi. O, qətiyyətlə itin arxasına düşüb həyətə çıxdı. Və iri addımlarla Toplanın arxasınca getdi. Heç iki addım getməmiş iki iri köpəklə boğuşan Bozdarı gördü. İt yaranmışdı qanı axırdı. Ənvər babasından əvvəl qaçıb itləri qovdu. Köpəklər qaçıb oradan uzaqlaşdı. Qəribə idi Toplan özünü Bozdarın üstünə atıb az qala yerlə sürünürdü. Sanki ona yardım etməyə çalışırdı. Bozdarı evə gətirdilər. Onun yarasını sarıyanda küçük o tərəf bu tərəfə qaçıb quyruğunu bulayır, qəribə səslə zingildəyirdi. Ənvər Toplanın üzünə baxıb qışqırırdı :

Baba, bax Toplan ağlayır onun gözündə yaş var.

Babası itlər ağlamaz desə də, Ənvər Toplanın gözlərindəki yaşı gözü ilə gördüyünü,- deyirdi.

Ertəsi gün Ənvər yuxudan durub Bozdarın yanına qaçanda gözünə inana bilmədi. Toplan Bozdarın yanında uzanıb yatmışdı. O, geri dönüb babasını çağırmaq istəyirdi ki, ondan xahiş etsin ki, daha Bozdarı qonşuya verməyək. Geri dönəndə atası ilə babasının da- dayanıb maraqla itlərə baxdığını görüb sakitləşdi.

# GÜLLƏRİN VƏ QUŞLARIN NAĞILI

Qarabağda müharibə gedirdi. Erməni işğalçıları torpaqlarımıza basqın etmişdi. Hər yeri uçurub dağıdıb viran qoymuşdular. Düşmən dinc əhalini qovub torpaqlarımızdan çıxardı. Evlər, bağlar sahibsiz qaldı. Qarşıdan bahar gəlirdi. Baharın gəlişini ilk xəbər verən isə qaranquşlar olur. Hər ilki kimi onlar yenə sevinə - sevinə Qarabağın dilbər guşəsinə uçub gəldilər. Qarabağı başdan başa gəzib dolaşdılar, lakin dilbər guşəni tapa bilmədilər. Oralar tam xarabalıq idi. Hava barıt qoxuyurdu. Qaranquş müjdəsini verməyib geri döndü. Havalar yavaş- yavaş qızmağa başlayırdı. Bu zaman torpaqdan ilk çıxan güllər dana qıran çiçəkləri olduğu üçün onlar baş qaldırıb torpaqdan üzə qalmağa can atdılar. Lakin torpaq barıt qoxuyurdu. Çiçəklər barıt qoxusundan boğulub acıq edib üzə çıxmadılar. Havalar bir az qızmışdı. İndi digər güllər, nərgiz, bənövşə açmalı,yasəmən çiçəyə bürünməli idi. Nərgiz, bənövşə başlarını azacıq uzadıb düşmən tapdağında əzilmiş qan, barıt qoxuyan torpağının üzünə çıxmayıb geri döndü. Onların geri döndüyünü görən digər güllər, çiçəklər, yaşıllıqlar düşmən ayağı dəyən torpaqlarda bitib yaşıllaşmaq istəmədilər. Həmin torpaqlarda güllərin yerində qanqallar, giçitkanlar, tikanlar baş qaldırıb aləmi bürüdü. Bir az da ötdü burada olan quşlar bu gülsüz, çiçəksiz, yaşıllıqsız qan, barıt qoxuyan, körpə gülüşü, kotan səsi gəlməyən torpaqlardan uçub getməyə

başladı. Beləliklə düşmənin zəbt edib, taladığı torpaqlar gülsüz, bülbülsüz, gül ətrindən, bülbül nəğməsindən məhrum oldu. Yalnız qanqallar, bitən bu xaraba torpaqlarda yalnız çaqqallar ulaşırdı.

Zaman keçdi. Qarabağın igid oğlanları geri dönüb torpaqları işğaldan azad etdi. Ermənilər tərəfindən bağlanmış su bəndlərini açdılar, torpaqları sulayıb əkib becərdilər. Qarabağın əvvəlki halı özünə döndü. Torpaqlar yaşıllaşdı, baharda ilk çıxan danaqıran gülü və bir azdan nərgiz, bənövşə rəngarəng çiçəklər gül acdı. Həmin il qaranquş yenə də baş çəkməyə gəldi. Gül çiçəyi görüb müjdəsini verdi. Bütün quşlar geri döndü. Çiçəklənən Qarabağ yenidən cənnətə döndü.

## HƏYAT DƏRSİ

Çinarın atası rəhmətə gedən gündən Rəfail müəllim ona daha çox diqqət yetirirdi. Çünki yaxın qonşuları olan bu oğlanın ərkəsöyünlüyünə bələd idi. Hələ rəhmətlik atasının sağlığında dinc dayanmadığını yaxşı bilirdi. O, hər dəfə nadinclik edəndə vaxtı ilə Əlinin də müəllimi olmuş Rəfail müəllim elə onun özünü də danlayırdı. Hamısını edən özünsən, uşağı pula öyrətmə,- deyirdi. Hər dəfə də eyni cavabı alıb susurdu. Əli Rəfail müəllimin üzünə yazıq-yazıq baxıb deyirdi: Mən atasız böyümüşəm pula həsrət qalmışam. Heç olmasa oğlum ehtiyac içində böyüməsin. Belə düşündüyü üçün oğlundan pul əsirgəmirdi.

Çinarın əli pul ilə oynayırdı. Pula pul demirdi. Düzdür uşaqlara da pul xərcləyir, onları da yeməyə, şirələrə qonaq edir və oyuncaqlar alıb hədiyyə edirdi. Amma bu Çinarda yekəxanalıq, özündən razılıq və sair mənfi xüsusiyyətlər yaradırdı. Günü -gündən ərkəsöyünlüyü artan uşaq, atasının qəfil ölümündən sonra şoka düşdü. Altı ay demək olar ki,süst qalan oğlan bir ildən sonra özünə zorla gəldi. Yeni - yeni özünə gəlmiş uşaqdakı qəribəlik müəllimi düşündürürdü. Altıncı sinfə çatanda tam başqalaşmağa başlayan Çinarın halından Rəfail müəllim bir şey anlamağa çalışırdı. O, yenidən şən görünür, əvvəlki kimi pul xərcləyir,ətrafına uşaq toplayıb başçılıq edirdi. Həm də bu işlər günbəgün artırdı. Axır vaxtlar Rəfail müəllim uşaqda yeni bir şey də hiss etdi. Onun üzündə soyuq bir ifadə yaranmışdı. Bunu hiss edən gündən kişinin rahatlığı pozulmuşdu. Axşam tərəfi Çinargilə baş çəkib hal əhval tutdu. Orada bir yenilik yox idi. Çinarın anası da nənəsi də dərd içində üzülürdü. Güzaranlarının pisləşdiyi hər hallarından bəlli idi. Heç bunu gizlətmirdilər. Nənəsi çox çətinlik çəkdiklərini söyləyib kövrəldi. Oradakı vəziyyəti görən Rəfail müəllim daha da şübhəyə düşdü. Həmin gecə kişinin gözünə yuxu getmədi. Ertəsi gün Çinarı güdmək qərarına gəldi. Dərsdən çıxan kimi oğlanın arxasına düşüb onu izlədi. İlk əvvəl boş-boş veyillənən oğlan nəhayət yaxınlıqdakı kiçik, üstü örtülü bazara girdi. Rəfail müəllim ona görünməməyə çalışaraq içəri keçdi. Və gördüklərindən dəhşətə gəldi. Çinar başı alverə qarışmış orta yaşlı qadının çantasından pul qabını götü-

rüb güllə kimi cölə çıxdı. Rafail müəllim arxa tərfdən hərlənib ehmalca keçmək istəyən Çinarın qolundan yapışdı. Diksinib müəllimin əlindən çıxmaq istəyən oğlanın qolundan bərk - bərk yapışdı. Sonra da Çinarın qolunu buraxmadan pul qabını itirib başı alovlu çölə çıxan qadının arxasınca sürüyə- sürüyə apardı. Çox keçmədi köhnə ucuq - sökük bir evə daxil olan qadının arxasınca gəlib, hədsiz köhnə olan qapının ağzında dayandılar. Çinar durmadan müəllimin əlindən dartınıb qaçmağa çalışırdı. Rəfail müəllim içəridən gələn səsi dinləyib ayaq saxladı. Qadın ağlayıb deyirdi:

- Son qəpiyimi oğurladılar. Biz nə edək ? Mən çörək ala bilmədim. Heç bir çarəm yoxdur.

O, qəsdən qadının sözlərini dinləmək üçün qapıda dayanıb içəri keçmirdi. Qadının səsinə iki qız uşağının da səsi qoşuldu. Onlar da ağlayıb,nənə biz nə edəcəyik?- deyirdilər. Rəfail müəllim ehmalca qapını çalıb, Çinarla birlikdə içəri keçdi. İçəri keçən kimi xanım, ağlamayın bu qoçaq oğlan sizin pul qabını tapıb,- dedi. Sonra durmadan Çinarı tərifləyib onun yaxşı keyfiyyətlərini sadaladı. Rəfail müəllim danışırdı, Çinarın qulağı uğuldayırdı. Əslində onun nə dediyini zorla başa düşürdü. Nəhayət çibindən pul qabını çıxarıb qadına tərəf uzatdı. Qadın özünü oğlanın üstünə atıb,pul qabını əlinə almamış onu bağrına basıb öpməyə başladı. Qadının yanağı uzunu axan yaş Çinarın sifətini islatmışdı. O, üzünü köynəyinin qolları ilə silib, pul qabını qadına verəndən sonra qolunu buraxan Rəfail müəllimin yanına düşüb qapıdan çıxırdı.

Qadın hələ də durmadan dua edirdi. Rəfail müəllim çölə çıxanda əlini uzadıb ehmalca Çinarın başını tumarladı.

Ertəsi gün o, ikinci dərs Çinargilin sinfinə gəlib onu lövhənin önünə çağırdı. Çinarın ürəyi titrəyirdi. Qıpqırmızı qızarmışdı. Saçının dibindən su axırdı. Hətta bir an sinifdən çıxıb qaçmaq haqqında düşünürdü. Müəllim onun qaçmaq istəyini hiss edib əlini çiyninə qoydu. Bir az susub Çinarının dünən bir kasıb ailəyə neçə yardım etməyindən bəhs edib, uzun uzadı təriflədi. Nəhayət qızarıb bozaran oğlana müraciətlə dedi:

Ən utanç verici iş oğurluqdur. O itə yaraşır. Amma Çinar tapdığı pulu sahibinə qaytardı. Bu gündən Çinarın sizə nümunə olmağını istəyirəm.

O, qapıdan çıxanda düz oğlanın gözünün içinə baxıb başını yenidən tumarladı. Bu Çinarın sonuncu oğurluğu oldu. Uşaqların arasında qazandığı etimadı doğruldub saxlamağa çalışaraq nümunəvi şagirdə çevrildi. Əla oxumağı ilə yanaşı təkcə siniflərinin deyil bütün məktəbin ən fəal tələbəsi oldu. Ali məktəbi bitirdi. İşlədiyi hər yerdə uğur qazandı. İllər sonra tutduğu yüksək vəzifədə qarşısında əlləri qandallı dayanmış məhşur oğruya baxıb, Rəfail müəllimi xatırlayırdı. Onun başını tumarlayan əllərinin təmasını yenə də başında hiss edirdi. O tumarın dünyanın ən ağır kötəyi olduğunu düşünürdü. Qarşısında dayanmış oğruya baxıb,ona həyat dərsi verməkdə Rəfail müəllimə bənzəmək istəyirdi.

## *Kitabın içindəkilər:*

ÖN SÖZ....................................................................................3

**POVEST**

QONŞU QIZ ..............................................................................6

**HEKAYƏLƏR**

RAFİQİN SƏFƏRİ....................................................................47
İNTİHAR...................................................................................52
OĞRU ......................................................................................60
TƏSDİQ OLUNMUŞ YALAN....................................................62
MEMAR ...................................................................................64
RUS QONAQ ...........................................................................68
İTMİŞ SAAT .............................................................................73
SİRLİ DÜNYA ..........................................................................77
NAZLİNİN MƏHƏBBƏTİ ........................................................85
TANRININ HƏDİYYƏSİ...........................................................90
MOLLA SADIQ.........................................................................94
ATA GİLEYİ ...........................................................................101
DOSTLAR ..............................................................................106
QATİL GƏLİN ........................................................................111
KÖHNƏ SAAT.........................................................................128
QEYRƏTDƏN GƏLƏN HARAY ..............................................133
TƏNHA MƏZAR......................................................................139
YETİM ŞƏHİD.........................................................................143
GÖZLƏNİLMƏZ VƏSİYYƏT ....................................................148
SƏHV ÜNVAN ........................................................................154
HUMAYIN MƏHƏBƏTİ...........................................................156
ZƏFƏR NƏĞMƏSİ..................................................................162
İTMİŞ ŞƏKİL ..........................................................................165
ZAMANIN HÖKMÜ ...............................................................168
DADAŞ MÜƏLLİMİN KİRAYƏŞİNLƏRİ ..................................172

GECİKMİŞ SƏADƏT ...179
SÖNMÜŞ OCAQ ...184
SƏRVƏT DÜŞKÜNÜ ...188
XƏYANƏTƏ AÇILAN YOL *1 ci BÖLÜM* ...198
XƏYANƏTƏ AÇILAN YOL *2 ci BÖLÜM* ...202
XOŞ TƏSADÜF ...207
İKİLİ SEVİNC ...211
ÜZÜK ...214
XƏSTƏXANA ƏHVALATI ...220
RƏFİQƏLƏR ...226
BÖHTAN ...230
UŞAQ HEKAYƏLƏRİ TURALIN KOPƏYİ ...236
QARĞALARIN SÖHBƏTİ ...241
SAPAND ...243
MEHRİNİN QƏLƏMLƏRİ ...245
YALANCININ AQİBƏTİ ...246
VƏFALI PİŞİK ...248
KÖPƏKLƏRİN DOSTLUĞU ...250
GÜLLƏRİN VƏ QUŞLARIN NAĞILI ...253
HƏYAT DƏRSİ ...254

# DƏRYA QILIC

## POVEST VƏ HEKAYƏLƏR

*Qeyd üçün*

*Qeyd üçün*

"Elm və təhsil" nəşriyyatının direktoru:
**N.MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 15.03.2022
Şərti çap vərəqi 16,5. Sifariş № 28
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4